**QAZİ HACI MİRƏZİZ SEYİDZADƏ**
**(ƏZİZ PÜNHAN)**

# DİVAN

**Bakı - 2008**

**Redaktorlar:** Hacı Niyaz Niftiyev
Rübabə Atakişiyeva

**Korrektor:** Sevda Əmirova

**Operator:** Hüsniyyə İsmayılova

**Buraxılışa məsul:** Hacı Səid Seyidzadə

Hacı Mirəziz Seyidzadə
«Divan», Bakı, "Oğuz Eli", 2008. 472 səh.

4700000000
S ------------------ qrifli nəşr
36-08

© Hacı Mirəziz Seyidzadə, 2008

# ƏZİZ PÜNHANIN «DİVAN»I, OXUCULARIN «DİVAN»I

Əziz şeirsevər oxucum!

İndi əlimdə tutub düşünə-düşünə, heyrətlənə-heyrətlənə oxuduğum bu nəfis «Divan»ın müəllifi mənim demək olar ki, gözümün qabağında şeir-söz aləminə gəlmişdir. Hələ ötən əsrin 60-cı illərinin sonları – 70-ci illərinin əvvəllərində Bakıda – bir sıra redaksiyalarda ucaboylu, yaraşıqlı, məhcub bir gənc görünməyə, şeir və məqalələri ilə çıxış etməyə başlamışdı: onun adı Mirəziz Seyidzadə idi. Az sonra, ədəbi mühitdə yerini möhkəmləndirməmiş bu cavan birdən-birə yoxa çıxdı. Onun səsi-sorağı Azərbaycandan uzaqlardan – Buxaradan, Səmərqənddən – böyük İran şairi Hafiz Şirazinin «bir qara xalına böyük səxavətlə bağışladığı» iki möhtəşəm Şərq şəhərindən gəlməyə başladı. O, orada ali dini ruhani təhsili alırdı. İllər keçdi, Mirəziz, Hacı Mirəziz Seyidzadə, bir müddət sonra Qazi Hacı Mirəziz Seyidzadə kimi tanındı. İndi o, elmi-ədəbi, dini mühitimizdə Qazi Hacı Mirəziz Seyidzadə kimi məşhur olduğu zamanda, birdən-birə şair Əziz Pünhana çevrilərək sizin – oxucuların hüzuruna öz «Divan»ı ilə gəlmişdir.

Bu adlar siyahısına baxıb fikirləşirəm - bunlar təkcə ad axtarışında olan istedadlı, narahat insanın çırpıntıları deyil, həm də onun ömür yolunun maraqlı mərhələləridir və bu adların, ləqəblərin altında şairin ömrünün mənalı, hamımızdan daha çox onun özünə məlum qatların gizləndiyi, yatdığı məqamların ensiklopediyası yaşayır.

Bəli, bu məqamlar doğrudan da var və onlar bir şair - alim - ruhani ömrünün aynası sayıla bilər. Onları açmaq, əyaniləşdirmək istəsən, şairin 2006-cı ildə nəşr olunmuş

çox sanballı şeir toplusu olan «Bulud ağlamasa» kitabına geniş, əhatəli və məzmunlu bir ön söz yazmış istedadlı, ədəbiyyatımızın zəhmətkeş «fəhləsi» saydığım, söz-sənət aləmimizdə böyükdən-kiçiyə hər bir qələm sahibinin yaradıcılığını dərindən bilən, hər əsərə öz qiymətini verməyi bacaran ədəbiyyatşünas – bu sözün həqiqi mənasında – alim dostum Vaqif Yusiflinin bu sözlərini xatırlamaq kifayət edər:

«...Elə bilirəm onu Azərbaycanda tanımayan yoxdur. Möhtəşəm bir din xadimi kimi Hacı Mirəziz nəinki Azərbaycan məkanında, hətta Şərqdə də yaxşı tanınır. Ona molla demək, adi din xadimi kimi dərk etmək böyük Tanrının alovlu təbliğatçılarını – seçilmişlərini gözdən salmaq deməkdir. Tanrı sifətli bu seyyid övladı aldığı dini tərbiyə və yüksək təhsilə görə öz məqamına yüksəlib: o, Allah kəlamlarını və islamın məziyyətlərini şərh edən neçə monoqrafiyanın müəllifidir. O, Qafqaz Müsəlmanları İdarəsi Elm və Təhsil şöbəsinin, Bakı İslam Universitetinin Sumqayıt filialının rektorudur. Fəlsəfə elmləri namizədidir, elmi-ədəbi-publisitik «Kəlam» jurnalının təsisçisi və baş redaktorudur...»

Mən burada alim dostumun «neçə monoqrafiyanın müəllifidir»- sözlərinə qüvvət verərək onun həmin əsərlərinin adını çəkməyi münasib bilirəm: «İmam Əlinin qısa kəlamları», iki cilddən ibarət «İslami söhbətlər», «Allahımı belə tanıdım», «Elmin qapısı», «Qırx söhbət» kitabları və «Nəhcül-fəsahə»nin elmi və bədii tərcümə kitabı və s.

Bütün bunlar Əziz Pünhanın elmi-dini, fəlsəfi fəaliyyətinin məhsulu kimi dəyərlidir. Ancaq o, hər şeydən öncə şairdir və şeirə - söz sənətinə ömürlük bağlı bir insandır. Mən burada yenə də Vaqif Yusiflinin sözlərinə istinad etməyə məcburam.

O, yazır: «…Hacı Mirəzizin «Bulud ağlamasa» kitabında toplanan şeirlərin onu bir şair kimi yaşadacağına inamım böyükdür. Bu inamı doğruldan isə Hacı Mirəzizin şeirlərinin səviyyəsidir. Əlbəttə, ustalıq səviyyəsi - sözün ehya olunması, misralarda fikirlə hissin, ürəklə beynin vəhdəti əks etdirməsidir…»

Əziz Punhanı şair edən böyük qəlb ustası, sehrkar şairimiz Füzuliyə olan dərin və sönməz sevgisi olmuşdur. Şair özü, şair və Əziz Pünhan olması barədə belə yazır:

«…Gənclik çağında qəzəl janrına müraciət etməyimin səbəbi Füzuliyə olan şövqümdən, ehtiramımdan irəli gəldi. Adımı gizli saxlamaq üçün təxəllüsümü «Pünhan» (gizli) yazdım. Sonralar gördüm ki, artıq üzə çıxmaq vaxtıdır, odur ki, adımın bir hissəsini də Pünhan isminə əlavə etdim və «Əziz Pünhan» təxəllüsü ilə tanınmağa başladım…»

Ərəb, fars dillərini, klassik ədəbiyyatı və islam tarixini mükəmməl bilən, Şərq şeirinin və xüsusilə Füzuli poeziyasının incəliklərinə dərindən bələd olan Əziz Pünhan öz yaradıcılığında bu ənənələrdən ustalıqla bəhrələnməyə çalışmış, o, nəhəng söz dünyasının zərif, şairanə gözəlliklərinə məftunluqla, qibtə ediləcək bir vurğunluqla yanaşmış, söz aləminə hakim kəsilmiş və nəticədə mənən, ruhən o əsərlərə yaxın, ancaq eyni zamanda, orijinal, qəlboxşayan, müasir dövrümüzün ab-havasını əks etdirən gözəl sənət nümunələri yaratmağa müvəffəq olmuşdur. Şairin əsərlərində tarixi keçmişlə müasir dövrümüz, dünənlə bu gün çox böyük məharətlə, gözəgörünməz, ancaq eyni zamanda çox aşkar şəkildə bir-birinə qaynayıb qarışmışdır. Bu cəhət onun xüsusilə qəzəllərində daha qabarıq nəzərə çarpmaqdadır. Şairin dili həm klassik, həm də müasirdir.

Əziz Pünhan mənim nəzərimdə hər şeydən öncə lirik bir şairdir.

Məhəbbət – bütün dövrlərdə təzə və ölməz olan bu ali hiss onun əsərlərinin əsas mövzusunu təşkil edir. Şairin lirik qəhrəmanı öz sələfləri kimi eşqində sabitqədəmdir, fədakardır, vəfalıdır, əzabkeşdir və əsl məhəbbət qəhrəmanıdır. Onun dili ilə desək, bu dünən də belə idi, bu gün də belədir, sabah da belə olacaqdır.

Mən bu hökmlərimi şairin əsərlərindən misallar, misralar gətirməklə sübut edə bilərdim, ancaq buna ehtiyac duymuram, çünki bu məhəbbət dolu şeir nümunələrinin hər bir çaları, məqamı bunu oxucunun ürəyinə, qulağına səssiz-küysüz pıçıldayır.

Əziz şeirsevər oxucum! Sən yaxşı bilirsən ki, Azərbaycan ədəbiyyatı tarixində (eləcə də bütövlükdə Şərq ədəbiyyatında) Divan ədəbiyyatı xüsusi yer tutur. Hələ böyük Nizami Gəncəvi yazmışdı: «Şeirimin «Divan»ı qarşımda durur». Heyif, o «Divan» bizə gəlib çatmamışdır. Ancaq ədəbiyyatımızın bir çox nəhənglərinin «Divan» bağladığını və bu divanların indi əlimizdə olduğunu söyləmək elə də böyük bir yenilik deyildir və bu, tarixi bir həqiqətdir. Hətta elə şairlərimiz olub ki, iki, üç dildə «Divan» qoyub gediblər. Məsələn, Füzulinin, Nəsiminin türk, ərəb və fars dillərində divanları mövcuddur. Bu ənənə ədəbiyyatımızda XX əsrin əvvəllərinə qədər davam etmiş, Sovet dönəmində isə demək olar ki, tamamilə unudulmuş, yaddan çıxmışdır. Ancaq son onillikdə bu ənənəyə qayıdış başlamışdır. Şair dostlarım – Hacı Mailin, Şahin Fazilin, Gülarə Munisin «Divan»ları işıq üzü görmüşdür. Və mənə elə gəlirdi ki, müasir şairlərimizdən daha heç kəs belə bir çətin, məsuliyyətli işə girişməyə cəsarət etməz. Ancaq sən demə, ilk yaradıcılıq nümunələrini uzun müddət pünhan – gizli saxlayan şair dostum Əziz Pünhan da pünhan-pünhan, gizli-gizli «Divan» yazıb hazırlayırmış və bu «Divan»ın əlyazması indi qarşımdadır. Heç şübhəsiz bu

«Divan»ın ilk oxucusu olmağım şeirpərəst bir oxucu kimi məni sevindirməyə bilməzdi.

Bəri başdan deyim ki, ilk təəssüratım çox müsbətdir və mən ürəkdən sevinirəm.

İxtisasıma uyğun olaraq, uzun illər boyu – nə az, nə çox, düz 50 il bütün Azərbaycan və fars klassiklərinin əsərləri, o cümlədən, «Divan»ları ilə yaxından tanış olan bir şərqşünas kimi deyə bilərəm ki, Əziz Pünhanın bu «Divan»ı indiki ədəbiyyatımızda uğurlu hadisə kimi qiymətləndiriləcək qədər dəyərlidir.

Bu, ilk öncə, şairin öz yaradıcılığında irəliyə doğru atılmış çox ciddi və məsuliyyətli bir addımdır və onun ədəbi taleyində xüsusi bir yer tutacaqdır.

İkinci, bu «Divan» müasir poeziya dünyamızda öz klassikliyi və müasirliyi ilə diqqəti cəlb edəcək, klassik şeirsevərlərin hədsiz sevincinə səbəb olacaqdır.

Klassik «Divan» nümunələrinə yaxından bələd olmayan çağdaş oxucu bu «Divan»ı mütaliə edərkən «Divan» ədəbiyyatının özünəməxsus cəhətləri ilə tanış olmaq, öz məhdud təsəvvürlərini genişləndirmək imkanı əldə edə biləcəkdir. Bundan əlavə divanların quruluşu, tərtib prinsipləri barədə də, unudulmuş, müasir şairlərdən demək olar ki, heç kəsin müraciət etmədiyi şeir formaları (məs: müstəzad, tərcibənd, tərkibbənd, mürəbbe, müxəmməs, müsəddəs, müsəbbe, müəşşər və s.) haqqında da əyani biliklər qazanacaqdır.

Əziz Pünhan öz «Divan»ını klassik divan ədəbiyyatı üslubunda tərtib etmişdir. «Divan» dibaçə ilə başlayır və burada müəllif öz məqsədini, oxucusundan nə istədiyini dilə gətirir. «Divan»da qəzəllər, rübailər, qəsidələr, qitələr, satirik şeirlər (klassik «Divan»larda həcvlər) və s. verilmişdir. Mövzular isə çox rəngarəngdir: məhəbbət, islami şəxsiyyətlər, dostlar, ailə üzvləri, bir sıra tarixi

simalar (məs: Ümummilli liderimiz H.Əliyev, prezidentimiz cənab İlham Əliyev, Yuneskonun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva) və başqaları haqqında yazılmış səmimi şeirlər «Divan»ın əsas aparıcı mövzularını təşkil edir.

Uzun, gərgin yaradıcılıq əməyinin məhsulu kimi araya-ərsəyə gətirdiyi bu könül töhfəsini oxucusuna ürək çırpıntıları ilə təqdim edən istedadlı şair dostum Əziz Pünhanın, bu gözəl və nəfis «Divan»ı oxuyanlardan yalnız bir təmənnası var. O təmənna budur:

«İstəyirsənsə sevinsin bu Əziz Pünhanın,
Eşqinin gözləri ilə oxu bu «Divan»ın.

Əziz şair dostum, mən inanıram ki, sənin şeirsevər oxucuların sənin bu «Divan»ını eşqinin gözləri ilə oxuyacaq və səni sevindirəcəklər!

Mən isə sənə – əziz şeirsevər oxucum, üz tutub deyirəm: «Sənin sevimli şairin Əziz Pünhan öz «Divan»ı ilə sənin hüzuruna gəlib, indi divan – söz sənindir!»

**ƏLİBALA HACIZADƏ,**
**10-15 avqust 2008-ci il. Şüvəlan-Bakı**



# HEYRANI OLDUĞUM ALİM – ŞAİR

Ən uzaq ulduzuna, xırda daşına qədər dinlə bağlı olan, her şey cəhalət, xurafat, mövhumat həddində olan İraqda altı il işləyib Vətənə dönmüşdüm. Bir gün beş il bir yerdə oxuduğum və Dillər İnstitutunda bir yerdə çalışdığım müəllim dostum Zöhrab Əliyevlə onun ata yurduna – Astaraya getmişdik. Zöhrabın atası Astara şəhər «Cümə məscidi»ndə molla işləyirdi. İraqdan gətirdiyim müqəddəs kitabımız «Qurani-Kərim» və başqa dini materialları həmin məscidə bağışlamaq qərarına gəlmişdim. (Mən bunu ilk dəfə 1966-cı ilin baharında etmişdim) bizi gülər-üz, sifətindən nur yağan bir gənc qarşıladı. Tanış olduq. Məscidin axundudur – dedilər. Qulaqlarıma inanmadım. Ömrümdə birinci dəfə idi ki, belə gənc axund görürdüm. Söhbət etdik. Elminə, biliyinə, dünyagörüşünə heyran oldum. Mat qalmışdım. Həyatımda ilk dəfə idi ki, mövhumatdan, xurafatdan, cəhalətdən kənar din xadimi ilə rastlaşırdım. Sonralar tez-tez «Kommunist» qəzeti başda olmaqla mətbuatda tərcümələri, elmi məqalələri çıxan həmin gənc axund indi xalq arasında görkəmli islamşünas və filosof kimi tanınan, təkrar-təkrar nəşr edilən çox böyük həcmli «İslami söhbətlər», «Allahımı belə tanıdım», «İmam Əlinin qısa kəlamları», «Elmin qapısı» və başqa kitablarının müəllifi, XXI əsrin əvvəllərindən (2002) çıxmağa başlayan elmi-ədəbi publisistik «Kəlam» dərgisinin təsisiçiçi və baş redaktoru, Qafqaz Müsəlmanları İdarəsinin Elm və Təhsil şöbəsinin müdiri, idarənin nəzdində fəaliyyət göstərən Elmi-dini və Qazilər Şurasının həmçinin Respublika Ağsaqqallar Şurasının üzvü Qazi, Hacı Mirəziz Mirəsgər oğlu Seyidzadə idi. Böyük Yaradan ona az adama qismət olan bir pay da əta

etmişdir. Hacı Mirəziz klassik poeziyamızın gözəl bilicisi və gözəl də şairdir. Bu, Mirəzizin «Bulud ağlamasa» kitabının «Yazıçılar Birliyi»ndə təqdimatı zamanı (2006) klassik ədəbiyyatımızın biliciləri tərəfindən xüsusi vurğulandı və etiraf edildi. Xüsusən də tananmış tənqidçi Vaqif Yusiflinin kitaba yazdığı əhatəli giriş məqaləsində şairin yaradıcılığının məziyyətləri ortaya qoyulmuş, poeziyası layiqincə qiymətləndirilmişdir.

Bədii yaradıcılığa keçən əsrin 70-ci illərindən başlayan Mirəzizin şeirləri, satirik əsərləri, novellaları, tərcümələri dövrü mətbuatda ardıcıl olaraq çap olunur.

Təsadüfi deyildir ki, Mirəziz Seyidzadə 2003-cü ildən Yazıçılar Birliyinin üzvüdür.

Onu da deyim ki, şair ilk vaxtlar adını gizli saxlamaq üçün «Pünhan» təxəllüsü ilə yazıb-yaratmışdır. Sonralar adının bir hissəsini də «Pünhan»la birləşdirərək «Əziz Pünhan» təxəllüsü ilə tanınmağa başlamışdır.

Bizə qalırsa, İslamı, müqəddəs kitabımız Qurani-Kərimi, ərəb və fars dillərini mükəmməl bilməsi, özümüzünküləşmiş ərəb-fars tərkiblərindən sabitləşmiş ifadələrdən yerli-yerində məharətlə istifadə etməsi şairin qəzəllərini mənalı, məntiqli və oxunaqlı edir, onu klassik qəzəlxanlara yaxınlaşdırır.

Lakin şairin qəzəllərində təkcə məhəbbət tərənnüm edilmir, onun əksər qəzəlləri fəlsəfi, dini və ictimai mənalar kəsb edir, bu isə onun bədii kamilliyindən, şairin təfəkkür sahibi olmağından xəbər verir.

Kitabda şairin həm əruz, həm də heca vəznində yazılmış müxtəlif şeirlərinə: qəzəl, müstəzad, tərkibbənd, tərcibənd, mürəbbe, müxəmməs, müsəddəs, müsəbbe, təxmis, qitə, rübai və s. təsadüf edilir. Şairin qələmə aldığı mövzuların bolluğu və rəngarəngliyi adamı heyran edir. Peyğəmbərimizə, imamlara, vətənə, Ulu öndərimizə,

prezidentimiz İlham Əliyevə, Azərbaycanın 1-ci xanımı Mehriban xanım Əliyevaya, Şeyxül-İslama və başqalarına həsr olunmuş şeirlər püxtələşmiş şair qələminin məhsulu kimi diqqəti çəkir. Öndərimizə həsr olunan neçə-neçə şeirdən seçdiyimiz aşağıdakı iki bənd çox mətləblərdən xəbər verir:

***Xalq onun vurğunudur,***
***Unutmaz onu vətən,***
***Könüllərdə yaşayır,***
***O, yüksəkdir ölümdən.***

* * *

***Bir dağ kəşf etmişəm Azərbaycanda,***
***Heydər zirvəsidir adı hər yanda,***
***Ey vətən aşiqi, hər bir məkanda,***
***Səni özü bilib məkan unutmaz,***
***Səni heç vaxt Azərbaycan unutmaz.***

Klassik ədəbiyyatdan fərqli olaraq Hacı Mirəzizin «Divan»da verdiyi «Səadət günəşi» adlı poema daha çox diqqəti cəlb edir. Poema Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana qayıdışı və ölkənin müstəqilliyi uğrunda apardığı mübarizə ilə bağlıdır. Poema həcm etibarı ilə kiçik olsa da, hadisələr geniş mənada ehtiva olunmuşdur. Əsasən məsnəvi janrında yazılmış poemada poetik ifadələrə geniş yer verilmişdir.

***Səhərdir, üfüqdə Günəş görünür,***
***Açır düyünlənmiş hörüklərini,***
***Xəzərin qoynunda sanki yuyunur,***
***Qırpır Qana batmış kirpiklərini,***

*Yeni təravətlə gəlir görüşə,*
*Aşiqlər müntəzir yolunu gözlər.*
*Hər bir aşiqinə naz-qəmzə satır,*
*O odlu baxışlar, atəşin gözlər.*
*Darayır zülfünü nəsim mehləri,*
*Sığal çəkir ona Vətən səması.*
*Azərbaycan Günəşi ilə canlanır,*
*Göydən yerə enir haqqın ziyası…*

Poemanın əsas məqamlarından biri də əsərin qəhrəmanının dar gündə bir xilaskar kimi Vətənə qayıdış səhnəsidir.

*Hər zülmət gecdənin bir səhəri var,*
*Çətin gündə gəldi böyük xilaskar.*
*Gəldi bu ellərin xilaskar oğlu,*
*Sanki Çənlibelə döndü Koroğlu.*
*Heydər Əliyev tək böyük sərkərdə,*
*Heç vaxt əyilmədi kədərə-dərdə,*
*Yetişdi xalqını xilas etməyə,*
*Dahilər dar gündə yetir köməyə…*

Şair Əziz Pünhan qəzəllərində ailədə ata-ana övlad münasibətlərini, atanın yerini, ananın qiymətini şərqli təfəkkürü və fəhmi ilə inanılmaz dərəcədə məharətlə göstərir:

*Ailə dövlətə bənzər, özünün qanunu var,*
*Bu kiçik dövlət üçün sahibi-qüdrətdir ata.*

* * *

*Qarlı dağ tək başına dən salıb ömrün hər anı,*
*Hər biri tellərinin şanlı vüqarım, ay ana.*

Şairin «Olmasın» adlı qoşmasında oğluna nəsihəti maraq doğurur, hər bir atanın arzusunu ifadə etdiyi üçün şair bəşəridir:

***Oğul, insanlara yaxşılıq öyrət,***
***Adın yaman dildə yaman olmasın.***
***Yaxşılıq etməyə bəslə ki, rəğbət,***
***Pisi düşünməyə zaman olmasın.***

***Elin köməyi ol, xalqın səsi ol,***
***Kimsəsiz insanın yaxın kəsi ol,***
***Dağlar arasında dağ zirvəsi ol,***
***Başında qar olsun, duman olmasın.***

Şairin rübailəri sanki klassik poeziya ilə çağdaş poeziyamız arasında ideya baxımından bir körpüdür:

***Tamahkar rahatlıq tapmaz heç zaman,***
***O, həsrət qalacaq şadlığa hər an.***
***Qismətə qane ol, etmə çox təlaş,***
***Bar çox olsa, sınar budaq, ey insan.***

Şairin dili hətta qəzəllərində belə çox anlaşıqlıdır, fikirləri aydındır:

***Ey təbib, yoxdur mənə səhhət ümidi, dərdliyəm,***
***Eşq dərdindən olan sərməst, dərman istəməz.***

Maraqlıdır ki, bu xüsusiyyətə çağdaş poeziyamızda az rast gəlinən, şairin yardıcılığında əhəmiyyətli yer tutan müsəbbelərdə də eynilə təsadüf edirik:

***Ey könül, vəcdə gəlib bunca qiyamət eləmə,***
***Adın aşiqdi, qəmin varsa şikayət eləmə.***
***Oturub ağlamağı hər gecə adət eləmə,***
***Gəlməyincə qiyamın dövrü, qiyamət eləmə.***
***Uzaq ol hamıya, əğyarə rəfaqət eləmə,***
***Eşq qanundu, fəqət eşqə riayət eləmə,***
***Gər sevirsən sev, o dildarını divanə kimi.***

Şair Əziz Pünhanı çağdaş qəzəlxanlardan fərqləndirən, bəlkə də daha çox sevdirən bir cəhəti – onun heca vəznində yazdığı qoşmaları və musiqiyə gəl-gəl deyən nəğmələridir:

***Xumar gözü sev deyir,***
***Naz edir, gülümsəyir.***
***Könlümü qan eyləyir,***
***Eşqi, sevdası gözəl.***

və ya:

***Ürəyimin atəşidir atəşin,***
***Hərarətin bədənimə can verir.***
***Eşqdən özgə nəyi olur aşiqin,***
***Sənli könlüm gül-çiçəklər bitirir.***
***Sevincimin sevincisən, Sevincim,***
***Ürəyimdə bir incisən, Sevincim.***

Lakin biz əziz Pünhanın qəzəllərinin bədii dəyərinə xələl gətirən fikirdən uzağıq. O, dünyaya bəsirət gözü ilə baxan, qəzəllərində dünyəvi ruh hakim olan şairdir.

Beş övlad atası olan, gəlin gətirən, qız köçürən Hacı Mirəzizi bu baxımdan da düşündürən, Tofiq Bayramın «Vağzalı çalınır» şeirini yada salan şeirləri də az deyildir:

*Bir ev yola salır, bir ev gözləyir,*
*Bu gün göz yaşları sevincdən axır.*
*Bir ev qarşılayır yeni sakini,*
*Bir ev övladının ardınca baxır,*
*Hicran gecikdirir, vüsal darıxır.*

Əminəm ki, poeziya xiridarları, xüsusən də ürəyi məhəbbətlə çırpınan, könlündə sevdalısı üçün saraylar quran gənclər Əziz Pünhanın «Dünya nəyimə gərək», «Dilbər», «Bulud ağlasa», «Küsmə, nə olar», «Bəxtəvər görək», «Sevincim», «Gözəl», «Olmasın», «Nəyimə lazım», «Gözəlliyin sonu yox», «Tələsmə», «Sevgilim», «Vətən», «Həyat işığım», «Yaşamağa dəyərmiş» və s. kimi bir-birindən gözəl, insanın qəlbini riqqətə gətirən, haldan-hala salan poeziya nümunələri ilə tanış olduqca ürəkləri şairə minnətdarlıqla döyünəcək.

Mən bu qənaətdəyəm ki, bu kitab işıq üzü görən kimi bəstəkarlarımız şairin bir çox şeirlərinə musiqi bəstələyəcəklər.

Xalq arasında ilahiyyatçı və filosof alim kimi yaxşı tanınan və ehtiram göstərilən Hacı Mirəziz Seyidzadəyə bu kitabın şöhrət gətirəcəyinə inanıram. Odur ki, ona Yaradandan yeni-yeni yaradıcılıq uğurları diləyirəm.

**QƏZƏNFƏR PAŞAYEV**
**Filologiya elmləri doktoru, professor**



# «VER SÖZƏ EHYA Kİ...»

Dahi Füzuli məşhur «Söz» qəzəlinin bir beytində yazır:

*«Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,*
*Edə hər saət səni ol uyqudan bidar söz..».*

Peyğəmbərlərdən sonra ən ali məqama ucalan şairlər üçün söz, var olmaq, yaşamaq, özünü təsdiq etmək deməkdir. Şairi yaşadan da, öldürən də sözdür. Dünyada bircə şeiriylə yaşayan, əbədiyyət qazanan şairlər olduğu kimi, cild-cild şeirlər yazıb heç məşhur olmayan şairlər də var. Bəli, şairi yaşadan Sözdür, poeziya səviyyəsinə yüksələn Söz. Füzulinin möhtəşəm qalaya çevirdiyi və əsrlərin rüzgarının təsir edə bilmədiyi Söz.

Füzulidən sonra da Azərbaycan şeiri öz inkişaf yolundan qalmayıb-Saib Təbrizi, Qövsi Təbrizi, Vaqif, Vidadi, Seyid Əzim Şirvani, Natəvan, Sabir, Hadi, S.Vurğun, S.Rüstəm, R.Rza, B.Vahabzadə, Əli Kərim, Qabil, Hüseyn Arif, Nəbi Xəzri kimi hər biri orjinal poetik istedada malik şeir ustadları yarandı. Füzuli ruhu yaşadı. Füzuli ruhunu yaşadan şairlərdən biri də Qazi Hacı Mirəziz Seyidzadədir.

Elə bilirəm onu Azərbaycanda tanımayan yoxdur. Möhtəşəm bir din xadimi kimi Hacı Mirəziz Azərbaycan məkanında – hətta Şərq məkanında yaxşı tanınır. Ona molla demək, adi din xadimi kimi dərk eləmək böyük Tanrının alovlu təbliğatçılarını – seçilmişlərini gözdən salmaq deməkdir. Tanrı sifətli bu seyyid övladı aldığı dini tərbiyə və yüksək təhsilə görə öz məqamına da yetişib: o, Allah kəlamlarını və İslamın məziyyətlərini şərh edən neçə monoqrafiyanın müəllifidir. O, Qafqaz Müsəlmanları

İdarəsi Elm-təhsil şöbəsinin, Bakı İslam Universiteti Sumqayıt filialının rektorudur. Fəlsəfə elmləri namizədidir, elmi - ədəbi publisistik «Kəlam» jurnalının təsisçisi və baş redaktorudur.

Hacı Mirəzizin digər xidmətlərini də sadalamaq olar. Lakin mənim fikrimcə, Hacı Mirəzizin bir insan kimi məziyyətləri içərisində onun şairliyi daha önəmlidir. Bəzən din xadimlərini quru, soyuq təbiətli, təbliğ və təşviq etdiyi dini doktrinalardan kənara çıxa bilməyən insan və şəriət məddahı kimi qəbul edirlər. Amma belə deyil. Onların arasında lirik təbiətli, şair ürəkli insanlar az deyil. Hacı Mirəziz uşaqlıqdan şeirə-sənətə vurulub və indi yaşının ahıl çağında da bu gözəl divanəlik onu tərk etmir.

Şeirlərindən görünür ki, Hacı Mirəziz poeziyaya-sənətə «mən də yazım» prinsipi ilə yanaşmır. Axı, ötən onilliklərlə müqayisədə şerimizin kütləviləşməyə üz qoyması, az qala hər evdən bir «şair» peyda olması danılmaz faktdır. Lakin zaman da çox amansızdır, ədəbi tarixin yaddaşına hər imza daxil ola bilməz. Hacı Mirəzizin «Bulud ağlamasa…» kitabında toplanan şeirlərin onu bir şair kimi yaşadacağına inamım böyükdür. Bu inamı doğruldan isə Hacı Mirəzizin şeirlərinin səviyyəsidir-əlbəttə, ustalıq səviyyəsi-sözün ehya olunması-misralarda fikirlə hissin, ürəklə beynin vəhdətini əks etdirməsi.

Hacı Mirəziz 60 yaşın astanasındadır və 40 il ərzində yazdığı bütün şeirləri – klassik şeir formasında qələmə aldığı qəzəlləri, rübailəri, qitələri, mürəbbeləri, müxəmməsləri, müsəddəsləri, müsəbbeləri, müəşşərləri, tərcibənd və tərkibbəndləri, müstəzadları həmçinin qoşmalarını və müasir hecada yazdığı müxtəlif şeirlərini bir araya toplayıb – «Divan» tərtib edib.

«Divan» yaratmaq klassik poeziya ənənəsidir. Şairin hünər və qüdrətini, poetik ustalığını nümayiş etdirən külliyyatdır.

Elə klassik şair olub ki, onun bir neçə divanı olub, yaxud onun öz doğma dilindən başqa ərəb və fars dillərində divanı var. XX əsrin əvvəllərinə qədər Azərbaycan şairləri divan bağlayıblar. Ancaq XX əsrdə, xüsusilə Sovet dövründə bu ənənə unuduldu. Divan ədəbiyyatına köhnəlik mücəssəməsi kimi yanaşıldı. Hətta elə bir dövr gəldi ki, klassik poeziyaya da «daloy» dedilər. Amma milyonların qəlbindən və qan damarından Füzulini əruzu – qəzəli çıxarmaq mümkün deyildi. Sovet dövründə də qəzəl yaşadı, əruz yaşadı, nəhayət, keçən əsrin sonlarından başlayaraq divan ənənəsi bərpa olundu. Hacı Mirəziz Seyidzadənin – Əziz Pünhanın «Divan»ı da bu ənənəyə yeni töhfədir. Heç şübhəsiz, bu «Divan»da onun böyük ilhamla, böyük şövq ilə yazdığı qəzəllər əsas yer tutur.

Qəzəl janrı ərəb, fars və türkdilli ədəbiyyatda əsrlər boyu işlənib və indi də işlənir. Doğrudur, Vahiddən sonra onun böyük ustadı yaranmamışdır. Lakin ayrı-ayrı şairlərin yaradıcılığında qəzəl bir janr kimi unudulmamışdır. Burada Hacı Mailin, Seyidağanın, Hacı Ələmdar Mahirin, Arif Buzovnalının, Ənvər Nəzərlinin və s.gözəl qəzəllərini misal çəkmək olar.

İlk dəfə qəzəlin harada yarandığı, sonralar tədricən məzmunca, formaca yeniləşməsi, ustad qəzəlxanların poeziyamızı bu janrla zənginləşdirməsi barədə kifayət qədər söz açmaq olar. «Qəzəl… bu məhz məhəbbət deməkdir, qadınlara olan çılğın sevgi haqqında hekayətdir» - «Nəqd-əş-şeir» müəllifi Qüdamə ibn Cəfərin ilk dəfə qəzələ verdiyi bu tərif də sonralar daha tutumlu olmuş, qəzəl fəlsəfi, dini, ictimai mənalar da kəsb etmişdir.

Hacı Mirəzizin qəzəllərində də bu janrın müasir dövrdə öz bədii dəyərini saxlaması, formaca, məzmunca zənginləşməsi hiss olunur. Bu qəzəllərdə bəzi naşı şairlərin yol verdiyi vəzn qırıqlığı, əruzun texnikasına yad, musiqisindən uzaq notlar görmürük. Kamillik, qəzələ bələdlik hər nümunədə nəzərə çarpır. Qəzəllərin çoxu məhəbbət mövzusundadır. Təbii ki, burada bütün qəzəlləri şərh etmək, onların hər birinin məziyyətləri barədə söz açmaq qeyri-mümkündür. Ancaq bir neçə qəzəlin qısaca təhlilini vermək yerinə düşər.

***Novruz gecəsi çeşmi-tərim ləli-nab oldu,***
***Müjdə verənim əvvəli-sübh afitab oldu.***

***Naz ilə alıb dövrəmi uşşaqi-təranə,***
***Bir yanda dəfi-dairə, bir yan rübab oldu.***

***Tel-tel dolaşıb xanələri «Bəstənigar»ın,***
***«Dilkəş» ilə «Mahur»u bir özgə səvab oldu.***

***Qəddini düzəldib, yenə novruzgülü güldü,***
***Bu rayihədən hali-şəyatin xərab oldu.***

Novruzun gəlişiylə dünyanın, həyatın, insan qəlbinin gözəlləşməsini ayrı-ayrı beytlər və bütövlükdə bütün qəzəl ecaz ilə dilləndirir. Qəzəlin arxitektonikasında – quruluşunda qafiyələrin və rədiflərin də öz məqamı var. «Əziz Pünhan» təxəllüsünü özünə götürən Hacı Mirəziz qafiyə və rədif seçməkdə də sərrastdır.

Qəzəllərdə dünyəvi ruh hakimdir. Din xadimi Hacı Mirəziz burada dünyaya bəsirət gözü ilə baxan, həyatın gözəlliklərindən zövq alan, sevgiyə müqəddəs duyğu kimi nəzər salan bir aşiq kimi yanaşır və burada heç bir qəribəlik yoxdur.

*Şükr lillah ki, yenə yar məni yad elədi,*
*Eşqi-zəncirini açdı, dəxi azad elədi.*

*Məni sevdaya salan əqli-kamalındı, gözəl,*
*Hər çətinlikdə kamalın mənə imdad elədi.*

*Bu gözəllikləri ki, Tanrı sənə bəxş eləyib,*
*Ver Əziz Pünhana, bəlkə qəzəl icad elədi.*

Hacı Mirəzizin qəzəllərində bənzətmə-təşbeh çox güclüdür. O, qəzəllərində gözəllikləri tərənnüm edərkən İlahi gözəlliyi daha üstün tutur. Qəzəl boyu Allah-Təaladan təmənna ilə belə bir gözəlliyin pozulmamasını, daima o təravətdə qalmasını arzulayır.

*Yetməyə bədnəzər ol yarıma ey kaş, könül,*
*Belə hüsn aynasına dəyməyə bir daş, könül.*

*Əhsənullah, görün Haqq necə gövhər yaradıb,*
*Bir də mümkün deyil olsun belə göz-qaş, könül.*

*Heç çəməndə belə qamətlə ucalmaz bir sərv,*
*Bu yanaqdan çəkə bilməz daha nəqqaş, könül.*

və ya

*Necə də vəfalı candır, dolaşır bu can içində,*
*Necə pürbəha göhərdir ki, yanır bu kan içində.*

mətləli qəzəldə şair güclü təşbeh yaratmağa nail ola bilmişdir.

*Qara gözlərilə afət şəbi-yeldanı yaratmış,*
*Ox olub tamam kiprik, düzülüb kaman içində.*

***O kaman hilal qaşi dəxi xəncəri xəm eylər,***
***Qaşı naz edər hilala, belə məhtəban içində…***

deməklə gözəlin qara gözlərini yelda gecəsinə bənzədir. Bizə məlum olduğu kimi, yelda gecəsi ilin ən uzun və ən qaranlıq gecəsidir. Şair öz sevdiyi gözəlin qara gözlərini yelda gecəsi ilə müqayisə edir. Həmçinin sevdiyi gözəlin kipriklərini oxlara bənzədərək, sanki bütövlükdə kamanın-qaşların içərisinə düzülməyini təsvir edir. Sonrakı iki misrada isə gözəlin qaşını hilala bənzətməklə həm də xəncərə oxşadır. Bununla belə qaşının xəm olması ilə xəncərin özünü belə xəm edir, əyir.

Və ya

***Yarım bərabərində məgər sərvinaz olur?***
***Hüsnün əgərçi vəsf eləsəm çox diraz olur.***

mətləli qəzəldəki beytə nəzər salanda şairin güclü təşbeh yaratdığının bir daha şahidi oluruq. Aşağıdakı beytdə lalə gülünün məftunedici gözəlliyini yarın simasında görən şair sanki qərarını əldən verir. Heç yerdə qərar tuta bilmir. Sevgilisinin gülüşünü gül qönçəsinin açılma səhnəsi kimi izah edir.

***Göstərsə lalə bağrını, əldən gedər qərar,***
***Güldükdə yar, san dəhani – qönçə baz olur.***

Və ya

***Daim yanında olmağa göz-qaşın olaydım,***
***Eşq aləmində birbaşa yoldaşın olaydım.***

***Mümkün deyil əsla ki, öpüm incə əlindən,***
***Kaş öpməyə ruxsarını, göz yaşın olaydım…***

Həmişə klassiklərimizi özünə müəllim, ustad hesab edən Hacı Mirəziz Seyidzadə bu qəzəldə də onlardan təsirlənmiş, fikirlərini qoruyub saxlamaqla öz sözünü demişdir. Heç cür yarına yaxınlaşa bilməyən şair naəlac qalıb yarın gözündən axan yaş damlası olmağa səy edir. Bəlkə bu yolla onun çöhrəsində süzülməklə ona toxuna bilsin, onu öpə bilsin. Tarixə nəzər salanda dahi Füzulinin bir beytini sanki dolayısı yolla misraya gətirmişdir Hacı Mirəziz .

Füzuli deyir:

***Zülfün kimi ayağın qoymaz öpəm nigarım,***
***Yoxdur onun yanında bir qılca etibarım.***

Şair Füzulinin də həsrətlə yarına baxdığını, ona toxuna bilmədiyini və bu fikri böyük ustalıqla bir beytdə verməsini (gözəlin zülfü-hörükləri onun ayağına toxunur, topuğundan öpür, amma şairə heç cür yaxınlaşmağa imkan vermir.) yana-yana söyləyən şair, yarın nəzərində bir qılca da etibarım yoxdur deyir.

Ustaq qəzəlxan şair Əliağa Vahid isə Füzulinin bu fikrini daha irəli gedərək belə deyir:

***Əgər mən olsam o geysuyi-müşki-tər yerinə,***
***Öpüb, qucub sarılardım o şuxun hər yerinə.***

Hacı Mirəziz Seyidzadə isə fəqət göz yaşı olmaqla yarın rüxsarına toxunmaq istəyindədir. Bunu da əldə edə bilməyəndə aşağıdakı beytin köməyi ilə təsəlli tapır.

***...Axırda yazılsın deyibən sinəmə ismin,***
***Mərmər yerinə qəbrinə baş daşın olaydım.***

Və ya

***Bir gözələ vurulmuşam sanki ceyran balasıdır,***
***Baxışı ilə canlar alır, görən heyran qalasıdır.***

mətləli qəzəldə güclü təzad yaratmaqla böyük ustalıq nümayiş edə bilmişdir. Beytin ikinci misrasına nəzər salaq. «Soyuqluq» və «od». Şair böyük ustalıqla bu iki ziddiyyətin vəhdətindən güclü məhəbbət axını yaradaraq, yarın ona qarşı soyuqluğunu özünün yanması ilə və yana-yana da onun soyuqluğunu aradan aparmağa nail olmağa çalışır.

***...Məəttələm bu gözəlin, deyəsən, yoxdur heç qəlbi,***
***Belə getsə soyuqluğu məni oda salasıdır.***

Və ya

***Nə qədər sən kimi bir qönçə dəhanım yox idi,***
***Ey nigarım, elə bil cismidə canım yox idi.***

mətləli qəzəldə öz tənhalığını yanar şam kimi munisi ilə ənis olmağında görən şair çox gözəl ürəkaçan bir mənzərə yarada bilmişdir. Şamın yanaraq işıq saçmasını və həm də yana-yana əriyib yox olmasını görən şair, sanki təxəyyül aləmində sevdaya düşür, öz yarını şamın işığında görməklə kifayətlənir. Bunun özü də eşq aləmində ülviyyətə qovuşmaq deməkdir. Yarını görə bilməsə də, onun varlığı ilə yaşayır.

***...Munisim şam idi ancaq gecələr yanımda,***
***Bəs ki, şamdan savayı dərdə yananım yox idi.***

Bununla yanaşı Hacı Mirəzizin qəzəllərində dini motivlər də ayrıca yer tutur və bunlar dünyəvi mahiyyət daşıyan şeirlərlə heç də təzad təşkil etmir. Bu isə klassik poeziyadan gələn bir ənənədir. Bəzən isə dünyəvi şeirin

motivləri ilə dini motiv vəhdət təşkil edir. Bu da klassik poeziyadan gəlir.

***Yetməsin bədnəzər ol mahiliqayə, ya Rəbb,***
***Gecə-gündüz götürəm əl bu duaya, ya Rəbb.***

***Gözümü sürtərəm ol çahi-zənəxdanə müdam,***
***Ta yetəm zəm-zəmi-səhrayi-Minayə, ya Rəbb.***

***Ləblərin şövqü bütün varlığımı məst eləyib,***
***Rəhm qıl aşiqi çatdır bu şəfayə, ya Rəbb.***

Burada istər-istəməz dahi Füzulinin «Ya Rəbb bəlayi eşq ilə qıl aşina məni» mətləli qəzəli yada düşür. Və buradaca qeyd edim ki, Hacı Mirəziz dahi şairmizin alovlu təbliğatçılarından və mən deyərdim, heyrəti tükənməyən heyranlarından biridir. Yaxşı xatırlayıram Azərbaycan Televiziyası Füzuli yaradıcılığı ilə bağlı bir veriliş hazırlamışdı. O verilişdə mən Füzulinin eşq dünyası və dünya şöhrəti, Hacı Mirəziz isə şairin dini-fəlsəfi görüşləri barədə söz açırdı. Sonralar da mən Hacının çıxışlarıyla zənginləşən Füzuli verilişlərinin şahidi oldum.

Hacı Mirəzizin qəsidələri haqqında da ayrıca söz açmaq istəyirəm. Qəsidə də çətin formadır. Məlumdur ki, qəzəl qəsidədən törəyib, ayrılıb müstəqil forma kimi özünü yaşadıb və klassik poeziya məkanında birinciliyi əldə saxlayıb. Buna baxmayaraq qəsidə qəzəl kimi mütəhərrik olmayıb, əhatə dairəsi etibarilə məhduddur. Amma qəsidədə də hünər göstərmək istedad tələb edir. Mən deyərdim qəsidə yazmaq qəzəldən çox çətindir. Hacı Mərəziz Seyidzadə (Əziz Pünhan) bunun öhdəsindən də ustalıqla gəlmişdir. Onun Həzrət Peyğəmbərə, (s) İmam Əliyə (ə) və digər məsum imamlara həsr etdiyi qəsidələri mən dini Azərbaycan poeziyasında ən kamil nümunələr hesab edirəm. Mirəziz Əli (ə) aşiqidir. Onun bu şəxsiyyətlə bağlı

tərtib etdiyi «Elmin qapısı» adlı toplusu Əli divanəliyinin bir nişanəsidir.

Ümumiyyətlə, Hacının divanında əruz vəznli şeirlər öz bədii sanbalı və siqlətilə daha çox diqqəti cəlb edir. Hiss olunur ki, Mirəziz Seyidzadə klassik poeziyaya təkcə heyranlıq nəzərilə baxmır, həm də bir mütəxəssis bilici kimi baxır. Onun qitələri də, rübailəri də, mürəbbeləri də, müxəmməsləri də, təxmisləri də bir sözlə klassik üslubda yazdığı bütün şeir nümunələri gözəl və diqqəti çəkəndir. Bunlar indi çox az müraciət olunan demək olar ki, unudulan yalnız ali məktəblərin filologiya fakültələrində çox az dərs saatı müddətində tədris edilən klassik şeir formalarıdır.

***Hicranın odu eylədi kül səbrimi ey yar***
***Bil qədrimi ey yar.***
***Sevda deyilən ev dəru divarısız olmaz***
***Kəndarısız olmaz.***

***Ol çah zənəxdanuva mən teşnəyəm ey yar***
***Sərgəştəyəm ey yar.***
***Yusif deyilən dəhridə azarısız olmaz***
***Bazarısız olmaz.***

Bu müstəzad öz kamilliyinə görə klassik müstəzadlardan qətiyyən seçilmir. Habelə, Hacı Mirəziz qəzəl janrının əksər bəhrlərindən istifadə etməklə öz ustalığını nümayiş etdirə bilmişdir. Nümunə üçün onun ən çətin bəhrdə yazdığı bir qəzələ müraciət etməklə yazdıqlarımı təsdiqləmək istəyirəm:

***Ey fələk, sən elə dərdimə bir dəva,***
***xoşdu ki, yardan ta gələ min cəfa,***
***Gözlərəm həsrəti, çox ola müddəti,***
***mən səni istərəm, tap məni ey bəla.***

***Dərddən xəstəhal binəva aşiqəm,***
***qan töküb gözlərim, ağlaram hər gecə,***
***Könlümə zülm edər daima düşmənim,***
***qalmışam əlində nakəsin binava.***

Hacı Mirəzizin bu kitabda toplanan qoşmaları, müasir şeirləri, həmçinin satirik yazıları, bəhri-təvili barədə də ürəklə söz açmaq olar. Qoşmalarda xalq şeirlərindən gələn sadəlik, təmizlik, bədii kamillik, folklordan və xalq mənəviyyatından əsən xoş nəsim özünü göstərməkdədir. Bu qoşmaların bir çoxu gənclik dövrundə yazılıb (qəzəllər haqqında da bu sözü demək olar). Yeri gəlmişkən deyim ki, Vətən mövzusu, Azərbaycanı tərənnüm Hacı Mirəzizin şeirlərində aparıcı mövzulardan biridir. Vətən Hacı Mirəziz üçün təkcə gözəlliklər mənbəyi, şanlı ulu tarix deyil, həm də insanlardır-vətən eşqi ilə yaşayan insanlar, zəriflikdə çiçəyə, cəsurluqda Nəsimiyə bənzər insanlar.

Onun Vətən haqqında yazdığı:

***Qurbanam torpağıma, sevmişəm ilkin vətəni,***
***O zamandan ki, cahana göz açıb tefli-təni.***

mətləli qəzəlin bir neçə beytinə nəzər salaq:

***...Vətən övladı vətən torpağının qurbanıdır,***
***Torpağı paltarı olmuş, ölər isə kəfəni.***

***Dövr edir qan damarımda vətən eşqilə mudam,***
***Əskik olmaz bu məhəbbət kəsələr bənd məni...***

***...Bu Əziz Pünhana eşqin yetər, ey Xətmi-Rəsul,***
***Vətənin aşiqi oldu, o da sevməklə Səni.***

və ya

***Sən mənim qəlbimdəki ülviyyətimsən, ey Vətən,***
***Harda olsam izzətimsən, şöhrətimsən, ey Vətən.***

mətləli qəzəlin aşağıdakı beytlərinə nəzər salaq:

***Torpağında göz açıb dünyaya gördüm çox səfa,***
***Sərvətimsən, ən tükənməz dövlətimsən, ey Vətən.***

***Sən damarlardan axan qansan, vücudumsan mənim,***
***Sən gücümsən, qüvvətimsən, qüdrətimsən, ey Vətən.***

Habelə:

***Var xalqım üçün hər cürə imkan vətənimdə,***
***Xoşbəxt olacaq daim hər insan vətənimdə.***

mətləli qəzəlində də Vətəni böyük sevgi və məhəbbətlə tərənnüm edərək onun ülvi gözəlliklərini misralara gətirmiş, təbii təsvirlərlə rəngarəng bir tablo yarada bilmişdir:

***Bambaşqa gözəllikdədi yurdumda təbiət,***
***Xaliq yaradıb rövzəyi-Rizvan vətənimdə.***

***Əsdikcə külək göy Xəzərin dalğası oynar,***
***Cansız da bu minvalla tapar can, vətənimdə.***

Hacı Mirəzizin satiraları da onun şeirin bu tendensiyasına yaxşı bələd olduğunu göstərir. Zakirdən, Mirzə Ələkbər Sabirdən gələn ənənələr Hacı Mirəzizin şeirlərində də bariz nəzərə çarpır.

***...Məscid üçün çalmışam zurna-qaval il boyu.***
***Allaha üsyan edib, tost demişəm il boyu.***
***Sanma gələn pulları tək yemişəm il boyu.***
***Bir para maymaqları yedirtmişəm il boyu.***
***Faş eləmə mətləbi, sirri əyan eyləmə,***
***Bir qələt etdim daha bunca bəyan eyləmə...***

Həmçinin «Bizimkidir» satirik şeirində «Kəlam MTK»-nın həmsədrlərinə-Hacı Etibar və Fərhad «cənablarına» taziyanə vurmaqla onların iç üzünü açır.

***...Səhra dolusu maluz ola doymayacaqsız,***
***Bakı bütün sizinki ola doymayacaqsız,***
***Şəhla gözə torpaq da dola doymayacaqsız,***
***Amma bilirəm bunlara əfsus edəcəksiz,***
***Əfsus sizindi, rahat, vicdan bizimkidir...***

Hacı Mirəziz satira hədəfinə tuş gələnləri açıq- aydın söz atəşinə tutur, hətta ad çəkməkdən belə çəkinmir.

***...Mən Mirəziz, siz də ki, Fərhadla, Etibar,***
***Məndə pul əskik oldu, vəli sizdə etibar,***
***Bu işdə şübhəsiz dolacaq qəlbüzə qubar,***
***Vicdan evüz narahat olar, orda ədl var,***
***Həsrət sizindi, rahati-dövran bizimkidir...***

Mətləbi uzatmaq istəmirəm. Bir oxucu kimi, tənqidçi kimi Hacı Mirəzizin bu «Divan»ına alqış deyirəm. Arzum budur ki, o, poeziya yolundan çəkinməsin, bu yolla getməyi özünə şərəf bilsin. Çünki poeziya əbədidir!

**VAQİF YUSİFLİ**
***Əməkdar Mədəniyyət işçisi,***
***filologiya elmləri namizədi.***



## ƏRUZ-QƏZƏL

Azərbaycan ədəbiyyatını bir gülşənə bənzətsək, onun ən ətirli və ən zərif çiçəklərlə bəzənmiş hissəsi məhz əruz olar. Əruzi sıldırım qayaların məsamələrindən süzülüb gələn, canverici qüvvəsi olan bir çeşməyə oxşatsaq yanılmarıq. Əruz elə bir zəriflik və lətafət nümunəsidir ki, heç bir incəsənətlə və ya onun qolu ilə müqayisə oluna bilməz. Bu incəlik eyni zamanda, sərt qanun və qaydaların pozulmaz çərçivələrin hökümləri ilə müşayiət olunur. Sözü, fikri şair əruzun köməyi ilə rəssam rəsmini rənglərə ayrıdığı kimi bəhrlərə bölür, özünün də inana bilmədiyi əsrarəngiz bir gözəlliyi yaratmış olur. Bir hərf fərqini itirə bilən şair üçün əruz ədəbiyyatın ərusuna (gəlininə) çevrilir.

Əruz deyiləndə ilk öncə göz önünə qəzəl – klassik şeir üslubu gəlir. Heç şübhəsiz, qəzəl janrının lüğəti mənası gözəllik, sevgi, eşq-məhəbbəti tərənnüm edən və ardıcıl söz deməkdir (Əl-Muncid, hərf-ğeyn). Bəzi mənbələrdə qəzəl – ğəzal, ahu - ceyran balası, gözəllik mücəssəməsi mənasındadır.

Başqa mənbələrdə qəzəl gözəllik, ikinci mənası ardıcıl söz demək, üçüncü isə eşqi söhbətlər deməkdir.

Bu gözəlliyi şeiriyyatda yaratmaq, bir neçə beytdə geniş, çoxşaxəli ifadələrlə işlətmək irfan aləmində, ələlxüsus mərifət məqamında böyük ustalıq və məharət tələb edir. Belə bir məharəti də şairlər ilhama gələndən sonra misralara gətirə bilirlər. Bu barədə mərhum şair Qumri belə deyir:

***Şeirdir qayiməyi-ərşdə bir kənzi-xəfa,***
***Əsl miftah o kənzundu lisani-şüəra.***

*Nitq şairdi bilaşübhə Məsiha nəfəsi,*
*Çün dəmi ruhi-qudusdur hər iki ruhə səfa...*

*Şeir bir bəhrdi bətni-sədəfi-dürri-yetim,*
*O sədəf dürrünə möhtacdi şahilə gəda.*

*...Şeir bir çeşmeyi-şirindi gəlir cənnətdən,*
*Nuş edən cürəsin aləmdə tapar nəhcü huda...*

Bəli, əsl şeir gözəl ilham çeşməsidir ki, Allah-Təala istədiyi şəxslərə əta etmişdir. Doğrudur, XX əsr şairləri qəzəli sadələşdirməyə çalışmışlar. Onu fəqət öz ana dilimizdə, ərəb-fars ifadələrini işlətmədən, yazmağa başlamışlar. Amma buna baxmayaraq Füzuli, Seyid Əzim qəzəlinin dərinliklərinə varmaq o səviyyəni əldə etmək mümkün olmamışdır. Qəzəl dünyamızın son korifeyi Əliağa Vahid yenidən ustad klassiklərə müraciət etmiş, ərəb-fars ifadələri ilə qəzəl janrını bir daha zənginləşdirmişdir. Bildiymiz kimi, Ə.Vahid nisbətən sadə dildə yazsa da, məcradan çıxmamışdır.

Ümumiyyətlə, qəzəl janrında ərəb-fars ifadələrini işlətmədən istədiyimiz məlahəti, şirinliyi ala bilmərik. Bir də ki, artıq o ifadələr bizim dilimizə daxil olmuş, özümüzküləşmişdir. Bir həqiqətə diqqət yetirməklə yuxarıdakı dediymizi bir daha təsdiqləmək məcburiyyətindəyik. Qeyd edək ki, «em» və «er» hərfləri ilə başlanan sözlər – ifadələr ərəb dilindən gəlmədir. Artıq onları çox işlətdiyimiz üçün fərqinə varmırıq. Bu barədə daha çox danışmaq olar...

Əgər biz ərəb-fars ifadələrini dilimizdən çıxarmağa çalışsaq, heç şübhəsiz ki, dilimiz kasıblaşacaq, zənginliyi itəcəkdir. Bunları deməkdə məqsədim qəzəl janrında ya-

zanda klassiklərimizin irsini, yazı üslubunu bir daha qoruyub saxlamaqdır. Qəzəli qəzəl üslubunda yazsaq daha yaxşı olar. Artıq gənc nəsil qəzəl janrını demək olar ki, unutmuşdur. Hamı heca və sərbəst vəzndə yazmağa çalışır. Unutmayaq ki, biz Füzuli nəslinin davamçılarıyıq. Füzuli irsini qoruyub yaşatmaq, onu davam etdirmək hamımızın borcudur. Təsadüfi deyildir ki, yaxın keçmişdə Azərbaycanın ayrı-aryı regionlarında Füzuli irsinin qorunması üçün məclislər təşkil olunmuşdu. Bunlardan «Fövcül-Füsəha» (Lənkəran), «Məclisi-Üns» və «Məclisi-Fəramuşan» (Şuşa), «Beytüs-Səfa» (Şamaxı), «Məcməuş-Şüəra» (Bakı) əncümənuş-Şüəra (Naxçıvan) və sonralar Hacı Mailin rəhbərliyi ilə fəaliyyət göstərən «Füzuli Ədəbi Məclisi» məhz qəzəl janrının qorunub yaşamağına xidmət edirdi. Bütün bunları yazmaqda məqsədim bu gün də bu irsi qoruyub saxlamaq, davam etdirməyi müasir şairlərə tövsiyə etməkdir. Xüsusən, bu işdə onların Füzuli işığının ətrafına yığışması ən ümdə arzularımdan biridir.

Onu da qeyd edim ki, «Əruz gülüstanı» adlanan ədəbi məclisi artıq yaratmışıq və çox şadam ki, bu məclisin yaranmasında mənim də özüməməxsus xidmətim vardır.

Gənclik çağından qəzəl janrına müraciət etməyimin səbəbi Füzuliyə olan şövqümdən, ehtiramımdan irəli gəldi. Adımı gizli saxlamaq üçün təxəllüsümü "Pünhan" (gizli) yazdım. Sonralar gördüm ki, artıq üzə çıxmaq vaxtıdır, odur ki, adımın bir hissəsini də Pünhan isminə əlavə etdim və "Əziz Pünhan" təxəllüsü ilə tanınmağa başladım.

Bu kitabda «Divan»da müxtəlif illərdə yazdığım qəzəlləri, ayrı-ayrı şeir nümunələrini oxucuların ixtiyarına vermək bir daha Füzuli dəryasına uzaqdan da olsa tama-

şa etmək istəyimdən irəli gəlir. Heç şübhəsiz ki, hər bir işdə nöqsan olduğu kimi, mənim də yazdıqlarım nöqsandan xali deyil. Qoy, bu kitab Füzulisevərlər və ümummiyyətlə eşq əhli – aşiqlər üçün bir töhfə olsun.

***MÜƏLLİF***



# DİBAÇƏ




Bağışlayan Allahın adı ilə başladığım bu divani inşaallah ki, siz dəyərli və qədirbilən oxucuların hüzuruna təqdim etməklə, ruhunuza zövq və zəriflik gətirə biləcəyimə ümid edirəm. Qəsdim əsrlərdən bəri mədəniyyətimizin və ədəbiyyatımızın əsaslarından biri olan «Divan» ədəbiyyatının dirçəlişinə bacardığım qədər əlimdən gələni əsirgəməməkdir. Hər gülün öz ətri var. Bağbanı olduğum bu gülüstanın al-əlvan ətirli güllərindən sizin də bahar təravəti ala bilmənizi istəyirəm.

***Söz varsa, o yerdə olacaq nöqsan, əzizim,***
***Heyrət nə gərək, bağda gülü xar ilə görsən.***

Ey söz aşiqləri, klassik şeir üslubunda yazıb-yaradan böyük şairlərimizin ruhunun şadlığına dinimiz, dilimiz və ədəbiyyatımızın fədailərinə olan ehtiramımın rəmzi kimi sevən qəlbimdən və aciz qələmimdən çıxan bu şeirləri sizə olan məhəbbətimin təzahürü kimi qəbul etməyinizi təmənna edirəm.

***Yazdığım hər söz həyatımdan düşən bir parədir,***
***Başqa bir qəlbdə ucaldar eşq binasın parələr.***
***Cümlə aşiqlər alıb ibrət, qəmimdən şad olar,***
***Öyrənər şəhr içrə məskən salmağı avarələr.***

Qənaətim budur ki, zövq dəryasının sakinləri, yar zəncirinin divanələri və səadət səmasının salikləri bu eşq bağının səmərələrindən feyziyab olub, Əziz Pünhanı afərin və əhsən sədalarından məhrum etməzlər. Və məhəbbət dolu qəlbimin rübabının incə pərdələrində yaratdığım bu söz xəzinəsinin ahəngini qəlblərinin döyüntüsünə tən tutarlar.

***İstəyirsənsə sevinsin bu Əziz Pünhanın,***
***Eşqinin gözləri ilə oxu bu divanın.***

Bu sözlərdə olan mənalar sizin qəlbinizi aşiq geyimini geyib eşq sultanlığına rəvac verməyimi təvazö libasından xali olub, lovğalıq kimi qəbul edənlərə eşq zövqündən məhrum insan adı verməklə kifayətlənməyib o binavələrə Allah Təbarək və Təaladan lütf təvəqqe edir və bəsirət gözlərinin açılmasını dua edirəm. Zərgər yanında gövhərin qədri bilindiyi kimi əhli-hal yanında həqir sözlərimin faxir geyimdə görünəcəyinə inanıram. Çünki, kəmalu ədəb çərçivəsində dünyada gördüyüm və bildiyim nə varsa, inandığım və sevdiyim nə varsa, tapdığım və axtardığım nə varsa, hamı qədirbilən və anlayışlı oxucularla bölüşdüyüm yaşamış olduğum zamanın mənim üçün ayrılan məqamlarıdır.

***İstəyim tək bu deyil, dəhrdə qalsın boş adım,***
***İstəyirdim biləsiz, mən də beş-on gün yaşadım.***
***Ömrümün acı-şirin anlarıdır şeirlərim,***
***Könlümün sevgiyə qurbanlarıdır şeirlərim.***
***Olmasaydı bu söz ünvanı, üzü cananın,***
***Şeiri qüdrətli alınmazdı Əziz Pünhanın.***

Qadir Allaha təvəkkül edib, Ona sığınıram.

Vəssəlam.

# QƏZƏLLƏR



## *Əyyuhəssaqi vəla tənsani fi yomil cəza*

Əyyuhəssaqi, vəla tənsani fi yomil cəza,
Saqiyi-Kövsər, mədəd qıl, ya Əliyyəl Murtəza.

Ey şəfiil muznibin, ey ümmətə Hadi olan,
Batini-ayati-Quran, yadigari-Mustafa.

Ümmətə kərrar buyurmuş Zülf, «Əğzakum Əli»,
Həm ədalət kanivu, həm mədəni-cudu səxa.

Mən səninlə tanıdım Allahımı ey rəhnuma,
Çün əta qılmış Xudavənd şəninçün «Həl-əta».

Sən Vəliyullahsan, Quran buyurmuş ayəti,
Həm dəlil burhan ilə möhkəm nüzuldur «innəma».

Zülcəlala olmusan, eylə əzizi-yar kim,
Zövcən olmuş hər iki aləmdə ol Xeyrənnisa.

Eşqin ilə bu bəşər eşq məktəbin dərk eylədi,
Eşq ilə rəqs eylədi dövrəndə külli ma səva.

Damənin tutmuş Əziz Pünhan əda et haqqını,
Sənlə yara yardır, əğyara əğyardır Xuda.



## *Sənsən aləmdə mənim dövlətu varım, ay ana*

Sənsən aləmdə mənim dövlətu varım, ay ana,
Çəmənim, tər çiçəyim, tazə baharım, ay ana.

Varlığım varlığına bağlıdır, sən canımsan,
Körpə nitqimdə adın oldu şüarım, ay ana.

Qarlı dağ tək başına dən salıb ömrün hər anı,
Hər biri tellərinin şanlı vüqarım, ay ana.

Al məni qollarına, oxşa pərişan saçımı,
Ürəyimdən gedə hər dərdü qübarım, ay ana.

Nə qədər mən uca olsam da sənə möhtacam,
Əvəzin yox, dola dostlarla kənarım, ay ana.

Nəfəsin çarə edər dərdə həkimdən də gözəl,
Bircə yol bax mənə, qoy bitsin azarım, ay ana.

Mən sənin meyvən Əziz Pünhanam, illər keçəcək,
Bu nəcabətlə verər bəhrə nübarım, ay ana.



## *Övlada arxa, dayaq, gücdür, cəsarətdir ata*

Övlada arxa, dayaq, gücdür, cəsarətdir ata,
Varlığın ümdəsidir, əsl-nəcabətdir ata.

Ataya övlad əmanətdir müəyyən yaşadək,
Qocalandan sonra övlada əmanətdir ata.

Ailə dövlətə bənzər, özünün qanunu var,
Bu kiçik dövlət üçün sahibi-qüdrətdir ata.

Ömrün hər dövrünü övladına ithaf eləyər,
Mərtəbə-mərtəbə artan bir imarətdir ata.

Ehtiyac yoxdur əgər tapmayasan dost özünə,
Çünki övladına dostluqda kifayətdir ata.

Əməli-saleh oğul qoysa özündən sonra,
Nəsli üçün hər iki mülkidə rahatdır ata.

Anadan incədi qəlbi, qəmi gizlində çəkər,
Qədrini bil nə qədər sağdı, salamatdır ata.

Olsa da şah, ona möhtacdır Əziz Pünhan özü,
Şerinə sığmayan ən ülvi məhəbbətdir ata.



## *Görüm ol şəxsi yana dost deyən dilin oduna*

Görüm ol şəxsi yana dost deyən dilin oduna,
Xəyanət eyləsə hərgah həqiqi dost adına.

Bu dostluğun özü də üstübağlı mirasdır,
Sən olmayanda cahanda dayaqdır övladına.

Fəqirlə dostluq edərmi məgər bu gun ağalar,
Yaman günündə fəqirin yetərmi imdadına?

Ağıllı yoxsula heç kim həyatda yer verməz,
Çətin günündə onun yoxdu bir çatan dadına.

Yetər bu sözlərə sən çox da gəl rəvac vermə,
Bulanar mədələri salma onların yadına.

Bu Əziz Pünhana ağırlıq edir baş deyəsən,
Bədəndə saxlaya bilməz, verər dilin badına.



## *Zülfün qara, gözün qara, al üzdə xal qara*

Zülfün qara, gözün qara, al üzdə xal qara,
Bu qarələr içində üzün bənzəyir qara.

Məqsudə yetməyə can atır aləmi-bəşər,
Tapmazsa dərdə çarə nə etsin günü qara.

Sordum ki Qeysə, Leyli qara, leyl-şəb qara,
Ərz etdi qarələr günümü etdilər qara.

Siz Leyliyə mənim gözüm ilə baxın dedi,
Nur olmayanda hər yer olur büsbütün qara.

Yox yarımın nicat yeri mən zarə yetməyə,
Onçün olubdur ağ bənizi mübtəla qara.

Mən qara rəngi Leyli gözündə görüb dedim:
Yox qara rəngdən daha artıq boyaq qara.

Hər rəng zövq versə əgər bir qiyafədə,
Zövq aqibət gedər bada ol rəng olur qara.

Bəs qarə zülfi sən də Əziz Pünhan eylə vəsf,
Bu qarə rəngi xal qarada görək qara.



## *Qəlbimdə olan nur, nar olur sənsiz olanda*

Qəlbimdə olan nur, nar olur sənsiz olanda,
Dünya mənə çün şəb tar olur sənsiz olanda.

Sən mənlə olanda dağ olur qəlb evi ey gül,
Əks halda gülüstan xar olur sənsiz olanda.

Tək qoyma uşaq tək gəlirəm zara, nədəndir,
Şeytan da yanımda var olur, sənsiz olanda.

Ətrafda oxur cəh-cəhi bülbül şirin avaz,
Çevrəmdəki bülbül sar olur sənsiz olanda.

Qəm çəkmə əzizim qəminin heyranıyam mən,
Üst-üstə qəmim təkrar olur sənsiz olanda.

Atəşdi Əziz Pünhanın eşqi, bu əyandır,
Amma bu məhəbbət zar olur sənsiz olanda.



## *Gözəlim, hər kəsin eşqilə xuraman olma*

Gözəlim, hər kəsin eşqilə xuraman olma,
Eləsin seçginən, axırda peşiman olma.

Çalış aldatmasın aləmdə hər əğyar səni,
Hər gülərüzlüyə sən həb kimi dərman olma.

Zahirən xoş görünən qəlbi çürük insanın,
Aldanıb hiyləsinə küyinə mehman olma.

Uyma şan-şöhrətə, aldanma zərü simə gözəl,
Çalış həqq aşiqinin qətlinə fərman olma.

Mənliyin qiyməti yox, salma ayaqlara onu,
Yerini bil, gözəlim, çox da gəl ərzan olma.

Ey Sənəm, qəlbini yandırma ki, eşq atəşdir,
Aşikar eylə, Əziz Pünhana, pünhan olma.

## *Hanı ol nazlı sənəm ki, gələ dil, can apara*

Hanı ol nazlı sənəm ki, gələ dil, can apara,
Qurtara canımı qəmdən məni burdan apara.

Neçə ildir gedirəm Kəbəyə - iman evinə,
Qorxuram xərməni-imani o şux yan apara.

Yatsa bağban unuda fəsli-xəzanın gəlişin,
Şübhəsizdir ki, o rəna gülü tufan apara.

Arxayın yatmamalı ləli olan varlı kişi,
Oğru amadədi ki, varını hər an apara.

Hər gədanın gücü çatmaz səni məndən qopara,
Amma nakəsləri qoyma səni yoldan apara.

Ey Əziz Pünhan əcəl yar sifətində gələcək,
Tərkican eyləginən, qoy canı canan apara.



## *Yar bilir dünya mənimçün bir yana, yar bir yana*

Yar bilir dünya mənimçün bir yana, yar bir yana,
Huriyu qılman mənimçün bir yana, yar bir yana.

Cənnətə düşsəm yəqinən getmərəm yar gəlməsə,
Yetmiş huri versələr də bir yana, yar bir yana.

Huriyi-Cənnət təmannası fəqət möminlərin,
Mömini-həqqəm, əqidəm bir yana, yar bir yana.

Eşqdə yanmaq olub aşiqlərin rəsmiyyəti,
Qoymaram yansın dəxi od bir yana, yar bir yana.

Gəl ticarət eyləyək, bazarə çək sərmayəni,
Külli dünya zivərin qoy bir yana, yar bir yana.

Qeyri mümkündür satın almaq o Xuld Cənnəti,
Mən əvəz verməm, o Cənnət bir yana, yar bir yana.

Gör Əziz Pünhan necə vəsf eyləyir öz yarını,
Əvvəlu axır gözəllik bir yana, yar bir yana.



## *Dəyməsəydi qədəmin sevgili can İstisuya*

Dəyməsəydi qədəmin sevgili can İstisuya,
Ad verilməzdi ki, loğmani-cahan İstisuya.

Sən gəzən yerləri şövq ilə gəzib seyr edirəm,
Sənin eşqinlə oxur, şeiri-rəvan İstisuya.

Al qərənfillər açılmış, oxuyur bülbüllər,
Qumru «Can» tək adını eylər əyan İstisuya.

Bu gözəllikləri hal əhli duyar, qeyrisi yox,
Ay işığında enər eşqi duyan İstisuya.

Bu soyuqluq ki, mənə bəxş eləyib ayrılığın,
İsti-isti elədim dərdi bəyan İstisuya.

Bu Əziz Pünhana sənsiz bu cahan mənasız,
Sənlə yerləşmiş idi cümlə cahan İstisuya.



## *Ey fələk, sən elə dərdimə bir dəva, xoşdu ki, yardan ta gələ min cəfa*

Ey fələk, sən elə dərdimə bir dəva,
xoşdu ki, yardan ta gələ min cəfa,
Gözlərəm həsrəti, çox ola müddəti,
mən səni istərəm, tap məni ey bəla.

Dərddən xəstəhal binəva aşiqəm,
qan töküb gözlərim, ağlaram hər gecə,
Könlümə zülm edər daima düşmənim,
qalmışam əlində nakəsin binava.

Əl açıb göylərə eylərəm min dua,
sevdiyim dilbərin vəslini istərəm,
Tez yetir könlümə ol güli-əhməri,
ol üzü cənnəti ver mənə, ey Xuda.

Halıma qeyrilər güldülər, neyləyim,
dərdimi hansı bir munisə söyləyim,
Qəm də çox, mən də tək, min cəfa, bir ürək,
tapmadım eşqdə bir nəfər rəhnuma.

Ey könül, dəhrdən umma zövq, fanidir,
aşiqin qəlbinə dağ çəkən canidir,
Mən də yox, yar da yox, bivəfa dəhrdir,
çün olmuş bu dünya sərvətə aşina.

Mən də bir aşiqəm, əhdimə sadiqəm,
görmüşəm aləmin yamanın, yaxşısın,
Köhnənin şahıyam, dərd bilən dahiyəm,
nə lazım edirsən təzə dərd ixtira.

Mən Əziz Pünhanam, insana sərrafam,
etibar etmərəm, bir günün eşqinə,
Eşq olar daimi, ruh olar daimi,
cism isə fanidir, mən fəna, sən fəna.

## *Vardır bu qəmli sinədə çox yaram, ey təbib*

Vardır bu qəmli sinədə çox yaram, ey təbib,
Heyfa ki, amma səndə deyil çarəm, ey təbib.

Dərmanlar ilə var bilirəm, ülfətin sənin,
Mənsə qübari-qüssə ilə yarəm, ey təbib.

Leylaya əfqan öyrədirəm, nalə Şirinə,
Həmməktəbimdir, gör neçə avarəm, ey təbib.

Yüz sən kimi təbib eləyər tərk sənətin
Bir dəfə görsə, mən necə bimarəm, ey təbib.

Hər kim ki, eşqə düşdü, sənə açdı sirrini,
Gör, indi mən də eşqə giriftarəm, ey təbib.

Yarı görüncə göz, ürəyim biqərar olur,
Gizlincə ağlayır, bu üzüqarəm, ey təbib.

Min bir dəvanı eylər əvəz, gərçi bir dəfə
Fəttan gözü ilə baxsa o məhparəm, ey təbib.

Gəl, mən Əziz Pünhan ilə eşq bəhsin aç,
Aşiqlər içrə gör necə sərdarəm, ey təbib.

## *Bu məhbubə kimin yarı,kimin cananəsi ya Rəbb?*

Bu məhbubə kimin yarı, kimin cananəsi ya Rəbb?
Bunu görcək alışdı-yandı can viranəsi ya Rəbb.

Apardı əqlimi iman evin talan edən dilbər,
Kimin bağrında yatmışdır, kimin həmxanəsi ya Rəbb?

İlahi, məndən ayrı salma bu məstanə dildarı,
Mənə şadlıqla həmpeyman olub, peymanəsi ya Rəbb?

Səadət ərşinin nuru ziyası qismətim olmuş,
O şəmin qoyma olsun özgələr pərvanəsi ya Rəbb.

Güləndə qönçə ləblər gün səhab içrə nihan oldu,
O mərcan dişlərə çatmaz cahan dürdanəsi ya Rəbb.

Əziz Pünhan bahar fəsli düşüb sevdaya məcnundur,
Sevinc ilə nola dolsa könül qəmxanəsi ya Rəbb.



## *Neylim ki, o vəfalı gözəl bəndədən küsüb*

Neylim ki, o vəfalı gözəl bəndədən küsüb,
Sanki günəş buludda qalıb, kölgədən küsüb.

Əhd eyləmişdi yar vəfadar olar mənə,
Sındırdı əhdini, yenə bilməm nədən küsüb.

Zülfi-siyahı kölgə salıb məh cəmalına,
Yəqin pərişan olmuş o da, şanədən küsüb.

Səbrim tükəndi, dözmürəm artıq bu hicrana,
Gəlməz göyərçinim, demə kaşanədən küsüb.

Çarə yoxumdur, dərdin əlacın tapammıram,
Bəlkə bu nazənin elə qəm-qüssədən küsüb.

Ey kaş, qəm də bir ara bizdən uzaqlaşa
Qoy söyləsinlə, qəm də bu naz-qəmzədən küsüb.

Bir sübh gözlərim açılanda inanmadım,
Gördüm ki, naz edir mənə o gülbədən küsüb.

Yar könlün almaq üçün Əziz Pünhanın sözü,
Sanki dodaqda həlqələnib, kəlmədən küsüb.



## *Yetməsin bədnəzər ol mahiliqayə, ya Rəbb*

Yetməsin bədnəzər ol mahiliqayə, ya Rəbb,
Gecə-gündüz götürəm, əl bu duayə, ya Rəbb.

Dəyməsin ta əli hər nakəsin ol qarə telə,
Edərəm nifrin o nakəs tülağayə, ya Rəbb.

Gözümü sürtərəm ol çahi-zənəxdanə mudam,
Ta yetəm zəm-zəmi-səhrayi minayə, ya Rəbb.

Parlayır şəbnəm üzündə, gülü sevdaya salır,
Düşmüşəm mən dəxi sevdayi-bəlayə, ya Rəbb.

Ləblərin şövqü bütün varlığımı məst eləyib,
Rəhm qıl, aşiqi çatdır bu şəfayə, ya Rəbb.

Dodaq altında gülür halıma, şıltaqlığ edir,
Səbr ver sən də Əziz Pünhana mayə, ya Rəbb.



## *Qəlbim xiyali-vəsli-ruxi-can ilən dolub*

Qəlbim xiyali-vəsli-ruxi-can ilən dolub,
Könlüm evi ləbaləbu xuban ilən dolub.

Bir eylə hala düşdü könül dərdi-hicridən,
Sanki dəniz gözümdən axan qan ilən dolub.

Baği-səfaya dün dedilər qoymusan qədəm,
Torpaq izin tutub, düri-qəltan ilən dolub.

Məstanələr yenə dodağın rəngin öyrənib,
Meyxanələr də hali-pərişan ilən dolub.

Səhraya salmısan güzəri, ətr saçmısan,
Səhra bu müşk eşqinə ceyran ilən dolub.

Yüz canım olsa eylər idim kuyinə nisar,
Guya Minadı, Həccdə qurban ilən dolub.

Allahı yoxdu eşqimizə zidd olanların,
Varsa ürəkləri, o da şeytan ilən dolub.

Zikr et, Əziz Pünhan ilə, pişnamazdır,
Haqq əhlidir, cinahı müsəlman ilən dolub.



## *Nə qədər fikr edirəm tapmayıram dərdə əlac*

Nə qədər fikr edirəm tapmayıram dərdə əlac,
Dəri-kuyində sənə oldu bu konlüm möhtac.

Mən sənə çakər olum, sən mənə sultanlıq elə,
Öz əlimlə bu sevən qəlbi qoyum başuvə tac.

Verdiyin qəmləri mən könlumə etdim mehman,
Tokdüyüm göz yaşı bəlkə ola kuyində xərac.

Sən özün min dəfə zülm eyləmisən könlümə yar,
Başqa bir şəxsə məni əzmək üçün vermə rəvac.

Diri vaxtında Əziz Pünhana ölmüş dedilər,
Ölmədi, köç elədi qəlbinə yarın bu mizac.



## *Ver saqi, tünd badə ilə məclisə rəvac*

Ver saqi, tünd badə ilə məclisə rəvac,
Badəmdə çünki dərdlərimə tapmışam əlac.

Mən sərxoş olmaram, məni məst eyləyib xəyal,
Hicri-cəmali-yaridayam  bu tənu məzac.

Məcnun öləndə etdi vəsiyyət cəmaətə,
Ondan sonra mənə çata eşq icrə taxt-tac.

Eşqin, qərar tutmalıyam zirvəsində mən,
Çünki o yerdə yoxdur əziyyət və ehtiyac.

Kəsdim Əziz Pünhana bir yar ilə kəbin,
Ya Rəbb, səadət ilə var olsun bu izdivac.



## *O zülfi-mişkin əgər bir gün eyləyə məni şad*

O zülfi-mişkin əgər bir gün eyləyə məni şad,
Səvabı çoxdur əgər yüz qul eyləsən azad.

Hərimi-Kəbədə yeddi təvaf vacibdür,
Sənin təvafına yoxdur hesab ey dilşad.

Əgər məşəqqəti var mənlə bir kəlam kəsə,
Quru salam ilə etsin bu xəstə könlümü yad.

İlahi, Məcnunu sal Leyli yadına daim,
Ki, bəlkə rəhmə gələ sailə edə bir dad.

Kəmənd zülfünə çoxdan əsirəm ey dilbər,
Ayırma ruhi bədəndən, əsirə et imdad.

Düşünmə axırını, xeyir olar, Əziz Pünhan,
Yəqin o nazlı sənəm eyləyər sənə bir zad.



## *Eşq içrə mənə tay deyil qüvvədə Fərhad*

Eşq içrə mənə tay deyil qüvvədə Fərhad,
Bir naləm ilə mən edərəm kuyini bərbad.

O vurdu külüng başına guya yetə vəslə,
Mən vəslə yetəndən sonra canım olar azad.

Hər aşiqi-biçarəni etmə mənə həmdərd,
Onlarda hanı məndə olan nalavü fəryad.

Məcnunları bir-bir yola saldım, hanı aşiq?
Sərkərdəliyi indi veribdir mənə ustad.

Yoxdan nəisə var eləmək Allaha aid,
Mən isə xarabə ürəyi etmişəm abad.

Ahular ilə keçdi biyabanda həyatım,
Ahu bilib ovlar məni çox məkr ilə səyyad.

Sevdalı Əziz Pünhanam, aləmdə izim var,
Mən tarixi-eşq içrə gələr gün, qoyaram ad.



## *Bu qədər könlümə verməzdi əziyyət tale*

Bu qədər könlümə verməzdi əziyyət tale,
Sevdiyim anları bilsəydi qənimət, tale.

Elə istərdim o dilbərlə firavan yaşayam,
İkimizçün yazıla bir belə müsbət, tale.

Vamiqə, Fərhada vaxtında baxaydı kaş ki,
Götürəydi kaş olardan da bir ibrət, tale.

Hansı dünyada onun fəxr eləməkçün sözü var,
Gərçi bir tapmadısa sevgiyə fürsət, tale.

Gecəmiz hamilədir sübhə, səadət doğacaq,
Baxma kı qaldı qaranlıqda nə müddət, tale.

Gözəlin zülfi-pərişanına bənzər qəm içər,
Vüsal ilə özünə verməsə zinət, tale.

«Mən Əziz Pünhanı xoşbəxt edərəm axırda»,
Şükür Allaha dinib söylədi hikmət, tale.



## *Yenə mehmanım idi yari-mehriban bu gecə*

Yenə mehmanım idi yari-mehriban bu gecə,
Mənzilim olmuş idi Cənnəti-Rizvan bu gecə.

Ərşi-əladə sanırdım özümü yarım ilə,
Sanki bir huri idi ol gülü reyhan bu gecə.

Gül üzündə təri – ismət cəm olub şəbnəm tək,
Axıdır gülgün üzarə düri – qəltan bu gecə.

Səfbəsəf Huriyu Qılman ona həsrətlə baxır,
Hamı şövqilə edər xidməti – şayan bu gecə.

Örpəyi- hüsnünü aşkar eləyən dəmdə dedi,
Bu məhin tələtini etmə nümayan bu gecə.

Dedi, ey yar, gələn novruza qalsın bu vüsal,
Dedim, ağlar gözümü qoyma nigaran bu gecə.

Gül üzündən qara zülfü yan olub bir neçə an,
San bədirləndi buludda məhi-taban bu gecə.

Bu şirin yerdə Əziz Pünhan oyandı yuxudan,
Qəsdi-can etdi ona möhnəti-hicran bu gecə.

## *Çoxdur fərqim ey təbib, sən gördüyün bimar ilə*

Çoxdur fərqim ey təbib, sən gördüyün bimar ilə,
Hicranın bimariyəm, çatdır vüsala yar ilə.

Dilbəri-İsanəfəs dərgahına çatdır məni,
Qoyma qürbətdə qalam xəstə bu ahu zar ilə.

Ahü zarımdan qanad saxlar tüyuri-asiman,
Çox təbabət eyləmə bu ahu zara xar ilə.

Dərdə dərman etmək istərsən əgər bir çarə qıl,
Xəlvət eylə xəstəyə öz sevdiyi dildar ilə.

Mən vüsalın istərəm, yarım mənə azar edər,
Razıyam yarsın məni yar, xəncəri-xunxar ilə.

Bu Əziz Pünhan gözəl aşiqidir agah olun,
Gəlsə min loğman, şəfa tapmaz məgər bir yar ilə.



# *Qara tellərdən hər noi cəfa gəlsə, qəbul eylə*

Qara tellərdən hər noi cəfa gəlsə, qəbul eylə,
Sənə ol xal-hindudan xəta gəlsə, qəbul eylə.

Könül gər qəmzəyi-dildardan küsmüşsə, qoy küssün,
Onun hər kipriyindən bir bəla gəlsə, qəbul eylə.

Nə qədri naz edərsə dilbərim, etsin, savab işdir,
Kədərli qəlbinə hər cür səfa gəlsə, qəbul eylə.

Könül sevdasına dərman ilə bir çarə tapmazsan,
Bu dərman gər ləbi-yardan şəfa gəlsə, qəbul eylə.

Yarın hər kipriyi gərci olub ox, qəlbə tuşlansa,
Sipər qıl sinəni, sünbül bəpa gəlsə, qəbul eylə.

Əgər xəncər qaşilə yara vursa qəlb məcruhə,
Ona məlhəm gözüm yaşı dəva gəlsə, qəbul eylə.

Əziz Pünhan nigarın hər telindən zövq alır, hər an,
Dolaşsa boynuna əfi, səza gəlsə, qəbul eylə.



## *Necə də vəfalı candır, dolaşır bu can içində*

Necə də vəfalı candır, dolaşır bu can içində,
Necə purbəha göhərdir ki, yanır bu kan içində.

Qədü qaməti fəsanə elə bil ki, sərvinazdır,
İşığı o məh cəmalın alışır duman içində.

Qara gözlərilə afət şəbi-yeldanı yaratmış,
Ox olub tamam kiprik düzülüb kaman içində.

O kaman hilal qaşi dəxi xəncəri xəm eylər,
Qaşı naz edər hilala, məhi-asiman içində.

Ox atarsa qəmzəsiylə gedir əql huş əldən,
Necə sehrə saldı ol  şux, məni növcavan içində.

Ala gözlü nazlı yarım demə ayrıdır bu candan,
Nə qədər kənarda gəzsə, dolanar bu can içində.

De Əziz Pünhan adın, nə zaman ki könlün istər,
Ola gər səmada yarın, yetişər bir an içində.



## *Yar yenə dəvət edib, canını, canan evinə*

Yar yenə dəvət edib, canını, canan evinə,
Yenə eşqin yolu, candan dolanır, can evinə.

Canı canana verənlər yetər idraka yəqin,
Vermiyən canını, yetməz, şərəfü şan evinə.

Çoxu dəryayi-məhəbbətdə batıb, məhv oldu,
Əhli-beyt aşiqi çatdı, vəli hicran evinə.

Qəlb məstanəsidir mehrü vəfa badəsinin,
Məst gözlər çəkəcək aşiqi, irfan evinə.

Mülk dünyanı əvəz versələ bir kipriyinə,
Qoyarammı bu bəha, yol tapa peykan evinə.

O mənim qəlbimə sancılmaq üçündür, qəmi yox,
Qəmzəsilə atılar aşiqi-nalan evinə.

Şükr lillah ki, duam müstəcəb olmuş, bilirəm,
Mən Əziz Pünhanın eşqi, gələ pünhan evinə.



## *Var xalqım üçün hər cürə imkan vətənimdə*

Var, xalqım üçün hər cürə imkan vətənimdə,
Xoşbəxt olacaq daim hər insan vətənimdə.

Kim gəlsə qonaq, qayğı, məhəbbət görəcəkdir,
Heyran qalacaq, kim ola mehman vətənimdə.

Bambaşqa gözəllikdədi yurdumda təbiət,
Xaliq yaradıb rövzəyi-Rizvan vətənimdə.

Dağlar, meşələr, ayna bulaqlar nə gözəldir,
Var hər gələnin dərdinə dərman vətənimdə.

Əsdikcə külək, göy Xəzərin dalğası oynar,
Cansız da bu minvalla tapar can, vətənimdə.

Ətrafda nə çoxdur ürəyi eşqə düşənlər,
Hər gün yazılır sevgiyə dastan, vətənimdə.

Naz eyləyən afətləri gördükcə gülər göz,
Bu hüsnə elə, canı da qurban, vətənimdə.

Gördüm ki, Əziz Pünhan edir həmdü sənalar,
Bu xalqı görüm şad, firavan, vətənimdə.



## *Qovuşub can evinə can ilə canan bu gecə*

Qovuşub can evinə, can ilə canan bu gecə,
Bədrini vəslə yetirdi məhi-taban bu gecə.

Aşiq öz məşuqinə hicrdə vəslə yetişib,
Çata qoy mətləbinə bəs ki cavanan bu gecə.

Yığışıbdır el-oba təbrikə gəlmiş bu toyu,
Toy-düyündür, çalıb oynar, hamı yaran bu gecə.

Cani-dildən sevinir dost, qohum, şadlıq edir,
Çılçıraqla bəzənib məclisi şayan bu gecə.

Qoy ola taleyi məsud bu növrəstələrin,
Yazıla adlarına ömrü firavan bu gecə.

Çörəyi isti, suyu qoy sərin olsun buların,
Verə Xaliq onlara bir igid oğlan bu gecə.

Seyyidin istəyini sən də Əziz Pünhana de,
Müstəcəb olmasını istə Xudadan bu gecə.



## *Qara zülfünlə o rüxsari nihan etmə belə*

Qara zülfünlə o rüxsari nihan etmə belə,
Şəbi-yeldani bu tezliklə bəyan etmə belə.

Xətu xalın görəli əqlimi aldın başdan,
O qara gözləri zülmətdə əyan etmə belə.

Bu məhəbbət odunun tüstüsünün vurğunuyam,
Rəhm qıl, göz yaşımı bunca rəvan etmə belə.

Əməli-xeyr elə, al könlümü, öz könlünü ver,
Bu ticarətdən uzaq qalma, ziyan etmə belə.

Hüdhüdün əzmi Süleymana verib Bilqeysi,
Hüdhüdüm yoldadı, bir özgə güman etmə belə.

Rüstəmin Rəxşinə mindim ki, yetəm vəslinə tez,
Bələdəm kuyinə, yolları duman etmə belə.

Bu Əziz Pünhana zülm etmə, canın verdi sənə,
Yaxşı ol, yaxşılığa qarşı yaman etmə belə.



## *Dərdi-cananı basıb bağrıma dərman yerinə*

Dərdi-cananı basıb bağrıma dərman yerinə,
Bədənimdə onu mən saxlamışam can yerinə.

Kəbəyi-murği-dilim eylə təvaf, ey dildar,
Dəri-Minada apar kəs məni qurban yerinə.

İki yol var, biri Cənnətdi, biri nari-əzab,
Yar qucağın dilərəm rövzeyi-Rizvan yerinə.

Qeyzdən eyləmərəm bir də təmannayi-vüsal,
Hər vüsalı qoya bilməz könül hicran yerinə.

Sonadək kaş qala yar yanında, amma,
Hələlik dövrə vurur hər gecə mehman yerinə.

Heyrət etdim mənə düşmən kəsilən şəxslərə,
Necə şeytanı qoyub Xaliqi-Sübhan yerinə.

Mən Əziz Pünhanı etməzdi əziz bu dünya,
Götürüb bağlamasa hər işi səhman yerinə.



## *Ey verən zövqu səfa ilə şirin canı mənə*

Ey verən zövqu səfa ilə şirin canı mənə,
Sən yaşat zövqu səfa ilə bu dünyanı mənə.

Tari-muyində məni etmiş əsir bir dildar,
Verdi hər muyi qədər möhnəti-hicranı mənə.

Gecələr vəsl olur, amma gecədir bəxtimdə,
Hicri yar etdi qara, gündə bu dövranı mənə.

Səcdə etdim o xəm əbrulərini qiblə bilib,
Yar göstərdi demə məscidi-əqsani mənə.

Ey təbibim, qəmimə çarə vüsali-yardır,
Boşuna vaxt itirib vermə bu dərmanı mənə.

Canı canana verib gör necə cansız qaldım,
Mənə can verməginən, ver elə cananı mənə.

Bu Əziz Pünhanı yar həsrəti cəngavər edib,
Hardadı, tez gətirin nizəni, qalxanı mənə.



## *Gəldi yaz, güllər açıldı, mənsə biyarəm hələ*

Gəldi yaz, güllər açıldı, mənsə biyarəm hələ,
Aləm oldu şadu xürrəm, çar-naçarəm hələ.

Yetdi gül sevdasına murği-gülüstan, ağlaram,
Çün gülə həsrət qalan bir bülbüli-zarəm hələ.

Dövrəmi tutmuş qəmi-möhnət, əyan-əşrəf kimi,
Eşqə çün əvvəlki tək layiqli sərdarəm hələ.

Qurtulub oddan Xəlilullah, yeri gülzar olub,
Atəşi-nari-məhəbbət içrə mən varam hələ.

İstərəm Musa əsasından mənə olsun kömək,
Ya əsa gücdən düşüb, ya da günahkarəm hələ.

Mən Süleyman tək oturdum taxta ki, hüdhüd gələ,
Yar məkanın tərk edib, bundan xəbərdarəm hələ.

Adımı aşiq qoyub aldatmasın əğyar məni,
Düşmən ilə dosta fərq qoymaqda pərgarəm hələ.

Mən Əziz Pünhan, cəfadan bir gün üsyan eylərəm,
Fikrimi bildirməyə şeir ilə vadarəm hələ.



## *Gəzdim vüsalın üçün dünyanı incə-incə*

Gəzdim vüsalın üçün, dünyanı incə-incə,
İncilə Xazin etdim, dəryanı incə-incə.

Çoxdur bu qəmsarədə aşiqlərin məzarı,
Gəzdim bu üzdən ancaq, səhranı incə-incə.

Aşiqlərin cəmalı, həm də kamalı olmaz,
Məcnun olanda sevdim, Leylanı incə-incə.

Gərçəkdə daş tək oldum cövri-cahana qarşı,
Röyada başa çəkdim, xülyanı incə-incə.

Canım üzükdü, başı qaş elədim gülümçün,
İksiri-eşqə yozdum, kimyanı incə-incə.

Kim dinləsə bu şeiri, bilməz, Əziz Pünhan,
Məna içində yazdım, mənanı incə-incə.



## *Allahın əmridi ki, etsin hər insan tövbə*

Allahın əmridi ki, etsin hər insan tövbə,
Cismə bir tazə libas tək verəcək can, tövbə.

Eşqə tövbə eləmək tövbəni sındırmaqdır,
Gətirər çünki dili-aşiqə nöqsan, tövbə.

Sanma ki, təkcə günahkarlar edərlər tövbə,
Gündə beş dəfə edər sahibi-iman, tövbə.

Məni məcbur eyləmə tövbəyi-eşqə, Vaiz,
Tövbə etsəm olacaq, çünki pərişan tövbə.

Tövbə etmək sənə çox lazım olar, ey Zahid,
Sənə rast gəlmək ilə oldu peşiman, tövbə.

Eşqsiz mən əgər Allaha tapınsam, dəliyəm,
Eşqə tövbə edənə eylədi Quran, tövbə.

Adını əzbər edən bəzi həqir nim rəcul,
Tövbə etsin ki, edər hər dəfə elan, tövbə.

Ey Əziz Pünhan edər məncə kifayət bu qəzəl,
Tövbəni tul eləmə, olmasın ərzan, tövbə.



## *Yar ilə dün elədim Kəbəyi-Ülyani təvaf*

Yar ilə dün elədim Kəbəyi-Ülyani təvaf,
Guya hura eləyir Cənnəti-Rizvani təvaf.

Yuyurub səy elədik Mərv-Səfanın arasın,
Necə Hacər eləmiş Zəm-zəmi-Minanı təvaf.

Belə bir əhd eləmişdim ki, Həcə birgə gedək,
Eləyək birgə nəbilər seçən ünvanı təvaf.

Payi-İbrahimi səccadə edib, zikr elədik,
Sözümüz də eləsin Həzrəti-Yəzdanı təvaf.

Busə etdik Həcərül-Əsvədi can nəqdi ilə,
Necə ki, aşiq edər şövq ilə cananı təvaf.

Kəbədə etdi Əziz Pünhan özün yarə fəda,
Görməmişdim edə qurban, özü qurbanı təvaf.



## *Kəc nigah ilə baxıb vurma mənə yarə, qəşəng*

Kəc nigah ilə baxıb vurma mənə yarə, qəşəng.
Gəlmişəm kuyinə et dərdlərimə çarə qəşəng.

Belə gizlincə cəfa verməyi tərk et, nə olar,
Edəcəksənsə məni məhv, elə aşkara, qəşəng.

Bağrıma vurduğun oxlar axıdıbdır qanımı,
Etmisən bir ox ilə sinəmi fəvvarə qəşəng.

Mən səni həqq bilirəm başqa ənəl-həqq deməreəm,
Çəkəsən min dəfə Mənsur kimi darə qəşəng.

Çal qılınc qaşları yüz parə elə zar tənim,
Sənə qurban deyəcək varini hər parə qəşəng.

O gözəllik ki, sənə Tanrı edib bəxş, məni,
Dəri-kuyində qoyub yalvara-yalvara qəşəng.

Bu qədər sən ki Əziz Pünhana cövr eyləmisən,
Olsa da cürmi, Xuda atmaz onu narə qəşəng.



## *Mən də xiyali-yar ilə çox etmişəm günah*

Mən də xiyali-yar ilə çox etmişəm günah,
Bu rəsmüdür ki, aşiq olan eylər iştibah.

Bu, bir günahdır ki, içi ancaq səvabdır,
Kim bu savabı görməsə, ömrün edər tabah.

Mən aşiqəm, İlahiyədir ilk məhəbbətim,
Hər nə günahım olsa yəqin əfv edər İlah.

Dərgahi-yarə üz tütüram mən vüsal üçün,
Adətdi yarına aparar aşiqi pənah.

Məcnun yanımda kimdi ki, Fərhad nə karədir,
Onlar mənə sitayiş edir, mən çəkəndə ah.

Sözdür əmudu şeşpəru şəmşiri, aşiqin,
Kim söyləyər yaraşmır Əziz Pünhana silah.

## *Gen düşdü əlim yarın əlindən, Siməvallah*

Gen düşdü əlim yarın əlindən, Siməvallah
Qəm çəkdim o əğyarın əlindən, Siməvallah.

Qəm gəlmədi, mən etdim hücum dərdü bəlayə,
Qəm qaçdı, məni- zarın əlindən, Siməvallah.

Yox söyləmərəm, başa çəkərdim, zəhər olsa,
İçsəm onu dildparın əlindən, Siməvallah,

Qəmzə dilimi bağladı, naz çeşmimi oydu,
Ah, turrəi - tərrarın əlindən, Siməvallah.

Mən zülmidəyəm naşı rəqib ilə görüşdən ,
Bülbül də yanır xarın əlindən, Siməvallah.

Qəfl eyliyəcəkdir həkimi, dərmanı loğman,
Gər alsa, bu bimarın əlindən, Siməvallah.

Çarımda Əziz Pünhanı gördüm, onu bircə,
Allah qutarar darın əlindən, Siməvallah.



## *Səbr elə, həqq bizə yar olar, İnşaallah*

Səbr elə, həqq bizə yar olar, İnşaallah,
Bizə düşmənlik edən xar olar, İnşaallah.

Möhnətə səbr elə  Əyyub kimi Allaha tapın,
Xeyir işə çün O, mədətkar olar, İnşaallah.

Sidq ilə haqqın ipindən yapış, ayrılma, mudam
Dərdə çarə eyləyən var olar, İnşaallah.

Pis günün ömrü gödəkdir, bu məsəldir deyilib,
Əkdiyim nəxldə də bar olar, İnşaallah.

Yazıya yoxdu pozu, taleyi - məsud budur,
Bu da bir əmrdir izhar olar, İnşaallah.

Eşq bimarı olanlar ucalar məhşərdə,
Zülm edənlər isə, bimar olar, İnşaallah.

Açılıb bir yol Əziz Pünhana eşqin təriqi,
Açılar bir də, bu təkrar olar, İnşaallah.



## *Gizlətmə gül camalını məndən Xudaya bax*

Gizlətmə gül camalını məndən Xudayə bax,
Mən məh camalına, sən isə məhliqayə bax.

Lalə sənin üzündəki rəngdən alıb həyat,
Dərvişə pay tərəhhum elə, bəzl payə bax.

Naz eylə ey könül çiçəyim, qönçə tək açıl,
Bir busə lütf elə bu fəqirə, sənayə bax.

Qəmzə oxun atıb ürəyim yarə etmisən,
Məlhəmdi, qəlb yarəsinə aç, ol yarayə bax.

İman evim xarabə olur, nazı az elə,
Qoyma ola xarabə, bu xəlvətsərayə bax.

Gül butəsin suvarmağ üçün bağbanı deyil,
Bu teşnəni müşərrəf elə, xoş səfayə bax.

Rəngə boyansa qönçə içində əgər qələm,
Mehmannəvazlıq eylə, gələn kəndxudayə bax.

Rəmzilə Əziz Pünhan əcəb söylədin sözü,
Dərgah həqdən üzmə əlin, haqq sayə bax.



## *Oldum camalu hüsnünə heyran talış qızı*

Oldum camalu hüsnünə heyran talış qızı,
Açdım sinəmdə sevgiyə meydan, talış qızı.

Bu bimisal gözəlliyə çox mail olmuşam,
Hicrində gözlərim də tökür qan, talış qızı.

Gur çeşmə, dağ havası, dəniz, gül çiçəkli bağ
Etmiş təbiət hüsnünə ehsan, talış qızı.

Yəqin təbiətin səsidir şux gülüşlərin
Bir yol da gül, edim canı qurban, talış qızı.

Həm də vəfalısan, ürəyin incədir sənin,
Eşq əhli səndə görmədi nöqsan, talış qızı.

Miras qalıb həya sənə əslindən, ey mələk
Can da o candır, qan da həmin qan, talış qızı.

Kamınca kaş zəmanə ola dərdü qüssəsiz,
Şadyanə keçsin ömrü firavan, talış qızı.

Qoyma Əziz Pünhanı həsrət cəmalüvə,
Hərdən elə o hüsnü nümayan, talış qızı.

## *On dörd yaşında gördüm qaymaqdodaq nigarı*

On dörd yaşında gördüm qaymaqdodaq nigarı,
On dörd gecəlik ay tək o nurlu gülüzarı.

Hər an könüldə oynar, şirin-şəkər uşaq tək,
Almış qərar-səbrim ol çeşmi- müşkübarı.

Qəlb evimi talamış, bu qönçələb mələykə,
Öldürsə yox günahı şərən bu biqərarı.

Yox dərdə hacətim gər, vursa yarə bu qəlbə,
Şahımdır ol pərivəş, mütləqdi hər qərari.

Dərk etməsə eyhamla bu pünhan olan eşqi,
Ram etməyi müşküldür bu ahuyi-tatari.

Bir nurlu nəsihətdir gəl eylə qəbul məndən,
Tale sənə yar olsa, şad eylə bu bimarı.

Səbr eylə Əziz Pünhan, ol laləçöhrə dilbər,
Bir gün də sevməyini eylər dodaqda cari.



## *Ey gül, mənə səndən də cəfakar yenə varmı*

Ey gül, mənə səndən də cəfakar yenə varmı,
Səndən də betər zalimü-qəddar yenə varmı?

Bir vaxt mən ilə şamü səhər raz eləyərdin,
Heyf oldu o günlər, o füsünkar yenə varmı?

Ləli-ləbinin həsrəti salmış məni dərdə,
Tən eyləyir aləm belə xunxar yenə varmı?

Eşq içrə məni xar eləyib dərdə salıbsan,
Bundan da betər töhməti-əğyar yenə varmı?

Sirr verdin Əziz Pünhana bir kəlmə də açmaz
Dünyada belə əhdə vəfadar yenə varmı?



## *Can kimi istərəm səni, yandırma canımı*

Can kimi istərəm səni, yandırma canımı,
Ya Rəbb, yetir vüsalə bu bəxti - cavanımı.

Mən dönmərəm, bu əl mənim olsun, ətək sənin,
Ta ki, fələklə cəng eləyəm, tökə qanımı.

Etmə dəva mənə dəxi hicranda yanmışam,
İncitmə bunca gözləri yolda qalanımı.

Əkdim könüldə eşq gülün ta ki, bar verə,
Qoydum bu yolda qəlbi – puratəşfəşanımı

Minnətdi canımı edə bu hicridən xilas,
Qəmzəylə ala xəncəri-müjgani canımı.

Quldur, Əziz Pünhan, əgər eyləsən qəbul,
Sultanlığınla bərpa elə xanimanımı.

## *Yar lütf edə bir busə yanaqdan, nə olar ki*

Yar lütf edə bir busə yanaqdan, nə olar ki.
Mən də bir alım zövq bu bağdan, nə olar ki.

Eşq adlı pəri əql-kamalımı apardı,
Din də gedə əldən bu sayaqdan, nə olar ki.

Allah özü bu eşqi yaratmış bir əmanət,
Hər cövr gələ başıma haqdan, nə olar ki.

Sevmək də, sevilmək də, ibadətdi namaz tək,
Bu işdə gedim əldən-ayaqdan, nə olar ki.

Fərq eyləməz hər əmr İlahiyə baş əysən,
Bir busə alam incə buxaqdan nə olar ki,

Qopmaz ki, qiyamət, mənə də yetsə inayət,
Bir gün isinəm isti qucaqdan, nə olar ki.

Hər kəs bu Əziz Pünhana mane ola ya Rəbb,
Həsrət qala dildara uzaqdan, nə olar ki.



## *Ya Rəbb, yenə  bülbül nə əcəb fəqanə gəldi*

Ya Rəbb, yenə  bülbül nə əcəb fəqanə gəldi,
Solmuşdu təbiət, bahar ilə canə gəldi.

Sübhün nəsimi tazə nəfəsdi, canı vardır.
Təcdid vüzu etdi, cahan zəbanə gəldi.

Hicran qəmi vəslinə yetişdi, nur ələndi,
Qüssə bizi tərk etdi, gözəl zəmanə gəldi.

Xalq haqq sözünü deyir daha möhür açılmış,
Zülmün zoru getdi, dəxi küfr imanə gəldi.

Təbriz Bakı ilə qovuşub qol-boyun oldu,
Məna qoşulub məntiqə xoş bəyanə gəldi.

Yatmışlar, Əziz Pünhan, oyandı dəxi yatma,
Şükr eylə ki, Tağut özü də amanə gəldi.



## *Nə qədər sən kimi bir qönçə dəhanım yox idi*

Nə qədər sən kimi bir qönçə dəhanım yox idi,
Ey nigarım, elə bil cismidə canım yox idi.

Bir işarəylə sənə dərdimi izhar elədim,
Üzbəüz söyləməyə tabu təvanum yox idi.

Can bahası belə olsaydı əgər eşq içrə,
Arxayındım ki, bu sevdada ziyanım yox idi.

Vəslə yetməkdi uzun illərimin qovğası,
Əsla qəlbimdə mənim böylə inamım yox idi.

Munisim şam idi ancaq gecələr yanımda,
Bəs ki, şamdan savayı dərdə yananım yox idi.

Şükr lillah ki, nəhayət, qovuşub yarə könül,
Belə kəc taleyimə zərrə gümanım yox idi.

Ey Əziz Pünhan, özün gəl özünə şər atma,
Bir daha söyləmə ki, dadə çatanım yox idi.

## *Dilbəra, oğrun baxırsan rəm görən ahu kimi*

Dilbəra, oğrun baxırsan rəm görən ahu kimi,
Yandırırsan qəlbimi qəmzənlə atəşpu kimi.

Gözlərin qurbanıyam, çox yalvarıb ram ol dedim,
Tərslik etdi, qaçdı məndən beççəyi - ahu kimi.

Eşq səhrasında gər Leyli deyilsən, bəs nədən
Boylanırsan dəstədən ayrı düşən bir qu kimi.

Səhv sözdür, sərv ağacı bar verməz, bir baxın,
Köynəyindən baş verib, tər tazə cüt limu kimi.

İntizar üzmüş məni yetməz vüsalə eşqimiz,
Ya gedər badə təmamən ömrümüz pu-pu kimi.

Göz yaşı seylab olub yandırdı qəlbi-zarimi,
Söylədi, ta key, bu eşq gizli qalar bir mu kimi.

Bu Əziz Pünhan həyatda eşqdən kam almadı,
Ruz-şəb nalə edər qumrusifət ku-ku kimi.



## *Gözəlim, şux baxışın könlümü nalan elədi*

Gözəlim, şux baxışın könlümü nalan elədi,
Qıyğacı baxmağın imanımı talan elədi.

Uyma əğyarə dəxi qoy deməsinlər sən üçün,
Bivəfa çıxdı, könül mülkünü viran elədi.

Sən davam eylə, qoy hicran hələ də cövr eləsin,
Bal arısı beləcə aləmi heyran elədi.

Vəslə yetmək elə bil xətmi-kəlamdır, çox əcəb,
Hicr ilə vəsl arası ömrümü şan-şan elədi.

Zövqü şövq ilə bitib nəxli-cavanlıq səməri,
Hicri-yar sanki Əziz Rünhanı giryan elədi.



## *Şükr lillah ki, yenə yar məni yad elədi*

Şükr lillah ki, yenə yar məni yad elədi,
Eşq zəncirinə gah saldı, gah azad elədi.

Düşməyən eşqə nə bilsin nə deməkdir sevda,
Gözün aydın, bu gözəl eşqdə bir ad elədi.

Bülbül ağlar gül üçün nalə edər sübhə kimi,
Yar gözündə yuxu yox, gör necə bidad elədi.

Məni sevdaya salan əqlü kamalındı, gözəl,
Hər çətinlikdə kamalın mənə imdad elədi.

Bu gözəllikləri ki, Tanrı sənə bəxş eləyib,
Ver Əziz Pünhana, bəlkə qəzəl icad elədi.



## *Yan eyləmə məndən gülüzari, səni Tari*

Yan eyləmə məndən gülüzari, səni Tari,
İncitməginən mən kimi yari, səni Tari.

Bağlanmışam o zülfü səmənsayə, əsirəm,
Canımdan ayırma bu qərari, səni Tari.

Gül qönçəsisən, bülbülünəm gül büdağında,
Sirdaş eləmə, könlünə xari, səni Tari.

Bilməm nə səbəbdən, mənə biganə olubsan,
Bir mən tərəfə baxgilə bari, səni Tari.

Şəhla gözünün şövqi qərarımı alıbdır,
Hərdən nəzər eylə mənə sari, səni Tari.

Bir ömrdü, kölgən kimi ardınca sürünnəm,
Gəl göz yaşımı eyləmə cari, səni Tari.

Qol bağlı Əziz Pünhan əsirindi, gözəl yar,
Azad elə bu qəlbi-qübari, səni Tari.



## *Qurbanam torpağına, sevmişəm ilkin Vətəni*

Qurbanam torpağına, sevmişəm ilkin vətəni,
O zamandan ki, cahana göz açıb tefli-təni.

Gərçi məşuqə üçün can verir uşşaqi-cahan,
Duya bilməz vətənin sevgisi naqis bədəni.

Vətən övladı vətən torpağının qurbanıdır,
Torpağı paltarı olmuş, ölər isə kəfəni.

Dövr edir qan damarımda vətən eşqilə mudam,
Əskik olmaz bu məhəbbət kəsələr bənd məni.

Bu hədis haqqıdır «hubbul-vətəni min iman»,
Buyurub çün bu kəlamı o Rəsuli-Mədəni.

Deyilib ki, Vətənin sevgisi imandandır,
Anlamaz Əhmədi-Muxtar sözün aləmdə dəni.

Dəhənin qurbanı gövhər kəlamın şamildir,
Əli övladıdı, çünki xələfindir Mədəni.

Bu Əziz Pünhana eşqin yetər, ey Xətmi-Rəsul,
Vətənin aşiqi oldu, o da sevməklə Səni.



## *Kimdi bu afəti-dövran məni heyran elədi*

Kimdi bu afəti-dövran məni heyran elədi,
Bir baxışla bu könül mülkünü viran elədi

Ərş əlaya çəkildi, yuxu getmir gözümə,
Məni tərsa balası eşqdə Sənan elədi.

Fitnəli gözləri salmış məni eşqin toruna,
Ovlayıb varlığımı, qəlbimi talan elədi.

Hər baxanda mənə yüz fitnə ilə naz satır,
İşvəli, nazlı baxışla yenə ehsan elədi.

Ala gözlər süzüləndə elə bildim bu sənəm,
Kipriyindən ox atıb, sinəmi süzan elədi.

Bu məsəldir deyilib, bir gül ilə yaz olmaz,
Bu sənəm qönçə ləbilə yazı elan elədi.

Zülfü mişkilə salıb eşq kəməndinə məni,
Payız ömrümü dolandırdı gözəl an elədi.

Dedim afət, bu yaşımda məni Məcnun eləmə,
Dedi, yaş söhbəti çox aşiqi nalan elədi.

Qönçənin ətrini duymaq dilədim pünhani,
Bağrına basdı Əziz Pünhanı pünhan elədi.

## *Sən kimi heç gözəli sevməmişəm vallahi*

Sən kimi heç gözəli sevməmişəm Vallahi,
Bu sözüm anddı ki, mən söyləmişəm Vallahi.

O gülün sevgisi almış məni ağuşa əcəb,
Qeyri sevdaları tərk eyləmişəm Vallahi.

Səhəri bircə sözün dinləməyə sərf eləyib,
Gecəni hicri ilə göynəmişəm Vallahi.

Fələyin arzusudur ki, bizi salsın ayrı,
Bilmirəm bu fələyə neyləmişəm Vallahi.

Vəslidə yar verən ətri çiçəklər verməz,
Xeyri yox, hansı gülü iyləmişəm Vallahi.

Onun ətrafı Əziz Pünhana çox cövr eləyib,
Xətrinə heç birinin dəyməmişəm Vallahi.



## *Yenə yarın nəfəsi mişk rəvan eyləyəcək*

Yenə yarın nəfəsi mişk rəvan eyləyəcək,
Bu payız ömrümü yaz ilə cavan eyləyəcək.

O şəmatət ki, payız fəsli məni xar elədi,
Növbaharım yenidən canımı, can eyləyəcək.

Gəl gülüm, bu gecənin zövqünü qoyma sabaha,
Yox ümidim sabaha, fərq zaman eyləyəcək.

Cənnət istərsən əgər, bax nə yeyirsən, insan,
Yediyindən bilinir, harda məkan eyləyəcək.

Malı yığsan, yeməsən, özgəyə qismət olacaq,
Əcrini sənlə mələk vəznu mizan eyləyəcək.

Gəl bu gün fürsəti fot eyləməyək, ömür  keçir,
Dərvişi gəl yola sal, yoxsa fəqan eyləyəcək.

Ver Əziz Pünhana dürri-yetimi ərmağan et,
Yoxsa bu tezlik ilə tərki-cahan eyləyəcək.



## *Qəm eyləmə, gözəlim, dərdü qəm də qalmayacaq*

Qəm eyləmə, gözəlim, dərdü qəm də qalmayacaq,
Sevinc üçün, qəm üçün gözdə nəm də qalmayacaq.

Məzəmmət eyləmə yarı, kobudluğun yeri yox,
Nəvaziş eylə, sevindir ki, dəm də qalmayacaq.

Yapışma hər deyilən nasaza  sözün ucuna,
Belə gedərsə bir  aşiq hərəmdə qalmayacaq.

Varınsa dövlətu malın, fəqirə bəxşiş elə,
Xəzinələr gedəcək, bir dirəm də qalmayacaq.

Biri alovda olar kül, birin vüsal əridər,
Yanırsa şəminə pərvanə, şəm də qalmayacaq.

Rəqib mənim yuxumu tərsinə yozur, yozsun,
Yuxum çin olmuş həmişə, ələm də qalmayacaq.

Bu Əziz Pünhanın axır ki, ulduzu qovuşar,
O mehriban sevinərkən, sitəm də qalmayacaq.



## *Yetmiyə bəd nəzər ol yarıma ey kaş könül*

Yetmiyə bəd nəzər ol yarıma ey kaş könül,
Belə hüsn aynasına dəyməyə bir daş könül.

Əhsənulla! Görün Haqq necə gövhər yaradıb,
Bir də mümkün deyil olsun belə göz-qaş könül.

Heç çəməndə belə qamətlə ucalmaz bir sərv,
Bu yanaqdan çəkə bilməz daha nəqqaş könül.

Şəbi-yelda kimi zülfün uzanıb yer süpürür,
Nə olar bir dolaşa boynuma sirdaş könül.

Qəmi almışdı məni, sübh açılmaqda idi,
Gün çıxarkən yanacaq hamı quru-yaş könül.

Yenə yelda gecəsi sübhə qədər tək qaldım,
Ol Əziz Pünhana ayəndədə həmmaş könül.



## *Olma bu qədər yarına bietina gözəl*

Olma bu qədər yarına bietina gözəl,
Bir gün yetər bizə yenə lütfi - Xuda gözəl.

Etməm təbibə dərdi əyan, pünhan eylərəm,
Qeybi xəzinədən alaram bir dəva gözəl.

Xoş aqibət verilməyir heç kimsəyə fəqət,
Lütfi-Xuda məgər səni qılsa səza gözəl.

Daş ağlar halıma, bunu hal əhli dərk edər,
Hal əhlinin dəvasını gəl et əda gözəl.

Məqsudə çatmağa ey Əziz Pünhan, eylə səbr,
Hər kəs yetər vüsala edərsə dua gözəl.

## *Sən də mənim kimi dəli-divanəsən, gözəl*

Sən də mənim kimi dəli-divanəsən, gözəl,
Mənsiz olanda aləmə biganəsən, gözəl.

Zülfün düşüb yanaqlarına, gizlədib ayı,
Dərdin nədir ki, sinəsi viranəsən, gözəl.

Aşiqlər içrə sənlə bərabər yazılmışam,
Aşiqliyində sanma ki, tək-tanəsən, gözəl.

Dünya dağılsa özgəsinə baxmaram, inan,
Əhdində sən də mən kimi mərdanəsən, gözəl.

Çək zülfünü kənara, görüm qara gözləri,
Eşq ilə sən də gözləri məstanəsən, gözəl.

Saqi bizə əmanət edib eşq badəsin,
Ləli ləbindir mey mənə, peymanəsən, gözəl.

Eşqin Əziz Pünhanı yandırdı şam kimi,
Xoşdur ki, sən ona pərvanəsən, gözəl.



## *Bu gecə yarım ilə xəlvəti Minada idim*

Bu gecə yarım ilə xəlvəti Minada idim,
Bəs ki vəslə yetişib, ərş müəllada idim.

Ləbu lələ yetişəndə ləbim hər ləhzə mənim,
Zənn edirdim elə bil cənnəti-məvada idim.

Yar açmışdı lətafətlə o mərmər sinəsin,
Qərq nur olmuş idim seyrü təmaşada idim.

Məxmur olmuşdu qucağımda o tərsa balası,
Qucuban incə belin, özgə təmənnada idim.

Gümüşü ləl dəxi səbru qərarımı alıb,
Zövqü şövqümdən o dəm ovc təcəlladə idim.

Yalvarırdım ki, Xudaya bu səhər olmaya kaş,
O açılmaqda, mən isə hələ dəvada idim.

Raz açıldı çəkilib ol məh üzündən pərdə,
Ki Əziz Pünhan ilə mən şəbi-yeldadə idim.



## *Naz et mənə ey gül, dəxi tədbir nə lazım?*

Naz et mənə ey gül, dəxi tədbir nə lazım?
Zülfündə əsirəm, mənə zəncir nə lazım?

Bir qəmzən ilə canımı aldın, daha bəsdir,
Qurbanın olum, bir daha şəmşir nə lazım.

Sən naz elə, naz çatdıracaqdır məni kama,
Bu xeyir əməldir buna, təxir nə lazım?

Xalın həvəsi əqlimi başdan aparıbdır,
Aləm qaradır, bəxtimə təğyir nə lazım?

Zülfi-siyahın ağ günümü qarə edibdir,
Bu eşq ərəzdir, buna təbir nə lazım?

Bu hal ilə əğl iş görə bilməz, ümid olma,
Dərs vermə, Əziz Pünhana təfsir nə lazım?



## *Bir gözəl mahi-cəbinin dəli-divanəsiyəm*

Bir gözəl mahcəbinin dəli-divanəsiyəm,
O məhəbbət quşudur, mən də onun lanəsiyəm.

Murği-ruhum gecə uçmuşdu onun dərgəhinə,
Sübh sadiqdə oyandım, demə avarəsiyəm.

Dəstəmaz aldım onun rəşgi-tərindən məni zar,
Səcdədə dərk elədim, aşiqi-məstanəsiyəm.

Aruzum vardı o şəmin dolanam mən başına,
Oyanıb gördüm onun, mən yenə pərvanəsiyəm.

Qalmıyıb tabu təvanım dözə bilməm nazına,
Bül-büli qəmzədə tək bir dili - viranəsiyəm.

Eşqdə sübhü şamım keçsə də hicran ilə,
Dözərəm, ayrılığın qəm dolu qəmxanəsiyəm.

Mən Əziz Pünhana zülfündə ayır yer gözəlim,
Qoy desinlər dağınıq tellərinin şanəsiyəm.



## *Daim sənilən olmağa göz-qaşın olaydım*

Daim sənilən olmağa göz-qaşın olaydım,
Eşq aləmində birbaşa yoldaşın olaydım.

Mümkün deyil əsla ki, öpüm incə əlindən,
Kaş öpməyə rüsxarını göz yaşın olaydım.

Ağ sinənə al lalələrin əksi düşərdi,
Kaş bir gecə səngərdə silahdaşın olaydım.

Heç noilə yetməz əlim ol kuyi - nigarə,
Qaş nəqşi üçün bəlkə qələmdaşın olaydım.

Beççə bala bənzər üzünə qarə çibin tək,
Hər  dəfə qonub sirrinə sirdaşın olaydım.

Axırda yazılsın deyibən sinəmə ismin,
Mərmər yerinə qəbrinə baş-daşın olaydım.

Hüsnün şərabı oldu Əziz Pünhana vacib,
Ləlindən içəydim onu əyyaşın olaydım.



## *Xali-siyəhi çün ruxi-cananda gördüm*

Xali-siyəhi çün ruxi-canandə gördüm,
Sanki həcəri xurşidi-tabanidə gördüm.

Röyada mələklərlə gəzib bağı-Behişti,
Amma xətü xali yenə cananidə gördüm.

Zülfi siyahi boynuma zənciridi yarın,
Baxdım, özümü sineyi suzanidə gördüm.

Çoxdan dolanırdım olam ol kuyinə mehman,
Müşkil dediər amma çox asanidə gördüm.

Adətdi gərək aşiqinə naz edə məşuq,
Covr eylər həmişə niyə hər anidə gördüm.

Məcnunu deyirlər ərəb içrə dolaşıbdır,
Amma bu Əziz Pünhanı Salyanidə gördüm.



## *Diyari- eşqidə hər aşiqi dərdə düşər gördüm*

Diyari-eşqidə hər aşiqi dərdə düşər gördüm,
Bir addım atmamış eşqə nigarından dönər gördüm.

Məhəbbət bağının bağbanına  qüssə əsər etmiş,
Nə qədri gül becərsə, bağçasın axır hədər gördüm.

Gecə-gündüz süründüm kölgə tək yarın sorağında,
Ürək beylə daş olmaz, bu gözəldə mən nələr gördüm.

Bu xəncərbelli cömərddən qılınc qaşılə can aldı,
Açıldı gözləri, kipriklərin oxdan betər gördüm.

Alovlu qəmzəsiylə leşkəri - eşqi yarıb keçdi,
Dayandı qəlb önündə şad xürrəm həm gülər gördüm.

Dedim xoş gəldin ey afət, nə yaxşı bir seçim etdin,
Dedi; axır Əziz Pünhanı da dərdə dözər gördüm.



## *Sənin eşqində yaman dərdilə möhnət çəkirəm*

Sənin eşqində yaman dərdilə möhnət çəkirəm,
Sən uşaqsan, nə bilirsən ki, nə zillət çəkirəm.

Naz edirsən ki, məni cəlb edəsən rüsvalığa,
Mən isə xalq arasında quru töhmət çəkirəm.

Bu uca qəddimi əydin, kəman etdin belimi,
Halıma yoxdu yanan, böyləcə qeyrət çəkirəm.

Necə rahat yatısan yoxdu sənin bir inamın,
Yatar ilan vuran, amma mən əziyyət çəkirəm.

Yusifi saldı Züleyxa dəxi zindana ki ta,
Onu sevsin mən isə evdə məşəqqət çəkirəm.

Ya məni zindana sal ya da ki insaf elə gəl,
Məni birdəfəlik öldür, dəxi minnət çəkirəm.

Bu sayaq getsə Əziz Pünhanı eldən pünhan,
Qızcığaz öldürəcək, mən buna həsrət çəkirəm.



## *Bir muyi-səri dilbəri dünyaya verməræm*

Bir muyi-səri dilbəri dünyaya verməræm,
Ol qarə zülfünü şəbi-yeldayə verməræm.

Əyri qaşın hilalə yəqin verməræm əvəz,
Ol işvəli baxışları min ayə verməræm.

Qönçə ləbində bal tək o məcuni-şəhdini,
Cənnət zülalı Kövsəri-əlaya verməræm.

Al rəng buxağının qoxuyan şəbnəm ətrini,
Ətri-nəsimi-Cənnəti-məvaya verməræm.

Bir ləhzə nur saçsa camali-münəvvəri,
Dünya bahası olsa, təmənnaya verməræm.

Hər bir təbəssümündə sədəf diş ziyasını,
Cənnətdəki o huriyi-löyaya verməræm.

Hər kipriyi ox olsa, dəyib sinəm üstünə,
Göz üstə var yeri, vəli, sevdaya verməræm.

Ölləm əgər bu eşqdə bir an dönük çıxam,
Mən qəlbimi bir ayrı səmənsaya verməræm.

Gərçi xəyal xam qıla könlümün quşu,
Göz qırpımında ovlayaram, payə verməræm.

Hərçənd Əziz Pünhan işin pünhan eyləyər,
Bavər də etmə, eşqi gedə zayə, verməræm.

## *Baxaraq bəsirət ilə özümü gözündə gördüm*

Baxaraq bəsirət ilə özümü gözündə gördüm,
Gözümün nuru çoxaldı, gözümü gözündə gördüm,

Süzüləndə ala gözlər bütün aləmi unutdum,
Elə bil behiştə düşdüm, özümü özündə gördüm.

Quzular mələşməsindən oyanıb yuxudan ani,
Başımı quzu məkanı sinənin düzündə gördüm.

Mənə verdi şəhdu şəkkər bu zaman nəvazişlə,
Qana bənzəyən o rəngi ləbimin izində gördüm.

Bu yanar oda nə Şirin, nə də Leyli eyləyər tab,
Məni öz məhəbbətimdə dözümü üzündə gördüm.

Yaşadın mənim üçün sən, ürəyin yanar od oldu,
Mənə atəşin yetirdin ömürü közündə gördüm.

Bu məhəbbət ümmanında hərə bir cür üzdü getdi,
Bu Əziz Pünhanı güclü, yenə öz sözündə gördüm.



## *Əhrimənlər yenə qoymur məni canana yetəm*

Əhrimənlər yenə qoymur məni canana yetəm,
Hudhudi-xoşxəbərəm, bəzmi-Süleymana yetəm.

Neçə müddətdi Züleyxa edilib evdə əsir,
Yusifi gümşüdəyəm, mən necə zindana yetəm?

Soldurublar gülümü, dörd divar içrə yanıri,
Cuyi-çeşmimdə tərim yox ki, gülüstanə yetəm.

Qəhrdən kaseyi çeşm içrə donub göz yaşımız,
Yol açılmır, necə bəs navuki-müjganə yetəm?

Vəslə yetmək ümidi Allaha qalmış, bilirəm,
Möcüz ilə gərək o dilbəri nalana yetəm.

Yazıya yoxdur pozu, qisməti yazmış Yaradan,
Kəbəyi-könlümü sındırma, qoy ol cana yetəm.

İmtahandır bu Əziz Pünhan üçün dünyada,
Mərd-mərdanə gərək, sevdiyim insana yetəm.



## *Sən tək gözəl gəlibmi bu dövrana, sevgilim*

Sən tək gözəl gəlibmi bu dövrana, sevgilim,
Hüsnün sədası bəllidir hər yana, sevgilim.

Güllər görüncə surətini oldular xəcil,
Dişlər də verdi nurunu mərcana, sevgilim.

Zülmət düşüb dalınca o qara hörüklərin,
Nurun da Ayı çəkdi biyabana, sevgilim.

Şux qamətinlə sərvi yaman hala salmısan,
Tuba da Cənnət içrə düşüb qana, sevgilim.

Naqis olursa Ay, bunu aləm bilir, fəqət,
Hüsnün necə salıb Günü nöqsana, sevgilim.

Gur-gur axan şəlalə susur, nitqi lal olur,
Sən seyr edəndə nazlana-nazlana, sevgilim.

Sünbül saçın xəyal eləyib, bir də görmüşəm,
Çəkmiş bu cismi xəlq dəyirmana, sevgilim.

Öldür Əziz Pünhanı as, kəs, səninkidir,
Lütf istəyir qapında bu divanə, sevgilim.



## *Etmiş bu zar könlümü viranə gözlərin*

Etmiş bu zar könlümü viranə gözlərin,
Qorxum budur qalar mənə biganə gözlərin.

Sevda adındı, çoxdu məhəbbət bu kəlmədə,
Baş əydirər məhəbbətə şahanə gözlərin.

Qəmzən görünsə qan aparır bağrımın başın,
Mücgan ilə çəkir yarama şanə gözlərin.

Xoş ki, piyalə gözlü yara olmuşam əsir,
İçmiş yəqin o badəni məstanə gözlərin.

Vəsf eyləyib bu gözləri qiymət qoyam əgər,
Mizanda dəhr bir yana, bir yanə gözlərin.

Könlüm gözündədir, nə gözəl məskən etmişəm,
Qaşlar nigahban oldu mənə, xanə gözlərin.

Səcdə zamanı aç gözünü, bağla, bəs edər,
Bipərdə həqqə ta yetə şükranə gözlərin.

Dostam, mənimlə məşq eyləyir, amma düşməni,
Qaşın qılınc edib salacaq qanə gözlərin.

Sən gəl bu Əziz Pünhana həmdərd gözülə bax,
Yad etdirə o yarı bu nalanə gözlərin.

## ***Nə ola dost əziz - bir də bizi yad eləsin***

Nə ola dost-əziz bir də bizi yad eləsin,
İki aləmdə görüm Tanrı onu şad eləsin.

Malı vermiş sizə Xaliq bizi etmiş möhtac,
Ehtiyac sahibinə Haqq özü imdad eləsin.

Yaxşılıq etməli insan, bu hünərdirmi məgər?
Hünər oldur ki, çətin gündə gərək ad eləsin.

Tapşırıqdır bizə mehmanə kəramət edəsən,
Bu olan işdi ki, dostlar bizə bidad eləsin?

Çün Əziz Pünhan ürəkdən vurulub dostlarına,
Çox sevir dostlarını dəhrdə dilşad eləsin.

## *Sevir məni bilirəm sirli macərasından*

Sevir məni bilirəm sirli macərasından,
Oxun atır kamanın gizlədir, cəfasından.

Nəzər salanda yanır çeşm cangüdazləri,
Bəla xədəngi gəlir qaşların arasından.

Ki az qala alışıb köynəyim alovlansın,
O nazəninə olan eşqimin şüasından.

Bu afətin necə gör fitnəli baxışları var,
Qızardı əldə qələm, isməti həyasından.

Gözüm önündə elə cilvələndi ol afət,
Dilim tutuldu onun surəti-ziyasından.

Çox istədim ki, qara zülfünü ziyarət edəm,
Əlim üzülmədi ki, gərdəni-minasından.

Dedi yetər bu qədər, səbr elə Əziz Pünhan,
Xumar olursan o gün, ləblərin səfasından.



## *Sevindir sən məni ya Rəb ki, can canana yar olsun*

Sevindir sən məni ya Rəb ki, can canana yar olsun,
Alışsın, yansın ol əğyar, həyatı tarimar olsun.

Onu hər an gözümdə cilvələndir ta tutum aram,
Əgər mümkün olarsa, qoy vücudum sayəvar olsun.

Yol üstə toz təki ollam ki, şayəd yar gəlib keçsə,
Qonum zülfi-pərişanə ki, könlüm bəxtiyar olsun.

Əgər qəmzə oxun bir yandıran tiri-şahabdırsa,
Yaralı sinəmi verrəm qabağa ta həsar olsun.

Təsəvvür etmə ki, müjgan oxundan bir hərasım var,
Sinəmdə kipriyin gül tək açılsın ta bahar olsun.

Günü-günə satırsan döz deyirsən, dözmürəm artıq,
Dolubdur səbri-kasam, çarə qıl, ta əsli kar olsun.

Əgər lütf eyləyib bir busə versən qönçə ləblərdən,
Yanar canım ətəşdən qorxuram lap şöləvar olsun.

Tələsmə, səbr elə səndə Əziz Pünhan bir az da döz,
Heç olmazsa ümidin var, dəxi ümmidvar olsun.



## *Həmişə istərəm yarım mənimlə həmnişin olsun*

Həmişə istərəm yarım mənimlə həmnişin olsun,
Bu eşq pərvanəsi çevrəmdə gəzsin, dilnişin olsun.

Gözəllik aləmində eyibsizdir sevgili yarım,
Gərək xidmətçisi ancaq mələklə hur-eyn olsun.

Gümüş tək bir bədən, azca tənumənd, sərv qamətli,
Özü ahu baxış olsun, nəfəs gülənbərin olsun.

Hörüklənmiş qara zülfü, fəraqət durmasın bir an,
Açıq alnı bədirlənsin, yanağı atəşin olsun.

Deməm qaşlar kaman, bəlkə qılınca bənzəsin, ancaq,
Rəqibin bağrını yarsın və ya ki, tiği-kin olsun.

Qara xalı dodaq üstə və ya çahi zənəxdanda,
Bu fərq etməz təki qönçə ləb içrə əngibin olsun.

Əziz Pünhan əgərçe dəhrdə bir sadə bağbandır,
Hər hansı meyvəni dərsə, gərək ki, dəstçin olsun.



## *Soruşdum ol nigardan adın nədir, dedi Cahan*

Soruşdum ol nigardan adın nədir, dedi Cahan,
Verirmisən könül mənə, dedi bu sən, bu da ki, can.

Təbəssümün könül yolu deyilmi bəs, dedim, dedi;
Könüldə sevgi olsa gər, üzü-gözü edər bəyan.

Söylə haçan yetər ləbim, şəhdi-ləbə dedim, dedi;
Gözlərim üstə, qönçə gül sənindi, istə hər zaman.

Dəxi sənəmdən əl götür, Xudanı tap dedim, dedi;
Hər kim ola aşiqi-həqq hər ikisin edər təvan.

Qoca olan şəhdi-ləbi neylər axı dedim, dedi;
Busəsi bu şəhdi-ləbin hər qocanı edər cavan.

Yaş öz işin görür dəxi nə sevgidir dedim, dedi;
Yaşın, başın nə fərqi var,  könüldə eşqə var güman.

Nədir bu qədri işvə, naz dözəmmirəm, dedim, dedi;
Dinlə Əziz Pünhanı, onunla birgə hicrə yan.



## *Adətdi ki, zülfi-siyəhə şanə dolaşsın*

Adətdi ki, zülfi-siyəhə şanə dolaşsın,
Nəinki hərəmdə dəli-divanə dolaşsın.

Vardır qonağın xicləti çünki əli boşdur,
Azca kömək et, qoy əli hər yanə dolaşsın.

İstər ki, qolu gərdəni-minaya dolansın,
Ver rüxsəti peymanəyə, məstanə dolaşsın.

Yatmaqdı xəyalı yenə canan qucağında,
İnsaf elə, qoy şəminə pərvanə dolaşsın.

Bəsdir, sitəm etmə, burax ol aşiqi hərdən,
Yatmış quzular oylağına-canə dolaşsın.

Tağ içrə şəmamə qoxuyur ətr güləfşan,
Bağbana tərəhhüm elə, kaşanə dolaşsın.

Meyvə yetişəndə hərə meyl eyləmək istər,
Yol vermə ki, narıncına biganə dolaşsın.

Şah olsa da aşiq, qərib eldə hünər etməz,
Yol göstər o şahzadəyə, mərdanə dolaşsın.

Xərc eyləmə, ol dürrü yetimi, nə xəbərdir ?
Can nəqdini ver, sevgili cananə, dolaşsın.

Qismətdi Əzizi Pünhana şəhdi-ləbi-ləlin,
İzninlə yetişsin dəxi dərmanə dolaşsın.

## *Qəmim göz yaşlarımdan qorxuram ki, aşikar olsun*

Qəmim göz yaşlarımdan qorxuram ki, aşikar olsun,
Xəbər tutsun rəqibim, şadu xürrəm xoşgüvar olsun.

Rəqibin qəsdi var, guya məhəbbət bağına girsin,
İnanmam heç zaman haşa, gədadə etibar olsun.

Hədisi-eşqimi çatdır nigara, ey səba, nolur,
Vəleykən qoyma bu sirrimlə əğyar huşyar olsun.

Deyirlər səbrilə daş ləl olar, düzdür, olar, əmma
Gərək xuni-cigər axsın gözündən şahvar olsun.

Məhəbbət bağının olmaz həsarı, bu həqiqətdir,
Gərək Yusif bazarında Züleyxa şərmsar olsun.

Qoru ənbər qoxudan telləri bir də ələ gəlməz,
Ona qoyma xəzan yeli dolaşsın, xaksar olsun.

Sevin, sən də Əziz Pünhan, vəfalı bir nigarın var,
Ki səndən özgəyə heç vaxt inanma sövdəgar olsun.

## *Bəstə boyunla naz  satırsan, bir az dayan*

Bəstə boyunla naz satırsan, bir az dayan,
Yandırmağınla həm də yanırsan, bir az da yan.

Pərvanə şəmə canı verir, söyləyən hanı?
Neyçün özün bu oda atırsan, bir az dayan.

Sən yanmasan əgər yaşamırsan demək daha,
Ol çeşmi məst ilə nə yatırsan, bir az dayan.

Sən şəmisən, nə var hamı pərvanədir sənə,
Atəşdə canı eşqə qatırsan, bir az dayan.

Aşiqlə məşuqun işi yanmaqdı hər zaman,
Atəşlər içrə sən batacaqsan,  bir az dayan.

Söylər Əziz Pünhana öz xoş təranəsi,
Axır vüsala sən çatacaqsan, bir az dayan.



## *Dolanım başına ey gul, dedi, pərvanəmisən?*

Dolanım başına ey gul, dedi: pərvanəmisən?
Yanağından qoy öpüm, söylədi: divanəmisən?

Əl götürməm dedim, hər yanə dolansan, gələrəm,
Dedi: hüşyar belə etməz, demə məstanəmisən?

Dedim: insaf elə hərdən, gözucu eylə nəzər,
Qıyqacı baxdı, nədən, bir belə biganəmisən?

Dedim: hərdən gələrəm dərgahuva, qovma məni,
Dedi: gəl bir belə etmə, məgər həmxanəmisən?

Gər anan bilsə bu sevdamızı halım nə olar?
Dedi: ömrün hədər etmə belə, əfsanəmisən?

Gəl Əziz Pünhanı eşq atəşinə qoyma yana,
Dedi: eşq içrə yanan aşiqi - yeganəmisən?



## *Sən mənim qəlbimdəki ülviyyətimsən, ey Vətən*

Sən mənim qəlbimdəki ülviyyətimsən, ey Vətən,
Harda olsam izzətimsən, şöhrətimsən, ey Vətən.

Torpağında göz açıb dünyaya gördüm çox səfa,
Sərvətimsən, ən tükənməz dövlətimsən, ey Vətən.

Sən damarlardan axan qansan, vücudumsan mənim,
Sən gücümsən, qüvvətimsən, qüdrətimsən, ey Vətən.

İmanın şövqilə sevdim mən səni, qəlbimdəsən,
Varlığımda aşkar olmuş fitrətimsən, ey Vətən.

Bu yaşıl bağlar, uca dağlar, ətirli çeşmələr,
Sevgimin ünvanıdır, hüsniyyətimsən, ey Vətən.

Allah eşqi könlümün sevdasına məlhəm çəkib,
Olmasan mən də yoxam, çün qeyrətimsən, ey Vətən.

Bu Əziz Pünhan sənə qurbandır, hər vaxt istəsən,
Sən adımsan, kimliyimsən, izzətimsən, ey Vətən.



## *Mənə bu eşqi verən tacidara şükr olsun*

Mənə bu eşqi verən Tacidara şükr olsun,
Nə yaxşı yetdi əlim vəsli-yarə, şükr olsun.

Neçə müddətdi ki, üzmüşdüm öz ümid əlimi,
Dəxi yetişdi əlim ol nigarə, şükr olsun.

Cəfa ilə məni yardan ayırmaq istədilər,
Qələt xiyal idi bu Kirdigarə, şükr olsun.

Kəsirlər eşq yolun, bəski yetməyək kama,
Xuda açır yolumu həm dübarə, şükr olsun.

Qovuşdurar səni Allah Əziz Pünhan, bil!
Həmişəlik o nazlı gülüzarə, şükr olsun.

## *İstərəm yarım mənə qəm dolu hicran verməsin*

İstərəm yarım mənə qəm dolu hicran verməsin,
«Can» sağ olsun, nola gər, vəslinə imkan verməsin.

Etmərəm əsla şikayət, qoy məni dindirməsin,
Qıyqacı baxsın, can alsın, eybi yox, can verməsin.

Vəsl bağında məni məhrum edən zalımlara,
Tanrı dərd versin, vəli, dərdinə dərman verməsin.

Eşqdə cəngavərəm, mən cani-dildən keçmişəm,
Haqq kaş aşiqnüma nadana meydan verməsin.

Görmüşəm məcnunları, vamiqləri, bir şey deyil,
Hər yetən adın qoyub eşq əhli elan verməsin.

Cismimin qanı gözəl dildarımın öz qanıdır,
Axsa qanım, qoy təbib yaddan mənə qan verməsin.

Kim Əziz Pünhana manedir təriqi-eşqdə,
Sahibi-Qüdrət ona göz açmağa an verməsin.



## *Yar verməsə gər eşqimə qiymət, özü bilsin*

Yar verməsə gər eşqimə qiymət, özü bilsin,
Bir gün biləcək o, nədir həsrət, özü bilsin.

Mən vəsli onunçün edirəm dəvət həmişə,
O, hicri bizə eyləsə dəvət, özü bilsin.

Mən ömrümə zinət o gözəl dilbəri bildim,
Amma o, məni bilməsə zinət, özü bilsin.

Biz bir-birinə yetmək üçün cəhd eləmişdik,
Birləşdirəcəkmi bizi Qüdrət, özü bilsin.

Görsün nə cəfalar onun uğrunda çəkir can,
Eşqimdən əgər almasa ibrət, özü bilsin.

Qanuni-təbiətdi iki cism bir olsun,
Qanunu əgər pozsa təbiət, özü bilsin.

Əhd etdi Əziz Pünhan ilə «Can» bu vüsalı,
Ahım tutacaq, tutmasa niyyət, özü bilsin.



## *Künc qəfəsdə xalu ləbu yara baxginən*

Künc qəfəsdə xalu ləbu yara baxginən,
Səhnü çəməndə kakili dildarə baxginən.

Zor eyləmə şux mizacini incitmə, göz yetir,
Ol xəttu xalə yalvara-yalvara baxginən.

Şövqün həqiqi eşqdisə olma binəsib,
Məstanə gözlə qəmzeyi-xunxarə baxginən.

Dördüncü qatda uyma Məsiha deyən sözə,
Nəzdi-Xudada Əhmədi-Muxtara baxginən.

Çoxdur günahın, amma cəhənnəmdən etmə xof,
Aşiq pənahı Heydəri-Kərrarə baxginən.

Gəzmə kənarıda, soruş əhvalımı təbib,
Bir dəfə gözucu nola bimara baxginən.

Vallahi heç rəvamı bizə ayrılıq çəkək,
Bir mən Əzizi Pünhana, bir yara baxginən.



## *Könül, canan sevən aşiq gərək canından əl çəksin*

Könül, canan sevən aşiq gərək canından əl çəksin,
Düşən girdabəyi-eşqə bu dövranından əl çəksin.

Məhəbbət əhli dünyadə gərəkdir pəhləvan olsun,
Nə cəngindən götürsün əl, nə meydanından əl çəksin.

Gözəl yarım məni etmiş bütün səhraların şahı,
Deyin məcnuni-naçara biyabanından əl çəksin.

Ürək məhbəsdədi, yarın xəyalıla keçir vaxtı,
Rahatdı, çaşmıyıb əqli, bu zindanından əl çəksin.

Məgər aşiq də öz canu qanından ehtiyat eylər?
Vüsali-yar ilə candan keçib qanından əl səksin,

Məgər Qarun kimi ömr eyləməkdə bir səadət var?
Gərək aşiq olan xoşbəxt güzaranından əl çəksin.

Çıx aşkara Əziz Pünhan çatıb rüsvalığın dövrü,
Əzizi razı sal, bəlkə bu pünhanından əl çəksin.



## *Rəvadur atəşi-hicrün məni-bimarı yandırsın?*

Rəvadur atəşi-hicrün məni-bimarı yandırsın?
Yanan canı məgər insafıdır öz yarı yandırsın?!

O kəslər ki, sənin hicrinlə yandırdı məni-zari,
O nainsafları hicran odunda Tarı yandırsın.

Yanında kimsə yox, çəksin bərabər dərdi bimislim,
Qəmindən az qalıb ahım dərü divarı yandırsın.

Xəlillulah üçün bir vaxt dönüb gülzarə atəşlər,
O canpərkar gözəl istər, gəlib gülzarı yandırsın.

Qulam, hüsni-lətifə sahibim mesl Züleyxadır,
Kələf olsa məzəndə Yusifə, bazarı yandırsın.

Əgər bir bülbüləm keçsə günüm gülzarə həsrətlə,
Mənimlə bağıban bahəm gül ilə xarı yandırsın.

Əziz Pünhan gecə-gündüz, bu duanı qılıb  əzbər,
Məni yardan edən şəxsi, cəhənnəm narı yandırsın.



## *Can sözün çox etmə təkrar, ismi-pünhanımdır o*

Can sözün çox etmə təkrar, ismi-pünhanımdır o,
Eşq dərsində əlifba, cismidə canımdır o.

Vəslinin müştaqıyam, barani-rəhmət gözlərəm,
Göydən enmiş ağ bulud mənalı cananımdır o.

Kəbəyə nəzr eyləmişdik, nəzrimiz olmuş qəbul,
İnşaallah, Kəbəyə bu il də mehmanımdır o.

Çox məşəqqət çəkdi Hacər, tapdı axırda nicat,
Hacəri-əsri-zamanə, haqqa qurbanımdır o.

Eşq sərməşqin nə Şirindən, nə Leyladan alıb,
Talibi-eşqi-həqiqət, ruhi-şayanımdır o.

Hacılar Nisa təvafın eyləyərdi, mən isə,
«Can»ı can içrə təvaf etdim ki, imanımdır o.

Səndə bu eşq, Əziz Pünhan, həqiqi eşqdir,
Sidqilə baş vurduğum sahilsiz ümmanımdır o.

## *Ey səba, aləmi gəz, mən təki bir aşiq tap*

Ey səba, aləmi gəz, mən təki bir aşiq tap,
Ya da könlüm kimi öz sevgisinə layiq tap.

Can verən çoxdu, mənəm hamısının ustadı,
Bu sədarətdə olan vardı mənə faiq, tap.

Əhdimi göylərə yazmış fələyin elçiləri,
Varmı dünyada öz əhdində belə sadiq, tap.

Nadan olma, məni cəhd etmə qiyas eyləyəsən,
Adı aşiq kimi çıx əlli nəfər Vamiq tap.

Nəfsi-dünya mənə yaddır, məqamım eşq ilədir,
Hanı, məndən də çox eşq içrə olan şaiq, tap.

Ey könül, sən də cahan içrə ara dilbərini,
Çün onu ruzi yazıbdır sən üçün, Raziq, tap.

Nitqini lal elədi eşqin Əziz Pünhanın,
Dərdini aləmə faş eyləməyə natiq tap.

## *Bir gözələ vurulmuşam, sanki ceyran balasıdır*

Bir gözələ vurulmuşam, sanki ceyran balasıdır,
Baxışilə canlar alır, görən heyran qalasıdır.

Sevdalandım görən gündən, nə gecəm var, nə gündüzüm,
Görəcəkli günüm varmış, hələ işin harasıdır.

Məəttələm, bu gözəlin deyəsən yoxdu heç qəlbi,
Belə getsə, soyuqluğu məni oda salasıdır.

Bu ürəklə əsir etmiş məni eşqin buz dağında,
Qəsdə durmuş gözəlliyi, sanki canlar alasıdır.

Çıxammıram o afətin sehirli eşq oylağından,
Yanaqlardan nur çilənir, elə bil ay parasıdır.

Kaman qaşlar, ox kipriklər, siyah zülfü bir aləmdir,
Dodaqlar bal dadır eyzən, dili badam arasıdır.

Həcər derlər qara daşa, bu gözəldə gördüm onu,
Yanağında qara xalı gözlərimin qarsıdır.

Əziz Pünhan ümüd ilə sevdalanıb bu gözələ,
Hicran uzun sürməz belə, bir gün vüsal olasıdır.



## *Sevgili dildar nədən pünhan gəlib, pünhan gedər*

Sevgili dildar nədən pünhan gəlib, pünhan gedər,
Lütf qılmaz bizlərə, mehman gəlib, mehman gedər.

Eşq səhrasında çoxlar özlərin Məcnun sanıb,
Leyk zövqin duymamış, heyran gəlib, heyran gedər.

Xislətində yaxşılıqlar olmalı hər aşiqin,
Nadürüstdür çoxları, şeytan gəlib, şeytan gedər.

Mərifət əhli iki aləmdə sultandır yəqin,
Xisləti pakdır onun, Sultan gəlib, Sultan gedər.

Çoxları sərvət yığar eşq aləmindən bixəbər,
Xeyiri yox dünyaya, çün üryan gəlib, üryan gedər.

Çox dedim könlümə dəymə, bəxş edim dünya sənə,
Dedi: vəslə yetməsəm, hicran gəlib, hicran gedər.

Söylədim Sənansevər tərsapərəstsən dərk elə,
Leyliyə vaxt sərf edən giryan gəlib, giryan gedər.

Pirinə nankor çıxan məqsudə yetməz heç zaman,
Bəzmi-irfanə yazıq, nadan gəlib, nadan gedər.

Bu Əziz Pünhan sənin pirin olubdur bir zaman,
Gəl inad etmə ki, bu böhtan gəlib, böhtan gedər.



## *Səba, nigarımın ətrin alıb, bu yanə gətir*

Səba, nigarımın ətrin alıb, bu yanə gətir,
Çox incidir məni hicran, o canı, canə gətir.

Tərəddüd ilə o yaş fərqini çəkir qabağa,
Çıxart bu fərqi yadından, ürək yananə gətir.

Fələk də cövr eləyir, qoymayır yetək vəslə,
O tiri-mijganı cəm eylə qoy kamanə gətir.

Qəribəm öz vətənimdə nigara yetməz əlim,
Amandı qürbətimi vəsl ilə amanə gətir.

Keçirmə ömrü hədər, yanmayaq, bu hicr oduna,
Ümid yoxdu sabaha, keçir zəmanə gətir.

Alılla dövrəyə gördükdə nazəninlər onu,
Səba, o dövrəyə gir, halımı bəyanə gətir.

Bu mahivəşlərə etməz nəzər Əziz Pünhan
Deyər mənim yarımı cəhd elə bu yanə gətir.



## *Hər aşiqin əlində bir eşqin tənabı var*

Hər aşiqin əlində bir eşqin tənabı var,
Mən bəxtiyarın həm gülü, həm də gülabı var.

Neysan kimi gözüm su tökür sərv ayağına,
Gül butəsin suvarmağının çox savabı var.

Gəl yarımın ləbindəki abi - həyatı gör,
İsgəndərin müqayisədə bir sərabı var.

Nərgiz təkin xumarlığı od saldı canıma,
Bu türk məst olub, demə meyl kəbabı var.

Bu xəstə hal ilə necə yardan sual edim,
Aşiqsə, çöhrəsilə də müsbət cavabı var.

Mən çəkmərəm zəmanədə əğyar minnətin,
Ləbtəşnənin bu dəştdə gülgün şərabı var.

Bazari-eşqidə çoxu sərmayəsiz gəzir,
Amma Əziz Pünhana bax, ləli-nabı var.



## *Yenə ürəkdəki eşqim haray çəkər, ucalar*

Yenə ürəkdəki eşqim haray çəkər, ucalar,
Cavanlıq eşqi vurub başıma bətər ucalar.

O nazənin gözəl afət dolaşdırıbdı məni,
Könül quşum ilişib toruna, məgər ucalar?

O qarə gözlü maralın süzən baxışlarına,
Baxan cavanlaşacaq, həm cavan yetər, ucalar.

Bu nazəninləri Allah yaratdı sevgi üçün,
Nədən bizim kimilər böylə qəm çəkər, ucalar.

Görəndə cahilə qismət olur gözəllərimiz
Ağıllı mərd kişilərdən çıxar şərər, ucalar.

Gözəllərin teli rahi-nicat Əziz Pünhan,
Kəməndi-eşqə düşən həlqədən keçər, ucalar.



## *Alırsan canımı gəl al, vəleykən bir üzün göstər*

Alırsan canımı gəl al, vəleykən bir üzün göstər,
Tərəhhüm eylə pünhanı, mənə süzgün gözün göstər.

Nigaran qoymusan çoxdan ala gözlü marallardan,
Burax asudə səhrayə görüm, ya da özün göstər.

Burax sərbəst məni, ta ki bu səhrayi məhəbbətdə,
Yanım eşq atəşində qıvrılım, sən də közün göstər.

Bütün aləm qoy olsun düşmənim, gər yar, yar olsa,
Nə qorxum var, qoşun dərya ola, həm yer yüzün göstər.

Dəyişməm bir səri-muyin verələr külli dünyani,
Bir incə busə lütf etsən məlahətlə, duzun göstər.

Əziz Pünhana bir kəlmə nigari hərf can versə,
Olubdur həll müşkillər, dəxi bəxt ulduzun göstər.



## *Qəm etməzdim, sanırdım ki, vəfalı bir nigarım var*

Qəm etməzdim, sanırdım ki, vəfalı bir nigarım var,
Açıldı pərdələr gördüm, dözülməz ahu-zarım var.

Mələksima deme aşiqlik eylər özgə simada,
Edib ağ günümü qarə, qaragöz tacidarım var.

Edər cilvə qabağımda gülər gahi, gəhi ağlar,
Gəhi eylə nəzər eylər, olar yox, hər nə varım var.

Təəccüblü budur ki, nazla qəmzə kinli bir aləm,
Düşüb girdabeyi-eşqə, nə halım, nə qərarım var.

Bu gün sevdayi-eşqə vermişəm çün hər nə varımdır,
Kəməndi-zülfünə bağlı əsirəm, şahmarım var.

Məni aciz sanırsa, səhvi var, eşq içrə comərdəm,
Fəqət rüsvayi-xəlq olmam, neçün, qiymətli arım var.

Əziz Pünhanam, eşq içrə bu gün Yusifi-Kənanəm,
Düşüb səyyad tək Misrə, Züleyxa tək şikarım var.



## *Günəş batsa da qəm çəkməm ki, ay üzlü nigarım var*

Günəş batsa da qəm çəkməm ki, ay üzlü nigarım var,
Nə qorxum var zülmətdən, nə qəlbimdə qübarım var.

Sədəf dişlər qamaşdırdı ayın gözün parıltıyla,
Xəcalətdən bulud içrə nihan olmuş ki, arım var.

Təbəssüm eyləsə dilbər yarılar gecənin bağrı,
Dönər zülmət gecəm nurlu sabaha xoş nəharım var.

Əgər lütf eyləsə bir an şəbi-yelda kimi zülfün
Götürsə məh cəmalından, məgər səbru qərarım var?

Onun bir telini verməm bu dünyanın bəhasına,
Kəmalu əqlidə sönməz günəş tək tacidarım var.

Görünsə qar kimi əllər «yədi-beyza» həya eylər,
Girər çaki giribanə ki, pünhani fərarım var.

Əziz Pünhan gecə-gündüz nigarın vəsfinə heyran,
Kəsilmiş nitqi, lal olmuş, deyə bilmir ki, yarım var.



## *Bilməm nədəndi yar yenə yarın incidir*

Bilməm nədəndi yar yenə yarın incidir,
Göstərməyir camalını bimarın incidir.

Könlüm o qara gözlərinin həsrətindədir,
Bilməm bu nazənin niyə öz yarın incidir.

Bir busə arizusu məni başdan eyləyib,
İnsafsızın qızı niyə dildarın incidir.

Əğyar ilə oturma dedim, kəc baxıb dedi,
Bülbül də hərdən eşqdə gülzarın incidir.

Xalı zənaxdanın dodağın həsrətin çəkir,
Qoymur yetə vüsala, tamahkarın incidir.

Gül həmdəm oldu xarə gəlir bülbülün səsi
Fəryad edir görün, gülü qəmxarın incidir.

Bəsdir, Əziz Pünhana az eylə cövrünü
Gör hansı dində qulbeçə dindarın incidir.

## *Yarım bərabərində məgər sərvinaz olur*

Yarım bərabərində məgər sərvinaz olur,
Hüsnün əgərçi vəsf eləsəm çox diraz olur.

Talan edibdi qəlb evini məst gözləri,
Əslən inanmaram bu sifət şahbaz olur.

Pərvanə şəmin aşiqidir, mən camalının,
Məşuqin aşiqə işi əlbəttə, naz olur.

Göstərsə lalə bağrını əldən gedər qərar,
Güldükdə yar, san dəhəni-qönçə baz olur.

Aşiftə tellərin məh üzündən kənar edə,
Aləm işıqlanır elə bil fəsli-yaz olur.

Aşiq olubdu gün də sənə, tapmayır qərar,
Hər gün təvafın eyləyir, eşqi məcaz olur.

Ol qara zülf kakili-mişki-səfa ki var,
Görsə Əziz Pünhan onu, könlü saz olur.



## *Ol can dediyin töhfəyi - şahanə sənindir*

Ol can dediyin töhfəyi - şahanə sənindir,
Mehmanım ol ey yar, bu kaşanə sənindir.

Bu xətti xalın, qamətin etmiş məni şeyda,
Güşümə gələn naləyi məstanə sənindir.

Gəl qış gecəsi xəlvət edək razu niyazı,
Nəql eylədiyim bir belə əfsanə sənindir.

Mən xəstəyə məcun kimi dərmandır o ləblər,
Şəhd ilə - şəkərlə dolu peymanə sənindir.

Göstərdim o gün bağçeyi-cani o nigarə,
Hər hansı nigarın deyil ol xanə, sənindir.

Qoyma bu Əziz Pünhanı hərcayi dolansın,
Çək heyranını yanına mərdanə, sənindir.



## *Yar incidir məni, yenə bilməm nə fikri var?*

Yar incidir məni, yenə bilməm nə fikri var?
Ram olmayır kəməndə bu ceyran, nə məkri var.

Hərdən pıçıldaşır dodaqaltı duyammıram,
Məndən səmalərə görəsən bir nə zikri var.

Zahirdə bəndədir, gecə-gündüz təlaş edər,
Batində afətin necə də eşqi-bikri var.

Əsrin cavanları bu məhin həsrətin çəkir,
Amma bu Leylinin yenə Məcnunə şükri var.

Bazari eşqə çəkmə dedim bu gözəlliyi,
Mehmanın haqq-hesabidə Münkirlə Nəkri var.

Mən Yusifi Kənanəm, o Misrin Mələykəsi,
Sor ki, Əziz Pünhanın axır nə fikri var?..



## *Bütün aləmdə sənin tək güli-əhmər yoxdur*

Bütün aləmdə sənin tək güli-əhmər yoxdur,
O gözəl qamətə, ol zülfə bərabər yoxdur.

Dolaşıb şövq ilə dünyada çəmənzariləri,
Sənə bənzər bu lətafətdə güli-tər yoxdur.

Kimdə vardır o kaman qaş, o qara göz, gözəlim,
Çinu Maçində belə müşk ilə ənbər yoxdur.

Oxudum xeyli kitab, çox şeyi təhlil eylədim,
Bu cəhətdən sənə bənzər, mənə bənzər yoxdur.

Düşmüşük atəşə, Nəmrudun odundan da betər,
Eşq alıb əqlimizi, qəlbdə dərd-sər yoxdur.

Bu cahan mənganəsindən çıxarıq alnı açıq,
Gözümüzdə nə cahan mülki, nə də zər yoxdur.

Eşq cəngində müzəffər yox, Əziz Pünhan tək,
Nə də ki, səngərinin oxşarı səngər yoxdur.



## *Məni biçarəyə badi-səbadən bir xəbər göndər*

Məni biçarəyə badi-səbadən bir xəbər göndər,
Qoy olsun, can bahası qəlbdən gizli şərər göndər.

Bu pünhan eşqimizdən mərdümi-cahil xəbər tutmuş,
Vəfa dərmanın iç, dilbər, mənə də bir qədər göndər.

Lal olmuş bülbülüm, sənsiz, nə gözlərdə təbəssüm var,
O qönçə ləblərindən fürsət olsa, müşki-tər göndər.

Nə zəhrindən acı, nə şəkkərindən şirinin gördüm,
Rəvadır, hər nə göndərsən, zəhər göndər, şəkər göndər.

Baxanda mən tərəf gülgün dodaqlarda bahar gülsün,
O qarə qaş ilə gözdən bu cismə bir səmər göndər.

Mahal işdür, məni səndən, səni məndən kənar etmək,
Qırılmaz eşqi-zülfündən hörüklə bir kəmər göndər.

Ağarsın gözlərim, səndən savay bir dilbərə baxsam,
Əgər baxsam, mənə Allahdan min bir xətər göndər.

Sənə hər bir gözəllikdən Xudavənd lütfü bəxş etmiş,
Şəkər ləbdən sağalmaz yarama baru bəhər göndər.

Sənin eşqinlə güc tapdı Əziz Pünhan, əziz oldu,
O şimşad qəddini əymə, cavanlıqdan əsər göndər.



## *Sevir məni deyə bilmir, görən daha nəsi var*

Sevir məni deyə bilmir, görən daha nəsi var,
Keçir sağu soluma sanki bir bəhanəsi var.

Bir az da gözlə deyir, mən kimi o da düşünür,
Bu feli-nəhs fələyin də əcəb zəmanəsi var.

İtirmişəm özümü mən onu tapan gündə,
Özündə tapdım özümü əcəb fəsanəsi var,

Həmişə qəmlidi yar, yollar ayrıcında qalıb,
Ürəkdə eşqim üçün gizli sevgi xanəsi var.

Ömur kimi bahar fəsli də keçir heyhat,
Vəli bu murği-dilin daimi təranəsi var.

Apardı əğlin Əziz Pünhanın bu eşq seli,
Göy ilə Yer arasında qəribə lanəsi var.



## *Sübh əsdikcə səba zülf ruxi yarə dəyər*

Sübh əsdikcə səba zülf ruxi yarə dəyər,
O səbanın dodağı ləli-şəkərbarə dəyər.

Eşq üçün yaz yağışı tək tökə yaş gözlərdən,
Qətrəsi yar yanında düri-şəhvarə dəyər.

Ayağın tozu başında uca şah tacından,
Elə bir zirvədəyəm, başıma səyyarə dəyər.

Can fəda eyləyərəm sevgili yarə bəs ki,
Qorxuram xəlq duyar, zərbəsi dildarə dəyər.

Həsrətəm gör neçə müddətdi o şəkkər ləbinə,
Vermişəm canım ilə ol gülü-bixarə dəyər.

Eşqə düşmək həvəsin varsa qədəm qoy qabağa,
Hər qədəm atmağın əlbəttə ki, dəvvarə dəyər.

Vəslətin saf bulağından gər Əziz Pünhan içə,
Dediyi hər sözü min hikməti-əsrarə dəyər.



## *Bədrlənmiş ay kimi seyrə ki, ol hura çıxar*

Bədrlənmiş ay kimi seyrə ki, ol hura çıxar,
Nura həsrət sabitu səyyar olub əhya, çıxar.

Kasəyi-qəlbim dolar bir cangüdaz busədən,
Bihuş ollam, xatirimdən ləzzəti-dünya çıxar.

Vəsl canan şadlığından riqqətə gəlsə könül,
Göz yaşım seylab olar, birləşsə bir dərya çıxar.

Şükr lillah Tanrı vermiş hər gözəllik yarıma,
Üstəlik ağ örpəyindən zülfi-ənbərsa çıxar.

Lütf feyzin söylədim dildara sirri-eşqimin,
Söylədi naz ilə gəl hikmətli bir məna çıxar.

Mən də tənha, ev də tənhadır, pərişan qalmışam,
İndi yar etsə ziyarət könlümü, əla çıxar.

Mən Əzizi Pünhanın qəlbində min Məcnun yatıb,
Sən pərinin qəlbini açsam, neçə Leyla çıxar.



## *Neçə müddətdi ki, fəryadımı ol "Can" eşidir*

Neçə müddətdi ki, fəryadımı ol "Can" eşidir,
Bəs nədən, rəhm eləməz, bunca ki, əfqan eşidir.

Dün iki aşiqə həsrətlə baxıb, qəm yemişəm,
Şövqilə bir-birinə can deyərək, can eşidir.

Sızlaram dərdü qəmindən o pərinin belə ki,
Qəbr içində mənim ah-naləmi loğman eşidir.

Aşiqin dərdini aşiq bilər ancaq, nə xeyir,
Danışırsan onu, bir yerdə çox insan eşidir.

Sən elə bilmə, yağışdır bu yağan başımıza,
Ağlayır macəramı, hurivu qılman eşidir.

İstəməzdim, o günəş üzlü bu dərdi bilsin,
Çünki, hər dəfə olur, qəlbi pərişan, eşidir.

Elə bir incə ürək var ki, mənim yarımda,
Etməsəm də mən əgər  dərdimi elan, eşidir.

Bu Əziz Pünhanın əhvalına quşlar oxuyur,
Çünki, ah-zarını hər morği-səhərxan eşidir.



## *«Can» üçün sevgili yar söhbətinin ləzzəti var*

«Can» üçün sevgili yar söhbətinin ləzzəti var,
Dərk qılmaz bunu onlar ki, meyə rəğbəti var.

Nə deyirlərsə desinlər, bu ki, eşq məktəbidir,
Belə məktəbdə sədaqətlə vüsal fürsəti var.

Səbri-Əyyubi gərək sevgililər adət edə,
Hicrə dözmək də ibadətdi, vəli, zəhməti var.

Nə tanırdım səni ey «Can» dediyim nazlı sənəm,
Tanrı yazmış mən üçün bil ki səni, qisməti var.

Cəm ola leşkəri-udvan, qılalar cəhd bizi,
Ayıra bir-birimizdən ki, məgər qüdrəti var?

Ey filankəs, nə ağılla vuruşursan mən ilə,
Qüdrətullahdı, Yədullahdı bu əl, şöhrəti var.

Babadan irs qalıb eşq Əziz Pünhana,
Kim ona mane ola, ruzi-cəza zilləti var.



## *Yetiş ey yar mənə, gəl elə bu canı xilas*

Yetiş ey yar mənə, gəl elə bu canı xilas,
Rəsmdür məşuq edər aşiqi-nalani xilas.

Sən məni hicrin əlindən qurtarıb kama yetir,
Eləyim mən də əlimdən çəkən hicranı xilas.

Sən Xəlil ol mənə, mən də sənin İsmailinəm,
Nə deyirsən de, Xuda etməsə qurbanı xilas.

Uyma dünyaya cahan fanidi gəlmiş, gedəcək,
Tək məhəbbətdir edən cövrüdən insanı xilas.

Üzü vəchullah olan bir gözələ müntəzirəm,
O gəlib eyləyəcək cümlə bu dünyanı xilas.

Kimdə var hövsələ imanu, ədəb, insanlıq,
Bu cəhalətdən edər, ağilü danani xilas.

Ey Əziz Pünhan, əgər yaxşı qəzəlxan olsan,
Edəcəksən üzülən şeir ilə dastanı xilas.

## *Geymişəm mən xeyli müddətdir ki, hicrandan libas*

Geymişəm mən xeyli müddətdir ki, hicrandan libas,
Göz yaşım biçarə cismə bəxş edib qandan libas.

Sürməsin, kəşdim yanından binəva Fərhadılar,
Eşq dəryasında vardır məndə tufandan libas.

Yarımın incə vücudin geymək istər bu vücud,
Yoxsa ki, min-min gələr mən zarə hər yandan libas.

Yarsız dünyanı çılpax etmişəm bədnam olub,
Mən çıxardıb atmışam üç dəfə dövrandan libas.

Bir bəzəkdir sözlərim, zinətdi yar əndamına,
Türfə canan canına geydirmişəm candan libas.

Fani dünyanın fəna əşyasıdır, yox ləzzəti,
Əynimə dar oldu, yarı gördüyüm andan libas.

Eşq meydanında can vermiş Əziz Pünhan yara,
Cismidir, dəfn eyliyin, tapsaz bu meydandan libas.

## *Sevilmək özgə bir aləm, vəli sevmək müsibətmiş*

Sevilmək özgə bir aləm, vəli sevmək səadətmiş,
Sevərkən məqsədə yetmək, sevənlərçün bir adətmiş.

Məni sevda quşu rast eylədi bir incəbel türkə,
Əlim gər kuyinə yetsə, bu fürsət bir qənimətmiş.

Məni dağa-daşa salmış, ümidi-vəslimi kəsmiş,
Gümanım da gedib əldən, bu qız bir özgə afətmiş.

Oturmuş üzbəüz mənlə məhəbbətdən açır söhbət,
Vəli bir qətrə su səpməz yanar qəlbə, ciyəryanmış.

Qaranlıq almış ağuşə qara göz nazənin canı,
Qalıb həsrət çəkən qollar qucaqda bir quru canmiş.

Bu arzuyla yaşar canım ki daş qəlb yumşalar bir gün,
Sarılar boynuma yar tək əzizlər, nə gözəl anmiş.

Bu qədər qəmlə yüklənmə, Əziz Pünhan sevin, yarın
Səni qəlbən sevir həqqa, bu sevgi əsli sərvətmiş.



## ***Səni eşq içrə dərdimə dəva sandım, bəlasənmış***

Səni eşq içrə dərdimə dəva sandım, bəlasənmış,
Vəfalı bilmiş idim mən səni, çox bivəfasənmış.

Sənə verdim bu canı bir əmanət tək, cəfa etdin,
Canımda qoymadın candan əsər, əhli-xətasənmiş.

Mənə dərd eylədin, həm də gözümdə dərdli görsəndin,
Mənimçün zülmkar oldun, özünçün binəvasənmiş.

Qəminlə eylədim mən aşinalıq, rubəru durdum,
Sənə yadmış həyatım, sən sevinclə asinasənmiş.

Sənə dərdli gələnlər, dərdi tərk etdi, səfa gördü,
Demə dünyada sən bir tək mənimçün bişəfasənmiş.

Nə yazdım baxmadın, nə söylədim güldün, keçib getdin,
Ki, xülqündə guya başdan-başa nazsan, ədasənmiş.

Gözün, zülfün, qaşın, xalın görüb yazdı Əziz Pünhan,
Əcəb təşbehdi ki, bəxtim kimi sən də qarasənmiş.



## *Şıltaqlıq etmə eşqidə ilqardan danış*

Şıltaqlıq etmə eşqidə ilqardan danış,
Uşşaqə zövqü şövq verən yardan danış.

Allah kərimidir ona şükrü təvəkkül et,
İnsana can verən o səbəbkardan danış.

Allah nə istəsə o olar, mən deyən deyil,
Aşiq pənahi Qadirü Qəhhardən danış.

Xəlq etdi Kəbəni, mən isə hüsnüvü təvaf,
Min dövrə eyləmiş belə zəvvardan danış.

Gül bəhsin açma könlümə mərufi-eşqdir,
Bülbüllə bəhsə-bəhs gedən xardən danış.

Könlüm açıbdı süfrəni dərdinlə sübhü şam,
Şəbandə aşiq açdığı iftardən danış.

Dünya Əziz Pünhana beş gün təmamdır,
Beş gün əlavə istəsə isrardan danış,



## *Hərdən de naz ilə mənə bir can, yavaş-yavaş*

Hərdən de naz ilə mənə bir can, yavaş-yavaş,
Mən də olum o nazına heyran, yavaş-yavaş.

Şövq ilə incə-incə belindən tutum sənin,
Zövqi-vüsala baş əyə hicran, yavaş-yavaş.

Çeşmimdə yazsın eşq sözün binava könül,
Nitqimdə eyləsin onu elan, yavaş-yavaş.

Hər an dönüm sənin başına ləzzət ilə, çün,
Eylər təvafi-Kəbə müsəlman, yavaş-yavaş.

Əsdikcə meh o qara saçın cəngə başlasın,
Ox kipriyinlə tut mənə divan, yavaş-yavaş.

Aslan misalı pəncələşək zövqi-vəslidə,
Meydanı seylab eyləyə tər-qan, yavaş-yavaş.

Çəkdir Əziz Pünhana vəslin sitəmlərin,
Səndə o mənliyin edə pünhan, yavaş-yavaş.



## *Gün keçdi, könül, gəl gecəni fikru xəyal et*

Gün keçdi, könül, gəl gecəni fikru xəyal et,
Fikrində yenə xatireyi hüsnu camal et.

Fərhad kimi çap dağları, Məcnun kimi ağla,
Daim ozünü haqq sevən üşşaqə misal et.

Gülzaridə fəryada gəlib, böylə fəğan et,
Gül eşqi ilə nalə çəkən bülbülü lal et.

Cəmiyyət içində dəli-divanədir aşiq,
Sən çölli-biyabanidə get, kəsbu kəmal et.

Dünyada nə var, aqibəti fanidi, sən də,
Allahın ipin tut, özünə cahu cəlal et.

Dünyada Əziz Pünhana bənzər hanı aşiq,
Get təhsil al ondan, sonra da əzmü vüsal et.



## *Zülfün törədib cümlə bu dünyada qiyamət*

Zülfün törədib cümlə bu dünyada qiyamət,
Cismin də edir ərşi-müəllada qiyamət.

Hicran gecəsi ahımı, göz yaşımı gör ki,
Tufandır edir səfhəyi dəryada qiyamət.

Vəslin dilədim, naz elədi, söylədi yox-yox,
Varmış  necə gör bircə təmənnada qiyamət.

Hüsnün görə hər kim itirir nitqi- zəbani
Kim görsə, bu halı düşəcək yada qiyamət.

Haqq aşiqinə bir kəs edə  zülmi, əgərçe,
Sərmayəsin axır verəcək badə, qiyamət.

Bir can  desə dünya dolanar başıma billah,
Minnətdi mənə qopsa bu əsnada qiyamət.

Bu vəsli, Əziz Pünhana çox görmə, İlahi!
Cənnət taparam olsa  bu mənada qiyamət.



## *Novruz gecəsi çeşmi-tərim ləli-nab oldu*

Novruz gecəsi çeşmi-tərim ləli-nab oldu,
Müjdə verənim əvvəli-sübh, afitab oldu.

Naz ilə alıb dövrəmi uşşaqi-təranə,
Bir yanda dəfi-dairə, bir yan rübab oldu.

Tel-tel dolaşıb xanələri bəstənigarın,
«Dilkəş» ilə «Mahur»u bir özgə səvab oldu.

«Dəşti» bəmi həm şurə gətirdi mən zari,
Sarı simə əzm etdi əlim, özgə bab oldu.

Qəddini düzəldib yenə novruz gülü güldü,
Bu rayihədən hal şəyatin xərab oldu.

Aləm hamı al rəngə boyandı çiçək açdı,
Su içdi nabatat tamamən sirab oldu.

Qumru quşu ku-ku, qaraquş cəhcəhi-bülbül,
Arami dilim xatireyi çeşm ab oldu.

Ayineyi-dildə özünü etdi nümayan,
Odlu baxışı rəmz ilə müsbət cavab oldu.

Çeşmə başı, həm dağ havası, yamyaşıl oylaq,
Bu yerdə Əziz Pünhana dərya sərab oldu.

## *Edib aşiqləri min şövqilə heyran, ahu*

Edib aşiqləri min şövqilə heyran, ahu,
Eşq səhrasını etmiş yenə meydan, ahu.

Dövrü Məcnun başa çatdı, mənəm indi aşiq,
Nə gərəkdir mənə yar olmasa, ceyran, ahu.

Yetişər hikmət ilə qan dolanıb müşkə dönər,
Bu gözəl ətri verir səbr ilə Yezdan, ahu.

Küyinə yetmək üçün düşdü yolum səhraya,
Dəri-ümmidə məni eylədi dərban, ahu.

Gizli tərsa qızına bir gecə tor qurmuş idim,
Özümü etdi fəqət seyd, müsəlman, ahu.

Bəsdi əzbər elədiz nitqdə Məcnun, Fərhad
Məni ustad eləyib onlara dövran, ahu.

Bu Əziz Punhanı ahular alıb dövrəsinə,
Onu cəlb eylədi amma adı punhan, ahu.

## *Kim eşqə əsir oldu, əhvalı yaman oldu*

Kim eşqə əsir oldu, əhvalı yaman oldu,
Kim əhli-bəsir oldu, vəslinə zaman oldu.

Eşq etdi onu qəmnak, dərdi elədi idrak,
Batmadı ona napak, qalxanı iman oldu.

Eşq eylə sınaqdır ki, atəşli ocaqdır ki,
Bir teşnə bıçaqdır ki, qan istəsə qan oldu.

Hər eşqə könül vermə, hər bağda çiçək dərmə,
Hər şəxsi əziz görmə, ismində nihan oldu.

Könlümdə rübab inlər, göylər də onu dinlər,
Qəst etsə mənə minlər, bu canla o can oldu.

Bir qönçə gül olsan sən, mən də olaram gülşən,
Bir zərrədəyik sən, mən, haqdan bu ayan oldu.

Sevda özü bir dindir, fətvaları təmkindir,
Hüsnün də bir ayindir, sən gəldin azan oldu.

Agahdı Əziz Pünhan, səyyahdı Əziz Pünhan,
Padşahdı Əziz Pünhan, yar təxti-rəvan oldu.



## *Qəmini gəl sinədə qanı axan yarada yu*

Qəmini gəl sinədə qanı axan yarada yu,
Dərdinin cəmini bu qırmızı fəvvarədə yu.

Çeşmə var çarə edir dərdinə biçarələrin,
Çarə tap, könlünü bu çeşmeyi-biçarədə yu.

Ağ suda qara olanlar özünü gizli bilər,
Sən ağ ol, bəxtimə gəl, taleyini qarədə yu.

Ya çay olsun, dəniz olsun, ya öləm mən, yu məni,
Bir əlin, bir bədənim, fərqi nə, hər barədə yu.

Bu Əziz Pünhanı min parə elə bir baxışa,
Öz əlinlə sonra da qoy izi, hər parədə yu.



## *Məcnun kimi eşqin yoluna kim bələd oldu*

Məcnun kimi eşqin yoluna kim bələd oldu,
Yastıq yerinə başının altda ləhəd oldu.

Mən eşq ilə haqqın yolunu tutmuşam ey dil,
Bu işdə mənə Şiri-Xudadan mədəd oldu.

Dərdi hesab etdim bu çətin eşq yolunda,
Min dəfə məni ötdü ədəd, la ədəd oldu.

Mən zövqü səfa, dərdu bəla eşqdə çəkdim,
Əğyara qalan kizbu riyavu həsəd oldu.

Şeytanlara dost oldu məni sevməyən insan,
Dostum mənim aləmdə o Həyyu Əhəd oldu.

Səhrada qalıb gəlmədi şəhrə dəli Məcnun,
Şəhr içrə ona çəkdiyim hər ah səd oldu.

Ruhumla Əziz Pünhanı pünhan elədim mən,
Aşkarda qalanlar hamı axır cəsəd oldu.



## *Nazlı yara təsir etməz, aşiqi-nalan sözü*

Nazlı yara təsir etməz, aşiqi-nalan sözü,
Yar üçün guya savabın lütfüdür hicran sözü.

İstərəm ismin deyim, amma bu cür öyrəşmişəm,
Nagahan dildən çıxır «canım sənə qurban» sözü.

Hər nə əmr etsən dilimdən «yox» sözü çıxmaz mənim,
Olsa-olsa nitqi-zarımdan çıxar, bir «Can» sözü.

Ya sudan, ya zəhrdən min bir dəva versə təbib,
Təsir etməz, bəsdi sən bir dəfə de: «dərman» sözü.

Layiqəm ariflərin hər sahədə iradına,
Məğzi puçdur, iz buraxmaz qəlbimə nadan sözü.

Hüsn içində itmiş aşiqlər nə bilsin söz nədir,
Onlara eşq barədə mən etmişəm elan sözü.

Kim nə söz söylərsə, öz dərki-məqamından deyər,
Leyk idraki-bəşərdən alidir Quran sözü.

Çoxları qoydu özündən sonra çox söz eşqdən,
Amma təsir etdi dildarə Əziz Pünhan sözü.



## *Bəhri-eşq içrə tutar qəlbimi yar, atsa tilov*

Bəhri-eşq içrə tutar qəlbimi yar, atsa tilov,
Ov olur aşiq ora, harda edirsə yari ov.

Səyirir eşqi-səməndin yenə aşiq ürəyi,
Fərq budur sürəti artır vəli çəkdikcə cilov.

Xəlq yanğın bilib atmış özünü küçələrə,
Daha bilmir ürəyimdə alışıb qalxır alov.

Sevinir bəs ki, rəqib mən yarıma yetməmişəm,
Görmək üçün məni-nakami gedir guya sinov.

Yari görməkdə Əziz Pünhan olub tərpənməz,
İlk baharda gülü rənanı vurub sanki qrov.



## *Bir təbiətdən gələn qüvvətdi hər insana çay*

Bir təbiətdən gələn qüvvətdi hər insana çay,
Gər vücudunda ola dərdin, dönər dərmana çay.

Çay kimi ruhun vücudunda axa, ruhun coşar,
Onda ki, min naz ilə canan süzə fincana çay.

Çox qədimdir tarixi bu ali mənsəb içkinin,
Eldə adətdir verərlər hər gələn mehmana çay.

Günbəgün xeyli cəfalar gördüyüçün bu ürək,
Düşsə də yorğun, salar daim onu səhmana çay.

Saqi, mən meydən əl üzdüm, al şərabı istəməm,
Varsa lütf eylə mənimçün bir-iki peymana çay.

Gözlədim sən tək Əziz Pünhan, gələ dilbər qonaq,
Mən də sadiq qul kimi ikram edəm canana çay.



## *Könül lövhində çəkdim yar şəklin, heç zaman getməz*

Könül lövhində çəkdim yar şəklin, heç zaman getməz,
Bütün aləm köçüb getsə, yəqin billəm o can getməz.

Onun şimşad qəddi həkk olubdur cani - qəlbimdə,
Başım da getsə, haşa bu könüldə həkk olan getməz.

Əzəldən zülfi - mişkə əhd peyman bağladı könlüm,
Yəqinən dönməz əhdindən ola axırzaman getməz.

Mənimlə cani - dildən eşqdə bir macəra qurmuş,
Əgər Leyla ata Qeysi, gedə, bu natavan getməz.

Sığışmış ruh ilə cismi, mənim bu sirli qəlbimdə,
Nə qədri balü pər çalsa, qəfəsdən cismü can getməz.

Nədən getsin vəfadarım, atarmı yar öz yarın?
Onunla var olur varım, yəqin sərvi - rəvan getməz.

Düşübdür bu Əziz Pünhan dalınca yay-qış ey yar,
Əgər qovsan da qapından bir addım, bircə an getməz.



## *Əzizəm, eylərəm, sevdiyim insanı əziz*

Əzizəm, eyləyərəm, sevdiyim insanı əziz,
Necə ki, Məcnun edib sevdiyi Leylanı əziz.

Sınsa da balu pərim, enmərəm əsla göydən,
Günəşəm, nurum edib zülməti-dünyanı əziz.

Nə qədər aşiq olub, gözləri yollarda qalıb,
Hamı qurban gedərək saxlamayıb canı əziz.

Sığalı çək sözə, gövhər kimi bir inci yarat,
Ey könül, hər kəs üçün eylə bu mənanı əziz.

Təbibin etdiyi çarə qəmimi artırdı,
Mənə kar eyləmədi, olsa da dərmanı əziz.

Sinəmi paraladım, kuyinə iz saldı qanım,
Bütün aşiqlər üçün etdim o ünvanı əziz.

Mən Seyidzadə Əziz idim, adım da aşkar,
Aşiq oldum, elədim ismimə Pünhanı əziz.

## *Maili ləli-ləbin kim olsa dövran istəməz*

Maili ləli-ləbin kim olsa dövran istəməz,
Canını kuyində qurban eyləyən can istəməz.

Əhli-eşq kəlməndən almışdır həyati-cavidan,
Ləblərindən zövq alan kəs abi-heyvan istəməz.

Ey təbib, yoxdur mənə səhhət ümidi, dərdliyəm,
Eşq dərdindən olan sərməst dərman istəməz.

Hər nəyi mən istərəm, adətdi əğyar istəmir,
Qaydadır Allah qoyan qanunu şeytan istəməz.

Ömrümün mənası zülfün tək dağılmışdır mənim,
Buyi-canan istəyən könlündə səhman istəməz.

Mən qılıncımla difa etdim, cəfa gördü rəqib,
Haqq olan cəngi-hünərdə əldə qalxan istəməz.

Bu Əziz Pünhan nəcabətdə Əli övladıdır,
Çəksin o aləmdə zillət, Şahi-Mərdan istəməz.

## *Əlbəttə ki, eşq aləmi əfsanəsiz olmaz*

Əlbəttə ki, eşq aləmi əfsanəsiz olmaz,
Yanmaqda olan şəm dəxi pərvanəsiz olmaz.

Zülfünlə salıb dami-bəlaya məni getdin,
Zəncirə misal zülfidi, divanəsiz olmaz.

Bilməm niyə öz yarına biganə olubsan,
Axır gözəlim, eşq özü də lanəsiz olmaz.

Əfsurdələnib zülflərin bəs nə səbəbdən,
Tel-tel düzülən züfi-siyəh şanəsiz olmaz.

Mən Yusifi-Misr, sən də Zülyexayi-zamansan,
Eşq əhli nə zindan, nə də qəmxanəsiz olmaz.

Tab etmək üçün zillətə qüdrət tap özündə,
Viranə, bu bir qaydadı dürdanəsiz olmaz.

Hicran odu yandırsa da vəsl məlhəmi xoşdur,
Eşq bülbülü zar olsa da, kaşanəsiz olmaz.

Sən həmd-səna eylə, Əziz Pünhan, unutma,
Hər harda vüsal varsa da, əfsanəsiz olmaz.



## *Gələ bilsəydik əgər bir qərara hər ikimiz*

Gələ bilsəydik əgər bir qərara hər ikimiz,
Səadətə qovuşardıq dübarə hər ikimiz.

Sən orda cövrdə, mən burda dərdi-möhnətdə,
Cəfada qaldıq əcəb bəxtiqara hər ikimiz.

Səfadı bizlərə eşq atəşində yanmaq da,
Atılmışıq necə gör suzi-narə hər ikimiz.

Bu zülmdən bizi əlhəqq Xuda xilas eylər,
Sığınmışıq yenə Pərvərdigara hər ikimiz.

Cahanda bir yaşayaydıq bütün ömrü boyu,
Gedəndə birgə gedəydik məzara hər ikimiz.

Vəfalı Yusifinəm mən, gözəl Züleyxamsan,
Yetək bu Misrdə hər iftixara hər ikimiz.

Vüsala yetmək üçün həzrət Abbas adına,
İki nəzir demişik ol diyara hər ikimiz.

Əziz Pünhan özün «Can» ilən yazıb bahəm,
Bu can ilə edirik istixarə hər ikimiz.



## *Nə lazımdır mənə bağu bahar, ey güluzar sənsiz*

Nə lazımdır mənə bağu bahar, ey güluzar sənsiz,
Mənim zövqümcə rəngin eyləməz bağı, bahar sənsiz.

Necə məndən kənarsan sən, vüsalın ayrıdır məndən,
O cür də olmuşam zövqü səfadan mən kənar sənsiz.

Dəmadəm intizarınla gözümdən qan olur cari,
Cigər qanım içər gülgün şərab tək intizar sənsiz.

Səni ağuşa almışdım, qucaqlardım, vəli indi,
Məni ağuşuna almış, qucaqlar dərd-qubar sənsiz.

Mənim əhvalımı bilmiş cahana sığmayan kəslər,
Məgər dünya batar, bilsəm, geniş dünyanı dar sənsiz?

Tutubdur hər yanı indi məlalü dərdü qəm qüssə,
Tökürlər başıma daşı, edirlər iftixar sənsiz.

Qayıt gəl ki, Əziz Pünhan sənə həsr eyləyib ömrün,
Ona dünya məzar olmuşdur, ey nazəndə yar sənsiz.



## *Aşiqin min dərdi olsa, çərx dərman eyləməz*

Aşiqin min dərdi olsa, çərx dərman eyləməz,
Hal-əhval tutmağa bir dəfə imkan eyləməz.

Hicrə hazırdır fələk açsın geniş darvazasın,
Amma eşq əhlin bir an da vəslə mehman eyləməz.

Çox zaman yüksək tutur zalım gəda xislətləri,
Buxldan tac verməyib, xan oğlunu xan eyləməz.

Eşqdə olsa günahı aşiqi rüsvay edər,
Min günah etmiş zülmkarı peşman eyləməz.

Mən dayansam çərx dövran eyləyər ahəstəcə,
Hikkəsindən mən qədəm atdıqda, dövran eyləməz.

Əhdi var, guya sevər insanları, bir hiylədir,
Hər kəsi qurban alar, heç nəyni qurban eyləməz.

Cismi getsə, yazdığı sözlərlə daim var olar,
Cismisiz də çərx Əziz Pünhanı pünhan eyləməz.



## *O nur saçan üzünə ay desəm günah olmaz*

O nur saçan üzünə ay desəm günah olmaz,
Desəm ki, gözlərin ulduzdu, iştibah olmaz.

Böyük vüsalın içində kiçik əzablar olur,
Tədavi etsək əgər rəngimiz siyah olmaz.

Məhəbbət əhlinə əfqan keçibdir irs ilə,
Nə aşiq oldu o kəs, onda nalə-ah olmaz.

Ölümlə dirliyə qalib gəlir əsil aşiq,
Bu cəngdə haqq olana başqa bir silah olmaz.

Həyat da ağ-qaradır, qüssəsi, sevinci olur,
Səadəti ürəyin gah olursa, gah olmaz.

Məhəbbət aləminə olmasa könül hakim,
Nə qədri taxta əgər çıxsa da o, şah olmaz.

Deyib halallıq ilə cana cani, dərdə də dərd,
Əziz Pünhana yoxsa həyat mübah olmaz.



## *Allaha pənah etmədədir «Can» gecə-gündüz*

Allaha pənah etmədədir «Can» gecə-gündüz,
Yar xatirinə gözdən axır qan gecə-gündüz.

Tərk etdi könül mülkünü ayrıldı o canan,
Oldum necə gör zaru pərişan gecə-gündüz.

Getməzdi özü düşmən onu aldı apardı,
Aldanmağına oldu peşiman gecə-gündüz.

Bir yanda o yar etdi dua vəslidən ötrü,
Bir yanda da mən eylərəm əfqan gecə-gündüz.

Nə qədr kənar olsa da onsuz da mənimdir,
Vəslə tapırıq axırı imkan gecə-gündüz.

Cəddim eləyir dərdlilərin dərdinə dərman,
Mən də dilərəm dərdimə dərman gecə-gündüz.

Səbr eylə yetər yarı Əziz Pünhana bir gün,
Şövq ilə açar vəslinə meydan gecə-gündüz.



## *Gözlərin ol nərgizi-şəhlaya eylər etiraz*

Gözlərin ol nərgizi-şəhlaya eylər etiraz,
Maili-çeşmin olan, mənaya eylər etiraz.

Ay işığında siyah zülfün gözümə nur verir,
Zülfi-şəstün çün şəbi-yeldayə eylər etiraz.

Məndəki eşq çün cəfaya saldı yazıq Məcnunu,
Səndəki eşq natavan Leylaya eylər etiraz.

Sinəmi tərk eyləyib könlüm, fəzada dövr edər,
Eşq zövqün bilməyən dünyaya eylər etiraz.

Ləblərin qanın içəndən olmuşam məstanə mən,
Saqi, əl çək, dil meyi-səhbayə eylər etiraz.

Sən var ikən neylirəm dünya gecəvu gündüzün,
Zar könlüm həm günəş, həm aya eylər etiraz.

Saili-nanu nəmək yox, bircə vəslin istərəm,
Bu Əziz Pünhan demə sevdaya eylər etiraz.



# QƏSİDƏLƏR



## *Merac*

Merac eliyən göylərə səyyar Mühəmməd,
Ey sərxəti-İslamidə memar Mühəmməd.

Quran buna natiqdi ki, cismani gedibsən,
«Sübhanə ləzi əsra»də əsrar Mühəmməd.

Ey «Məscidül həram»idən «Əqsa»yə gedən Nur,
Ordan da «Buraq»la göyə təyyar Mühəmməd.

Cibril mələkdür, vəli yollarda dayandı,
Ey nitqi Əliylə yolu həmvar Mühəmməd.

Ümmət qəmini ərşdə çəkdün, nə ki yerdə,
Həm Şafi olan ümmətə, həm Yar Mühəmməd.

Xaliq səni mehman elədi südlü plovla,
Etdi Əlini pərdədə ehzar Mühəmməd.

Sən izzət ilə «qabu və qövseyn»ə yetişdün,
Çün ayə «ov ədna» gəlib aşkar Mühəmməd.

İbrahim ilə Musa və İsa kimi paklar,
Təbrikə gəliblər sənə əxyar Mühəmməd.

Dilşad elə övladın Əziz Pünhanı, lütf et,
Həll eylə onun müşkülün əthar Mühəmməd.



* * *

Kəm etmə bizləri zövqi-səfadən ya Rəsulallah,
Qurtar bu ümməti dərdu bəladən ya Rəsulallah.

Edib merac, yetişdin Xaliqə ərş müəlladə,
Həqiqət tacını aldın Xudadən, ya Rəsulallah.

Sənə yoldaş olub merac boyu batində bir ali,
Əlidür ismi, hiss etdin sədadən ya Rəsulallah.

Sənə göylərdə açdı süfrəsin Xaliq, yedüz birgə,
Əli imiş bilmisən əldə qidadən ya Rəsulallah.

Əli batində hər peyğəmbərə çün rəhnüma oldu,
Sənə yar oldu ruh ilə əzadən ya Rəsulallah.

Bac aldı şir tək Mövla Əli meracdə səndən,
O bac yer üzrə bəhs açdı vəfadən ya Rəsulallah.

Əli oldu sənə meracdə bir töhfə Allahdan,
Sevindün həqq verən nadir ətadən ya Rəsulallah.

Əmirəl-möminin ismi hədiyyə oldu meracdan,
Vəsiy idi Əli çünki binadən ya Rəsulallah.

Qızın Zəhranı Həqq seçdi imamət nəslinə bais,
Bu bir nurdur ki, heç düşməz ziyadən ya Rəsulallah.

Əmanət eylədin bir Əhli-Beyti, bir də Quranı,
Bunu inkar edən qaçmaz cəzadən ya Rəsulallah.

Əziz Pünhanı diqqətdən kənar qoyma, dəva istər,
Balandır, naümid etmə şəfadən ya Rəsulallah.

* * *

Sən aləmə sultansan,
Sən fəxr insu cansan,
Sən Allaha mehmansan,
Ya xətmü Rəsulallah.

Cismanidi meracun,
Ərşdə qoyulub tacun,
Şiri-Xuda amacun,
Ya xətmü Rəsulallah.

Sən göylərə zinətsən,
Ən ali təbiətsən,
Qurandakı hikmətsən,
Ya xətmü Rəsulallah.

Meraca verib təxir,
Kəsdi yolunu bir şir,
Gördün Əlidən təsir,
Ya xətmü Rəsulallah.

Qasiddü Xızru Mussa,
Xidmətçin olub İsa,
İmana gəlib tərsa,
Ya xətmü Rəsulallah.

Cibril qapına dərban,
Hər an gətirir fərman,
Bu can sənədür qurban,
Ya xətmü Rəsulallah.

Sən ərşə qonaq oldun,
Daim üzü ağ oldun,
Düşmənlərə dağ oldun,
Ya xətmü Rəsulallah.

Oldu Əli yoldaşun,
Bir batini qardaşun,
Ləfzi-Əli sirdaşun,
Ya xətmü Rəsulallah.

Sən də ey Əziz Pünhan,
İstanbulu et heyran,
Türk xalqı sənə qurban,
Ya xətmü Rəsulallah.

## *Mövla Əlinin (ə) doğum günü münasibətilə*

Ziyayi-eyn kəmalatu vəssəfadu Əli,
Qulubi-mömininə «şəms vəz-Zühadu» Əli.

Çırağe məzhəbi-din həm də zivəri-iman,
Fəzayi-elmdə əvvəl və intihadu Əli.

Əli məhəbbəti hər bir günahı dəf eylər,
Mərizə həmçü şəfa eyn tutiyadu Əli.

Deyib Rəsuli-Xuda «Zəyyinu məcalisəkum»,
Kəlami-purgöhəru Mustafada «ba»du Əli.

«Əlif, lam» ilə «mim» məniyi-kəlamullah,
İşarəsi onadur nuri-Kibriyadu Əli.

Gəlibdü şəninə üç yüz həm ayəyi-Quran,
Bilən bilir yenə zahirdə «həl-əta»du Əli.

Muqəttiat hurufatıda olub mübhəm,
Vəleyk rəmzilə məşhur «ta»vu «ha»du Əli.

Kəmalu mərifəti gün kimi ziya salmış,
Həqiqət əhlinə kaşifdu «innəma»du Əli.

Füzundu zərbəsi «səqleyn»dən buyurdu Rəsul,
O zərbətilə cəmi müslimə şəfadu Əli.

Buyurmuş elmə qapı çünki elm şəhəri onu,
İlahi elmə gedən rahi-basəfadu Əli.

Sədəf dəhanı ilə hasil etdi dürri-yətin,
Fəsahət ilə bəlağətdə rəhnümadu Əli.

Əlidən özgə cavan yox nə Zülfüqar kimi tiğ,
Səmada soti-məlaiklə bərməladu Əli.

Yeganə Kəbədə mövlud olan bəşər Əlidur,
Bu möcüz ilə bütün aləmə ziyadu Əli.

Həqiqi dostlarına bəxş edər o, «Xuld Bərin»,
Kəramət əhlidi çün şahi-övliyadu Əli.

Verəydi şölə Əziz Pünhana fəzilətdən,
O şəhri-elmə qapı, yar Mustafadu Əli.



## *Mövla Əlinin (ə) şəninə mədh*

Ey dəlili-Kibriya, ey ümmətə Mövla Əli,
Ey olan müşkülgüşa dünyavu həm uğba Əli.

Zati-pakundan sənün heyrandu nəfs natiqə,
Səndən heç vaxt olmayıb xali, fəna dünya Əli.

Elmi-Adəm babi-elmində çü dərya qətrəsi,
Adəm üçün sən deyildin əlləməl-Əsma Əli?!

Gəştiyi-Nuhə nicat verdin ki, ta qərq olmaya,
Nuh heyrandır sənə, sənsən ona «lövla Əli».

Olmasaydı zülfüqarın-tiğ la seyfun əgər,
Dini-islam ruşd tapmazdı ola xəzra Əli.

Aşikara səs gəlirdi ol Öhüddə vəsfüvə,
Nəğməyi-soti mələkdən «la fəta illa Əli».

Mən özüm heyranu sərgərdanəm hər bir felüvə,
Olmuşam eşq aləmində valehi - şeyda Əli.

Etiqadım günbəgün artır cəlalu rütbüvə,
Bab elmilə olubsan mərdi-müstəsna Əli.

Ver Əziz Pünhanə bu elm nəhayətdən bir az,
Qoy ola qəlbi onun elmilə ta əhya Əli.



## *Mövla Əlinin (ə) şəhadət gününə*

Şahi-mərdan, Şiri-Yəzdan, bətni-Qurandır Əli,
Qiymətin biz bilmərik bir fövqəlinsandır Əli.

Elminə sərhəd tapılmaz elmə ondandır giriş,
Ümmətə Mövla kimi Allahdan elandır Əli.

Zülfiqarından söz açsan dildə qalmaz taqətim,
Küfrü iman fərq edən çün Miri-meydandır Əli.

Zindədir daim İmam, kim öldü dersə səhf edir,
Hər zaman üçün İmamdır, Şahi-dövrandır Əli.

Əhmədi-Muxtar ona oldu müəllim, həm ata,
İslama şöhrət Mühəmməddir, ona Şandır Əli.

On bir övladı səadət mənbəyidir aləmə,
Saqiyi-Kövsərdi əhli-eşqə ünvandır Əli.

Olmasaydı gər Əli, cansız qalardı Fatimə,
Olmasaydı Fatimə, yəqin ki, bicandır Əli.

Bir belə pakizə şəxsin dəhr qədrin bilmədi,
Bilmədi nadan ki, hansı əhli-irfandır Əli.

Bivəfalar rəhmət ayında ona qəsd eylədi,
Rehlətə şad oldu çün Mehmani-Rəhmandır Əli.

İstəyər daim Əziz Pünhan şəfaət ümmətə,
Çün odur Müşgülgüşa, hər dərdə dərmandır Əli.

## *Fatimeyi Zəhra*

Şəmi-Zəhrada cahan silsilə pərvanə olub,
Çünki Zəhranı sevən zülmətə biganə olub.

Kim ki, sidq ilə çəkib Həzrət Zəhra adını,
Əhli-Beyt sevgisinə daima mərdanə olub.

Fatimə Allahın ən sevdiyi insan idi ki,
Hanı bir kəs bu qədər həqqə əzizanə olub.

Əhmədə dərdli ikən Kövsəri bəxş etdi Xuda,
Çeşmədir ki, iki aləm ona məstanə olub.

Gövhərə gövhəri bəxş etdi Xudavəndi-Kərim,
Dürr ilə dürri-yetim gör necə dürdanı olub.

Kim ki, Zəhraya tərəf gəc baxaraq zülm etmiş,
Ömrü bərbad eləyib şimr ilə həmxana olub.

Həşr kübrada şəfaət olacaq Fatimədən,
Kimə ki, dəhr Hüseyn xətrinə qəmxanə olub.

Oxuyar morği-səadət nə zaman Mehdi gələr,
Bu könüllər o səfa morğu üçün lanə olub.

Elmini, taətini, daifəsin Zəhranın
Dərk edən gördüm Əziz Pünhanı fərzanə olub.



* * *

Bəşər dəfinəsinin purbəhasıdır Zəhra,
Mühəmməd ali Mühəmməd sədasıdır Zəhra.

Ürək çəkən nə qədər ad var isə aləmdə,
Bütün o adların ən dilrubasıdır Zəhra.

Demün ki, göydə bina eyləmək mahal işdir,
Göy ilə yer ara haqqın binasıdır Zəhra.

Əgər bədən isə Quran, onun da ruhu olur,
Xudayi-Ləmyəzəlin «Həl əta»sıdır Zəhra.

O olmasaydı, gərəkməzdi sureyi «İnsan»,
Xudanın insana aid duasıdır Zəhra.

Cahanda iffət ilə ismətin nümunəsidir,
Bəşər sədaqətinin ibtidasıdır Zəhra.

Nə yerdə gəl qılasan «Şam» namazın, qəsr olmaz,
O rəkəti bəzəyən həqq libasıdır Zəhra.

Odur cahan ilə uqbada iffətin tacı,
Xanımların başı, xeyrənnisasıdır Zəhra.

Vəfavü sidqə həmağuş Əziz Pünhanın,
Dilində həşrə qədər can nidasıdır Zəhra.



* * *

Bəzəyi -«Taha» güli-ülyayi-Sübhan Fatimə,
Gülsitani-Əhmədə nəsrinu reyhan Fatimə.

İsməti ey yeddi əflakə verən qüdsiyyəti,
İffətilə ey verən dəhrə şərəf-şan Fatimə.

Ey Hüseynin eşqinə bais şəhadət məktəbi,
Ey edən əşrar içində həqqi elan Fatimə.

Sənlə dünya tapdı zinət yoxdu sənsiz qiyməti,
Çün səni Məryəmdən üstün tutdu Quran Fatimə.

Qan içənlər qarşısında ey kəlamı zülfüqar,
Ey cəmi on səkkiz il dünyaya mehman Fatimə.

Qeyb olan alma sənə qardaşdı çünki zülfuqar,
Açdı ya Zəhra deyib hər yerdə meydan Fatimə.

Həm qızı, həm də ana oldun əziz Peyğəmbərə,
Adını «ummi-əbiha» yazdı irfan, Fatimə.

Yer üzündə eylədin heyran tamam ümməti,
Həmçinin əhli-səmanı etdin heyran Fatimə.

Həmkuff oldun sən fəqət Mövla Əlinin şəxsinə,
Olmasaydın, ol cənabə yoxdu dövran Fatimə.

Bu kifayətdür beşik başında Cəbrail əmin,
Həm Hüseynə dayə olmuş, həm də dərban Fatimə.

Oxuyubdu Cəbrail «fil cənnəti nəhrun ləbən»,
Həsəneynin şəninə şayistə burhan, Fatimə.

Söyləmiş «mən kanə muhibbən fid dünya ləhum,
Yədxulil cənnəh», Xudadan fərzi Yəzdan, Fatimə.

Bir nəvəndür bu Əziz Pünhan şəfaətçün gəlib,
Qoyma qalsın vadiyi-eşq içrə nalan, Fatimə.



## *İmam Cəfəri-Sadiq mövludu*

Mövluduna min əhsən ola Cəfəri-Sadiq,
Mömin ürəyi nurla dola, Cəfəri-Sadiq.

Nə xoşdu ki, Cəddin ilə bir gündə doğuldun,
Cəddinlə göz açdın bu yola, Cəfəri-Sadiq.

Sən ilə nümuvv etdi şəriət və təriqət,
Məzhəb gülünü qoyma sola, Cəfəri-Sadiq.

Cəddin buyurub çünki sənin adını Sadiq,
Bilmiş neçəsi kazib ola, Cəfəri-Sadiq.

«İsna  əşəri» sənlə olub «Cəfəri-məzhəb»,
Haqq yolda hamı sən tək ola, Cəfəri-Sadiq.

Ey batili haqdan ayrılan Ali-Mühəmməd,
Ey «cəbrilə təfvizə» vəla, Cəfəri-Sadiq.

Quran idi başdan-başa qəlbindəki hikmət,
İslama tamam verdi cila, Cəfəri-Sadiq.

Xoş gündə Əziz Pünhan edibdir səni təbrik,
Ta razı qala Şahi-Vila, Cəfəri-Sadiq.



## *12-ci imamın (ə.c) mövludu münasibətilə*

Gözlərəm min ömrüm olsa ey mələkrüxsar səni,
Haqq bu dünyaya axır göndərər təkrar səni.

Tək sənin haqqında Quran söyləmişdir Müntəzir,
Gözlərim şövq ilə hər an gözlər ey dildar səni.

Hər sənə aşiq olan istər zühurun təcilin,
Çünki pişvaz etməyə hazırdı çox züvvar səni.

Göndərib Xaliq «vəcaəl-həqq vəzəhəğəl batil»i,
Batilin seçdi qənimi Xaliqi-Cəbbar səni.

Kim sənə yar oldusa, oldu həqiqət carcısı,
Asi oldu Rəbbinə, kim etdisə inkar səni.

Gəldiyin dəm aləmə verdin şəhadət səcdədə,
Etdi İsaya bərabər bu əcib rəftar səni.

Möciz oldu, bir məsihi etdi islamı qəbul,
Haqq-Təala eylədi ol bətndən aşkar səni.

Ömrünə şəkk etdi nadan kimsələr dərk etmədən,
Ömrüdə etməzmi aydan, gündən artıq Yar səni.

Bu kifayətdir ki, peyğəmbər adı üstündədir,
Tək bu ad eylər bütün sərdarlara sərdar səni.

Mən sənin nəslindənəm, ey Mehdiyi-Sahibzaman,
Bu Əziz Pünhan dəmadəm səsləyər naçar səni.

## *12-ci imamın (ə.c) intizarında*

Demin ki, gəlmədi yar, yarı-Ədldar gələr,
Darıxma, Mehdiyi-Movudi-bavuqar gələr.

Nə vaxtdı yer üzü həsrətdi ədl edən kişiyə,
Edər bu batilu nahaqqı tarmar gələr.

Gələr ki, ədl ilə divan edə o Hakimi-Həqq,
Səvari-Düldül olub əldə Zülfüqar gələr.

Bu müntəzirliyimiz həm də bir ibadətidir,
Sən intizaruvi çək Mərdi-Tacidar gələr.

Yəqin ki, zülmü cəfa yetməyibdi son həddə,
Dolanda kasəyi-səbr, gözlə intizar gələr.

Qiyam Kərbübəlanı çıxartmaz o yadlar,
«Nicat gəmisi» olan yari-Yadigar gələr.

Həqiqi şiələri zülmdə qalıb naçar,
Cəhənnəm əhlini bizdən edər kənar, gələr.

Onun gəlişi ilə yer üzü ədalət olar,
Bunu deyib bizə Ummul-Kitab, var, gələr.

Giley edib demə təkrar gəlmədi Cahid,
Əziz Pünhanı eylib ümidvar, gələr.

## *Bibiheybət*

Min şükr ki, tapdı yenidən can Bibiheybət,
Açdı yeni bir səhfəyi dövran Bibiheybət.

Viranə idi qəbri onun gör neçə illər,
Dinsizlərə olmuşdu xiyaban Bibiheybət.

Kafirlər onu mərmi ilə vurdu uçurtdu,
Etdi oları yer ilə yeksan Bibiheybət.

Bir dahi gəlib oldu Azərbaycana rəhbər,
Viranəikən oldu gülüstan Bibiheybət.

Əmr eylədi bərpasını Heydər – ulu öndər,
Mömünlər üçün olmalı meydan Bibiheybət.

Bu qəlbinin eşqidi nə ki, sadəcə bir əmr,
Heydərlə tapıb dərdinə dərman Bibiheybət.

Bu ali işi İlhama da etdi vəsiyyət,
Oldu olara ümdə şərəf-şan Bibiheybət.

Çatdırdı ata zəhmətini axıra oğlu,
Qaldı bu iki rəhbərə heyran Bibiheybət.

Qürbətdə İmamın qızının qəbri ucaldı,
Çün oldu kiçik rövzeyi-rizvan Bibiheybət.

Oldu bizə doğma bacun ey zamini-ahu,
Çün verdi ona ömrü firavan Bibiheybət.

Gəlmişdi bu torpağa xanım zülmün əlindən,
Etmişdi onu kuyinə mehman Bibiheybət.

Dövlət ki, bura bir bu qədər diqqət ayırdı,
Oldu elə bil Azərbaycan Bibiheybət.

İslama bu torpaqda dayaq nöqtəsi oldu,
Tarixlərə yazdı yeni dastan Bibiheybət.

Bu iş ilə öz xalqına ehsan edib Heydər,
Yad eylər onun ruhunu hər an Bibiheybət.

İlhama yetər əcri Xudavəndi-Kərimdən,
Eylər nə ki, var müşkülün asan Bibiheybət.

Bu şeri Əziz Pünhan edib xoş günə ithaf,
İnşallah edər karinə səhman Bibiheybət.



## *Azərbaycan memarı*

Azərbaycan Respublikasının Prezidenti
Heydər Əliyev və İlham Əliyev
cənablarına ithaf

Müstəqil dövlətimiz daima qoy var olsun,
Düşməni lənətə gəlsin, əbədi xar olsun!

Bu Azərbaycanımın memarı Heydər Babamız,
Necə də qurdu, yaratdı, dedi min bar olsun!

Çox çətin gündə Xudavənd onu göndərdi bizə,
Dedi get, qoyma Azərbaycanı tarmar olsun!

Çoxları pozmağa cəhd eylədi, amma ki, Xuda,
Razılıq vermədi, əmr eylədi, hüşyar olsun!

Tərksilah etdi müxalifləri, tənbeh eylədi,
İqtidar ilə bu dövlət gərək həmvar olsun.

Yığdı ətrafına qeyrətli Vətən ərlərini,
Tapşırıq verdi hamı xalq ilə həmkar olsun!

Pərvəriş verdi, böyütdü dəxi İlham tək oğul,
Elmü, irfanü, ədəb verdi ki, dildar olsun!

Şirdən şir törənər, zərbü-məsəldür deyilib,
Ot kökü üstə bitib, Allah ona yar olsun!

Boy-buxun, qaməti-şimşad, dəyanətli oğul,
Pəhləvan cüssəli igiddi, səzavar olsun!

Belə bir rəhbəri Allah özü bəxş etdi bizə,
Qoruyur Allah onu, qoymaz o naçar olsun!

Bu diyar bəs ki, dönüb indi gülüstana görün,
Bu bahar ömür Əziz Pünhana təkrar olsun!



## *Ümummilli Lider Heydər Əliyevin ad günü münasibətilə*

Bu gün bir başqa aləmdir, bütün dunya bəzənmişdir,
Bahar üstə bahar gəlmiş, gözəl məclis düzəlmişdir.

Doğulmuşdur ulu Heydər, gəlib təbrikə insanlar,
Coşur şadlıq sədasıyla, dolub hər yerdə meydanlar.

Gülür üzlər, gülür gözlər, sevincin həddi görsənmir,
Məhəbbət sərf edənlər çün könül sərhəddi görsənmir.

Cavan-yaşlı çiçəklərlə səadət intizarında,
Tütüb üz bir xiyabana diləklər laləzarında.

Səma sakit, günəş çılğın, şüalar rəqs edir yerdə,
Baxışlardan qopur şadlıq, sevinc üstün gəlir dərdə.

O pak mərmər məzar üstə qüzül güllər, qərənfillər,
Kənarında məhəbbətlə dualar eyləyən dillər.

Əlində Heydərin şəklini tutan məktəblilər, gənclər,
Ziyalı şəxslər, alim, süxəndanlar, süxənsənclər.

Onu yad etməyə gəlmiş çox ağbirçək, çox ağsaqqal,
Qarışmış duyğular, hislər biri məbhut, biri bihal.

Mübarək söyləyər hər dil gəlibdir ruhlar ehzazə,
Nəfəslər xoş, könüllər şad, bahar tək kəlmələr tazə.

Ən ali kəlmələr, sözlər düşür gül üstə şəbnəm tək,
Nə aləmdir ki, bu aləm, bir aləm yox bu aləm tək.

Uçub ruhum bu aləmdə ətirlər içrə bihuşdur,
Könül bu hal ilə əngin səmadan enməyən quşdur.

Məzar yox, bir qızıl tacdır, bu xalqa Heydərin qəbri,
Gücü, insanlığı, heysiyyəti, aliliyi, səbri.

Azərbaycan, bu cür şəxsiyyəti vardır deyə, təkdir,
Ulu Heydər, bu mövludun mübarəkdir, mübarəkdir.

Əziz Pünhan, səni vəsf eylədi güldən lətafətli,
Gözəl sözlər seçib, hamı kəramətli, şərafətli.

Nə qədri söz yazılsa, bu nəcib insan üçün azdır,
O, bu xalqın həyatiyçün səmadan gəlmiş ecazdır.

## *Şeyxül-İslam*

Qafqazda rəhbər oldu İslama Şeyxül-İslam,
Daim keşikçi oldu ehkama, Şeyxül-İslam,

Meydanda öndə oldu xalqın çətin günündə,
Vəcdlə gətirdi xalqı ilhama, Şeyxül-İslam.

Düşmənlə üzbəüzdə haqqın sözün danışdı,
Haqq əmrini gətirdi əncama, Şeyxül-İslam,

Məscidlər oldu bərpa, xalqa açıldı pirlər,
Möminləri yetirdi bu kama, Şeyxül-İslam.

Bəsdir ona bir ancaq zəvvarların duası,
Çatdırdı vacibatı itmama, Şeyxül-İslam.

Güldü üzü fəqirin mehrü səxavətindən,
Dərd böldü, arxa durdu nakama, Şeyxül-İslam.

İslamı tədris etdi, dost oldu əhli-elmə,
Şairə, bəstəkara, rəssama, Şeyxül-İslam.

İslami-vəhdət ilə dünyaya oldu carçı,
Oldu nümunə dövrə, əyyama, Şeyxül-İslam.

Daim Əziz Pünhan olmuş onunla həmdəm,
Hər yerdə layiq oldu ikrama, Şeyxül-İslam.



## *Mövlana Cəlaləddin Rumiyə ithaf*

Göydədi ya ki yerdədi, sirri nihandı, Mövləvi,
Arif olanlara vəli, gün tək əyandı, Mövləvi.

Aşiqi-bavəfa odur, dərdi-dilə səfa odur
Eşqdə can fəda odur, şöləfəşandı, Mövləvi.

Alidi sözdə qüdrəti, İlahidəndi fitrəti,
Ümmanə təndi hikməti, gövhərə kandı, Mövləvi.

Mislidə təkdi məsnəvi, uxrəvi həm də dünyəvi,
Qəlbdə mənzili-evi, cövhəri-candı, Mövləvi.

Sözdə bəyən olub çiçək, bağlı çiçəkdə min ürək,
Hər ürəyə axır su tək, xeyli rəvandı, Mövləvi.

Kəlmələr ayədən gəlir, həqq sözünün tozun silir,
Sirri-Xudani həm bilir, Piri-Muğandı, Mövləvi.

Şəmsdən aldı mətləbi, tutdu cahani məktəbi,
Coşanda sel olur təbi, ahu fəğandı, Mövləvi.

Vüsalı həqq vüsalıdı, çu Əhli-Beyt xəyallıdı,
Eşqi Əliyyu Alidi, zövqi duyandı, Mövləvi.

Dinlə Əziz Pünhanı, eşqə fəda edib canı,
Onun tək əhli eşq hanı, tarixə şandı, Mövləvi.



## *Namaz*

Ey səadət mənbəyi, ey ülfəti-Yəzdan, namaz,
Ey olan meraci-ümmət, rüfəti-insan, namaz.

Gündə beş dəfə səninlə zairi-Həqq olmuşuq,
Birbaşa bəndəylə həmsöhbət olur Rəhman, namaz.

Bəndə həmd eylər Xudayə, Xaliqi ləbbeyk deyər,
Bu səadət mümkün olmaz heç əməldə, can namaz.

Meyrac etdi gərçe Peyğəmbər İlahi ərşinə,
Ümmətə beş dəfə eylər meraci ünvan, namaz.

Açmışam Quranı öyrənməkçün ən vacib nədir?
Hökm ilə hər bir vərəqdə söylədi Quran, namaz.

Ey günahkar qıl namaz, istə Xudadan məğfirət,
Atəşi-nari çün eylər cənnəti-rizvan, namaz.

Bir dəfə amin demək qismət olaydı onda ki,
Eylər ehya Kərbəlada Sahibi-Dövran namaz.

Cismini eylər əsir, həm ruhunu viran edər,
Gündə beş dəfə eşitməzsə əgər şeytan, namaz.

Saxladı cəngi Əli Süffeyndə ta qılsın namaz.
Ərz edib ətraf, nədir bu cəngidə sahman namaz.

Cəngidən məqsəd namazdır, söylədi Mövla Əli,
Binamaza cəng ilə biz etmişik elan, namaz.

Baş da getsə əl götürmə bu İlahi əmrdən,
Çünki aləmdə Əli tək istəyir qurban namaz.

Varmı dünyada səni Şahi-Şəhidan tək qılan,
Kərbəlada olmuş ancaq dəstnamazın qan, namaz.

Göz yaşı fəvvarə oldu eşq haqqdan çağladı,
Bu şeirdən sonra qıldıqca Əziz Pünhan namaz.

## *Ramazan*

Olmusan on bir  aya daimi sultan Ramazan,
Tapmışıq sənlə səadət yolun əlan Ramazan.

Mərhəmət bəhrisən aləmdə sənə sahil yox,
Babı-rəhmətdədi Rəyyan sənə dərban, Ramazan.

Rəhmətin şöləsi yandırdı günahın külünü,
Sənə mehman tapacaq hikmətə burhan Ramazan.

Yandırırsan bədənin fitnə-fəsadın, sağalır,
Dəf edirsən qəmi ey cismimə loğman Ramazan.

Bir adın səbrdi, sən səbri bizə öyrətdin,
Ədəbü hikməti vermiş sənə Sübhan, Ramazan.

Səni Quran bizə bəxş eyləmədi özbaşına,
Göylərin əmrini etdin yerə elan, Ramazan.

Dadmadan ləzzətini qədrini bilməz qeyri,
Anlayan xilqətini oldu müsəlman, Ramazan.

Gərçe Nüh tufana düşmüşdü, o tufan heç idi,
Edəcək həşr günü batini tüfan, Ramazan.

Həccdə qaydadı Qurban kəsilər xətm günü
Hacıdır kim kəsə nəfsin sənə qurban, Ramazan.

Olmasa kim ki, səxavətli bu ayda, heçdir,
Onda çün sıfra bərabər olar, iman, Ramazan.

Bir gün ehsan eləyib min danışırsan, qafil,
Düz bir ay pəhriz edir hər kəsə ehsan, Ramazan.

Bəndə və Xaliqə aiddi, riyası olmaz,
Başqa yerlərdə riya etsədə insan, Ramazan.

Gər Əziz Pünhana sorsan bu ayın tərifini,
Cism bir dərddi bizimçün, ona dərman, Ramazan.



## *Füzuli İrfan məclisi münasibətilə*

Müjdə ağalar! Məclisi-İrfan təzələndi,
Arif kişilərçün yenə dövran təzələndi.

Şeyx gördü ki, əldən gedəcək, şerilə irfan,
Yığdı bizi öz başina peyman təzələndi.

Sədr oldi bu bəzm əhlinə Vasim kimi ustad,
Təfsiri-kəlam, məniyi-Quran təzələndi.

Bir neçə ulu şəxsiyyət oldu bizə sərdar,
Fuadla, Bəkir gəldi, şərəf-şan təzələndi.

Nəzm əhlinə qiymət verir əlbəttə Nizami,
Çaldı Surun İsrafil, o fərman təzələndi.

Duzlu, məzəli şerilə səsləndi Zəlimxan,
Xoş qafiyələr vəznilə mizan təzələndi.

Dəcləylə  Fərat sahilini Kəblə Qəzənfər,
Təhqiq edibən dərdlərə dərman təzələndi.

Mədh eylədi Şeyxi Hacı Sultan həvəs ilə,
Hər beytidə güldü təbi-Sultan təzələndi.

Ənvər də qoyub şeridə imzanı Nəzərli,
Yaş boxçasini açdı, gülüstan təzələndi.

Bünyadını qoydu Dədə Teymur bayatıyla,
Dörd misrada zövq verdi bizə, can təzələndi.

Fazil sözünün fəzli ilə qol-qanad açdı,
Şahin təki süzdü, dedi meydan təzələndi.

Salman qəzəlilə bizi Səlyana apardı,
Amadə olun çəkməyə qəlyan təzələndi.

Baxma zəkidir Mircəlalın təbi yatıbdır,
Püskürsə qəzəl, san dəxi vulkan təzələndi.

Mail yad edildi ki, Füzulisevər idi,
Rəhmət oxuyaq onlara hər an, təzələndi.

Yar oldu bizə Madər xoşxülq zəmanə,
Ləzzətli kəbab qarə fisincan təzələndi.

Meydan oxudu Ağarəhim dörd xuruş ilə,
İrfan yad olub mətbəxi-ərkan təzələndi.

Bu zövq ilə pay verdi Əziz Pünhana Qüdrət,
İrfan ilə mədhi-Şəhi-Mərdan təzələndi.



## *Ramiz Mehdiyevə ithaf*

Ramiz adınla rəmzi olubsan bu millətin,
Xalqın yanında çoxdu sənin xətrin, hörmətin.

Dar gündə xalqın öndərinə etmisən kömək,
İndi yetib zaman verilir ali qiymətin.

İstiqlalın şüası sinən üstə bərq vurur,
Qəlbən olubdur çün Vətənə, xalqa xidmətin.

Rəhbər əliylə asdı yaxandan bu ordeni,
Alicənaba diqqəti var çünki dövlətin.

Bir şanlı oğlusan bu elin, vardır ad-sanın,
Dövlətçilik işində sənin çoxdu zəhmətin.

Elminlə çatmısan bu uca ali rütbəyə,
Əzmin köməkçi oldu sənə, bir də vüsətin.

Rəhbər yolunda vicdan ilə xidmət etmisən,
Xalqın rifahı, xoş sabahı oldu niyyətin.

Təbriklərə qoşuldu Əziz Pünhanın sözü,
Şer ilə bu gözəlliyə bildirdi diqqətin.



## *Anarın ad gününə*

Ömrü azad yaşamaq şəxsə səadətdir, Anar.
Bu səadət sənə əslindən əmanətdir, Anar.

Nəsrinin ecazı dünyanı tutub, fəxr edirik,
Bu Azərbaycan üçün əsl fəxarətdir, Anar.

Hər sözün cazibəsi verdi nəsihət bəşərə.
Tanrıdan möcüz ilə səndə kəramətdir, Anar.

Təzə bir fəlsəfə vermiş qələmin bu xalqa,
Fikri azad yaşamaq ali siyasətdir, Anar.

Ömrünün əlli ilin xidmət edibsən Vətənə,
Bir ömürdür ki, neçə ömrə kifayətdir, Anar.

Yazıçı ordusuna sənsən ulu sərkərdə,
Hər işində ən əzəl qayə ədalətdir, Anar.

Tutmusan haqq yolunu, haqq işi mədh eyləmisən,
Qələm almaq ələ vicdanla, ibadətdir, Anar.

Yetmiş ildə ağaran saçların üsyanına bax,
Bu məhəbbət sözə döndükdə ləyaqətdir, Anar.

Qələmin qoyma kənar, ağ vərəqin həsrəti var,
Dərdini yarə demək aşiqə adətdir, Anar.

Bu Əziz Pünhana vacibdi səni təbrik edə,
Çünki təbriki də dostluqda sədaqətdir, Anar.

## *Mərhum Hacı Mail dostluğu*

Bir aşiq idim, möhnəti-hicran idi dostum,
Bir nazlı gözəl, sevgili-canan idi dostum.

Cənnətdə idim, dörd tərəfim laləüzarlar,
Saqilik edən huriyu qılman idi dostum.

Məvvaceyi-eşq içrə könül sinə gərirdi,
Dəryada idim, daima tufan idi dostum.

Saxlardı mənim hörmətimi piru cavanlar,
Hər yerdə mənim əsl müsəlman idi dostum.

Təbriz, Bakı, İstanbul ola, ya Qumu Məşhəd,
Ən ali sinifdən olan insan idi dostum.

Vardı Hacı Mail iki tən, bircə can idik,
O, duzlu, şirin, usta qəzəlxan idi dostum.

Xanəndə Əli Fatmeyidə süfrə açardı,
Ta sübhə qədər şeir ilə dastan idi dostum.

Davudla gəzərdik Bakı ətrafını daim,
Çün əhl idi bir sahibi-irfan idi dostum.

Hacı Xudu bir baməzə insan idi xoş söz,
Mail sözünə şövqilə heyran idi dostum.

Bambaşqa bir aləmdi muğam ustası Tələt,
Həcc qıldı dəxi talibi-iman idi dostum.

Həmsüfrə olardıq Hacı Nadir, Hacı Fərrux,
Şirin, məzəli söhbətə ünvan idi dostum.

İsrail, Həsənağa, Hidayət, Orucəli,
Hər bölgədə bir hatəmi-dövran idi dostum.

Bir yerdə idik Həccdə, başda Hacı Vasim,
Haqqın özünə Kəbədə mehman idi dostum.

Xoşlardı Əzizbala verə Məkkədə ehsan,
Həm əhli səxa, həm də suxəndan idi dostum.

Dəcləylə Fəratdan təzə gəlmişdi Qəzənfər,
Həmsöhbət olardıq, bizə şayan idi dostum.

Var idi bir ağsaqqal İbadullah adında,
Bir bəndeyi mömin, demə Salman idi dostum.

Keçmişlərə rəhmət, qalanın canı sağ olsun,
Onlarla mənim şah idi, xaqan idi dostum.

Gördüm yuxuda Maili, əhvalımı sordu,
Bu şeir cavab oldu, nigaran idi dostum.

«Can»sız bu Əziz Pünhanı qəmgin görəcəksən,
«Can» yoxdu ki, Mail kimi bir can idi dostum.



## *Osman Xocanın Bakıya gəlişi münasibətilə*

Sən ey Osman Xoca! Xoş gəlmisən bu bəzmi irfanə,
Şərəfyab eylədin bunca, ziya verdin həbibanə.

Səni Xəllaqi-Aləm qoy iki aləmdə şad etsin,
Ömür boyu rəvac verdin, bu İslamə mühibbanə.

Necə də xoş təsadüfdür, sizinlə həmnişin olmaq,
Ki Cənnət bağçasıdır, məclisi-İrfan ədibanə.

Deyirlər hər nəyini sərf edibsən rahi-İslamda,
Verər əcrün yəqinən Xaliqi-Yəzdan əzizanə.

Neçə elm ocağın əhya edibsən Darül-İslamda,
Sənin tək tacidarın muzdu hazırdır çü şahanə.

Sən Osmanı xəlifə Osmana yar eyləsin Tanrı,
Çü Ğar əhlinə yar olmuşdu Siddiq mərdü mərdanə.

Sənin qəsrin ucalmış şübhəsiz, Cənnətdə hazırdır,
Düzülmüş huriyi-qılman yolun gözlər cəlilanə.

Əliyyəl-Mürtəza gözlər yolunu babi-Cənnətdə,
Çü babi-elmidir Movla, O məsuldur bu ünvanə.

Nəsibin Cənnətul-məva məkanın gülşəni- Firdovs,
Ki Carullahə car oldun, yetişdin feyzi-cananə.

Vəleykən bir gilayəm var, bu gün fürsət qənimətdir,
Neçin yardım qılınmaz məktəbimə barii, ianə.

Həmin gün söyləyər cəddim balam da sizlə yoldaşdı,
Onun məktəbinə yardım qılıbsız heç rəfiqanə?

Neçə müddət ənis oldu Nədim bəy söyləyim əl-həqq,
Vəleykən hizbi-şeytan təfriqə saldı qəribanə.

Sən Allahından istə, etmə qəm vəllahi ey Seyyid,
Yədullah eylər imdad, həll olar müşkül, həkimanə.

Əziz Pünhandı övladın yazardı bəski pünhani,
O mali-dövlətin xumsun əda qılmaq çü pünhanə.

## *Ramiz Əzizbəylinin 60 illiyinə*

Səni Allah bəşərə verdi əmanət, Ramiz.
Ki, azalsın qoca dünyada cəhalət, Ramiz.

Ədəbin, mərifətin yardı qaranlıq gecəni,
Günəşi dost elədin sübhə nəhayət, Ramiz.

Sənə dost kim dedisə, canını bəxş etdin ona,
İnsan adlanmağa var, səndə ləyaqət, Ramiz.

Mədəniyyət səni sevməklə ucaldı, artdı,
Etmədin öz gücüvə zərrə qənaət, Ramiz.

Öz silinməz möhürün düşdü kino sənətinə,
Gəldi bu sənətə bir başqa əlamət, Ramiz.

Rolların çoxdu kinoda hərəsi bir tale,
Öz sözünçün bu kino oldu bir alət, Ramiz.

Bəxtinə "bəxt üzüyü" düşdü, ağ etdin üzünü,
Aldı öz dərsini filminlə camaət, Ramiz.

Var həzin, incə səsin, qəlbləri oxşar nəfəsin,
Az-az insanda olur böylə məlahət, Ramiz.

Təbi şeirin də xiridarlara çox mərufdur,
İstəyin dəhrdə bir təkcə ədalət, Ramiz

Nə gözəl bəndəsən Allaha, əqidən safdır,
Edər Allah səni müşküldə himayət, Ramiz.

Kərbəla Məşhədə getdin, edəsən İnşallah,
Məkkəni-Kəbəi-ulyani ziyarət, Ramiz.

Altmış yaşda sənə yazdı Əziz Pünhan söz,
Ki, bu yolla çatasan yüz yaşa rahat, Ramiz

## *Qardaşım Mübariz Məmmədova ithaf*

Fəxrimizsən, cümlə aləmdə Mübariz qardaşım,
Qoymusan qəlbimdə amalınla bir iz, qardaşım.

Etibar eylərdim ömru varımı bir tək sənə,
Olsa idi dəhridə səndən suvay, yüz qardaşım.

Sən sədaqətdə, ləyaqətdə atan Malik kimi
Olmusan, öz əhdinə, ilqarına düz qardaşım.

Sən mübarizsən, adın tək, söz ola, ya ki, əməl,
Ancaq Allah qarşısında əymisən diz qardaşım.

Taleyimdə sən olandan olmuşam çox bəxtiyar,
Yoxsa, dünya rəng-bərəng olmazdı sənsiz qardaşım.

Kim sənə dost oldu, aldı ən gözəl xasiyyəti,
Hər çətinlikdə sənə yar oldu Ramiz qardaşım.

Övliya tək yaxşılıq etsən, edirsən xəlvəti,
Munis olmuş çün sənə təqvavu pəhriz qardaşım.

Mən Ərəstun oğluva həsr eyləmişdim bir şeir,
İndidə, sənçün qələm inşa edir söz, qardaşım.

Dəhridə seyyid Əziz Pünhana sən çox doğmasan,
Fərqi yoxdur, ya sən ol, ya da mənim öz qardaşım.



## *Ərəstun Mübariz oğlunun ad günü münasibətilə*

Çox mübarəkdir Ərəstun, ad günün şadman gələ,
Yüz yaşında təbrikə qoy sevdiyin sultan gələ.

Bu Ərəstun adını şəxsən Mübariz xoşlamış,
Bir həkim də istəyir ondan sora loğman gələ.

Nə bacı tək olmalı, nə də ki qardaş arxasız,
Cüt bacı fəxr eyləyər qardaş gilə mehman gələ.

Nəsl artırmaq müsəlmana xas olmuş hər zaman,
Mən deyərdim, hər evə Allahdan on fərman gələ.

Bir-iki qız gəldi dünyaya kifayətdir yəqin,
Çün dua etmək gərək şəxsən igid oğlan gələ.

Gün o gün olsun ki, arzular həmən gerçəkləşə,
Bu «Planet»də toy ola el-oba, hər yan gələ,

Aruzu eylər Əziz Pünhan görəydi toyların,
Çox yəqini var, ümidvardır, o gün hər an gələ.



## *Dostum, el ağsaqqalı, Hacı Fəttaha ithaf*

Kamınca cahan oldu sənə yar, Hacı Fəttah.
Həm dövlətə, həm xalqa vəfadar, Hacı Fəttah.

Ömrün boyu dövlətçiliyə sən həyan oldun,
Eldə-obada xeyrə tərəfdar, Hacı Fəttah.

Elmu ədəbin xalqın üçün oldu nümunə,
Haqdan elədin xalqı xəbərdar, Hacı Fəttah.

Mərdliklə böyütdün sən özüntək neçə övlad,
Onlar da elə oldu mədədkar, Hacı Fəttah.

Allah evinin zairi oldun neçə dəfə,
Bu etdi səni Haqqa ümidvar, Hacı Fəttah.

Hər harda savab var isə orda əməyin var,
Nahaqqı işin eylədi inkar, Hacı Fəttah.

Dar gündə Ulu Öndər ilə oldun həmişə,
Sevdi səni candan o xilaskar, Hacı Fəttah.

Etdin bu sədaqətlə Prezidentinə xidmət,
Kim dansa bunu, olsun o kəs xar, Hacı Fəttah.

Rəhbər Vətənin "Şöhrət"ini asdı yaxandan,
Əzmin bu ada oldu səbəbkar, Hacı Fəttah.

Mən də səni təbrik edirəm xalqın adından,
Layiqdi bu diqqət sənə aşkar, Hacı Fəttah.

Yazdıqca Əziz Pünhana fəxr oldu bu şeiri
Etdi sənə bu dostluğun izhar, Hacı Fəttah.

## *Dostum Hacı Madərə ithaf*

Allahdan alıb eşqinə qüdrət, Hacı Madər,
Daim qazanıb eşq ilə şöhrət, Hacı Madər.

İmanı olub çox kəsə gənc yaşda nümunə,
İslama edib gün-gecə xidmət, Hacı Madər.

Vurdu Vətən eşqilə onun qəlbi əzəldən,
Bildi Vətəni ən ulu nemət, Hacı Madər.

Bəd gündə çətin vaxtda Vətən darda olanda,
Xalqı elədi birliyə dəvət, Hacı Madər.

Xeyriyyəçidir əl tutar insanlara daim,
Zövq ilə verər yaxşıya qiymət, Hacı Madər.

Hatəm onu görsəydi xəcalətdə qalardı,
Hər naşadə göstərdi səxavət, Hacı Madər.

Diqqət yetirir şəxsinə daim onun İlham,
Heydər yoluna saldı məhəbbət, Hacı Madər

Şöhrət nişanı sinəsinə zinəti vermiş,
Layiqdi bu aliliyə əlbət, Hacı Madər.

Gəlmiş ki Əziz Pünhan onu eyliyə təbrik,
Bir şeir yazıb şeirinə zinət, Hacı Madər.



## *Dostum Səmədin ad günü münasibətilə*

Səməd Allah adıdır, şad edə Allah Səmədi,
Tanıdım dəhrə gərək, mən bu xeyirxah Səmədi.

Harda olsaq belə, ruhani olur söhbətimiz,
Edirəm aləmi-lahutidə, səyyah Səmədi.

Ağa tək vardır əda onda, sözü incə deyər,
Görmüşəm daima şahanə kimi, şah Səmədi.

Əsli xalislər edər hörməti, gördükdə onu,
Pak nəcabətlə tanır dostları, Billah Səmədi.

Yaxşılıq etməyə amadədi mərdanə sifət,
Dövrü dün, pis tərəfə etmədi islah Səmədi.

Qırx iki yaşlı cavan olsa da, pirdir əbədi,
Nəsli paklıqdan edib, şən ilə agah Səmədi.

Nə qədər ömrü ola dəhrdə xoşbəxt olsun,
Bürcu əladə edə bəxtinə rast, mah Səmədi.

Xaliqin əmrinə sadiqdi, yolu imandır,
Çox ümidsiz kəs edib, çünki ümidgah Səmədi.

Bədəlan kəndi əgər doğma ocaqdırsa ona,
Bakı şəhri yetirib şöhrətə, Vallah Səmədi.

Mən Əziz Pünhan açıb əl, edirəm dostu dua,
Məhrüm etməz bu duadan, Həbibullah Səmədi.

## *Dostum şair Hacı Arif Buzovnalıya ithaf*

Şeiru qəzəl içrə uca dağsan, Hacı Arif,
Dünya var ikən, var olacaqsan, Hacı Arif.

Çox şairi dünyaya yetirmişsə Buzovna,
Ol cərgədə nurani çıraqsan, Hacı Arif.

Dostum Hacı Mail sənə ustadlıq edibdir,
Haqq aşiqisən, Haqqa dayaqsan, Hacı Arif.

Verdi qəzələ tazə nəfəs incə düşüncən,
Dirlik suyusan, sirli bulaqsan, Hacı Arif.

Az yaşda el içrə səni ustad çağırırlar,
Şeirə, sənətə çünki ocaqsan, Hacı Arif.

Dostluqda bizə oldu səbəb dahi Füzuli,
Sən eşqə yaxın, dəhrə uzaqsan, Hacı Arif.

Hər kim sənə dərdin dedi, gəzdin ona dərman,
Sən sözdə qəti, işdə qoçaqsan, Hacı Arif.

Aləmdə güvən, dostun Əziz Pünhana daim,
Qəlbində mudam dost qalacaqsan, Hacı Arif.



## *Eloğlum Hacı Vüsalın ad günü münasibətilə*

Eylədin xalqa xeyirxahlığı mərdanə, Vüsal,
Olmadın dərdlilərin dərdinə biganə, Vüsal.

Hacısan, Kəbədə Allaha olubsan mehman,
İltimasın yetişib Qadiru Sübhanə, Vüsal.

Bir böyük ailəyə eyləmisən sən atalıq,
Salmısan zəhmət ilə hər işi sahmanə, Vüsal.

Gənc ikən el arasında qazanıbsan izzət,
Tutmusan əl nə qədər hali-pərişanə, Vüsal.

Dar günün dostusan, imdadə yetirsən daim,
Dönər əl boyda ürək, bir böyük ümmanə, Vüsal.

Seyyidə, alimə, söz əhlinə vardır şövqün,
Bu sübutlar bəs edər, səndəki imanə, Vüsal.

Əhli Quran babalardan sənə mirasdır bu,
Öyrədir hər işin insanlığı insanə, Vüsal.

Dinin İslamdı, yolun Əhmədi-Muxtar yoludur,
Qəmbər etdin özünü sən Şəhi-Mərdanə, Vüsal.

Sən Əziz Pünhana dost oldun, o bu dostluq üçün,
İthaf etdi, sənə bu mədhi nəcibanə, Vüsal.



# *Dostum Hacı Tofiqə*

Adətdi ki, bülbül gül ilə növbahar istər,
Eşq əhli də öz sevgisini xoşguvar istər.

Xoş halına hər kəs ki, Əli eşqini anlar,
Can nəqdini ol yolda qoyar, kuyi-yar istər.

Aqil verəcək malını imanına qurban
Nadan yığacaq dünya malın hər nə var istər.

Xərc eylədi çoxlar malın islam yolunda,
Tofiq də Əli eşqinə malın nisar istər.

Söz verdi Əli haqqına, həm də əməl etdi,
Mövlası üçün bəzl səxasın alar, istər.

Qoy Xaliq onu hər iki aləmdə şad etsin,
Bu yaxşı duadır, hər ağıllı anar, istər.

Kəbə evinin zairi oldu Hacı Tofiq,
Daim ola zəvvar, onu leylu nahar istər.

Aşiqdi Hüseynə onu aləm bilir əlbət,
Hər il iki ay süfrə açar, əşqbar istər.

Qanuni-təbiətdə bitər ot kökü üstə,
Çün əsl-nəcabətli kişi xeyrkar istər.

Yazdın Hacı Tofiqə Əziz Pünhan əsil mədh,
Cəddin kömək olsun, hərə şəmin yanar istər.

## *Hacı Mirhaşım Talışlının 75 illiyinə*

Yenə könlüm quşu seyr etmək istər bəhri-ümmani,
Yetə məqsudinə bəlkə tapa bir əhli-irfani.

Tapammazsan xəzinə heç zaman şahlar ayağında,
Çatarsan məqsədə etsən ziyarətgah virani.

Nədir illət ki çoxlar alimin qədrini bilməzlər,
Nədəndir mərifət əhli kənar etməzlə nadani.

Ki çoxlar elm dəryasına qəvvas oldular güya,
Keçib elm aləmin getsin, keçə bilmib bu dəryani.

Vəlakin əhli-beytin sevgisin dərk eyləyən arif,
Çəkinməz heç nədən, qorxmaz gər olsa Nuh tufani.

Bunu rəsmən buyurmuş cəddimiz elan edib Quran,
Ki «təthir» ayəsindən pak edərlər əhli-imani.

Bu gün bu xoş zamanda mən fəqirə eyləmiş qismət,
Neçə beyt şeir ilə təbrik edəm Mirhaşimi Kani.

Yəqinən öz balasının gələr məclisinə cəddi,
Əlivü-Mustəfa təbrik edər övladi-zişani.

Və həm əhli bəsirət şairi foci-füsahalər,
Şəkərlə, Mailin ruhi dolanır burda əlani.

Onu vəsf eyləmək şayəd bizimçün eyni nöqsandır,
Onun tərifini vermiş «ələstə» Həyy Yəzdani.

Hərə bir növ ilə təbrik edir bu Lənkəran Pirin,
Ki Şeyx nəsr ilə yazdı mən də nəzm etdim bu Xaqani.

Vatikandan qonaq gəlmiş Bakı çün «nur» ilə dolmuş,
Bizim öz nurumuz vardır edək bu bəzmi nurani.

Çox uzatmaq olardı Seyyidin ünvan təbrikin,
Ki qorxum bədnəzərdəndir gözə gəlsin nəcib cani.

Əziz Pünhan, yetər bu təbriki xətm eylə, tul etmə,
Ki yüz yaşda dübarə təbrik eylərsən bu Pirani.



## *Hacı Mirhaşım Talışlının 80 illiyinə*

Söz vermiş idim yüz yaşına təbrikə gəlləm,
Qismət belə oldu, hələ səksən yaşa gəldim.

Hər il yaşının üstünə yaş gəldi, ucaldın,
Bu arzu ilə mən də dalınca, qoşa  gəldim.

Səksən yaşa öz əqli-kamalınla yetişdin,
Beş yeddi ilə baş dəyə daşdan-daşa gəldim.

Ey Piri-Muğan, çox da tələsmə, deyəsən mən,
Yüz yaşda qoşa yeddi ilə həm qoşa gəldim.

Gəl biz iki seyyid əl açaq dərgəhi-haqqa,
Mətləb diləyək, bəlkə sənin tək yaşa gəldim.

«Uduni» buyurmuş çu Xuda, Sahibi-Quran,
Rəhmət qapısından yapışıb birbaşa gəldim.

Məşhurdu Peyəmbər də canıyçun dua etmiş,
Mən də bu hədisdən güc alıb, göz-qaşa gəldim.

Sən yüz yaşa ey Lənkəranın mərd duhası,
Olsun ki, Əziz Pünhan ilə yüz yaşa gəldim.



## *Dostum Hacı Möhlətə ithaf*

Haqq qoydu sənin adını insan, Hacı Möhlət,
Yoxdan yaradıb verdi şərəf-şan, Hacı Möhlət.

Qurana görə hörməti vacibdir ananın
Həm də atanın verdiyi fərman, Hacı Möhlət.

Yaxşı deyilib, ot kökü üstə bitər, əlbət
Sən gövdəli oldun daha xaqan, Hacı Möhlət.

Yaxşı ad ilə el-obanın fəxri olubsan
Həm xalqlara xeyriyyəçi sultan, Hacı Möhlət.

Haqq dərgahına yaxşı qayıtdın, Hacı oldun,
Kəbə evinə həm də ki, mehman, Hacı Möhlət.

Hər millətə sən dost kimi, qardaş kimi baxdın,
Onlarla sürübsən dəxi dövran, Hacı Möhlət.

Tale səni seyyidlər ilə həm qohum etdi,
Xoşbəxt ola nəslin görüm hər an, Hacı Möhlət.

Allah bu iki gənci özü bəxtiyar etsin
Bir qız əta etsin, iki oğlan, Hacı Möhlət.

Biz də oların toylarına sənlə bərabər
Təbrikə gedək, mən, Əziz Pünhan, Hacı Möhlət.



## *Ayaz Vəfalıya ithaf*

Yetmiş ildir yaşayıb, ömrünə naz etdin Ayaz,
Zirvəyə çatmaq üçün razü niyaz etdin Ayaz.

Nə gözəl fəsildə Allah yaradıbdır səni gör,
Fəsli, yaz, həm də ayaz, sən qışı yaz etdin Ayaz.

Yaradan hər kimə hikmət əta etmişsə əgər,
Çox şeyi vermiş ona, sən çoxu az etdin Ayaz.

Sənə də şeirdə bal tək bir şirin çeşmə verib,
Söz bazarında düri-lölünü saz etdin Ayaz.

Nə gözəl xəlq eləmiş Tanrı sənin xislətini,
Səbrü təmkin ilə rəftari məcaz etdin Ayaz.

Yetərincə malu-dünya sənə bəxş olmasa da
Gözəl övlad payı aldın da, niyaz etdin Ayaz.

Qoy şirin gül balalarla keçə ömrün xürrəm
Gecə-gündüz Yaradanla sərfü raz etdin Ayaz.

Bir Vəfa adlı mələklə ünsiyyət qurdun özün,
Dedilər Ayaz Vəfalı, kəşfü raz etdin Ayaz.

Qoy Əziz Pünhan sənin yüz yaşını təbrik edə
Bu təmanna düzələ, ömrü diraz etdin Ayaz.



## *Hacı Fərasət dostuma ithaf*

Bəxş oldu sənə cismilə can, Hacı Fərasət,
Ta qalmaya sənsiz bu cahan, Hacı Fərasət.

Adın kimi hər işdə fərasətli cavansan,
Hər fəsildə, hər yaşda cavan, Hacı Fərasət.

Rəhmət o kəsə, bu gözəl adı sənə vermiş,
Hörmət elə bu ada hər an, Hacı Fərasət.

Xoş halına, Allah evinin zairi oldun,
Ad üstə bir ad yazdı zaman, Hacı Fərasət.

Sən yaxşılığı öz əməlinlə sübut etdin,
Qeyrətdə, səxavətdə əyan, Hacı Fərasət.

Hər nə qazanıbsan əməlin bəhrəsidir bil,
Maarifçiliyə ol bir həyan, Hacı Fərasət.

Bir məscid əgər tikdirə bilsən o Sibirdə,
Məhşərdə işin oldu rəvan, Hacı Fərasət.

Aşurada etdin bu Əziz Pünhanı mehman,
Oldu sən ilə mərsiyəxan, Hacı Fərasət.



## *Hacı Rüfətə ad günü münasibətilə*

Yetmiş beşə çatdı yaşın ey pir, Hacı Rüfət,
Təbrikə səbəb oldu bu tədbir, Hacı Rüfət.

Mirmöhsün ağa nəslisən, izzətlə ucaldın,
Bu qaydadı şirdən doğular şir, Hacı Rüfət.

Xoş halına ki, qismət olubdur sənə Kəbə,
O evdə çatıb dadına təkbir, Hacı Rüfət.

Yaxşı dedilər ovçuluğun var, nişanın var,
Bir quş eləməz ölməyi təxir, Hacı Rüfət.

Qəlbində qurub taxtını rəhm ilə ədalət,
Nitqin də edir hər kəsə təsir, Hacı Rüfət.

Rüfət sözünün məğzini tutdun bu həyatda,
Bu rüfətin oldu bizə bir sirr, Hacı Rüfət.

Haqqın yolunun carcısı oldun uzun illər,
Dəvət elədin dostları bir-bir, Hacı Rüfət.

Dostun Hacı Xanlar, Hacı Nadir, Hacı Tələt,
Oldu sənə şadyanəvu qəmgir, Hacı Rüfət.

Ad çəkmirəm, amma nə qədər var isə dostun
Etməz o halal süfrəni təğyir, Hacı Rüfət.

Axırda Mübariz kimi bir dostu qazandın,
Xaliqdən olubdur sənə təğdir, Hacı Rüfət.

Vacibdir Əziz Pünhana olsun sənə zair,
Şeiri ilə edib təbriki təsvir, Hacı Rüfət.

## *Vaqif Yusifliyə*
## *60 yaşı münasibətilə*

Ali insandır, ürəkdən hörmətim var Vaqifə,
Söyləyim sənətlə təbriki, sənətkar Vaqifə.

Məqsədim çox incə mənalar xəbər vermək deyil,
İsmi tək məlumdu çox mətləb, xəbərdar Vaqifə.

Tərifə tərif deyər, tənqidisə tənqid edər,
Əyrini göstərmə düzlükdə inadkar Vaqifə.

Öz işində xeyli mahir bir qədirdandır ki, o,
Söyləməkdə ar gəlir bildiyni təkrar Vaqifə.

Altımış ildir cahana iz salıbdır varlığı,
Hər gələn söylər mübarəkdir səbəbkar Vaqifə.

Başına qoymuş hünər tacın, edir meydanda cəng,
Qeyri-mümkün bir kəs etsin meydanı dar Vaqifə.

Gah Füzulidən açar bəhs, gah Nəsimidən deyər,
«Dahi» ismin verdi xəlq, elmində sərdar Vaqifə.

Bir Vidadi tək oğul bəxş eyləyib Allah ona,
Ta ki, var dünya olar daim vəfadar Vaqifə.

Əl açıb söylər Əziz Pünhan bu dostluq naminə,
Hər zaman Pərvərdigar olsun mədədkar Vaqifə.

## *Oğayatın anma gününə*

Bənzərsiz idi əhdə sədaqətdə Oğayat,
Mərd oğlan idi mehri dəyanətdə Oğayat.

Dostluqda təəssübkeş idi, dərd bölən idi,
Çox incə idi çünki nəzakətdə Oğayat.

Zəhmətkeş idi, həm də ziyalı, çalışardı,
Boş keçməyə bir saatı rahətdə Oğayat.

Qeyrətlə böyütdü özütək mərd neçə övlad,
Təqdim elədi xalqa nəhayətdə Oğayat.

Haqqa dayaq idi, düzə düz, əyriyə əyri,
Bir dağ kimi durmuşdu cəsarətdə Oğayat.

Övlad yaşadır indi onu sözlə, kitabla,
Çalmış zəfəri çünki səadətdə Oğayat.

Mövla buyurub, yaxşı oğul saleh əməldir,
Kövsər içəcəkdir bu fəxarətdə Oğayat.

Vəsf etdi Əziz Pünhan onu anma günündə,
Yaddaşda qalar çün bu ləyaqətdə Oğayat.

Əslilə gəlib nəslinə xidmətçi olubdur,
Zövq əhli idi əsl-nəcabətdə Oğayat.



## *Musarza Mirzəyevin 50 illiyinə*

Var yaxşı bir alim, yaşayır Mahmudavarda,
Gördün onu, həmsöhbəti ol, qalma kənarda.

«Musarza»dan almış adı, bir elə ləldir,
Dünyada cəvahir ola bilməz bu əyarda.

Kağızda asandır oxumaq min cürə xətti,
Alim odu mətləb edə kəşf daşda-divarda.

Yüz il yaşayıb, çünki həm alimdi, həm insan,
Bir ömrü ikiqat eləyib əlli baharda.

Allah tanıyan kəsdi nəcabətli nəsildən,
Mərdlik, kişilik qanı axır onda, damarda.

Adı çəkilən yerdə tapır hörməti dostlar,
Yox fərqi Masallı, Bakı, ya hansı diyarda.

Şöhrət kimi var dostu onu daim əzizlər,
Fəxr eylər onun dostluğuna olsa da harda.

Çox yaxşı ürək dostları vardır bu həyatda,
Qoymazlar onu bir dəm ola dərdu qubarda.

Təbrik eləyib xeyli uzaqda yaşayanlar,
Sadiqdi olar, dada yetər dostuna darda.

Şövq ilə Əziz Pünhan edər dostunu təbrik,
Bir şeir yazıbdır bu fəxarətdə, vüqarda.

## *Kəlam*

Əhli-hal sözsüz bilir ki, nə müsəffadır kəlam,
Həzrəti Adəmlə birgə dəhrə peydadır kəlam.

Gahi Məcnundur sürür dəşt içrə hicrin növbətin,
Gahi məhbəsdə çəkən min dərdi, Leyladır kəlam.

Gahi Misr içrə olur hüsni vəcahət Yusifi,
Gahi də hüsnə qənim olmuş Züleyxadır kəlam.

Yol açıb haqq əhlinə hikmətlə dəryanı bölüb,
Həm də çarımdan göyə əzm etmiş İsadır kəlam.

Aşikar eylər kəlamın qüdrəti şəxsiyyəti,
Öz içində gizlənən bir türfə mənadır kəlam.

Nə zamana tabedir o, nə məkana bağlıdır,
Aləmi-Dünyavü mafihadən əladır kəlam.

Haqq kəlamı oldu Quranla bizimçün aşikar,
Mustafavu, Murtəzavu ali-Tahadur kəlam.

Çarda məsumə aiddir bu məvhum qədrdə,
Haqq diliylə, haqq ağızdan çün mühəyyadır kəlam.

Ey Əziz Pünhan kəlamın qədrini bildin ki, sən,
Haqq kəlamından alıb güc, eylədin inşa «kəlam»

Xulqdə bir dərgidir ki, elmdir mahiyyəti,
Alimu ariflər üçün oldu nurəfza kəlam.

Bu kəlamda qiymətin tapdı kəlam sahibləri,
Ta qiyamət eyləsin kaş ədlini icra kəlam,

Bu kəlam ilə haqq iş görsən alarsan tərifi,
Əyri olsun eyləyər dəhrə səni rüsva kəlam.

Hər kimin ki, bu kəlamla bağlı olmuş xidməti,
Hər iki aləmdə eylər onları ehya kəlam.



## *Ədalət*

Dostum Ədalətə
33 yaşı münasibətilə

Adınla yaşadın mərd-mərdanə,
Beləcə həyatda yaşa Ədalət,
Halal zəhmətlə üz tutdun cahana,
Niyyətin dəyməsin daşa, Ədalət.

Otuz üç yaşının zirvəsindəsən,
Üç otuz, üçlərin dövrəsindəsən,
Əlli bir yaşın da hissəsindəsən,
Yüz əlli il ömür yaşa, Ədalət.

Kasıb bir komada halal zəhmətlə,
Ata-ana səni böyük möhnətlə,
Tor qurub balıqla, quşla, himmətlə,
Ömrün keçdi bir tamaşa, Ədalət.

Atan Adildi, sən Ədalət oldun,
İsmi məsdər ilən Ədalət oldun,
Adın tək həqbilən ədalət oldun,
Bir adla yaşadız qoşa, Ədalət.

Həyatında bil ki, borclusan ona,
Ömür boyu sənlə çarpışan ana,
Səni boya-başa çatdıran ana,
Qoyma qəm-kədərdən coşa, Ədalət.

Qoy bunlar səninçün bir hikmət olsun,
Övladınçün bir dərs, nəsihət olsun,
Gələcək nəsilçün həm himmət olsun,
Dostlarınla yaşa, yaşa, Ədalət.

# QİTƏLƏR



Adətdi verərlər qızı gənc oğlana daim,
Bir az yaşı olsa deyilər ömrü gödəkdir.
Guya ki, cavan vaxtı ölüm yoxdu bəşərçün,
Qız qədrini bilməkdən ötür yaş da gərəkdir.
Ağlın işidir yaşı sayıb ömrü hesablar,
Gənclik, qocalıq fərqi qoyan sanma ürəkdir.

* **

Fələyin saydığını sən saya bilməzsən ki,
Bu ki, təğdiri-qəzadır, bunu Allah eylər.
Gah bir dərdə salıb sonda edər çarəsini
Gah bir zövq verib qüssədən agah eylər.
«Ləm yəşə ləm yəkun» ayətdə buyurmuş Xaliq,
Özünün istəyidir gah eləməz, gah eylər.
Sormuşam ki, nədi Quran, Əziz Pünhanə,
Dedi ki, sözlə Xuda bəndəni islah eylər.

* * *

Ağlın gücünə uyma onun öz yeri vardır,
Bəzən dəli olmaq da verir xeyri yerində.
Fikr eyləmədən keçdi dəli çayı, ağıllı,
Keçməkçün edər altı gecə seyri yerində.
Baş lazım olar tapmağa dünyada məqamı,
Tərk etsə yerin baş, oturar qeyri yerində.

* * *

Əlinə ey qələm almış demə söz sahibiyəm,
Sözü Allah yaradıb, söz-kəlam Allahdandır.
Ey oğul istəyirəm, əhd eləyən, qız atası,
Xeyri yox, sən zirək olsun, ənam Allahdandır.
Tay deyilsən mənə fitrətdə hal-əhval tuturam,
Çünki bu əmri-rəsuldur, salam Allahdandır.

* * *

Üç-beş söz ilə ey özün alim bilən insan,
Yığ gölməçəni, gəl mənim ümmanıma bax bir.
Bir kəlmə sözü yüz dəfə təkrar eləyirsən,
Yüz kəlməni bir yol demək imkanıma bax bir.
Naşı gədələr oldu hünər sahibi sözdə,
Sözdən əmələ keçmədə sahmanıma bax bir.
Guya ki, Əziz Pünhan edər naşini tənqid
Hər fikri açıq söylədi, pünhanıma bax bir.

* * *

Allah buyurub; hər kimə mən hikməti versəm,
Çox şey ona mən bəxş edərəm, qoy bunu bilsin.
Sən söyləmə yoxdur mənə dünyada bərabər,
Göstər işini, tərifin el içrə deyilsin.
Allah verən hikmətlərə diqqətlə yanaş sən,
Hikmət arayan kimsələr ünvanına gəlsin.

* * *

Pul çoxaldıqca tamah da çoxalar, adətdir,
Tamah artdıqca, gözəlik də solurmuş, əcaba.
Pul az olduqda onu xərc eləyirsən qəmsiz,
Elə ki artdı çoxaldı, qəm olurmuş, əcaba.
Tapmaz hec rahətini vari-pulu başdan aşan,
Yuxusuz gözlərinə qorxu dolurmuş, əcaba.
Bu Əziz Punhana pul dostu olanlar çox idi,
Dost deyilmiş tamahinda boğulurmuş, əcaba.

* * *

Bu nə adətdir ki, yar yara qovuşmaz,
Bunu bir kimsə bilirmi, necə bilsin?
Görəsən ayrılığı kəşf eləyib kim?
Kəşfdən xeyri gəlirmi, necə gəlsin?

Dadmasa ayrılığı eşq nədi bilməz,
Yaşayan vaxtda ölürmü, necə ölsün?
Hanı bu barədə söz söyləyən ustad?
Sözünü mənlə bölürmü, necə bölsün?
Gecə gördükdə Əziz Pünhanı ağlar,
Yaşını kimsə silirmi, necə silsin?

* * *

Evdə dustaq olan insana bərabər sayılır,
Evinə, yurduna həsrətdə nəvası qəribin.
Sanki aşiqdir qalıb yarına həsrət gecələr,
Göyə təsir eyliyər cövru cəfası qəribin.
Yetirin yarıma ey xeyr eliyənlər canımı,
Vəslinə çünki yetişməkdi şəfası qəribin.
Məni yar imtahan eylər ürəyim dönməzdir,
Bitməz aləmdə xəta görsə vəfası qəribin.
Bu Əziz Pünhana baxdıqda atın tənə oxun,
Yardan çəkdiyi qəmlərdi libası qəribin.
Nə qədər yazsada az, çoxdu sözün mənası,
Bir kitab eyliyər açdıqda nidası qəribin.

* * *

Nə gözəldir ki, cahana təzə insan doğulur,
Dəyişir çünki təbiət də, dəyişdikcə nəsil.
Necə ki, yaz qışı eylirsə əvəz dünyada,
Yeni güllər bitirir köhnə gülüstanda fəsil.
Ötürər yaddaşını, elmini gənc nəslə kişi,
Hər kimin yadigarı qalsa, o insandı əsil.

* * *

Düşəcək torpağa axırda ağac yarpağı tək,
Bu ömür ki, yaşayırsan dönəcəkdir xəzələ.
Bu həyat yoldu gedirsən, sonu vardır amma,
Sona yetdikdə yolun sən dönəcəksən əzələ.
Yaşama ömrünü bifaidə əyləncə ilə,
Fayda ver dəhrə, adın eşq ilə düşsün qəzələ.
Öz həyatı, bu Əziz Pünhan üçün məktəbdir,
Ey ürək, gəl yenə sərmayeyi-ömrü təzələ.

# RÜBAİLƏR VƏ DÖRDLÜKLƏR



Bulud ağlamasa, çəmən göyərməz,
Çiçəklər də açmaz, toxüm cücərməz,
Çağırmasan Allah da olmaz kömək,
Körpə ağlamasa, ana süd verməz.

* * *

Yandırdı məni eşq vüsalın, ey gül,
Al rəngə boyandı xəttu xalun, ey gül.
Ol həlqeyi-zülfün ki, əlimdən çıxdı,
Görsəndi hicab altda camalın, ey gül.

* * *

Aşiq ki, əsiri-qəmi-hicran deyil,
Hiç vəch ilə o, vasili-canan deyil.
Hər dərdə dəva Xaliqi-Yəzdan edəcək,
Bimərifətə amma, bu dərman deyil.

***

Sayəndə gəzən yar, sənə dost deyil,
Ol yari-dilazar, sənə dost deyil.
Məqsudə yetincə sürünər sayə kimi,
Eylə sürünən mar, sənə dost deyil.

***

Eşq əhli yəqin ki, naleyi-zar etməz,
Dərdini yara zarilə izhar etməz.
Hərçənd deyillə, müşkülə səbr eylə,
Müşkül bilirəm səbr ilə də kar etməz.

***

Könlum yar əlindən oldu xəstə,
Gözlər qara, qaşları şikəstə,
Çəkmək nazını mənə şirindir,
Tər qönçədi o, həmi xocəstə.

***

Aşiqəm, eşq şöləsindən yanmışam,
San, cigər qanilə mən boyanmışam.
Gözlərimdən yaş yerinə qan axar,
Hicr yardan dəxi canə doymuşam.

* * *

Tək əldən səs çıxmaz, bir təpər olmaz,
Tək aslan gücündən bir səmər olmaz,
Təklik Allah-Təala şəninə gəlmiş,
Tək-tənha heç kimsə bəxtəvər olmaz.

* * *

Yalançı tamaha salacaq səni,
Aldadıb toruna alacaq səni,
İlanı heç zaman yaxın buraxma,
Gözləmədiyin vaxt çalacaq səni.

* * *

Ariflər dünyaya çox sakit baxar,
Qəlbini eşq ilə yandırıb-yaxar,
Cılızlar zahirdə coşub çağlayar,
Ariflərin seli batində axar.

* * *

Yanğını su ilə söndürür insan,
Nəfsini ağlıyla öldürür insan,
Eşq odunda su da alışıb yanır,
Səbr ilə eşqi də güldürür insan.

Dostluqda ayıq ol, pərdəni yırtma,
Dostluqda sadiq ol, nadanlıq etmə,
Zaman bəlkə bir gün üzünə güldü,
Həmin gün xəcalət tərini tökmə.

* * *

Dünyaya gələnlər gedəcək bir gün,
Zirvəyə qalxanlar enəcək bir gün,
Enişdə-yoxuşda mötədil ol ki,
Sərt həyat üzünə dönəcək bir gün.

* * *

Hər gün təzə gündür, geri qayıtmaz,
Arzu təmənnadır, gözə görünməz,
Eşq məhəbbətsiz ölüdür həyat,
Sonrakı təəssüf heç vaxt ödənməz.

* * *

Kələklə gələni fələk aparar,
Kəpəyi qaydadır, ələk aparar,
Zəhmətsiz evinə gələn sərvəti,
Ya atəş, ya da ki, külək aparar.

* * *

Qulaqdan zövq alar insan deyiblər,
Ağızdan kökələr heyvan deyiblər,
Eşqlə məhəbbətlə yaşa ey aqil,
Sevgidən uzaqdır şeytan deyiblər.

* * *

Eşq odu yandırar, amma kül etməz,
Şoranlıq sahələr çiçək bitirməz,
Yandırdıqca qəlbi nəşələndirər,
Qanqal qönçələnər, xeyir gətirməz.

* * *

Sevgini dərs verib öyrətmək olmaz,
Köksüz bir ağacı becərtmək olmaz,
Eşq ürək közilə alovlanarmış,
Sevgisiz bir qəlbə güc etmək olmaz.

* * *

Yarı-yardan ayıranın lap belə,
Hicrana bais olanın lap belə,
Onsuz da haqq aşiqləri qovuşar,
Vüsala əngəl salanın lap belə.

* * *

Kişi zərifliyə xətər yetirməz,
İncə yaranmışa zərər yetirməz,
İlahidən əmanətdir gözəllik,
Xəyanət kimsəyə səmər yetirməz.

* * *

Sevgini hər qəlbdə var etmək olmaz,
Bayquşu bülbülə yar etmək olmaz,
Necə ki, utanmır sevgisiz insan,
O cür də aşiqə ar etmək olmaz.

* * *

Ariflərin töhfəsidir qəm, kədər,
Düşünən beyinlər əziyyət çəkər,
Nadan ki, anlamaz məhəbbət nədir,
Düşünmədən ömrü eyləyər hədər.

* * *

Zərifliyə qıyan əllər şil olsun,
Bədnəzərlə baxan gözə mil olsun,
Məhəbbət tellərin qırma a zalım,
Daşa dönmüş qəlbin qoy dil-dil olsun.

* * *

Ömrün payızında tapdım yarımı,
Könül sirdaşımı növbaharımı,
Zalımlar əsdirdi həsrət küləyin,
Xəzanə döndərdi laləzarımı.

* * *

Hər sarı görünən xəzəl sayılmaz,
Hər qəmzə göstərən gözəl sayılmaz,
Su sandığın dərya bəzən sərabdır,
Hər parlayan əşya qızıl sayılmaz.

* * *

Yerə vurduğunu tapdama daha,
Qaçanı tərk elə, qovlama daha,
Ağılla ram etmək imkanı varsa,
Zülm ilə sinəsin dağlama daha.

* * *

İşıqlı gündüzü qaranlıq yeyər,
Hər gecə zülmətdən bir donluq geyər,
Sübhədək şahlığı süzər zülmətin,
Səhər taxt-tacına əlvida deyər.

***

Nə qəm, canım çıxa yar qucağında,
Gəzdim bu vüsalın mən sorağında,
Sevən sevdiyinə qalmasın həsrət,
Necə ki, mən qaldım iştiyağında.

***

Arzumuz var idi sənlə yol gedək,
Nədənsə tez çatdın mənzil başına,
Qədərdi, taledi, daha nə edək,
Saldıq mehrimizi məzar daşına.

***

Darıxma sevgilim, bir yerdəyik biz,
Sən mənzil başında, bizsə yoldayıq,
İlahi eşqiylə vurur qəlbimiz,
Sən Cənnət bağında, biz həyatdayıq.

* * *

Aşiq olan şəxsə qənimət nədir,
Məşuq olan şəxsə mürüvvət nədir,
Mənimlə eşqdən danışma qafil,
Sən nə bilirsən ki, məhəbbət nədir.

***

Haqqı tanımağa əql gərəkdir,
Əql üçün vəsilə nəql gərəkdir,
Cahil düşüncəsi səmərə verməz,
Şəxsin fitrətində siğl gərəkdir.

***

Baxışı edibdir ruhumu xumar,
Meysiz məst eləyib məni o dildar,
Davam ver atəşin baxışlara sən,
Od suya dönəndə sulanar gülzar.

***

Ruh incə lətifdir, həm də ki kamil,
Büsbütün hikmətdir, bunu anla, bil,
Dəryaların özü ayətdir bizə,
Hər üçü – dalğası, səthi və sahil.

***

Gözəllik nurdursa, bəs zülmət nədir?
Zülmətdən yaranan məhəbbət nədir?
Təzaddır vücudda zülmət də, nur da,
Bəs onda sevgiyə qənaət nədir?

***

Hər bir çətinlikdə bir imtahan var,
Deyirlər çətindən asanlıq doğar,
Çalış yapışasan haqqın ipindən,
Hacəti yox yerdən verər kirdigar.

***

Hər zaman ki, tale sənə olsa yar,
Qalibsən hər işdə, oldun bəxtiyar,
Haqqın nizamıyla qursan işini,
Sənə zamin olar o Pərvərdigar.

***

Hicranın əvvəli, sonu bilinməz,
Pisliyin libası, donu bilinməz,
Vüsala yetməyin Allah əlində,
Onun da zamanı, günü bilinməz.

***

Bir dəstə qəsdimə qürüb ittifaq,
Bir yanda arzular, bir yanda fəraq,
Bircə ümid qalmış Pərvərdigara,
Şiddətlə gözlərəm ümiddən soraq.

***

Yaman hala saldı məni bu dövran,
Mənə qəlbi yanar kim çəksə hicran,
Kiminçünsə zaman sürətlə keçər,
Mənimçün yorulub, dayanıb zaman.

***

Tamahkar rahatlıq tapmaz heç zaman,
O, həsrət qalacaq şadlığa hər an,
Qismətə qane ol, etmə çox təlaş,
Bar çox olsa, sınar budaq, ey insan.

***

Fəraqdan ürəyim al qana döndü,
Varlığım, yoxluğum gümana döndü,
Vüsala yetməyim yaman gecikdi,
Hicrandan qamətim kamana döndü.

***

Sünbül kimi zülfü, qönçə dodağı,
Sürahi gərdəni, lalə yanağı,
Necə tab eləyim bu gözəlliyə?
Hər görəndə çəkər sinəmə dağı.

***

Şümşad qamətiylə sərv olar xəcil,
Günəş nuru verər buluda təhvil,
Sonra min «yox»una razı olaram,
İndi bir «hə» sözün eyləsə təcil.

***

Əlimdə olsaydı mənim ixtiyar,
Yol verməzdim çəkə ürək intizar,
Yol tapdı qəlbimə gözümdən mənim,
Canım çıxar, çıxsa qəlbimdən o yar.

***

Şadlıqla qəm-kədər həmsüfrə olar,
Ruhumda təzaddan məclis qurular,
Fələyin gərdişi belə yazılmış,
Daşlardan süzülüb çeşmə durular.

***

Eşq özü bir mərəzi-ariz imiş, dərk elədim mən,
Aşiqlik özü büsbütün ariflik imiş, dərk elədim mən.
Sən mərifətüllah ilə nurlansan əgər, ey gözəl afət
Eşqi-ərəzin batil imiş, bil, bu işi dərk elədim mən.

***

Əlaman eşqin əlindən, biqərar etdi məni,
Yanmışam hicrin əlindən, xar, zar etdi məni.
Gecə-gündüz yapışıb, daməninə yalvarıram,
Ayaq altında nədən bəs ki, qubar etdi məni.

***

Zülf mişkini atıb boynuma yar etdi kəmənd,
Xoşdu bu zənciri-eşq qoy eyləsin payımı bənd.
Gecə-gündüz bu mənim arzum idi, yetdim ona,
Kaş ki, hər an dolaşa boynuma çün gərdənbənd.

***

Dostum çox olub, sevgili yarım bir olubdur,
Düşmən çox olub, amma nigarım bir olubdur.
Dost-düşmənim ətrafım ala, fərq etməz,
Aləmdə mənim çeşmi-xumarım bir olubdur.

***

Bir çarə eyləyin yetişəm ol gülzarə,
Bəlkə vüsalı son verə bu dərdu qübarə,
Çox istəyirəm qalsın o məhparə mənimlə,
Bir dəfə görüm şad günü də mən günü qarə.

***

Eşq bəhsində mənə dərsi verib pərvanə,
Zəncirə əsir olmağı öyrətdi mənə divanə,
Zülfi-siyahı tel-tel dolaşmaq dilədim,
Bu yol necə müşkildi, göstərdi mənə şanə.

***

Eşq aləmi bir xatireyi-heyrət imiş,
Başdan-başa dərdü, ələmu, möhnət imiş.
Bilsəyidim əzəl, eşqə həvəs etməz idim,
Bilməzdim əzəli dad, sonu həsrət imiş.

***

Ey badi-səba, ərzimi cananıma çatdır,
Qəlb ağrısını, sərv xuramanıma çatdır.
Öldürdü məni təneyi-əğyar, dayanma,
Bu peyğamımı, əhd ilə peymanıma çatdır.

***

Yarın nəfəsi heç məni tərg eyləmədi,
Bir kimsə bu əhvalımı dərk eyləmədi.
Hər anda mənimlə döyünür qəlbi onun,
Mənə etdiklərini heç kimə ərk eyləmədi.

* * *

Ruxsarını görcək ay utandı, paralandı,
Ol gündən özün naqis sandı, aralandı.
Gün çıxmasa, ay xəlvəti bir dövrə vurardı,
Odlandı sənin məh camalından, o da yandı.

* * *

Təmi-şərabı, mən ləbi-cananıda duydum,
İçdikcə onu məst düşüb anidə uydum.
Bir vaxt ayılıb, gördüm olub sübh namazı,
Təthir elədim, yarı da pünhanda qoydum.

* * *

Şəm kimi yanmalıyam, sərv xuramanım üçün,
Ciyərim qana dönüb, qönçeyi-xəndanım üçün.
Eşq əlacın tapa bilməmişəm, yanmalıyam,
Mənə rəhm eylə nigar, bu yanan canım üçün.

***

Eyləmə qönçə gülü, ləli-ləbi naz ilə tay,
Şəhd şəkkər dodağı, qönçə gülə, az elə tay.
İnsafın yoxmu, salırsan o ləbi hörmətdən,
Saralan qönçəni etmə, güli-tənnaz ilə tay.

***

Zülf siyahın çün şəbi-yeldanı yaratmış,
Ol mah ruxun nuri-təcəllanı yaratmış.
Ay gahi qaranlıq, gəhi nurlu olur əlbət,
Amma yanağın daima nurani yaratmış.

***

Yar mənə naz ilə ruxsarını izhar eylər,
Göstərir çahi-zənəxdani giriftar eylər.
Deyəsən eşq kamal bəhsini tədris eləyir,
Belə getsə, məni də aşiqi həmvar eylər.

***

Gülüzarimi görüb dövlətu varım getdi,
Çeşmi məstini görüb, səbru qərarım getdi.
Qıyqacı baxdı, dəxi düşdüm ayaqdan yahu,
Dözmədim vəslinə, çün daru nədarım getdi.

# MÜSTƏZADLAR



* * *

Dünyada yenə aşiqi-divanə mən oldum,
Pərvanə mən oldum.
Nəfsanə olan hər şeyə biganə mən oldum,
Şahanə mən oldum.

Var sinədə bir eşq ki, Vamiq çata bilməz,
Aşiq çata bilməz.
Can təslim edən yarə nəcibanə mən oldum,
Mərdanə mən oldum.

Dünyada bina qılmadı nəfs ilə bir insan,
Məhv oldu Süleyman.
Eşq ilə fəqət xanəsi viranə mən oldum,
Qəmxanə mən oldum.

Məcnun nədi, Leyla nəçidi, hamı yalandı,
Nadani zamandı.
Bülbüllərə eşq içrə əzəl lanə mən oldum
Əfsanə mən oldum.

Çox kəs dilədi dəhrdə şahlıq edə eşqə,
Baş qoşdu bu məşqə.
Axırda salan eşqi də səhmana mən oldum,
Fərzanə mən oldum.

Axtarma Əziz Pünhanı yad yerdə, məkanda,
Bu fani cahanda.
Canı yetirən, can diləyən cana mən oldum,
Cananə mən oldum.

* * *

Səd şükür yetişdim o qara göz gülüzarə,
Ol sevgili yarə.
Ol telləri aşiftəyə, ol çeşmi xumarə,
Eşq adlı vüqarə.

Öz kamıma çatdırdı məni Xaliqi-Yəzdan,
Ol Qadiri-Sübhan.
İsmət tacını izzilə qaytardı dübarə,
Ol xazini-yarə.

Allah bir işi istəsə olsun, olacaqdır,
Bu, bir olacaqdır.
Pak talib olar pakə, xəbis mərdumazarə,
Qoy olsun avarə.

Kuyində axan çeşmələrə teşnədi canım,
Ey baği cananım.
Zülfündə xoşam, sayəsini çəkmə kənarə,
Vurma mənə yarə.

Sənsizdi könül, hicridə, xiffət necə bitsin.
Həsrət necə bitsin.
İllərdi səni gözləyirəm mən güni-qarə,
Et qəlbimə çarə.

Məcnun deyiləm, yoxdu ona bənzərim əsla,
Sənsə mənə Leyla.
Qoy getmiyəm onlar kimi nakam məzarə,
Ey nazlı dilarə.

Eşqində Əziz Pünhan özü şafei-candır,
İsayi-zəmandır.
Bir busə kərəm eylə, nəfəs ver məni-zarə,
Çəkmə məni darə.

* * *

Bu qaidədir qönçə çiçək xarsız olmaz,
Əğyarsız olmaz.
Aşiqlərə də zövqü səfa yarsız olmaz,
Qəmxarsız olmaz.

Qəddin kimi bir sərv bu dünyada tapılmaz,
Uqbada tapılmaz.
Cənnət deyilən mülk də gülzarsız olmaz,
Dildarsız olmaz.

Hicranın odu eylədi kül, səbrimi ey yar,
Bil qədrimi, ey yar.
Sevda deyilən ev dəru divarsız olmaz,
Kəndarsız olmaz.

Ol çah zənəxdanuva mən təşnəyəm ey yar,
Sərgəştəyəm, ey yar.
Yusif deyilən dəhridə azarsız olmaz,
Bazarsız olmaz.

Sevdayi xəlaiqdə gətir şərhi bəyanə,
Anlat bu cahanə.
Layiqli işin mayəsi təkrarsız olmaz,
İnkarsız olmaz.

Şam vaxtı Əziz Pünhan içib yar ilə badə,
Yetdi bu muradə.
Şəbanda qəza sevgisi iftarsız olmaz,
Ah-zarsız olmaz.



# MÜRƏBBE



* * *

Əhli eşqəm, hələ aldanmamışam xülyaya,
İstəyir çərx məni bənd eləsin röyaya,
Sən də bica yerə xəlq olmamısan dünyaya,
Məndən ötrü səni xəlq etdi Xudavənd, gözəlim.

Eşq haqqında kəlam istəmə, min dəftərdir,
Hər nə də çıxsa yadından, bir adın əzbərdir,
O necə püstədir ki, xeyli şirin, şəkkərdir,
Dodağın varsa nə lazımdı mənə qənd, gözəlim.

Sən mənim sevgi dolu şəst sözümsən, bunu bil,
Hicrdə vəslə baxan məst gözümsən, bunu bil,
Səndə olduqda sənəm mən, sən özümsən, bunu bil,
Bizi tale eləyib bir-birinə bənd, gözəlim.

Artırır sevgi mənim ömür eləmək müddətimi,
Vəslinə yetmək üçün sərf edirəm zəhmətimi,
Eşq alıb əqlimi bildikdə könül niyyətimi,
İndi eşq əhlinə mən öyrədirəm fənd, gözəlim.

Bu Əziz Pünhanı öz bəxti qoyub özbaşına,
Qələmə sirdaş olub vəsf yazır göz-qaşına,
Ayrılıq dərdinə baş qoşma, qəm etmə boşuna,
Ayrılıqçun hanı düşmən mənə manənd, gözəlim.

* * *

Sevgilim, qərq eləyibdir bizi eşqin dənizi,
Hanı bir dada yetən, şərh eləyək dərdimizi,
Bu sevən qəlbdə çox qalmasın hicranın izi,
Aşiqik, dərdə sipər eləmişik sinəmizi.

İmtahandır, çalışıb yaxşını pisdən seçərik,
Vüsalın sağlığına eşq meyindən içərik,
Eşq üçün lazım əgər olsa bu candan keçərik,
Aşiqik, dərdə sipər eləmişik sinəmizi.

Elə bil qəsdimizə durdu bu dünyanın əli,
Çatladı bağrı həsəddən bizi aşiq görəli,
Əhli-eşq dərd oxuna köksünü vermiş irəli,
Aşiqik, dərdə sipər eləmişik sinəmizi.

Eşq bir bəzmdi ariflər üçün agahı,
Haqq kamil elədi eşqdə Sarullahı,
Qanımız caridə olsa çağıraq Allahı,
Aşiqik, dərdə sipər eləmişik sinəmizi.

Yuxuda bir yeri gördüm ki, büsatu əbədi,
Oturub səfdə hamı arif idi, alim idi,
Saqi ərz etdi Əziz Pünhana, bir söz de, dedi:
Aşiqik, dərdə sipər eləmişik sinəmizi.

* * *

Xaliqimdən istəyim var, hər gecə etdim dua,
Cismimin can mülkünə canana gəlsin, getməsin.
Görməsin bunca cəfanı könlümə yarım rəva,
Bəlkə abad oldu bu viranə, gəlsin, getməsin.

Kaş kəsə Minada İsmayıl kimi qurban məni,
Hicrə yox, bəzm vüsala eyləyə heyran məni,
Qorxusu yoxmu ki, bir gün öldürər hicran məni,
Qoymasın öz aşiqin divanə, gəlsin, getməsin.

Qarşıma çox maneə çıxmış, vurub sındırmışam,
Rütbəyi-əqlimlə çox nadanları qandırmışam,
Könlümün öz atəşində bir çıraq yandırmışam,
Talib olsun nuruma pərvanə gəlsin, getməsin.

Mehman etsin kuyinə qürbətdə qalmış könlümü,
Can yarasın dövri-səyyadından almış könlümü,
Həsrətində bir ömür solmuş-saralmış könlümü,
Etməsin qurban qəmi-hicranə, gəlsin, getməsin.

Görməyib nadan olanlar Xaliqin divanını,
Hər bəladan saxlar Allah, əhli-eşqin canını,
Söyləyin yara, sevindirsin Əziz Pünhanını,
Kuyinə birdəfəlik mərdanə gəlsin, getməsin.



* * *

Cəhd eylə ki, gül qönçə ikən, qönçə gülü dər,
Təxir eləmə körpə ikən, qönçə gülü dər,
Üzmə ləçəyin, pöhrə ikən, qönçə gülü dər,
Qoyma açıla qönçə ikən, qönçə gülü dər.

Dərməkdə idim qönçəni pərpərlər ayıldı,
Səs düşdü bütün bağçadakı güllər ayıldı,
Gəldi köməyə guya ki, bülbüllər ayıldı,
Səs gəldi ki, sən bəhrə ikən, qönçə gülü dər.

Min zövq alacaq qönçə ikən bəhrələnən gül,
Bəhrə verəcək dürr sədəfdə, sevilən gül,
Mərdanə igid zahir edər, bunca dolan gül,
Məskən Günəşə Zöhrə ikən, qönçə gülü dər.

Peyğəmbərimiz də gülü tər qönçə dərərmiş,
Gül qönçəsi tək qönçə ləbə rəğbət edərmiş,
Gövhər kimi qiymətli kəlamı o buyurmuş,
Tut vaxtını purbəhrə ikən, qönçə gülü dər.

Hər qamət Əziz Pünhanı dilşad edə bilməz,
Hər zahiri xoş nazəninə huri deyilməz,
Yad bağda açan gül verə min ətri, sevilməz,
Fürsətdi ki sən, pöhrə ikən, qönçə gülü dər.



# Müxəmməs



* * *

O cananın gülü ruyi qiyamətmiş-qiyamətmiş,
Üzü Xaliq behiştindən əlamətmiş-qiyamətmiş,
Sözü, nitqi-kamalı bir nəzakətmiş-qiyamətmiş,
Ona yetmək onu görmək səadətmiş-qiyamətmiş,
O dildara könül vermək səxavətmiş-qiyamətmiş.

Şükür ki, vəsli eşqinçün zaman gəldi qərar oldu,
Nə çox müddət sevən qəlbim bu vəslə intizar oldu,
Mən ondan gah kənar oldum, gah o məndən kənar oldu,
«Humayun» pərdədən çıxdı «Müxalif»dən hasar oldu,
Bu hicrə tab edib dözmək şücaətmiş-qiyamətmiş.

Könül xoşbəxtliyin ətrin alıb bir tar-muyindən,
Düşüb bihal olub məmlüv sevinci zülfü ruyindən,
O yerdə kim var idi, can verib məst oldu buyindən,
Axır sevda yaşı seylab olub çün çeşm cuyindən,
O yaş dərgah valadan inayətmiş-qiyamətmiş.

Nə eylər olsa düşmən çox, nəsibim qismətim sənsən,
Gələ saysız qoşun-leşkər qolumda qüvvətim sənsən,
Cahanda dik gəzən qəddim, həyavu ismətim sənsən,
Əzizim, nuri-eynimsən, bütün ülviyyətim sənsən,
Bizə can bir-birimizçün əmanətmiş-qiyamətmiş.

Sevinci artırar gərçe qəm ilə keçsə də dövran,
Ki qəm də eyni dövlətdir səadətçün yığar insan,
Könüldə bir rübab inlər, o dilbərçün yazar dastan,
Cavabında deyər dildar nə zəhmətdir, Əziz Pünhan,
Mənə bir kəlmə də olsa, kifayətmiş-qiyamətmiş.

* * *

Sadiqəm eşqimə, bir kimsə məni aldatmaz,
Aldanan aşiq olar, amma vüsala çatmaz,
Hicridir dərd verən, yar-yarı ağlatmaz,
Neynirəm gərçe sevincdən dola dünya sənsiz,
Mən ki, səndən uzağam, ömrə nə məna sənsiz.

Eyləyər halımı dərd ilə pərişan gecələr,
O xəyalındı olan qəlbimə mehman gecələr,
Gözümü yummayıram ey gülü xəndan gecələr,
Budu qorxum ki, ola yatsam o röya sənsiz,
Mən ki, səndən uzağam, ömrə nə məna sənsiz.

Mənə mənayi-mey içdikdə gözündür niyyət,
Mənə tər qönçəni dərdikdə üzündür niyyət,
Mənə idraka yetişməkdə sözündür niyyət,
Nola cahillər edərlər, məni rüsva sənsiz,
Mən ki, səndən uzağam, ömrə nə məna sənsiz.

Əlimə yetsə əlin, yarəm üçün məlhəmdir,
Sənlə olmaq isə aləm yaradan aləmdir,
Çəkərəm olsada min-min mənə dünya qəmdir,
Çünki səhra görünür, qəm dolu dərya sənsiz,
Mən ki, səndən uzağam, ömrə nə məna sənsiz.

Basa vəslin seli sənsizlik ilə dünyanı,
Olaram mən yenə sənsizliyimin qurbanı,
Bu narahat gecədə dinlə Əziz Pünhanı,
Özgə bir kimsəyə salmaz nəzər əsla sənsiz,
Mən ki, səndən uzağam, ömrə nə məna sənsiz.

* * *

Ey mələksima, camalın mahi-ənvərdən gözəl,
Kakili-zülfün tamaşa, sünbüli-tərdən gözəl,
Xalü xəttin bir həyatdır, müşkü ənbərdən gözəl,
Qönçə ləblər bal dadır, ol dürri-əhmərdən gözəl,
Dil gözəl, dilbər gözəl, kiprik də neştərdən gözəl.

Heyranam rəftarına hər dərdimə dərman verir,
Ol xumar gözlər, təbəssümlə süzür, fərman verir,
Navuki-kiprikləri can verməyə imkan verir,
Qaşlarılə can alır, amma ki, cana can verir,
Naz gözəl, avaz gözəl, həm ətri, xoştərdən gözəl.

Gözlərin heyranıyam, illərlə möhnət çəkmişəm,
Aşikarə olmayıb, xəlvətcə həsrət çəkmişəm,
Dost-düşmən bilməyib, hər yerdə minnət çəkmişəm,
Bir səni görmək üçün kuyində növbət çəkmişəm,
Bilmişəm dünyada yox sən şahi-sərvərdən gözəl.

Yox Əziz Pünhan kimi dünya ilə möhkəmliyim,
Gər gözəllik olmasa tam, yox ona həmdəmliyim,
Ey nigarım, ey gözüm, şirinliyim, xürrəmliyim,
Sən ki, kamilsən neçün bəs olmasın sərsəmliyim,
Boy gözəl, əndam gözəl, sinə siminbərdən gözəl.

# Müsəddəs



## *Mövla Əliyə (ə) Qədir-Xum günü münasibətilə*

Fəsli-yaz oldu, yenə güllər açıldı laləzar,
Canu dildən sorğu etdi, bir sədayi-xoşgüvar.
Söylə kimdir xilqəti-aləmə bais, əslikar?
Olmasaydı gər vücudu, olmaz idi hər nə var,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Bəs vücudi-xilqətə bais bu xaqan kimdi, kim?
Aləmi-imkana şaiq, Şahi-Mərdan kimdi, kim?
Ənbiyavu övliyaya pişivayan kimdi, kim?
Həm vilayət şəninə layiqu şayan kimdi, kim?
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Yox idi dünyavu aləm, nə bir vücudi-bəşər,
Nə var idi yer, nə göylər, nə kəhkəşandan əsər.
Yaradıb Xaliqi-aləm neçə nurani göhər,
Əlləməl-Əsma edib Adəmə təlim bahünər,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Göylərə merac edəndə, çünki Xətmi-ənbiya,
Bildi ki, onla gedir, nəfsi-mübarək Şintiya.
Bir şirin ləfz ilə səslərdi onu çün İliya,
Həm təam meyl eylədi, orda onunla bahəya,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Yatdı Peyğəmbər yerində, canını təslim edən,
Küfr dünyanı igidliklə tamam müslim edən,
Başu canından ahıl vaxtında şövq ilə keçən,
Bu yol ilə yenə də ümmətə şəfaət edən,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Kim qopartdı iki barmaqla o babi-Xeybəri,
Nərəsindən titrədi həm oynadı yer məhvəri.
Bircə zərbəylə iki böldü ol Əmru Əntəri,
Heç zaman meydani-cəngdə bir qədəm qoymub geri,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Çün Ühüd rəzmində bu mətləb olubdur aşkar,
Vurdular Peyğəmbərə yarə, edərlər səngsar.
Bir cavanı gördülər, cövlan edərdi biqərar,
Gah Peyəmbərdən difa, gahi qoşuna həmləvar,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!

Cəngi-Xəndəkdə kim idi Əbdəvudi tən bölən,
Şəninə «Siqleyn» hədisin həm Peyəmbər vəsf edən.
Küfru zülmatın içindən, nuri-İslam kəşf edən,
İnsu cinnin xidmətindən çox savablar əxz edən,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Kimdir ol mütləq cavan, yovmu Qədirin məzhəri?
«Kuntu Mövlahu» hədisi oldu dillər əzbəri.
Söylədi Xəttab, «bəxxun, bəxxun» ey din sərvəri,
Haqq Vəsi oldun bu gündən Mustəfanın əthəri,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Ya Əli səndən savay kimdür bu şənu rütbədə,
Hökm Allah ilə mövlud ola beytül-Kəbədə.
Ənbiyavu, Övliya həsrət çəkər bu məbədə,
Dostların şad, düşmənin qəmgin olar bu nöqtədə,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»

Ey Əziz Pünhan, baban mədhin həmişə vird elə,
Haqq Mövlanı tanıtdır, düşməninə dərd elə.
Qoy həsəd çəksin suyun isti, xörəyin sərd elə,
Bəlkə Mövlanı tanıdı, gətti adın bir dilə,
Bu gözəl ismi mələklər söyləmişlər aşikar,
«La fəta illa Əli, la seyfə illa Zülfüqar!»



* * *

Sanma eşq əhlinə dünya sözünün qiyməti var,
Aşiqin qəlbdə tək, bircə vüsal niyyəti var.
Qəmlərə sinə gərib, əzm eləmək qüdrəti var,
Yardan başqa kiminlə onun ünsiyyəti var?
Ayrılıq girsə araya qəmi var, zilləti var.
Aşiqin cümlə bəşər əhli üçün ibrəti var.

Əhli eşq, canı edər sevdiyi dildarə fəda,
Ruhunu eşqə, dilin türreyi tərrarə fəda.
Necə sevdadı, əgər olmasa yar yarə fəda,
Necə ki, bülbül olur güldən ötür xarə fəda,
O cür aşiqlər olur, yar dil əfkarə fəda,
Bu səbəb eşqdə canın verənin hörməti var.

Sevgilim bir sənəmü dilbəri siminbərdir,
Xaliqin hüsnü fəzasından enən gövhərdir,
Gözümə şəkli düşüb, nitqi dilə əzbərdir,
Sərvərim yoxdu cahanda, o mənə sərvərdir,
Kim nə anlar buları, dərdi bilən dəftərdir.
Qələm ağlar ki, həzin qəmlərimə rəğbəti var.

Nur saçan ay üzünün bədri-kamalın görsəm,
O mələk surətini, hurü cəmalın görsəm.
Həcərül-Əsvədə tay, zülfilə xalın görsəm,
Hüsnünün Kəbə kimi cahu cəlalın görsəm,
Canımı nəzr edərəm, gərçi vüsalın görsəm,
Yar üçün canı fəda etməyin öz ləzzəti var.

Gəlsə yar, fərş edərəm payinə bu dünyanı,
Bilsin eşq əhli ki, tək məndədi eşq ümmanı,
Yar heyrandı mənə, mən də yarın heyranı,
Mən ki, məcnun deyiləm, neyniyirəm səhranı,
Eşqdə çox da zəif bilmə Əziz Pünhanı,
Xazini-eşqidi o, yar kimi bir sərvəti var.

* * *

Nə qədər cövr eləyər könlümə dildar, bilməz,
Eləyər hicridə bu aşiqi bimar, bilməz,
Çünki eşq əhli də təsdiq bilər, inkar bilməz,
Məni neynim ki, o eşq əhlinə sərdar bilməz,
Halını aşiqinin yari-vəfadar bilməz,
Azı min dəfə desəm dərdimi təkrar, bilməz.

Hər gecə zar gözümdən sel olub yaş tökülür,
Bağrımın başı qəmu qüssələr ilə sökülür,
Elə bu eşqin ucundan belə aşiqlər ölür,
Sonra yarın da gözündən qəmi-hicran süzülür,
Deyirəm qəmlə keçən halımı, yar isə gülür,
Qanlı göz yaşımı o gözləri xunxar, bilməz.

Mənə onsuz gecə-gündüz də qatı zülmətdir,
Ahu sərdimlə cahan mülki tamam qarətdir,
Çəkirəm ah ki, ah eyləməyə fürsətdir,
Yar verən dərdü bəla aşiq üçün sərvətdir,
Niyyətim sevgidə ən ali təmiz niyyətdir,
Bilir Allah, əgər ol məkrli əğyar bilməz.

Məni naçar eləyib, sən də günaha batma,
Həşrədək sevgiliyik, öz-özünü aldatma,
Mənə gündüz-gecə ya nazını sat, ya satma,
Ən əsası budur eşqi ürəyindən atma,
Eşq izzətli məqamdır, onu gəl alçaltma,
Özünə eşq, ləim insanı sərdar bilməz.

Qəlbi ağlında olan sözdə gəzər mənanı,
Əhli halsan bilirəm, fani elə hicranı,
Çünki birlik ilə dirlik tapacaq insanı,
Gəl verib əl-ələ heyrətdə qoyaq dünyanı,
Bu vüsal bəzminə ləngitmə Əziz Pünhanı,
Eşqdən doymaq olarmı, bu inadkar bilməz.



* * *

On beş ildir ki, bu millət Qarabağsız dolanır,
Kəlbəcərsiz, Şuşasız həm dərə-dağsız dolanır.
Kül olub vicdanına, evsiz, ocaqsız dolanır,
Vətən işğalda qalıb, hamı maraqsız dolanır.
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

Bakı şəhri Qarabağla bəzənib, hər adı var,
Ağdamın, Cəbrayılın həm Laçının öz dadı var.
Sumqayıt ilə Lerikdə məsələn hər zadı var,
Hər rayonda tikilib şadlıq evi, fəryadı var.
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

Var bizim yaxşı rəşadətli, ayıq, nər kişilər,
Pullu, dövlətli, dəyanətli, sayıq, ər kişilər.
Dildə pərkar danışan, işdə dilavər kişilər,
Millətə layla çalır, amma suxənvər kişilər.
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

Hər tərəf mən baxıram, kefdədi millət, qəmi yox,
Gecə-gündüz qalıb işrətdə, ayıq bir dəmi yox.
Meyl edər qızlarımız Avropaya, görkəmi yox,
Vətənin qeyrətinin yumşağı var, möhkəmi yox,
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

Gəl ümid olma ki, kimsə bizə imdad eləsin,
Hərə bir adla gəlib, ah ilə fəryad eləsin.
Hər kəsin məqsədi var, öz işinə dad eləsin,
Bir müsəlman hanı «hübbül vətən»i yad eləsin.
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

Göz qabağındadı bu Qəzza, Fələstin savaşı,
Bir ömür altımış ildir ki, gedir din savaşı.
Qaçqının çöldə, çadırlarda gedir min savaşı,
Qarabağ gəlməyəcək olmasa cəmin savaşı.
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

Torpaq üstündə inildər gecə-gündüz balası,
Ata çadırda doğulmuş, ərə getmiş anası.
İbrət olmaz qara vicdanlara bu göz qarası,
Qan töküb, məlhəmin istər Vətənin can yarası.
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

Bu Əziz Pünhana düşmən sözü təsir eləməz,
Savaşar, hərb eləyər, cəngdə təxir eləməz.
Düşməni heç vaxt özündən yekə təsvir eləməz,
Bizdən özgə bu yeri, qeyrisi təmir eləməz.
Bu həqiqətdi ki, yaddan çıxa bilməz Qarabağ,
Qanımız axmasa, heç vaxt ələ gəlməz Qarabağ.

* * *

Hər kəs sənə qoymuş bu adı eyni həqiqət,
Bu adla yaşa, qoy oxusunlar ona rəhmət.
Hərçənd bu əməldə görünür səyilə zəhmət,
Aldanmaginən nəfsinə, şeytanə de lənət.
Nüsrətdir adın İslama, dinə köməyin var,
Əhsən sənə, öz adına layiq ürəyin var!

Ərz eylədilər Xatəmə ey kani-səxavət,
Hardandu sənə Allaha məxsus bu kəramət?
Hatəm də cavab verdi ki, olmuş belə söhbət,
Bənna ilə şagird işi oldu mənə ibrət.
Nüsrətdir adın İslama, dinə köməyin var,
Əhsən sənə, öz adına layiq ürəyin var!

Bənna elə ki, kərpici işlətdi divarə,
Şagird yenə lütf etdi ona verdi dübarə.
Tətbiq eylədim mən bu işi dövlətə, varə,
Cəhdim Əli comərdliyinə oldu işarə.
Nüsrətdir adın İslama, dinə köməyin var,
Əhsən sənə, öz adına layiq ürəyin var!

Sən nüsrəti İslamə yönəltdin, gözəl oldu,
Dünyadəikən axirətinçün təməl oldu.
Bir bu əməlün çünki ən üstün əməl oldu,
Sadiq adamın hər işi zərbul məsəl oldu.
Nüsrətdir adın İslama, dinə köməyin var,
Əhsən sənə, öz adına layiq ürəyin var!

Puçdur gər ibadətlə səxavət qoşa getməz,
Tək-tək nəki Həqq, bəndə yanında xoşa getməz.
Bu əqli olan baş hüşə gəlməz, hüşə getməz,
Səndə ki, bular var, bir işin də boşa getməz.
Nüsrətdir adın İslama, dinə köməyin var,
Əhsən sənə, öz adına layiq ürəyin var!

Verdün sən Əziz Pünhana qiymət halal olsun,
Məhşərdə verərlər sənə fürsət, halal olsun.
Layiqdi sənə var ilə dövlət, halal olsun,
Axsun başuva naz ilə nemət, halal olsun.
Nüsrətdir adın İslama, dinə köməyin var,
Əhsən sənə, öz adına layiq ürəyin var!

* * *

Yıxmısan haqq sözünü söyləməyinlə evini,
Guya ki, mərd kişisən, hifz edisən mərdliyini.
Hansı yaltaq kişidən artıq olubsan yəni,
Peşəkardır, onların hər sözü candır, bəlidir,
Pis düşünmə, demə yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığı öyrən, bu iş öyrənməlidir.

Gər bacarsan bu işi, ev, eşiyin, bağın olar,
Ağlagəlməz yaşayış, dəbdəbəli çağın olar.
Lüks maşın, həm sürücün, həm də ki, yaltağın olar,
Qeyrəti at, gör həramun necə gəlhagəlidir,
Pis düşünmə, demə yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığı öyrən, bu iş öyrənməlidir.

Nə olar ki, müdirin sən siləsən çəkməsini,
Gəzdirib üst-başa əl, bağlayasan düyməsini.
Lazım olsa su apar, pak elə lap hər nəsini,
Eybi yoxdur ki, desinlər bu kişi ölməlidir,
Pis düşünmə, demə yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığı öyrən, bu iş öyrənməlidir.

Al qucağa uşağın, öp elə fırtıq yerini,
İtinə çək sığalı, sürt gözə quyruq dibini.
Xidmət et süfrəsinə, qovlaginən milçəyini,
Nə də artıq qalacaq, topla, gətir, sərfəlidir,
Pis düşünmə, demə yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığı öyrən, bu iş öyrənməlidir.

Atam öyrənmədi, guya kişi tək ömr elədi,
Ət nədi, yağ nədi, yanmış çörəyi duzla yedi.
Olmasan yaltaq əgər, qalmağının xeyri nədi?
Minəcəklər səni daim, deyib, öyrəncəlidir,
Pis düşünmə, demə yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığı öyrən, bu iş öyrənməlidir.

Kaş atam yaltaq olaydı, xoş olardı dövran,
Ac dolanmaqdan isə pul gələ ordan-burdan.
Mən də yaltaqlıq edərdim, gər olaydı imkan,
Bu sənətdir, kişilər bu sənəti bilməlidir,
Pis düşünmə, demə yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığı öyrən, bu iş öyrənməlidir.

Pul gələn yerdə deyirlər, hər işin ləzzəti var,
Hər kimin ki, pulu vardır, deməli, qiyməti var.
Bu Əziz Pünhanın ey xəlq, sənə bir zəhməti var,
Oxu bu şeiri və bax, gör harası gülməlidir?
Pis düşünmə, demə yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığı öyrən, bu iş öyrənməlidir.



* * *

Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.
Bu işə gör neçə vaxtdır ki, ümid eyləmişik.

Daha hər Həccə gedən görməyəcək cövrü cəfa,
Şeyxülislam yaradıb burda dəxi seyri-səfa,
Bavəfadır yığılıb dövrəsinə əhli vəfa,
Dəxi gəlməz Hacılardan Vətənə ahu nəva.
Ümrədə biz də bu il seyri-Ühud eyləmişik,
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.

Sizi dəvət edirik haqq ilə zikr eyləməyə,
Xaliqə səcdə qılıb, dərgəhə şükr eyləməyə,
Haqq yola gəlməyin icrasını fikr eyləməyə,
Tövbə qıl Haqqa qayıt, niyyəti-bikr eyləməyə,
Bu qədər dövlət arasında vücud eyləmişik.
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.

Yetmiş il gözlərimiz Məkkə üçün yaşlı idi,
Ateist dövlət idik, çün başımız daşlı idi.
Üləma məhbəsidə şah gədələr «başlı» idi,
Batilin haqqa sözü leşgəri fərraşlı idi.
Axırı qalib olub haqq ki, sücud eyləmişik,
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.

Baxıram ətrafıma Kəbləyidir, ya Hacıdır,
Xəlq olanlar hamı axırda Xuda möhtacıdır,
Həyatın bir üzü şirin, biri isə acıdır,
Əhli İslam hamı bir-birinə qardaş-bacıdır.
Ümrə vaxtı bu işi biz də sübüt eyləmişik.
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.

Məkkə şəhrində daha dalğalanır bayrağımız,
Bu fəxr bəsdi bizə  tarixə düşdü adımız,
Vəhdətə gəldi dəxi doğmalar ilə yadımız,
Haqq ilə batilə şahid Həcərül-Əsvədimiz,
Bunu Quran buyurub bizlərə, vird eyləmişik,
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.

Hüdhüdi-xoşxəbərim şəhri-Səbadan yetişib,
Zəmzəmin çeşməsinə səmti-Səfadan yetişib,
Hacı Salmanla Müqəddəs ürəfadan yetişib,
Dedilər müjdə apar Ali-Əbadan yetişib,
Kəbədə sanki daha əğdu uğud eyləmişik,
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.

Rəcəbin on üçü etdi məni həqq vəslə hərim,
Əlli səkkiz yaşıma düşdü bu Ümrə səfərim,
Ruku halında kimi seçdi Vəli Həqqu Kərim,
O Əli ki, ona Allahı dedi: Şah Əsərim,
Gözü doldurmaq üçün qəlbi bulud eyləmişik,
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.

Ey Əziz Pünhan ürək eşqi-Xuda ilə vurur,
Ləngəri «Dibac» verən zəngu səda ilə vurur,
Əhli-Beyt aşiqisən haqq nida ilə vurur,
Cəddinin şəhridi çün rahi-huda ilə vurur,
Sacidi-Dərgəhi-Haqq ilə übud eyləmişik,
Müjdə olsun Hacılar, Məkkədə yurd eyləmişik.



# MÜSƏBBE



* * *

Ey könül, vəcdə gəlib bunca qiyamət eləmə,
Adın aşiqdi, qəmin varsa, şikayət eləmə,
Oturub ağlamağı hər gecə adət eləmə,
Gəlməyincə qiyamun dövrü, qiyamət eləmə,
Uzaq ol hamıya, əğyarə rəfaqət eləmə,
Eşq qanundu, fəqət eşqə riayət eləmə,
Gər sevirsən sev, o dildarını divanə kimi.

Nə qəmi, əhli qəmin, yarı ona yar olsa,
Sevdiyi yarıda yarına tərəfdar olsa,
Nola hər gün sitəmu naləvu ah zar olsa,
Eşqə duşməz ki, sevən kəsdə əgər ar olsa,
Gülmə aşiqlərə bu fani cahan dar olsa,
Yetər öz vəslinə eşq əhli inadkar olsa,
Dolana başına yarın, şəmə pərvanə kimi.

İnsanı haqqa yaxın eyləyən, afətdir eşq,
Cani təslim eyləyən, sidqu sədaqətdir eşq,
İkini bir eyləyən, həqqu ədalətdir eşq,
Bizə Allah tərəfindən bir əmanətdir eşq,
Düşməyən eşqə bilərmi nə səadətdir eşq?
Hər bir aləmdə mənə təkcə kifayətdir eşq,
Yaşaram eşq ilə viranədə şahanə kimi.

Vəsl qorxutdu məni, qorxmayıram hicrandan,
Görmüşəm xeyli cəfa cövrüləri dövrandan,
Neçə düşmənlər olub, qaçmamışam meydandan,
Tapmışam gövhəri, eşq adlı dərin ummandan,
Bir təmənna olub aləmdə gözəl canandan,
Gözəlim, canını gəl istə Əziz Pünhandan,
Eyləsin könlünü qurban sənə, mərdanə kimi.

* * *

Oldum necə gör zaru zəlil yar qəmində,
Çəkdim başıma qəmləri dildar qəmində,
Ol nazlı gülün çünki həyat var qəmində,
Lazımdı çün aşiqlərə qəmxar qəmində,
Oldum gecələr şövq ilə bidar qəmində,
Tapdım necə gör cürbəcür azar qəmində,
Ey kaş olum min dəfə təkrar qəmində.

Bir nazlı sənəm ki, qəminə yanma amandır,
Dünyaya göz açmış yenicə xeyli cavandır,
Can tab eləməz qəmdə sənə nazı yamandır,
Ey vah, hanı can məndə, o ki, afəti candır,
Eşq aləmini baxma deyirlər ki, ziyandır,
Amma bu sözü dinləmə, çün əsli yalandır,
Eşq olmasa, olmazdı günüm tar, qəmində.

Eşq aləmi aşiqlərə zinətdi, lap əla,
Can bəxş eləmək aşiqə minnətdi, lap əla,
Vəslət bütün aşiqlərə nemətdi, lap əla,
Kim eşqə düşübsə işi zillətdi, lap əla,
Çün gizli qalan sirli bir hikmətdi, lap əla,
Bir halda ki, qəm bizlərə qismətdi, lap əla,
Ölsəm də yarın eyləmərəm ar, qəmində.

Gördüm ki, Əziz Pünhanı eşq eylədi rüsva,
Yıxmış onu öz nazı ilə bir güli rəna,
Aşiqlərə cövr etməyinə doymadı dünya,
Eşq əhli üçün gerçəyə çevrildi bu röya,
Eşq var isə bir özgə şeyi görmərəm əsla,
Yar ilə sevinc istəyənə qəmdədi məna,
Tez-tez yaranır çox nəfis əşar, qəmində.

# TƏRCİBƏND



Kim əhdinə sadiqdisə var diqqəti eşqə,
Eşq əhli yetib vəslə verir zinəti eşqə,
Biganə olanlar nə bilir qiyməti eşqə,
Aludə olar aşiqu zar ləzzəti eşqə,
Çün ləzzəti eşq aid olur fitrəti eşqə,
Aşiq özünü daxil edir hikməti eşqə,
Bax bizdəki bu zövqü verən qüdrəti eşqə.
Cananına can verməlidir aşiqi nalan,
Çün aşiqə həsr etməlidir canını canan.

Qurban eləməz yarına dünyanı hər aşiq,
Öz dərdini hər nakəsə etməz xəbər aşiq,
Ya şəhri, ya səhranı cigərxun gəzər aşiq,
Min dilbəri tənnaz ola etməz nəzər aşiq,
Hər laləruxa ömrünü etməz hədər aşiq,
Bir aşiqə olsun gərəkir qəm-kədər aşiq,
Öz canını dildarına eylər nəmər aşiq,
Cananına can verməlidir aşiqi nalan,
Çün aşiqə həsr etməlidir canını canan.

Vəsl ilə keçən ömrüm olar yarı, bəsimdir,
Yarın can alan türrəyi tərrarı bəsimdir,
Olsun iki kəs haqq tərəfdarı, bəsimdir,
Yar busələsə bu dili-bimarı bəsimdir,
Xaliq mənə bəxş etsə o dildarı, bəsimdir,
Bir can ağacın versə əgər barı, bəsimdir,
Öz canıma mehman eləsəm yarı, bəsimdir,
Cananına can verməlidir aşiqi nalan,
Çün aşiqə həsr etməlidir canını canan.

Qoymaz bu Əziz Pünhanı biçarə o məhru,
Bu şəhdu şəkər bildiyim olmaz zəhər-ağu,
Çün eşq kəməndinə gəlibdir özü ahu,
Gəlməzsə əgər öldürəcəkdir məni ğayğu,
Çün «Can»dı o, tərgi-həvəsi-eşq deyil bu,
Bir şəb saçacaq ətri mənə ol güli-şəbbu,
Sevdayi-tənu canı belə etmişəm arzu,
Cananına can verməlidir aşiqi nalan,
Çün aşiqə həsr etməlidir canını canan.



# TƏRKİBBƏND



* * *

Həsrətinlə keçdi ömrüm təndə canım qalmadı,
Hicr kəsmiş yollarım, vəslə gümanım qalmadı.
Qəm gecə-gündüz həlak etdi məni, bir haldayam,
Halımı dərk etməyə vaxtım, zamanım qalmadı.
Könlümü etdi hədəf, bir dəfə ox atdın mənə,
Aldığım bu yaradən cismimdə qanım qalmadı.
Məcnun idi, Vamiq idi, getdilər qəbrə olar,
Vadiye sevdada heç bəhrəm zəbanım qalmadı.
Sən gedən gündən əzizim üzdü tənhalıq məni,
Dərd bölüb dil ağlayan bir mehribanım qalmadı.
Sabir oldum, şakir oldum, amma can tab etmədi.
Pirə döndü, gənc ikən bəxti cavanım qalmadı.

Eşqidə mən vermişəm ey gül, əmanət könlümi,
Könlümi dilşad qıl, gəl et ziyarət könlümi.

Hicrinə öyrəşmişəm gəl intizar ol mən təki,
Dərdə istiqfar edib, ümmidvar ol mən təki.
Mən hanı, sən hardadı, biz bir bütöv aşiqlərik.
Bir olaq səndən keçib məndən kənar ol mən təki,
Mən sənin kuyindəyəm, sən də mənim kuyimdə ol,
Səndə mən bir zərrəyəm, sən məndə var ol, mən təki.
Yara əğyar olmağın aşiqlər içrə yox yeri,
Yarına biganə olma, yarə yar ol, mən təki.
Harda ki, vardır gümüş, eşqilə qıl fəryaduvi,
Harda ki, vardır qızıl, səssiz məzar ol mən təki.
Vaxta uyma, vaxt ötəndir, sevgilər bivaxt olur,
Gər bütün aləm xəzan olsa, bahar ol mən təki.

Eşqidə mən vermişəm ey gül, əmanət könlümi,
Könlümi dilşad qıl, gəl et ziyarət könlümi.

Mən də bir sirr əhliyəm, eşqin əmanətdir mənə,
Sirri faş etmək, bu bəzm içrə qəbahətdir mənə.
Sevgili yar ilə xoşdur bu cahanın qüssəsi,
Sevgisiz olsa cahan, əla, rəzalətdir mənə.
Sus, sən ey vaiz, danışma, həşridən söhbətləri,
Qaməti yarım qiyam etsə, qiyamətdir mənə.
Saxlamaq canı əziz mümkün deyil sevdalıya,
Yar yolunda canı xərc etmək səadətdir mənə,
Neynirəm dünyanı, ya cahu cəlalı, dövləti.
Bir teli yarın həyatımçün kifayətdir mənə,
Məbədimdir hüsni-ruyi mehrabımdır qaşları.
Yarı görmək ey könül, eynən ibadətdir mənə.

Eşqidə mən vermişəm ey gül, əmanət könlümi,
Könlümi dilşad qıl, gəl et ziyarət könlümi.

İstərəm bir gün vüsalı, eşqi kam olsun mənə,
Hicrinə tab etməsəm vəslin haram olsun mənə,
Səbrilə aşiq yetər məşuqə məşhurdur bu söz,
Vermişəm təmkinə təbdili, nizam olsun mənə,
Aşiqəm mən söylədi dildar, etdin tərki can,
Yardan ey kaş hər gün bu peyam olsun mənə.
Əhli eşqin rəsmi vardır can verib, can istəyər.
Mən salam etdim ki, ol yarə, salam olsun mənə,
İstərəm ki, üz-üzə, ağuş-bəağuş əyləşək,
Zülfünə dəysin əlim, sevdası tam olsun mənə.
Mən Əziz Pünhan tumari-sərdə bir söz yazmışam,
İstərəm birdəfəlik ol yar, nam olsun mənə.

Eşqidə mən vermişəm ey gül, əmanət könlümi,
Könlümi dilşad qıl, gəl et ziyarət könlümi.

# Müəşşər



Yar can desə, mən eyləyərəm canımı qurban,
Mən neyləyərəm vəslimə yol verməsə hicran.
Aşiq deyil ol kəs ki, gəzə eşqinə dərman,
Vəslin qəminə qayda budur, yar edə fərman.
Aşiq də ürək açmaq üçün bir tapa imkan,
Göz yaşı ilə dərdi edə dilbərə elan.
Yar da gətirə xanəxərab aşiqə səhman,
Aşiq nə qədər gəzsin axı hali-pərişan,
Qəmdən qurtara canını müşgül ola asan,
Can söyləyə yar aşiqə, aşiq deyə ay can.

Ustad buyurub, aşiq üçün cövru məlamət,
Eşq əhli gərək həsrətü hicrə edə adət.
Girdabi-bəla içrə çəkə zülmü səfalət,
Mən hazıram, amma eləmir zülm o afət.
Naz ilə deyir: «məndədi hər zövqü səadət»,
Bu sözlər edir dərd çəkən könlümü rahət.
Ondan otəri saxlamışam canı salamət,
Mən talibəm öz yarıma ta ruzi-qiyamət.
Bu eşqə görə canı verib Xaliq əmanət,
Can söyləyə yar aşiqə, aşiq deyə ay can.

Mənsiz bilirəm hər gecə əfqandadır ol yar,
Bu eşq bizə can verir həm, həm eləyir zar.
Əfsus ki, olduq belə hicranə giriftar,
Müddətdi qalıb bülbülə həsrətdə bu gülzar.
Biz eşqə əsir, dövr isə zülmündə inadkar,
Qafil naşılar oldu bu hicrana səbəbkar.
Allah buyuran əmri olar etdilər, inkar,
Allah da Əziz Pünhanı qoymaz qala naçar,
Təqdiri-qəzada bilirəm ki, belə gün var,
Can söyləyə yar aşiqə, aşiq deyə ay can.

* * *

Ey Xuda, hifz elə zülmü cövrdən bu müztəri,
Könlümün dünyada ancaq eşqin oldu sərvəri,
Sən varikən, cismuvu-ruhumda olmaz digəri,
Çün bəşər naçardı dərgahında Adəmdən bəri,
Eşqi etdim ibtida, mən istəməm simu zəri,
Cani dildən sevmişəm bir çeşmu məxmu dilbəri,
Kim onun nazı qılıncdır, qəmzəsisə xəncəri,
Günbəgün hicrində tutmuş könlümü qəm leşkəri,
Bir pəridir, kim iki aləmdə yoxdur bənzəri.
Nola, çox görmə mənə ya Rəbb, o mahi-ənvəri.

Könlümə dünyadakı hər istirahət ondadır,
Bəxtimə Allah yazan zövqu səadət ondadır,
Həm gözəllik, həm şirinlik, həm məlahət ondadır,
Huriyu Qılmandakı xeyli əlamət ondadır,
Verdiyi əhdində sadiqdir, sədaqət ondadır,
Eşqdən dönməz, əsil mərdlik, dəyanət ondadır,
Layiqi vardır olaq bir, çün ləyaqət ondadır,
Tab edər min manеə olsa, cəsarət ondadır,
İşdi ayrılsaq qərəzsiz hər qəbahət ondadır,
Çarə yox sultanı tərk etsə qulami-kəmtəri.

Bir gecə gəlsəydi yardan vəsl üçün ey kaş xəbər,
Şad olub bilməzdim heç olmuş mənə xeyru, zərər,
Hicrinə tab etməyə toxtaq tapardım bir qədər,
Bunca dərdlər çəkməyim eşq içrə olmazdı hədər,
Mövcülənməzdi daha ahım ilə bihal Xəzər,
Ömrü kutah eləməzdi gün çəkib məndən şərər,
Qara bəxtimdən olub azad olardım bəxtəvər,
Bunca əfqandolu şeirimdən qəm içməzdi bəşər,
Vəsli-şövq ilə Əziz Pünhan yazardı çox əsər,
Eşqini ta eyləyə dünyada dillər əzbəri.

# Təxmislər



## *Füzuliyə təxmis*

Fənayə olsa da xeyli yaxın bu cismi nimdaşım,
Bəlavu, qüssəvu qəmlər önündə əyməzəm başım,
Sənə səndən qabaq ərz eyləyib haqqımda sirdaşım,
«Deyilsən çoxdan ey gərdun, cahan seyrində yoldaşım,
Nola xəm olsa qəddin, səndən artıqdır mənim yaşım».

Bihəmdillah, adım vardır müdam təkrari-eşq içrə,
Üzüm qəra füsünkar bir xalam, ruxsari-eşq içrə,
Mənə qəmdən yaxın qəmxar yox, qəmxari-eşq içrə,
«Tərazuyi-əyari-möhnətəm bazari-eşq içrə,
Gözüm hərdən dolub min daşə hər saat dəyər başım».

Qəmin məndən qabaq getmişlərin izhar edər əşgim,
Gəzər çiynimdə ləli, teşnələrçün tövhədir məşkim,
Əcəb rusvayi eşqəm kimsədəm mumkunmudur rəşgim,
«Sirişgim al, bağrım parə, bir kuhi-bəlayəm kim,
Həmişə laləvu ləlilə rəngindir içim, taşım».

Məqamım həşridir, eylər kəlamım hər kəsi ehya,
Fələkdə çin olur hər bir gecə mən gördüyüm röya,
Qəmin nurun görüb məndə dönübdür kölgəmə dünya,
«Mənə manənd bir divanə sürət bağlamaz güya,
Qələm sındırdı təsvirim çəkəndən sonra nəqqaşım».

Əziz Pünhan, fəlakətlər hamı ləhvu ləəbdəndir,
Xəlayiqdə sevincu qəm hamı nəfsi tələbdəndir,
Vəfadar olmaq əhli-etibar içrə ədəbdəndir,
«Füzuli, xazini-gənci-vəfayəm, ol səbəbdəndir,
Gühərlər tökdü israf ilə bu çeşmi-gühərpaşım».

## *Füzuliyə təxmis*

Yenə mehmanım idi ol gülüzarım bu gecə,
Qəsdi-can etmişidi çeşmi-xumarım bu gecə,
Düşünürdüm azalar dərdu qubarım bu gecə,
«Yenə ol mah mənim aldı qərarım bu gecə,
Çıxacağdır fələyə naləyi-zarm bu gecə».

Sövdəyi-eşqdə qul eylədi bir şah məni,
Yandırıb yaxdı zənəxdandakı ol çah məni,
Çəkdi ah, atəşə qərq eylədi ol ah məni,
«Şəmvəş məhrəmi-bəzm eylədi ol mah məni,
Yanacaqdır yenə eşq oduna varım bu gecə»,

Yandırır vəsli tənu canımı, həm hicrani,
Vəslilə can gətirir, hicrilə həm pirani,
Hər iki halda yanır da, əridir həm anı,
«Həm vüsali vurur od canıma həm hicrani,
Bir əcəb şəm ilə düşdü səri-karım bu gecə»,

Neçə müddətdi ki, bizar eyləyib əqlimi hicr,
Sarsıdıb varlığımı, qövlülə həm nəqlimi hicr,
Büsbütün əldən alıb felilə həm şuğlimi hicr,
«Sübhə saldı bu gecə şəm kimi qətlimi hicr,
Ola kim, sübh gəlincə gələ yarım bu gecə».

Qətrə-qətrə gözümün yaşı cahanə dolsun,
Vəsl bağçamda bitən incə çiçəklər solsun,
Hər görən halımi öz sünbüli-zülfün yolsun,
«Para-para ciyərim itlərinə nəzr olsun,
Ol səri küyə əgər düşsə güzarım bu gecə».

Endi göydən yerə vəslində nüzuli-ümmid,
Qısalar ömrüm uzandıqca bu tuli-ümmid,
Gözləməkdir, ey Əziz Pünhan, üsuli-ümmid,
Varidi sübh vusalinə Füzuli ümmid,
Çıxmasa həsrət ilə cani-fikarım bu gecə.

## *Seyid Əzim Şirvaniyə təxmis*

Bəlavü dərd nə dövran, nə də zamandandır,
Büsati-eyşdə ümmid ona gümandandır,
Canımda qəm xəbərim yoxdu ki, haçandandır,
«Təsəvvür etmə fəğanım həlaki-candandır,
Kaman öpür əlini, ələmanım ondandır».

Bahar gəlincə açar təndə eşq meydanın,
Hüzuri-yarə çəkib zibh eləyər qurbanın,
Atınca yar vüsal oxların verər canın,
«Könül yaxıb oda döndərmə suya peykanın,
Bu tir kim mənə ol qaşları kamandandır».

Qəribədir ki, hər aşiqdə yoxdu qəm bü qədər,
Nə çoxdur aşiq olan ki, həyatın etdi hədər,
Hərim kuyinə nur istəməkçün hamı gedər,
«Əcəbmi çeşmeyi-xurşid dəhri rövşən edər,
Gözündə sürməsi ol xaki-asitandandır».

Könüldə güc hanı, eşq əmrini edə icra,
O, istəyincə həmən laləzar olar səhra,
Səfalı zahirimə eşq yazmayıb məna,
«Könüldür laləsifət dağdar sər-ta-pa,
Bu töhfələr mənə bir özgə gülsitandandır».

Bu yaşlı göz görə bilməz həqiqət aləmini,
Məqami-hicrə vüsal çəkməyincə məlhəmini,
Fənaya ver belə sövdada dəhr dirhəmini,
«Ziyanı yox alıbən canı verdilər qəmini,
Məhəbbətində bizim sudumuz ziyandandır».

Sevinc üçün əkilən nəxldən kədər dərirəm,
Təsəllidən ötəri əhli-hala göndərirəm,
Deyib yanımdadı yar, könlümə ümid verirəm,
«Gedib o mah neçə gündür mən yenə görürəm,
Bu qüvvəyi-bəsər ol gərdi-karivandandır».

Əziz Pünhan idim, günlərim də çox əla,
Nə məndə vardi cununluq, nə yar idi Leyla,
Qəfil cəzaya düşüb könlüm etdi vaveyla,
«Kəbudi camə ilə gəldi ol səhi-bala,
Bəla ki, Seyyidə nazildi, asimandandır».

## *Seyid Əzim Şirvaniyə təxmis*

Bir fəqir aşiqəm ey dövlətu varım, bəri bax,
Sənsiz olsam çoxalar dərdu qübarım, bəri bax,
Tikan olmuş gülə həsrətdi kənarım, bəri bax,
«Dolanım başına ey nazlıca yarım, bəri bax,
İşvəli, qəmzəli, çəm-xəmli nigarım, bəri bax».

Kəc nigahilə baxıb böylə yanımdan ötmə,
Məni bican eləyən nalələri söylətmə,
Rəhmin olsun, bürünüb nazə uzağa getmə,
«İşvə ağaz qılıb səbrimi tarac etmə,
Getdi dildən dəxi aramu qərarım, bəri bax».

Hüsnünün dəhridə tək mən deyiləm heyranı,
Gözünün qarəsi heyrətdə qoyub dünyanı,
Bir həqir töhfə gətirdim sənə aşiq canı,
«Xəm yemiş qamətim əbrulərinin qurbanı,
Zülfi-purtabına qurban təni-zarım, bəri bax».

Yaralı canıma məlhəmdi mənim nazu əda,
Adının zikridir hər naləvü ahində səda,
Çeşmi-zarım o hilal qaşına çakər əbada,
«Bu cəfadidə dil ol kakili-mişkinə fəda,
Gözlərin sədqəsi bu cismi-fikarım, bəri bax».

Mən Əziz Pünhanam, isminlədi şerim, qəzəlim.
Gəl rəva qılma ki, öz xanəmi yıxsın öz əlim,
Sən mənim şuximu şəngim, suzi-dadlım, məzəlim,
«Can nisar etməyə amadadi Seyyid gözəlim,
Gər desən lütf ilə: ey aşiqi-zarım, bəri bax».

## *Molla Rza Sərrafa təxmis*

Düşüb sevdaya könlüm, ah-əfqan etməyim, neylim?
Cigər qanın gözümdən ab neysan etməyim, neylim?
Bu şor qətrələri ləli-dirəxşan etməyim, neylim?
«Gözüm yaşin könül qanilə mərcan etməyim, neylim?
Bu ağ dürri şəbihi ləli canan etməyim, neylim?»

Gedib yarım gözümdən, bağrımın qanı axar lalə,
Ürəkdə qövr edib dərdim üzüm rəngi çalar alə,
Sağalmaqçun nə dərman var, nə də ümmid var malə,
«Qurumuş ney kimi hər bəndi - bəndimdən çıxar nalə,
Əsiri, bəndi-eşqəm ah əfqan etməyim, neylim?»

Xəzan narazıdır, bundan solubdur razılıq bağı,
Müsibət solda şah olmuş, tutub naşadılıq sağı ,
Mən eşqə olmuşam ustad, ötübdür naşılıq çağı,
«Çökübdür sinəmə dudi siyəh-tək ayrılıq daği,
Binasın tişeyi- ahimlə viran etməyim, neylim?»

Bükülmüş qədd-şimşadım, varımdır bənzərim dalə ,
İtirmiş nöqtəsin xal, təbdil olmuş xələtim halə,
Sınıbdır qollarım qəmdən, dönübdür şəhpərim balə,
«Ənisim dərdi –möhnət, munisim qəm, həmdəmim nalə,
Bu cəmiyyətlə dünyanı pərişan etməyim, neylim ?»

Düzəlmiş heykəli-cismim qəmu dərdin təmamindən,
Təmami-ömrdə bir dadmadım mey zövq camindən
Əyilmiş qaf tək başım yox olmaq ehtiramindən
«Dutulmuş xatirin gör əhli - şəhrin izdihamindən,
Buyur, Məcnun kimi əzmi-biyaban etməyim, neylim?»

Olub ləbriz qanım həlqəyi-çeşmimdə mərcan tək,
Giləlnmiş üzümdə qətrələr al qırmızı qan tək,
Gedib əldən nigarım, qalmışam cismimlə bican tək,
«Gözüm yaşi axar hicründə mirvaridi -qəltan tək,
Oni xuni-cigərlən qanə qəltan etməyim, neylim?»

Çatıb müjdə mənə əlan ki, can canana mehmandır,
Yəqin billəm gələr canan Xudadan eyn fərmandır,
Sevindi hüdhüdi-könlüm ki, can ol cana qurbandır,
«Deyirlər şərbəti-ləli-ləbin hər dərdə dərmandır,
Bilirsən əhli dərdəm, meyli - dərman etməyim, neylim?»

Soruşdu məzhəbimdən hansıdır ol abidi-miskin,
Səni sorğu-sual eylər Xudayi-ruzi-yovmiddin,
Dedim ki, əhli Quranəm, müsəlmanəm, dəxi mömin,
«Məni bica yerə eylər məzəmmət, zahidi - bidin,
Görəndə küfri-zülfün tərki iman etməyim, neylim?»

Alıbdır əqlimi naz ilə ram olmuş şirin canın,
Əlac dərd arardım ki, dedilər yoxdu loğmanın,
Əlindən ölmək istərdim buna yox, amma imkanın,
«Edibdir bağrımı qan ləblərin qoy bir içim qanın,
Bu başsız məmləkətdə qanimə qan etməyim, neylim?»

Hilal qaşın görən gündən olubdur xar imanım,
Salıbdır kipriyin rəxnə, ürəydən hey axar qanım,
Yəqin billəm ki, hicrindən səmaya qalxar əfqanım,
«Yəqinimdür ürəkdən çıxsa peykanun çıxar canım,
Gözəl can tək onu sinəmdə pünhan etməyim, neylim?»

Güləndə qönçə ləblər, qəlb evindən ərmağan eylər,
Yetəndə göz-gözə kipriklərin çün qanə-qan eylər,
Ürək yansa yəqin billəm gözün yaşı rəvan eylər,
«Məni yalqız görəndə türki-məstin qəsti-can eylər,
Xətü xalin, xəyalin munisi-can etməyim, neylim?»

Bu səhrayi məhəbbətdə Əziz Pünhani-pabəstəm,
Giriftari-xumi-eşqəm meyi-vəhdətlə sərməstəm,
Mənə çeşmində bir yer ver, bu bazarda sərbəstəm,
«Bu bazari məhəbbət içrə, Sərrafi-tuhidəstəm,
Yətimi - dürri - əşki, zibi - dükkan etməyim, neylim?»



# BEYTLƏR



***

Yalan sözdür qarada yox səfa, böhtandır bu ey gül,
Müəttər saçların başdan-ayağa  bir tamaşadır.

***

Üzündə dürr-qəltantək giləlenmiş həyadan tər,
Biləmməz qiymətin cahil, ona əttar verər qiymət.

***

Düşmənəm qara xala, izn ola qanın içərəm,
Nə üçün sakin olub çöhrəyi-nigarımda.

***

Məndən küsəndə nazını əğyara bildirir,
Qəlb atəşin izafə edir ta ki, çox yanam.

***

Yanmaqda olan atəşə od vurmaq əbəsdir,
Onsuz da  yanır, bir daha hicrana nə hacət.

***

Adətdi ki, aşiqinə məşuqə naz eylər,
Küsmək nə üçün, bu ki, ölümdən də betərdir.

***

Nə kef çəkdin halalın, bir daha qəlb evimə dəymə,
Mənim dinimdə bundan artıq ey gül, bir günahım yox.



***

Xəlq ildə kəsər bir dəfə qurban qoyundan,
Mən gündə sənin qurbanınam, ey gözəl afət.

***

Söz vermiş idim bir də o məhparəyə baxmam,
Məh parələnib söylədi ömrün hədər etmə.

***

Dedim ey nazlı nigar, gözlərinin vurğunuyam
Çıxarıb gözlərini, al dedi, peşkəşdi sənə.

***

Gözlərimdən giribən könlümü fəth eyləmisən,
«Mən»i «sən» eyləmisən, «mən» də «sən» olmaq dilərəm.

***

Özün getdin, qəmin qaldı yanımda
Qəmin səndən vəfalıymış a dilbər.

***

Kəməndi-zülfünə çoxdan əsirəm ey dilbər,
Ayırma ruhu bədəndən əsirə ver imdad.

***

Deyirlər afitabə göz dikən gözlərdə nur olmaz,
Sənə baxdıqda artır nur gözümdə, ey gözüm nuru.

***

Sözlərin ey səngdil, sındırdı qəlbim şişəsin
Səndə bir zərrə də rəhm olmaz məgər dərman üçün.

***

* * *

Kərtənkələ ilanla sevdalaşdı xəlvəti,
Mən ağu verim sənə, sən zəhərlə milləti.

***

Məscidin həyətində şadlıq evi yan-yana,
Birində namaz gedir, birində də meyxana.

***

Söz verib torpaq verə, ev tikə molla Həsən,
Pul çatmadı ovcuna dedi: gözlə tikərsən.

***

İki xarici dillə nazir razılaşmadı,
İngilis öyrən dedi fars, ərəb kar aşmadı.

***

Sinə, göbək qırağda fəxr eyləyir atası,
Bunlar cüt qızlarımdır, bu da «Qeyrət» anası.

***

Nataşaya ər oldu, arvadı qaldı yurdda,
Qızları sərbəst gəzir, oğul da qazamatda.



***

Yaşadan aşiqi dünyada onun həsrətidir,
Qəmi olsa nə olar, qəm sevənin zinətidir.

***

Mənimlə rahi-məhəbbətdə yox bərabər olan,
Yıxıldı qaldı bu dəşt içrə çox bərabər olan.

* * *

Ey hünərdən dəm vuran, mən taci-zərdən keçmişəm,
Çox hünərdən açma söz, çünki hünərdən keçmişəm

***

Könlümü bir dilbərin sevdası mədhuş eyləmiş,
Dost edib hicrə bəlalərlə həmağuş eyləmiş.

* * *

Eyləmiş könlümü hicrində pərişan bir «Can»,
Qoymadı ta ki, vücudumda qala can, bir «Can».

* * *

Vəslə bir toy tutmuşam ki, qüssədən hicran yanır,
«Can» gedib, cansız qalıb canım, can üstə can yanır.



# MÜXTƏLİF ŞEİRLƏR VƏ QOŞMALAR



## *Ay ana*

Yenə baxıb gözümə xəyallara dalmısan,
Bu ətri, təravəti, bahardanmı almısan,
Sən mənim varlığıma əbədi iz salmısan,
Mənim dünya durduqca gərəyimsən, ay ana,
Səadətçün döyünən ürəyimsən, ay ana.

Şirin lay-lay söyləyən dilinə qurban olum,
Saçlarımı oxşayan əlinə qurban olum,
İllərin ağartdığı telinə qurban olum,
Mənim heç vaxt solmayan çiçəyimsən, ay ana,
Səadətçün döyünən ürəyimsən, ay ana.

Evə gec qayıdanda tez təlaşa düşürsən,
Nigaran baxışının alovunda bişirsən,
Övladın dara düşsə, dadına yetişirsən,
Dar gündə, çətin gündəköməyimsən, ay ana,
Səadətçün döyünən ürəyimsən, ay ana.

Bu qədər qüdrətinlə gör necə də zərifsən,
Səni mənə bəxş edən Yaradana min əhsən,
Tək qorxuram dünyada səni itirməyimdən,
Sən mənim həyat verən mələyimsən, ay ana,
Səadətçün döyünən ürəyimsən, ay ana.

Sənsiz heç gülə bilməz üzü Əziz Pünhanın,
Səni görsə sevinər gözü Əziz Pünhanın,
Sənlə başlayar, bitər sözü, Əziz Pünhanın,
Ürəyimin arzusu, diləyimsən, ay ana,
Səadətçün döyünən ürəyimsən, ay ana.

## *Səni Azərbaycan unutmaz*

Vətənçün yaşadın, ey ulu öndər
Mərdin bir gününü zaman unutmaz.
Bir ömrü keçirdin bir dünya qədər,
Bu böyük həyatı dövran unutmaz,
Səni heç vaxt Azərbaycan unutmaz.

Solmuş çiçəklərə bəxş etdin həyat
Vətən çəmənində qurdun xoş büsat.
Haqq yolda bilmədin qorxu, ehtiyat,
Tarixin ibrətin insan unutmaz,
Səni heç vaxt Azərbaycan unutmaz.

Tanıtdın dünyaya Azərbaycanı,
Vətən fədaisi, Vətən qurbanı,
Siyasətdə açdın qüdrət meydanı,
Bu hünər məktəbin cahan unutmaz,
Səni heç vaxt Azərbaycan unutmaz.

Ağlın gücü ilə başladın hərbə,
Hörmətin yayıldı Şərq ilə Qərbə,
Dosta nicat oldun, düşmənə zərbə,
Səni yaxşı-yaman bir an unutmaz,
Səni heç vaxt Azərbaycan unutmaz.

Bir dağ kəşf etmişəm Azərbaycanda,
Heydər zirvəsidir adı hər yanda,
Ey Vətən aşiqi, hər bir məkanda,
Səni özü bilib, məkan unutmaz,
Səni heç vaxt Azərbaycan unutmaz.

Ləzginin, avarın, türkün, talışın,
Vətən övladı tək ucaltdın başın,
Sevginlə tanıdı qardaş qardaşın,
Bu qayğını qoca-cavan unutmaz,
Səni heç vaxt Azərbaycan unutmaz.

Can borcu var sənə Əziz Pünhanın,
Ümid qapısısan dərdli insanın,
Dünyada əbədi qalar ad-sanın,
Uqbada Xaliqi-Sübhan unutmaz,
Səni heç vaxt Azərbaycan unutmaz.

## *Tarixdə yanan alov*

Bu xalqın keçmişi, gələcəyi var,
Gözəl dünəndədir gözəl sabahlar,
Çox incəliklərə tarix intizar,
Səhifələr tutub sultanlar, şahlar.

Hər qürur, iftixar tarixdə bir iz,
Vərəqlər içində püskürür vulkan,
Fikir ümman-ümman, söz dəniz-dəniz,
Xəyal gəmisində üzür hər insan.

Tale var sönükdür, tale var yanır,
Tarixçün hərəsi bir cür yaraşıq,
Bir od var hamıdan öndə dayanır,
Dünəndən sabaha salaraq işıq.

Xalqın ümid yeri, etibar yeri,
Mənbəyi sabahın zəfərlərinin,
Alınmaz qaladır sanki təsviri,
Hislər pərən-pərən, duyğular min-min.

Açdığı qapıdan açıq alınla,
Hünər yürüşüylə keçir nəsillər,
Sevgilər bərabər axır zamanla,
Böyük iftixarla görüşür illər.

Heydər, Azərbaycan – bu iki kəlmə
Köçüb azad xalqın qan yaddaşına,
Vüsal müjdəsidir hər sevən qəlbə,
Həm də ucalıqdır Vətən başına.

Bu məzar millətin pənah güşəsi,
Sonsuz arzuların doğum məkanı,
Heydər fəlsəfəsi, xalq fəlsəfəsi,
Gülşən eyləyəcək Azərbaycanı.

Dağın yamacında gülə bənzəyər,
Nə cür söz qoşulsa bu şan-şöhrətə,
Mən Əziz Pünhana dünyada yetər,
Həmmüasir oldum bu şəxsiyyətə.



## *Bayrağın adı Heydər*

Vətəndə bir zirvə var
Əbədi adı Heydər.
Odur bu xalqa sərdar
Əvəzsiz Ulu Öndər.

Bir günü yüz il oldu
Ömrü əsri yaşatdı.
Bölünmüş parçalardan
Azərbaycan yaratdı.

Xalq onun vurğunudur
Unutmaz onu Vətən.
Könüllərdə yaşayır
O yüksəkdir ölümdən.

Bu ölkənin, bu yurdun
Torpağın adı Heydər.
Üçrəngli, ay ulduzlu
Bayrağın adı  Heydər.

Varlığına bağlıdır
Varlığı bu millətin.
Ey böyük Xilaskarı
Bu müstəqil dövlətin.



## *İki dühа vəhdəti*

İki sevgi qovuşdu,
Ümman oldu məhəbbət.
Yerdə ulduz yaratdı,
Yaşamaqçün təbiət.

İki şölə parladı,
Zərifə, Heydər adlı.
Biri aslan vüqarlı,
Biri mələk qanadlı.

Nə xoşbəxtdir bu Vətən,
Mərd qızı, mərd oğlu var.
Qəhrəmanlıq, zəriflik,
Oldu bizə iftixar.

İgid övladların var,
Bəxtiyar Azərbaycan.
Adın dünyaya yazıb,
İki mötəbər insan.

Zərifəyə bağlıdır,
Həkimliyin hikməti.
Heydər məktəbindədir,
Siyəsətin qüdrəti.

Biri nura qərq etdi,
Çox həsrətin gözünü.
Biri söz ilə açdı,
Həqiqətin gözünü.

Bu vəhdətlə qoşadır,
Hər ucalıq, yenilik.
Xalqımın simasıdır,
Bu böyüklük, incəlik.



## *İlhamlı Azərbaycan*

Vətənimin fəxrisən,
Adın dillər əzbəri,
İndi sənə bağlıdır,
Bu xalqın ümidləri.

Bu böyük səadətə,
Həsrətlə baxır cahan,
Heydər yolunu gedir,
İlhamlı Azərbaycan.

Tanıtdın bu diyarı,
Bu torpağı dünyaya.
Qalxdı üçrəngli bayraq,
Bəzək verdi səmaya.

Vətən sənə can deyir,
El qədrini bilənsən.
Qarabağ azad olar,
Bizi sevindirərsən.

Sən xalqın dayağısan,
Böyük sərkərdəsisən,
Bu böyüklüyə əhsən,
Bu igidliyə əhsən.

Ruhani, ziyalının,
Ümidgahısan İlham.
Həm də Əziz Pünhanın,
Sən pənahısan İlham.

## *Mehriban xanım*

Dayağısan millətin
Sənsən Vətənə vüqar.
Böyük mədəniyyətin
Sənə ehtiyacı var.

Azərbaycan adını
Tarixlərə yazmısan.
Vətənpərvər qızıyla
Fəxr edir Azərbaycan.

Bu Vətənin ürəyi
Sənsən Mehriban xanım.
İşıqlı gələcəyi
Sənsən Mehriban xanım.

Ulu öndər yolunda
Qazandın neçə zəfər.
Xeyirxah əməlində
Yoxdur sənə bərabər.

Xoş məramlı səfirsən
Zülmətlərə işıq saç
Sənə bağlı Vətənçün
Səadət qapısın aç.



## *İşıqlı gələcək*

Zəfərlər qazandın Heydər yolunda
Dünyaya yayıldı şanın, şöhrətin.
Başın uca oldu Vətən yanında
Ucaltdın başını həm də millətin.

Sənə çox güvənir bu el, bu oba,
Vətənin adısan Mehriban xanım.
Bu böyük torpağa, bu ulu xalqa
Xeyirxah övladsan Mehriban xanım.

Xalqın ürəyinə sevgilə girdin,
Dediyin hər sözlə rəğbət qazandın.
Fikirlər sonsuzdur, arzular min-min
Ən xoş ümidlərlə qoşadır adın.

Vətən hüdudların aşdı əməlin,
Azərbaycan adı bayrağın oldu.
Hər ölkədə qurdun dostluq təməlin,
Ulu öndər nuru çırağın oldu.

Arxa-dayaq oldun mədəniyyətə,
Tarixə nur saçdı işin, zəhmətin.
Əhsən bu marama, bu xoş niyyətə,
Çoxdan qazanmısan xalq məhəbbətin.

## *Büllüd ağlasa*

Mən gülə bilmirəm, könül də gülməz,
Qüssə məni yaxar, bulud ağlasa.
Dilim də lal olar, danışa bilməz,
Kəlmələr darıxar, bulud ağlasa.

Bir gecə içində ağarar başım,
Xəyalların olar ömür yoldaşım,
Gözümdən qayıdar sel kimi yaşım,
Ürəyimə axar, bulud ağlasa.

Günəş də hicrana dözür mənim tək,
Şüanı torpaqdan ayırıb fələk,
Səmanın bağrını çatladar şimşək,
Vücudunda çaxar, bulud ağlasa.

Kimdə ürək vardır bu ürək kimi,
Bəşərə meyardır bir məhək kimi,
Qəlbim suya teşnə bir çiçək kimi,
Laləzara çıxar, bulud ağlasa.

Vüsal görəcəyəm günlərin biri,
Çəkilib gözümdə o görüş yeri,
Küləklər bəxtimi nişan bənzəri
Sinəm üstə taxar, bulud ağlasa.

Mən Əziz Pünhanam, sözlər zinətim,
Dünyada bilinməz qədrim-qiymətim,
Sulara qərq olar təbim, fitrətim,
Qələm də karıxar, bulud ağlasa.

## *Qoy bulud ağlasın*

Mənə gözlərində yer ver gözəlim,
Sənin baxışında qalmaq istərəm.
Mənə qəlb evində yer ver gözəlim,
Həmişə səninlə olmaq istərəm.

Mənə gözlərində yer ver gözəlim,
Yatanda səninlə qoy mürgüləyim.
Şirin röyalarda səninlə gülüm,
Heç vaxt uzaq olma məndən, mələyim.

Səninlə bir yerdə gəzməyə çıxım,
Səninlə sevinim, səninlə gülüm.
Həmişə o süzgün gözünə baxım,
Ən ləziz tikəni səninlə bölüm.

Mənə gözlərində yer ver, nə olar,
Bəbəyin içində azca yer alım.
Mənimlə göyləri seyr et, nə olar,
O qara gözlərdə qoy mən qaralım.

Hara baxırsansa, mənimlə bax sən,
Mənimlə nəfəs al, mənimlə yaşa,
Məhəbbət gözüylə sən mənə baxsan,
Həyatı şərəflə vurarsan başa.

Gəl ki, buludlardan pilləkən quraq,
Gedib mələklərlə qonşuluq edək.
Göylərdə yaşayaq, orda zövq alaq,
Ağ bulud içində dolaşaq gedək.

Hər arzu-diləyə yetişmişəm mən,
Fəqət bir arzunu təvəqqe etdim.
Demə ki, bir ömür gecikmişəm mən,
Demə kol-kos kimi yolunda bitdim.

Hələ eşq evimi tikməmişəm mən,
Gecikir uzaqdan gələn nigarım.
Hələ təzə fidan əkməmişəm mən,
Bilirəm gələcək sevgili yarım.

Sən də yol gedirsən bir yolçu kimi,
Lakin bir qaranlıq dalana qədər.
Yollarda nabələd bir ovçu kimi,
Ovunu tapdısa yolun qət edər.

Deyirlər ovçuya dağ göstərərlər,
Sənin ovun isə hazır tordadır.
Yeməyənin payın yəqin yeyərlər
Sənə məxsus olan gedir, yoldadır.

Kömək əllərini gəl əsirgəmə.
Qovuşmaq istərəm buluda, gülüm,
Məni yoldaş etmə kədərə, qəmə.
Səninlə həmişə ürəkdən gülüm,

Qoy bulud ağlasın göz yaşlarından,
Buludlar yaransın, ağ bulud kimi.
Yar ilə yarının qovuşmasından,
Möcüzə baş versin xoş ümid kimi.



## *Rübabə*

Göylər ilahəsi, gözəl Rübabə,
Ağ bulud mənalı, gözəl Rübabə.

Tanrı nə bəxtiyar yaratmış səni,
Aləmlərə vüqar yaratmış səni,
Gözəllikdə nübar yaratmış səni,
Göylər ilahəsi, gözəl Rübabə,
Ağ bulud mənalı, gözəl Rübabə.

İstərəm həmişə bulud qalasan,
Adın tək ləkəsiz bulud olasan,
Ağarıb yağış tək heç yağmayasan,
Göylər ilahəsi, gözəl Rübabə,
Ağ bulud mənalı, gözəl Rübabə.

Göyün işıqlığı səndə əks edər,
Yağış damcıları sənlə rəqs edər,
Mələklər həsrətlə səni ləms edər,
Göylər ilahəsi, gözəl Rübabə,
Ağ bulud mənalı, gözəl Rübabə.

Hüsnünü bəzəyib nəqqaşın əli,
Nəcib bir xanımsan, göylər gözəli,
Əziz Pünhan sənə söylər qəzəli,
Göylər ilahəsi, gözəl Rübabə,
Ağ bulud mənalı, gözəl Rübabə.

## *«Can»ım*

Gəlişin heyran eylədi cahanı,
Nə yaxşı zamanda gəldin sən, «Can»ım.
Sevindirdin bütün eli, obanı,
Ömrümüzə nur çilədin sən, «Can»ım.

Sərv boyun, şux qamətin bir aləm,
Ceyran tək yerişin özgə bir aləm.
Təbəssümlü baxışında var aləm,
Bu qamətlə qiyam etdin sən, «Can»ım.

Gül butəsi səni görcək utandı,
Xəcalətdən baş aşağı dayandı.
Günəş də buludda gizlicə yandı,
Gözəllikdə kama yetdin sən, «Can»ım.

Geydiyin paltar da sənlə öyünər,
Keçdiyin yolların nəbzi döyünər.
Ay da üzündəki nuru geyinər,
Ətrafında eşq yaratdın sən, «Can»ım.

Əziz Pünhan üçün haqq-sayın var.
Yanan ürəyində sevgi payın var,
Gözəllikdə sənin məgər tayın var,
Bu miskini vəcdə gətdin sən, «Can»ım.

## *Ölümü öldürən…*

Çiçək ləçəyi tək incə, zərifsən,
Ey mənə zəriflik öyrədən gözəl.
Ən parlaq ulduzsan, ay tək lətifsən,
Dinməyi, dinməyi dindirən gözəl.

Qovuşuq gətirdin, görüş gətirdin,
Həyatıma nəşə, dönüş gətirdin,
Qəmli gözlərimə gülüş gətirdin.
Gülüşü, gülüşü güldürən gözəl.

İllər boyu səni gözləmişəm mən,
Məhəbbət yolunu izləmişəm mən.
Bu eşqi hamıdan gizləmişəm mən,
Sevməyi, sevməyi sevdirən gözəl.

Ölmə, ölər sənsiz bu Əziz Pünhan,
Bu dərdə Tanrıdan umuram dərman.
Sənə əlli il  də qoy versin aman,
Ölümü, ölümü öldürən gözəl.



## *Aparmaz*

Sevən ürək istər tək səni görə,
Çünki o döyünür tək sənə görə,
Eşqimi saxlamaz bu yer, bu kürə,
Qəmimi yükləsəm fələk aparmaz.

Sənin sevgin ilə gözəldi ürək,
Sevgidən yaranan qəzəldi ürək,
Sənsiz daşa dönmüş xəzəldi ürək,
Tufan tək əssə də külək, aparmaz.

Bərabər yaşadıq bir ömrü qoşa,
Dərd olar, bir yerdə vurmasaq başa,
Mən sənsiz yaşayım, sən mənsiz yaşa,
Partlayar, bu dərdi ürək aparmaz.

Çevirmə matəmə bu məhəbbəti,
Bir yerdə çəkmişik hər əziyyəti,
İndi hara getsən taxma zinəti,
Yas yerinə gedən, bəzək aparmaz.

Pirqulu, İstisu, Quba, çox yerlər,
O gözəl görüşlər getmədi hədər,
Köməyimə gəlir o xatirələr,
Haqq olan özüylə kömək aparmaz.

İstanbul Boğazı, balıq kababı,
Piyada yolların şirin əzabı,
Güllərlə bəzənmiş ömür kitabı,
Hər gələn, bu bağdan çiçək aparmaz.

Məkkə, Mədinədən danışaq bir az,
İlahiylə etdik biz razu niyaz,
Düzgün həyat üçün qılmışıq namaz,
Düzlüyü yusa da kələk, aparmaz.

«Can» və Əziz Pünhan, bir yerdəyik biz,
Bir an ayrı düşməz sevən qəlbimiz,
Mənim həyatımsan, cismimi sənsiz,
Olsa da Əzrail zirək, aparmaz.



## *Gözəlliyin sonu yox*

Sənin kimi çox gözəllər doğulub,
Heç birinin sənə bənzər yönü yox,
Gözəlliyin özü həsrətdir sənə,
Sənin kimi bu biçimdə donu yox.

Hər baxışda məna dolu sözün var,
Xumar baxan, məstedici gözün var,
Məh camalın, günəş misal üzün var,
Qeybdəndir bu gözəllik, sonu yox.

Mən bədənəm, sən yaşadan nəfəssən,
Ürəyimi azad edən qəfəssən,
Qaranlığa işıq verən həvəssən,
Nə gecədir, açılacaq danı yox,

Sən olmasan, Mirəziz xan olmazdı,
Bəlkə də heç Əziz Pünhan olmazdı,
Sən olmasan, canımda can olmazdı,
Necə olar, onu deyim, bunu yox.



## *Nəyimə lazım*

Sənə toxunmasın bir zərrə xətər,
Üzünə qonmasın qəm, qüssə, kədər,
Dünya torpaq ilə olsun bərabər,
Dağılsın bu cahan, nəyimə lazım?

Mənə sənin gözəl cəmalın xoşdur,
Ədəbin, ərkanın, kamalın xoşdur,
Aylı gecələrdə vüsalın xoşdur,
Günəş olsun hicran, nəyimə lazım?

Dinlə, bir gör nədir qəlbimin səsi,
Bir can söyləməyin həyat nəğməsi,
Sənin qurbanınam, mənə özgəsi,
Min can desin qurban, nəyimə lazım?

Bir nur mənbəyisən zülmət dövrana,
Dirilik suyudur nəfəsin cana,
Sənsiz həyat yoxdur Əziz Pünhana,
Behişt olsun hər yan, nəyimə lazım?



## *Qəlb ağrısı*

Dünən gözəlliyin qəlbinə dəydim,
Gözəllik aləmi sarsıldı, aman.
Dünən gözəlliyin qəddini əydim,
Göy üzü tutuldu, saraldı yaman.

Sözdən gözəlliyə çələng hörürdüm,
İstərdim gözəllik qəlbin ovlayam.
Sən demə, gözəllik telin qırırdım,
Bilmirdim  ki, onu necə oxşayam.

Axı, Allah özü daha gözəldir,
Onunçün  o sevir gözəllikləri.
Gözəllik əbədi, həm də əzəldir,
Gözəllik fəth etmiş gözəllikləri.

Gözəllik evinə toxunmaq olmaz,
Ona naşı gözlə baxmaq, xətadır.
Onu duymaq gərək, o toxunulmaz,
İlahidən əmanətdir, ətadır.

Axı, yanlış özü də bir naxışdır,
Küsüb barışmağın özgə ləzzəti.
Buludun son anı yenə yağışdır,
Göz yaşın silməyin vardır ləzzəti.

Gözəllik evini tikmək istədim,
Gül bağçası mənə etiraz etdi.
Qəlbində çiçəklər əkmək istədim,
Körpə  fidanlar da bir az naz etdi.

Sən demə gözəllik zərif duyğuymuş,
Onu yaşayaraq anmaq gərəkmiş.
O qəlb pərdəsində incə vurğuymuş,
Onu anlayaraq yanmaq gərəkmiş.



## *Heç küsməyin vaxtımı?*

Hərdən küsüb, ürəyimə dəyirsən,
Gülüm, indi küsüşməyin vaxtımı?
Heç bilmirəm niyə belə edirsən,
Heyranınla deyişməyin vaxtımı?

Nə biləydim səninlə rastlaşaram,
Sənə görə dağ-dərələr aşaram.
Nə biləydim fələklə savaşaram,
Məhəbbətlə çəkişməyin vaxtımı?

Bu sevginin bünövrəsi səndədir,
Sevən qəlbin sözü, səsi səndədir.
Qəmlənməsi, sevinməsi səndədir.
Sevgilinlə didişməyin vaxtımı?

Sevməyin də gülüm, axır həddi var,
Qısqanclığın ölçüsü, bir səddi var.
Səbrin, dözümün də bir sərhəddi var,
Ömür keçir, döyüşməyin vaxtımı?

Gəl barışaq, üzmə məni, amandır,
Gəl qovuşaq, dünya axırzamandır.
Ömrə etibar yox, ölüm yamandır,
Əziz Pünhan, sevişməyin vaxtımı?

## *Xəyal*

Dayan, qoy bitməsin bu zövqün sonu,
Bu dadlı anımı özün al gülüm.
Oyatma, qoy görsün eşq yuxusunu,
Lazımsa canımı özün al gülüm.

Elə düşünmə ki, ahu-zardayam,
Kölgə tək sürünüb, inildəyirəm.
Eşqin çeşməsində qalmaqaldayam,
Anasız quş kimi sızıldayıram.

Cism ilə ruh təki, bir deyilikmi?
Nədən bəs qəlbimiz ayrı döyünür.
Deyirəm sarılaq sarmaşıq kimi,
Gözəllik ilahəm sanki öyünür.

Ayrılıb gedəndə mənim yanımdan,
Xatirən hər axşam mənimlə qalır.
Sənsiz bircə anın çıxmır yadımdan,
Nə qədər arzu, kam mənimlə qalır.

Səni sənsiz əzizlərəm, oxşaram,
Sanki zifaf yatağını açmışam.
Qaçıb getsən, səni harda axtaram?
Əziz Pünhan qucağında yatmışam.



## *Bu eşqi*

Məni bu sevdaya özün salmısan,
Ölsəm də vermərəm yelə bu eşqi.
İndi uzaqlaşıb, gendə durmusan,
Elə bil vermisən selə bu eşqi.

Narazı salmısan məni özümdən,
Verdiyim vədədən, kişi sözündən.
Düşmüşəm özüm də lap öz gözümdən,
Unutma  vermisən ələ bu eşqi.

Ölsəm də bu eşqdən götürmərəm əl,
Yolumda düzəltsən min türlü əngəl.
Demirəm gəlmərəm, demirəm sən gəl,
Sənlə bağlamışam telə bu eşqi.

Qıyqacı baxmağın kefimi açdı,
Zarafat etməyin qəlbə nur saçdı.
Görəsən, kimsənin gözü sataşdı?
İsbatladın gülə-gülə bu eşqi.

Əziz Pünhan sənin eşqinlə yanır,
Gecə-gündüz çevrəndə alovlanır.
Sənsiz olanda da sənlə dolanır,
Gizlədirsən bilə-bilə bu eşqi.



# *Müxalif*

Səni məndən ayırmaq istəyirlər,
Canı təndən ayırmaq istəyirlər,
Məni məndən ayırmaq istəyirlər,
Ayırmaq olarmı ətri çiçəkdən,
Çıxarmaq olarmı eşqi ürəkdən,

Eşqi də məhbəsə salmaq olarmı?
Sevgisiz vücudu sarmaq olarmı?
Duzun duzluğunu almaq olarmı?
Duzun zərrəsi də duzdur əzəldən,
Sevilib sevməyi sən vermə əldən.

Bir bülbüləm, sənsə gül budağımsan,
Şirin-şəkər dilim, bal dodağımsan,
Köksümdə ürəyim, könül bağımsan,
Heç sevən doyarmı şirin qəzəldən,
Ayrılmaq olarmı belə gözəldən?

Anan heç sevməyib gənclik çağında?
Bir tikan tək bitib gül budağında,
Bəlkə yüz yaşardıq eşqin bağında,
Bəlaya düşmüşük belə qərəzdən,
Ayırmaq da olmur təni mərəzdən.



## *Yadı yaxşıdır*

Əlli il eşqsiz yaşamaqdansa,
Bircə an sevginin dadı yaxşıdır,
Nadan bir cavanla ev qurmaqdansa,
Məzar daşındakı adı yaxşıdır,

Qəlbi incə insan incəlik sevər,
Mələk xislətlilər gözəllik sevər,
Naz ilə bəslənən özəllik sevər,
Biganə doğmadan, yadı yaxşıdır.

Göyərçin qırğıdan ancaq qəm yeyər,
Şəbnəmdən gül-çiçək gecə nəm yeyər,
Yar-yara qovuşsa, şirin dəm yeyər,
İçində sevinci, şadı yaxşıdır.

Hər kəsin həyatda öz payı vardır,
Ömür bağçasının qış, yayı vardır,
Onun da həmdəmi, öz tayı vardır,
Dərya kənarının badi yaxşıdır.

Əziz Pünhan bil ki, Allah kərimdir,
Məhəbbət həmişə dərdi-sərimdir,
Eşq Kəbəsi sənə beytül-hərimdir,
Eşq üçün bu gözəl vadi yaxşıdır.



## *Yaşamağa dəyərmiş*

Sönmüş ocağımı alovlandıran,
Bir közün sevdası yaşadır məni.
Eşqi ürəyimi vüqarlandıran,
Bir qızın sevdası yaşadır məni.

Həmişə gözümə bir göz baxırdı,
Mehri baxışından qəlbə axırdı,
Özü yana-yana məni yaxırdı,
Bir gözün sevdası yaşadır məni.

Aşiqdən ehtiyac, Allahdan kərəm,
Məhəbbət var isə, daha nə dərd-qəm,
Oxudum gözündən «səni sevirəm»,
Bir sözün sevdası yaşadır məni.

İstərəm bir ömür olum mehmanın,
Candan əziz olan adın, ünvanın,
Qəlbinə nəxş olub Əziz Pünhanın,
Bir izin sevdası yaşadır məni.



## *Payız sevdası*

Sevdaya salmısan payızda məni,
Sevda yükü nə yamanmış, a dilbər,
Gətirib saxladın dayazda məni,
Dayazın bir ümman imiş, a dilbər.

Taleyini anan yazır, bilirəm,
Bilə-bilə yolun azır, bilirəm,
Lap ayağın altın qazır, bilirəm,
Düşmən sənə öz ananmış, a dilbər.

Bu yaşda da anan sənə dayədir,
Elə bil ki, fətir üçün mayedir,
Kədərdən yoğrulmuş bir sərmayədir,
Xeyri sənə nə ziyanmış, a dilbər.

Əziz Pünhan, dərd gətirir bu xülya,
Dəva etmir nə ehtimal, nə xülya,
Nə mənimlə mehribandır bu dünya,
Nə səninlə mehribanmış, a dilbər.



## *Ay qız*

Gümanım qalıbdır fəqət Allaha,
Ümidim qalmayıb inan, sabaha,
Nazına dözməyə gücüm yox daha,
Gəl bu saf eşqimi məhv etmə, ay qız,
Məni yalqız qoyma, səhv etmə ay qız.

Ən gözəl anlarım səninlə keçib,
Ürək bu şərbəti səninlə içib,
Məhəbbət xələtin bir yerdə biçib,
Gəl bu saf eşqimi məhv etmə, ay qız,
Məni yalqız qoyma, səhv etmə ay qız.

Qəmi-kədəri də atdım o gecə,
Şirin xəyallarla yatdım o gecə,
Qara gözlərində batdım o gecə,
Gəl bu saf eşqimi məhv etmə, ay qız,
Məni yalqız qoyma, səhv etmə ay qız.

Əziz Pünhan yanır yarsız qalanda
Qəmli gözlərimə kədər dolanda,
Baxıram şəklinə sənsiz olanda,
Gəl bu saf eşqimi məhv etmə, ay qız,
Məni yalqız qoyma, səhv etmə ay qız.

## *Sevgilim*

Gəl oyuncaq sanma bu məhəbbəti,
Mənə yük eyləmə qəmi, möhnəti,
Sənsiz neyləyirəm varı, dövləti,
Nələr çəkdiyimi anla, sevgilim,
Bir az daş qəlbini danla, sevgilim.

Odlu baxışların canımı alır,
Gülüşün qəlbimə yanar od salır,
Qəm- qüssə dağılır, şirin zövq qalır,
Bütün bunları da dinlə, sevgilim,
Bir az daş qəlbini danla, sevgilim.

Əziz Pünhan, daha dözdüyün yetər,
Qüssəli qəlbimdə qəmdən gül bitər,
Uzaqda durmağın ölümdən betər,
Yuma bu həsrəti qanla, sevgilim,
Bir az daş qəlbini danla, sevgilim.



## *Şikayət*

Səni gözləməyə qalmayıb dözüm,
Yollara baxmaqdan yorulub gözüm,
Sanki danışmağa qurtarıb sözüm,
Nədən bəs bunları duymazsan gülüm,
Yarama bir məlhəm qoymazsan gülüm.

Özün od vurmusan eşq xırmanıma,
Məhəbbət yurduma, eşq ormanıma,
Necə də soyuqsan bu yananına,
Nədən bəs bunları duymazsan gülüm,
Yarama bir məlhəm qoymazsan gülüm.

Sənin həsrətinlə dünyam qaranlıq,
Nə oyanlıq oldum nə də bu yanlıq,
Əziz Pünhan deyər etmə yamanlıq,
Nədən bəs bunları duymazsan gülüm,
Yarama bir məlhəm qoymazsan gülüm.



## *«Can» kəlməsi*

Mən Məcnun olsam da, sən Leyli olma,
Ümidvar ol vəslə, gileyli olma,
Vəsvəsəyə çox da meyilli olma,
Eşq əhlinə Allah özü yar olsun,
Dünya var olduqca sevgi var olsun.

Bu sevda yolumuz boran, qış oldu,
Nə bədnəzər oldu, nə qarğış oldu?
Günəşli günümüz qar, yağış oldu,
Təbiət neyləsin, onda nə günah,
İnsanlardır edən günah, iştibah.

Əvvəl can deyənlər sonra dərd dedi,
Kimə bu məhəbbət maneə idi,
Nə bilsinlər ki, eşq olur əbədi,
Qəlbi qara olan məhəbbət bilməz,
Şeytanlar Allaha ibadət bilməz.

Fərhaddan soruşma nədir məhəbbət,
O gözəl axtarıb Şirintəbiət,
Başa külüng vurur düşəndə fürsət,
Mən namərd başına çaldım külüngi,
Kişi nakişidən fərq edər çünki.

Həyat məqsədilə qurmuşam büsat,
Məndə ölümçün də yoxdur ehtiyat,
Məni «Can»dan ayrı salmasın həyat,
Hələ qarşıdadır səadətim də,
Mənimlə birləşər məhəbbətim də.

Biri mal əsiri, zinət əsiri,
Biri qızıl, gümüş, sərvət əsiri,
Hərə dünyada bir nemət əsiri,
Mənsə əsiriyəm bu məhəbbətin,
Bu yol çox çətindir, olmasan mətin.

Sevgiyə yaraşmaz riya, xəyanət,
Əhdə vəfasızlıq böyük qəbahət,
Eşqin bir əmri var – o da sədaqət,
Mən məhəbbətimdə sədaqətliyəm,
Bu yoldan dönmərəm, dəyanətliyəm.

Könül rübabımın həzin səsisən,
Xiridar nitqimin «Can» kəlməsisən,
Kimsəsiz qəlbimin bircə kəsisən,
Mən Əziz Pünhanam, sən mənim yarım,
Sənsiz bu dünyada yoxdur qərarım.



# *Ayrılıq*

Həzər olsun, nə yamanmış ayrılıq,
Aşiq üçün imtahanmış ayrılıq,
Sevən gözdən axan qanmış ayrılıq,
Canı təndən ayıranmış ayrılıq,
Məni məndən ayıranmış ayrılıq

Hicran olsun, ya ayrılıq, fərqi yox,
Gecə olsun, ya qaranlıq, fərqi yox,
Gündüz olsun, ya da işıq, fərqi yox,
Qəddi kaman kimi əyər ayrılıq,
Bivaxt qapıları döyər ayrılıq.

Görən, ayrılığın yoxmu mürvəti,
Qovuşdursun bizi gizli, xəlvəti,
Pərdələsin gözdən bu xoş dəvəti,
Çəksin özü-özün dara ayrılıq,
Qəhrdən geyinsin qara ayrılıq.

Çox yalvardım hicrə, ayırma bizi,
Qoy qovuşsun vəslə, eşqin dənizi,
Salma tufanlara şux qəlbimizi,
Olur məgər bundan betər ayrılıq,
Çox çəkməz sevgilim ötər ayrılıq.

Əziz Pünhan, inan, bitər bu həsrət,
Hicran ölər, sona yetər bu həsrət,
Sevgi qalar, ölüb itər bu həsrət,
Çəkib şələsini, gedər ayrılıq,
Qəzəbdən içini didər ayrılıq.

## *Gedir…*

Gedirsən, elə bil səadət sevinc,
Qəm yükü daşıyan sözümdən gedir.
Gedən sən deyilsən, gedən canımdır,
Sanki, özüm çıxır özümdən, gedir.

Olmadı ömrümdə sənə tay olan,
Zülmət gecələrdə mənə ay olan,
Sənli günlərimdən mənə pay olan,
Gülüşüm silinib üzümdən, gedir.

İndi gəl hicranə döz, məhəbbətim,
Məni məhbus edib sənli həsrətim,
Sənlə dağ oynadan gücüm, qüvvətim,
Yox olub təqətim dizimdən, gedir.

Gözüm öyrəşmədi bu qaranlığa,
Əllərimdən tutub çıxaq işığa,
Mənə söyləmə ki, döz ayrılığa,
Yaşadığım hər gün dözümdən gedir.

Nə mənim, nə sənin, yoxdu günahın,
Yolu yox bu iki bəxt siyahın,
Örtəcək dünyanı, dumanı ahın,
O ah ki, tüstüsü közümdən gedir.

Mən Əziz Pünhanam, dərdə yoxdu tab,
Fikrim sona yetməz, yazsam min kitab,
Bir «Can» həsrətində çəkdiyim əzab,
İndi yaşa dönüb, gözümdən, gedir.

## *Yetər, qayıt gəl*

Nə səndə günah var nə məndə günah,
Zamandır günahkar yetər, qayıt gəl.
Həsrət çox çəkdirdi qəlbimizə ah,
Qalmayaq intizar yetər, qayıt gəl.

Qayıt gözlərimin bəbəyi, qayıt,
Sevindir bu qəmli ürəyi, qayıt,
Ömrümə ey bahar çiçəyi qayıt,
Sənsiz küsüb bahar yetər, qayıt gəl.

Bizimlə düz gəlmir fələyin nəyi?
Küləyə ələnir ömrün ələyi,
Sən də istəyirsən geri dönməyi,
Ölma məndən kənar, yetər, qayıt gəl.

Alışan ürəyin külə çevrilib külə çevrilib,
Sənsiz bir dəqiqəm ilə çevrilib,
Kədərin gözümdə selə çevrilib,
Bulaq tək qaynayır, yetər qayıt gəl.

Sənlə oyanıram hər səhər erkən,
Sənsiz hər səhərim saçımda bir dən,
Unutma dünyada mənsiz yoxsan sən,
Nə də sənsiz mən var, yetər, qayıt gəl.

Biz birgə olaq ki, düşmən sıxılsın,
Bizi ayıranlar yanıb-yaxılsın,
Eşq otağımıza bəzək taxılsın,
Gülsün bu daş, divar, yetər qayıt gəl.

Bilirəm ki, mənsiz çoxdur əzabın,
Könlün varaqlayır hicran kitabın,
Haqq çəkər nahaqqın haqq hesabın,
Qalma belə naçar, yetər, qayıt gəl.

Hər bir can kəlməmə canım deyərdin,
Can deyə-deyə də canını verdin,
Qoyma ki, qurbanı olaq namərdin,
Et mənə etibar, yetər qayıt gəl.

Bir xəzan küləyi soldurub güli,
«Can»sız telefonun susub bülbüli,
Sənsizlik artırır qəmi, nisgili,
Xoş günümü qaytar, yetər qayıt gəl.

Mən Əziz Pünhanam sən də «Can»ımsan,
Şuxum, şirinimsən, mehribanımsan,
Ömrüm həyatımsan hər bir anımsan,
Yara yar olsun yar, yetər, qayıt gəl.



## *Qayıt*

Atəş qalayıb ürəyim,
Ol mənə pərvanə, qayıt.
Sən dəlisi bu eşqimin,
Mən sənə divanə, qayıt.

Ayrılığın üzü sərtdi,
Səndən ayrı qalmaq dərddi.
Məndədi eşqin son həddi,
Rəhm elə bu canə, qayıt.

Sənə aşiqliyim qəti,
Məhəbbət can əmanəti,
Alçaltma bu məhəbbəti,
Salma məni qanə, qayıt.

Canım, gözüm, sənəçündür,
Varım, özüm səninçündür,
Şeirim, sözüm, səninçündür,
Sal məni sahmanə, qayıt.

Qoyma məni yana-yana,
Gülməsin bizə biganə,
Necə getmişdin mərdanə,
Elə də mərdanə, qayıt.

Əziz Pünhan ta sübhətək,
Ay da deyir yar gələcək,
Həsrət məni öldürəcək,
Qali bol hicranə, qayıt

## *Könlüm sevdi neyləyim…*

Gəlməyəydim bu cahana əzəldən,
Cana gəldim belə kövrək gözəldən,
Ayırmazdım səni körpə qəzaldən,
Gözüm gördü, könlüm sevdi, neyləyim?

Göz yaranıb gözəlliyə baxmağa,
Çay sellənsə, başlar coşğun axmağa,
Eşq atəşdir, toxunma daş-çaxmağa,
Gözüm gördü, könlüm sevdi, neyləyim?

Könül sevsə, məhəl qoymaz heç yaşa,
Sevən kimsə eşqə düşər birbaşa,
Məhəbbətin qoy dəyməsin heç daşa,
Gözüm gördü, könlüm sevdi neyləyim?

Aralıqda boş söhbətlər əbəsdir,
Gənclik eşqi adicə bir həvəsdir,
Məni gəl incitmə həvəsdi, bəsdir,
Gözüm gördü, könlüm sevdi, neyləyim?

Əziz Pünhan heyran olmuş boyuna,
Gözəl rəvişinə, şirin huyuna,
Fitnəsilə salıb məni oyuna,
Gözüm gördü, könlüm sevdi, neyləyim?



## *Səninlə*

İstəmirəm ləçəyində şeh olum,
Yelpic vuran ötəri bir meh olum,
Söhbətinə, sözünə valeh olum,
İstəyirəm daim olum səninlə.

İstəmirəm ətir olum telində,
Qoxulanım hərcayilər elində,
İstəmirəm axasan yad selində,
İstəyirəm daim olum səninlə.

İstəmirəm sevgi olum dilində,
Dəstələnən bir gül olum əlində,
Qoy dolanım, kəmər olum belində,
İstəyirəm daim olum səninlə.

Əziz Pünhan dərd-ələmdən solubdur,
Bahar buludu tək qəmdən dolubdur,
Hicr odundan, möhnətdən yorulubdur,
İstəyirəm daim olum səninlə.



## *Üzmə məni, nə olar*

Gözlərində gözüm qaldı, bilmədin,
Ürəyimdə sözüm qaldı, bilmədin,
Yanar qəlbdə közüm qaldı, bilmədin,
Qurbanınam, üzmə məni, nə olar.
Üzmə məni, üzmə məni, nə olar.

Sevən ürəyim var, canım, sənindir,
Quru bir canım var, canım sənindir,
Büsbütün nəyim var, canım, sənindir,
Qurbanınam, üzmə məni, nə olar.
Üzmə məni, üzmə məni, nə olar.

Hər cür söz deyirəm, ötüb gedirsən,
Əlindən tuturam, küsüb gedirsən,
Bilmirəm nə üçün tərslik edirsən,
Qurbanınam, üzmə məni, nə olar.
Üzmə məni, üzmə məni, nə olar.

Qəmlə yüklənirəm, sənsiz olanda,
Bülbül də qəm çəkir, gülü solanda,
Səbr kasası da daşır dolanda,
Qurbanınam, üzmə məni, nə olar.
Üzmə məni, üzmə məni, nə olar.

Əziz Pünhan aşiqindir əzəldən,
Nə yardan doyandır, nə də qəzəldən,
Mümkünmü ayrıla sən tək gözəldən,
Qurbanınam, üzmə məni, nə olar.
Üzmə məni, üzmə məni, nə olar.

## *Gülüşün*

Elə şirin-şirin gülürsən gülüm,
Sanki can evimə köçürsən gülüm,
Gülüşünlə sən gül tökürsən gülüm,
Ruhuma incilər tökür gülüşün.

Eşqidə sən mənim payıma düşdün,
Mənlə sevinc gördün, mənlə gülüşdün,
Buluddan ayrılan yağışa düşdün,
Gül-çiçək butasın bükür gülüşün.

Baxışın könlümdə çiçəklər açır,
Yanaqların sirli təravət saçır,
Qəlbimiz bir vurur, bir pıçıldaşır,
Canımın riştəsin sökür gülüşün.

Əziz Pünhanınam tökmə qanımı
Səninlə sürərəm öz dövranımı
Əcəlin əlindən alıb canımı,
Məni yaşamağa çəkir gülüşün.



## *Səni axtarmışam*

Səni axtarmışam bir ömür boyu,
Görürəm eşqimdə yanılmamışam.
Sevgidən qurmuşam bir könül toyu,
Bir an belə səndən yan olmamışam.

Səninlə o gündən həmsöhbət oldum,
Gecə də, gündüz də kəsdim yanını.
Səni çox vaxt hətta səndən qorudum,
Ruhtək tərk etmədim şirin canını.

Bəzən bilərəkdən qəlbə dəyirsən,
Bunun özü də bir sevgidir, eşqdir.
Ötəri həvəsdən bəhrələnirsən,
Məəttəl qalmışam, bu nə cür eşqdir.



## *Ağlarsan gülüm*

Günlərin birində pünhan yanarsan,
Yanıb yandıraraq ağlarsan gülüm.
Peşmançılıq tövbəsini anarsan,
Özün öz sinəni dağlarsan gülüm.

Öz əlinlə qəlb evini sökürsən,
Hansısa nadanın möhrün düzürsən.
Özün də bilmədən ayrı gəzirsən,
Yana-yana baxıb çağlarsan, gülüm.

Demirəm itirdin üzük qaşını,
İffət-ismət kimi qiymət daşını.
Sevdiyin oğlanın qan yaddaşını,
Hərdənbir arayıb, yoxlarsan, gülüm.

Sənə xəyal qalar qəmdən yadigar,
Onunçün xatirə səndən yadigar.
Mən Əziz Pünhanam, məndən yadigar,
Bu yazdığım şeiri saxlarsan gülüm.

## *Yelkənsiz qayıq*

Cavanlar elə bil ölümə məhkum,
Hərənin bir cürə xəstəliyi var.
Elə bil tanrıdan gəlmiş bu höküm,
İlahi qəzəbə düçardır onlar.

Dalğalar bir məsum körpə bədəni,
Yelkənsiz qayıqtək qoynuna alır.
Gəzdirir məhəbbət qanadlarında,
Sonra da qırğı tək çənginə salır.

Taleyin qiymətli qanı axaraq
Sovrulur küləyə ismət yaylığı.
Bir azdan dalğalar şaha qalxaraq,
O sal qayalara çırpır qayığı.

Sonra da sahildə-Qum adasında,
Yırtılmış yelkəni titrək bir səslə,
Səslər xoşbəxtliyi qəm arasında,
Yanı üstə düşər quru nəfəslə.

Özünə talesiz həmdəm axtarar.
Görəsən, taparmı bir yol yoldaşı?
Onuntək heç yerdə tutmayır qərar,
Qanadı qırılmış bir quş sirdaşı.

## *Qismət*

Əzəldən gözəlsən, qəşəng xanımsan,
Qara göz, qara qaş, alma yanaqlı.
Həyat səhnəsində əsil qadınsan,
Biz «Ələst» günündən olduq adaxlı.

Anan səni mənim üçün doğurmuş,
Bir az tez gəldim ki, səni gözləyəm.
İlahi hökmünü belə buyurmuş,
Əziz ikən səni mən əzizləyəm.

İçi boş, qəlbi yox enlikürəkdən,
Ağarmış saçların yaşı yaxşıdır.
Eşqsiz döyünən bir daş ürəkdən,
Aşiqlərin məzar daşı yaxşıdır.

Eşqimin əvvəli-ilki-əzəli,
Qəlbimin «can» səsi sən idin ancaq.
Şeir sənətinin şirin qəzəli,
Ən ilkin kəlməsi sən idin ancaq.

Qismətdən kənara qaçmaq çətindir,
Əzəldən qismətin mənə yazılmış.
Bu gələn xoşbəxtlik öz qismətindir,
Əziz Pünhan qoymaz olsun yazı qış.



## *Eşqimin sədası Dilbər*

Səni görən gündən olmuşam əsir,
Sənsən həyatımın səfası Dilbər,
Bizi ayırmazdı, dərdə salmazdı,
Fələyin olsaydı vəfası, Dilbər,
Ey gizli eşqimin sədası, Dilbər.

Bizi xoşbəxt görüb zalım rəqiblər,
Bu dadlı şərbətə qatdılar zəhər,
Bu da bir taledir, dözək birtəhər,
Aşiqin çox olur cəfası, Dilbər,
Ey gizli eşqimin sədası, Dilbər.

Sənsiz nə bağ-bağça, sənsiz nə çəmən,
Mənim deyil sanki bu can, bu bədən,
Səndən özgəsini heç görmürəm mən,
Sənsən gözlərimin ziyası, Dilbər,
Ey gizli eşqimin sədası, Dilbər.

Yadlar bəxtimizi çırpsa da daşa,
Xain niyyətləri çıxacaq boşa,
Yaşarıq bir ömrü ikimiz qoşa,
Olarıq bir eşqin dəvası, Dilbər,
Ey gizli eşqimin sədası, Dilbər.

Əziz Pünhan üçün səndən qeyri yox,
Həyatda dolanaq gözü, könlü tox,
Əzizim, mən səni çox sevirəm, çox,
Sənsən ürəyimin nidası, Dilbər,
Ey gizli eşqimin sədası, Dilbər.

# *Gözəl*

Xumar gözü sev deyir,
Naz edir, gülümsəyir,
Könlümü qan eyləyir,
Eşqin sevdası, gözəl.

Şəklin gəzir gizlicə,
Gözlərimdə hər gecə,
Məni ovutsun, necə,
Sevgi röyası, gözəl.

Sən gülsən, cahan gülər,
Sevgi göyə yüksələr,
Bir busənlə örtülər,
Könlüm yarəsi, gözəl.

Qədrini bil hər anın,
Zövqünü çək dövranın,
Sənsən Əziz Pünhanın,
Gözəl dünyası, gözəl.



## *Dünya nəyimə lazım*

Mənimçün ilk baharsan,
Sevən qəlbimə yarsan,
Gözəl, əgər sən varsan,
Dünya nəyimə lazım?

Bircə sözün bəsimdir,
Gülər üzün bəsimdir,
Xumar gözün bəsimdir,
Röya nəyimə lazım?

Sən aşiq ürəyimsən,
Ən şirin diləyimsən,
Bu günüm, gerçəyimsən,
Xülya nəyimə lazım?

Əziz Pünhan teşnədir,
Məcnun yanında nədir,
Mənim gözüm səndədir,
Löya nəyimə lazım?



## *Gözlərin gəzir məni*

Həsrətinin izidir,
Ürəyimin dağları.
Kədər yağışı tökür,
Gözümün bulaqları.

Yollarımız toz-duman,
Necə axtarım səni.
Gecələr gözümdəsən,
Xəyal aldadır məni.

Sən könlümün sakini,
Qəlbim sənin mənzilin.
Məni tənha buraxma,
Gəl hərdən gizlin-gizlin.

Baxışında məhəbbət,
Ayrılıq üzür məni.
Harda olsam bilirəm,
Gözlərin gəzir məni.

Bir ömrə bərabərdir,
Sənin hər anın, Dilbər.
Döyünən ürəyisən,
Əziz Pünhanın, Dilbər.



## *İllər vüsal deyəcək*

Səninlə birgə keçdi,
Qəmli günüm, şad günüm.
Dərdimin əlacısan,
Mənasısan ömrümün.

Bizi ayıran fələk,
Özü olar peşiman,
Bu məhəbbət önündə,
Əyər başını zaman.

Bağçalar, çəmənliklər,
Güllər vüsal deyəcək.
Bizi xoşbəxt yaşadan,
İllər vüsal deyəcək.

Sən mənimsən, mən sənin,
Bizi ayırmaq günah.
Qəlbimizdə məhəbbət,
Başımız üstə Allah.

Əziz Pünhan arzular,
Eşqinə ümidi var.
Sən onun ürəyisən,
Səadət mələyisən.

## *Tələsmə*

İllərlə ayrılıq odunda bişdik,
Yağışdan çıxaraq, yağmura düşdük,
Əcəb fürsət tapıb bu gün görüşdük,
Duyğulu anları uzat, tələsmə.

Nə qədər arzunu vermişik bada,
Saçı ağartmışıq qoca dünyada,
Olanı, ötəni sal bir-bir yada,
Yatan xatirəni oyat, tələsmə.

Hicranla bağlanıb vüsalın gözü,
Yandırır könlümü həsrətin közü.
Yığılıb qəlbində illərin sözü,
Danış ürəyini boşalt, tələsmə.

Əziz Pünhan səni şeirə salacaq,
Ürək kitabında adın qalacaq,
Bir gün bu görüşlər vüsal olacaq,
Kədəri qəlbindən sil at, tələsmə.



## *Küsmə, nə olar*

Bilirsən, nə qədər hicran çəkmişəm,
Susuz ürəyimə sevinc əkmişəm,
Səninçün könlümdə saray tikmişəm,
Gəzmə məndən kənar, küsmə, nə olar.

Xoşbəxtəm, sənintək vəfadarım var,
Tez küsüb barışan nazlı yarım var,
Aşiqəm, əhdim var, etibarım var,
Bu əhd, bu etibar, küsmə, nə olar.

Kam verib, həyatda birgə kam alaq,
Xoş sabahlar ilə xəyala dalaq,
Heç rəvadırmı ki, küsülü qalaq,
Səndən küsənmi var, küsmə, nə olar.

Qəm-qüssə onsuz da gəlib-gedəndir,
Sənsiz Əziz Pünhan ruhsuz bədəndir,
Baxışın torpaqdır, busən vətəndir,
Gəl canımı apar, küsmə, nə olar.



## *Sevincim*

Ürəyimin atəşidir atəşin,
Hərarətin bədənimə can verir,
Eşqdən özgə nəyi olur aşiqin,
Sənli könlüm gül-çiçəklər bitirir.
Sevincimin sevincisən, Sevincim.
Ürəyimdə bir incisən, Sevincim.

Qaranlıqda ulduzumsan, ayımsan,
Sən yer üstə olan günəş payımsan,
Qış gələndə baharımsan, yayımsan,
Kəhkaşanda ən uca sarayımsan,
Sevincimin sevincisən, Sevincim.
Ürəyimdə bir incisən, Sevincim.

Səni sevən bu dünyada nə istər,
Mənim üçün bütün dünya hədərdir,
Sevgimin ölçüsü olsaydı əgər,
Bilərdin ki, iki dünya qədərdir.
Sevincimin sevincisən, Sevincim.
Ürəyimdə bir incisən, Sevincim.

Mən Əziz Pünhanam, ürək sözümsən,
Danışan dilimsən, gülən üzümsən,
Bu cahana xumar baxan gözümsən,
Mən sənəm ki, sən də mənim özümsən.
Sevincimin sevincisən, Sevincim.
Ürəyimdə bir incisən, Sevincim.

## *Sevgilim*

Ey dərdimə yananım,
Gərək səninlə yanım,
Atəşlərə boyanım,
Dizlərində oyanım,
Həyatda tək sevgilim,
Mənim mələk sevgilim.

Mənim arzu bağımsan,
Sönməyən ocağımsan,
Nurlu çilçırağımsan,
Ürəyimdə yağımsan,
Yanır ürək sevgilim,
Mənim mələk sevgilim.

Ayrılsam səndən bir dəm,
Sönər gözümdə aləm,
Bata bilməz bizə qəm,
Həmişə səninləyəm,
Sonunadək sevgilim,
Mənim mələk sevgilim.

Dünyanı vüsal bildim,
Bir az səndən tez gəldim,
Gəlib səni gözlədim,
Hər anını izlədim,
Körpə çiçək sevgilim,
Mənim mələk sevgilim.

Üzmə Əziz Pünhanı,
Səndədir şirin canı,
Onüntək aşiq hanı,
Sənə verib dünyanı,
Çoxdu dilək, sevgilim,
Mənim mələk sevgilim.



## *Xəyaldan gerçəyə*

On iki gün qürbət eldə dolandım,
Bir an sevgilimdən uzaq qalmadım,
Hər günü bir ilə bərabər sandım,
Onsuz bir nəfəs də belə almadım.

Gülüb danışırdıq günlər uzunu,
Bəzən gecələri edirdik səhər,
Xəyalən görürdüm gülər üzünü,
Röya şirin idi həqiqət qədər.

Bu sevgi nə gözəl nemətdir Allah,
Nə yaxşı hər kəsin öz tayı varmış,
Bu sevdalı günlər bitməz, inşallah,
Bahar gətirəcək bu şaxtalı qış.

Baxışı bir aləm, sözü bir aləm,
Qara saçlarında itər vücudum,
Yaralı sinəmə əlləri məlhəm,
Piyalə gözlərdə yaşar ümidim.

O, incə bir güldür, mən Əziz Pünhan,
Biz yelkənli gəmi, məhəbbət dəniz,
Bu iki bədəndə yaşayır bir can,
Bədən cansız qalar bir olmasaq biz.



## *Həyat işığım*

Nə gözəl yaradıb Yaradan səni,
Məni heyran etdi ala gözlərin,
Sənə heyran gözüm görməz kimsəni,
Baldan da şirindir şəkər sözlərin.

Səninlə həyatda kama yetişdim,
Səndə tapdım bütün istəklərimi,
Bütün ümidimi sənə dəyişdim,
Adına bağladım diləklərimi.

Səndə gördüm sevgi, səndə gördüm naz,
Mənim həyatıma gətirdin işıq,
Heç gül ağacında gözəllik olmaz,
Verməsə bir qönçə ona yaraşıq.

Həyat qucaq açdı hər ikimizə,
Döydü qapımızı vüsal küləyi,
Məndə ürək gəzmə gəlsək üz-üzə,
Mən sənə vermişəm sevən ürəyi.

Sən biçarə bilmə Əziz Pünhanı,
Bu eşq ilə qoyar dağ üstə dağı,
Vüsalına yetsə yaxar dünyanı,
Bir çətinliyi var – sənsiz olmağı.



## *Ölmədən öncə*

Kimsə söyləmişdi sevən bir gəncə,
Sevərək, sevilmək ölməkdir məncə.
Mən də sevmiş idim, ölmədən öncə,
Öləndən sonra anladım bu eşqi.

Quru bir qovğaymış sevgi-məhəbbət,
Adi əyləncədir, oyundur əlbət.
Mərdxislət insanla bağlasan ülfət,
Sanki zəncirə bağladın bu eşqi.

Bacarsan canını, canana ver sən,
Eşqi, məhəbbəti qanana ver sən.
Qəlbini bu Əziz Pünhana versən,
Bəlkə yüz il qabaqladın bu eşqi.



## *Nə səndə var, nə məndə…*

Səni görən gündən həyata döndüm,
Yaşamaq həvəsi oyandı məndə.
Naz-qəmzə satanda yaman öyündüm,
Gülüşündən vəcdə gəldi çəmən də.

İşvəli baxışın yandırıb yaxar,
Qönçə dodaqlardan şirin şəhd axar.
Həyadan yar yara xəlvəti baxar,
Alar ixtiyarın, salar kəməndə.

Məhəbbət dərsini səndən almışam,
Rəmz işarəni yaxşı qanmışam.
Gecə də, gündüz də sənlə yanmışam,
İnanmıram ki, can qala bədəndə.

Əziz Pünhan yanar eşqin oduna,
Bu yolda qoy Allah çatsın dadına.
Dəxi bu həsrəti salma yadına,
Buna dözüm nə səndə var, nə məndə.



## *Ay gözəl*

İlk görüşdə ovlamısan qəlbimi,
Saldın məni eşq oduna, ay gözəl.
Kipriklərin hədəf etmiş sinəmi,
Fitnə gözlər qıyar cana, ay gözəl.

Sərvi boyum! Siyah zülfün ilandır,
Ala gözlər üstə qaşlar kamandır,
Bəd nəzərdən özün gözlə amandır,
Qoyma qalam yana-yana, ay gözəl.

Məni görcək işvə, qəmzə satırsan,
Qıyğacı baxırsan, gah söz atırsan,
Bəzən elə qaş-qabağın çatırsan,
Bənzəyirsən can alana, ay gözəl.

Əziz Pünhan əsirindir ölüncə,
Əl götürməz ta mətləbə yetincə,
Tərəhhüm et bircə busə lap incə,
Qoy düşməsin nahaq qanə, ay gözəl.



## *Gülüm*

Nə gözəl xəlq edib yaradan səni,
Yerişin bənzəyir marala gülüm.
Qoy özü qorusun bəladan səni,
Gəlməyəsən heç bir zavala, gülüm.

Sərv boyun, əcəb incə belin var,
Şahmar hörüklərin, siyah telin var,
Qəlb oxşayan, ovsunlayan dilin var,
Gözlərin yetməsin məlalə, gülüm.

Məftun edib məni yanaqda xalın,
Bir yanda ay, bir yanda məh camalın,
Mənə müjdə olan anda vüsalın,
Dünyanı etmişəm qəbalə gülüm.

Uyma, hər nakəsin şirin dilinə,
Sanki milçək qonmuş gül ləçəyinə,
Ümid olma vədəsinə, felinə,
Düşməyəsən başqa xəyala, gülüm.

Vurulmuşam incə xəttu xalına,
Bir nəzər sal mən yazığın halına,
Qoyma xələl gəlsin öz kamalına,
Əziz Pünhan yetsin kamala, gülüm.



## *Gözəllik*

Bilmirəm bu necə təzaddı məndə,
Xəlq suya təşnədir, mən gözəlliyə.
Salmışdır gözəllik məni kəməndə,
Dünya da vurğundur şən gözəlliyə.

Qaydadır məşuqə işvə, naz satar,
Aşiq bir işvəyə canından keçər,
Adətdir təşnələr suya can atar,
Teşnə gözüm yardan gözəllik içər.

Elə bilməyin ki, çaş-baş olmuşam,
Eşq-məhəbbətdən yorulmuşam mən,
Mən ki, gözəlliklə hamaş olmuşam,
Sevib sevilməkçün doğulmuşam mən.

Bu Əziz Pünhanı yanına çağır,
Çəksin sinəsinə vüsal nəfəsin.
Bir yüküm olmayıb hicrandan ağır,
Ona dəyişərdim vüsal həvəsin.



## *İncitmə gülüm*

Bir gün sən də həsrətindən ağlarsan,
Dərilməmiş meyvə tək quruyarsan.
Təravət də qalmaz, lap qarıyarsan,
Həsrətdə yananı incitmə gülüm.

Sənin də ömründə xəzan olacaq,
Çox öyünmə, gözəlliyin solacaq,
Geri boylanarsan, gözün dolacaq,
Həsrətdə yananı incitmə gülüm.

Əfsus, çəkəcəgsən gedənin gəlməz,
Nələr çəkdiyini ruhun da bilməz,
Etdiyin günahı dəniz də silməz,
Həsrətdə yananı incitmə gülüm.

Əziz Pünhan deyər girmə oyuna,
Gəl qane ol qismətinə, payına,
Sadəliklər bəzək verir boyuna,
Həsrətdə yananı incitmə gülüm.

# *Analı günlərim*

Analı günlərim min ilə dəyər,
Anasız günləri yaşayammıram.
41 il yaşımdan keçsə də əgər,
Beşiyin başında səni anıram.

Səninlə isinir soyuq otağım,
Sənin qucağında yatıram yenə.
Başqa ölkədən də gəlsə sorağım,
Səninlə dolaşıb anıram yenə.

Ana! Məhəbbətin dünyaya sığmaz,
Bu kiçik bədənə necə sığışıb?
Qəlbim ümmanlardan genişdir, dolmaz
Hicrandan gör necə dolub, yığışıb.

Sənin xəyalınla əzizləşirəm,
Sənsiz olan kimi cəmalım olmur.
Xeyir-duan ilə zənginləşirəm,
Bir an sənsiz olsam, kəmalım olmur.

Vətənə nə yaxşı ana deyirlər,
Ana! Vəhdətindir, ana Vətən də.
Qeyrətli oğullar ona deyirlər,
Anayla yaşaya ana vətəndə.



## *Vətən sevgisi*

Orta Asiyadan namə yazıram,
Sözlə çatmır əlim Azərbaycana.
Buxara şəhərindən, gözəl məkandan,
Salam deyir dilim Azərbaycana.

Gəzirəm Daşkəndi, həm Səmərqəndi,
Düşənbə şəhrini, həm Nəmənqəndi,
O köhnə qalanı, köhnə Dərbəndi,
Mən necə tən bilim Azərbaycana.

Axır çox surətlə Buxara çayı,
Könlüm xatırlayır kənddəki yayı,
Çətindir insana qəriblik payı,
Qurbanam mənzilim Azərbaycana.

Necə şərh etməyim cənnətməkanı,
Necə şad etməyim ata-ananı,
Gərək heyran edəm bütün dünyanı,
Şan-şöhrətlə gəlim Azərbaycana.

Gözəlliyin görüb sevinir ürək,
Hər qızı, oğlanı zərif bir çiçək,
Təbiət bəxş edən bəzəkdir bəzək,
Şirvan, Muğan, Milim Azərbaycana.

Mənalar yazmağa həvəsim çoxdur,
Heyif ki, kağızım, qələmim yoxdur,
Düşmənlər gözünə qələmim oxdur,
Dayaq ola bilim Azərbaycana.

Azərbaycan mənə doğma bir ocaq,
Onu sevən kəsə isti olacaq,
Əziz Pünhan qartal, Vətənsə bir dağ,
Ucalım, yüksəlim Azərbaycana.

## *Arzu*

Təmənna edirəm ulu Tanrıdan,
Eşqimi heç zaman o söndürməsin.
Vüsala çatdırsın bizi yaradan,
Rəqibin qəlbini sevindirməsin.

Ürəyim eşqdən alovlansa da,
Gündə yüz yol alovlanıb sönsə də,
Məhəbbət yolunda külə dönsə də,
Yarım inciməsin, əğyar bilməsin.

Razıyam neçə yol dəryaya varım,
Qəvvas tək sulara pənah aparım.
Nə qədər çətinlik olsa da yarım,
Dostlarım sevinsin, düşmən gülməsin.



## *Gərək*

Mərifət əhlindən söz salsaq əgər,
Mərifət insanın özündə gərək.
Su tökməklə quyu su ilə dolmaz,
Su quyunun coşqun gözündə gərək.

Nəsihət etməklə aqil olammaz,
Zərü, sim örtüklə xər rəngin olmaz,
Şəkər qatmaq ilə dil şirin olmaz,
Şirinlik insanın sözündə gərək.

Zahirdə görürsən parlaq qəmərdir,
Bir kəlmə danışsa, sanki zəhərdir.
Xarici gözəllik ömrə kədərdir,
Daxilən gözəllik özündə gərək.

Şərəfdir insanın elmi, kərəmi,
Aradan aparar qüssəni, qəmi.
Elmli olmaq da asandır, vəli,
Ədəbin ziyası gözündə gərək.

İnsaf da, iman da lazımdır bizə,
Nainsaf düşməsin heç cərgəmizə.
Yaraşmaz həyatda əyrilik düzə,
Əziz Pünhan bişə közündə gərək.



## *Gözəl Masallının Mübariz oğlu*

Böyük hünərinlə dastan yaratdın,
Yatmış qeyrətləri ruhən oyatdın,
«Xəzər»lə sahilsiz arzuya çatdın,
Gözəl Masallının Mübariz oğlu,
«Xəzər-Lənkəran»ın mübariz oğlu.

Səndən çox xidmətlər gördü bu Vətən,
Böyük okeanda açmısan yelkən,
Yaşayıb, milləti yaşatmısan sən,
Gözəl Masallının Mübariz oğlu,
«Xəzər-Lənkəran»ın mübariz oğlu.

İdmanda futbolçun çəkmisən zəhmət,
İstərdin ki, sağlam yaşasın millət,
Təbiətindədir bu ali fitrət,
Gözəl Masallının Mübariz oğlu,
«Xəzər-Lənkəran»ın mübariz oğlu.

Ümidsiz kəslərə olmusan pənah,
Xalqın hər dərdindən olmusan agah,
Səni çox xeyirxah yaradıb Allah,
Gözəl Masallının Mübariz oğlu,
«Xəzər-Lənkəran»ın mübariz oğlu.

Gələcəyə yoldur üzündəki nur,
Çünki bu vətənçün ürəyin vurur,
Əziz Pünhan duyur səninlə qürur,
Gözəl Masallının Mübariz oğlu,
«Xəzər-Lənkəran»ın mübariz oğlu.

## *Məni tənha qoyma*

Sənin vurğununam, səndən xəbərsiz,
Sənlə yaşayıram qəmsiz, kədərsiz,
Sənsiz mənə varlığım da xeyirsiz,
Məni tənha qoyma, küsdürmə məni.

Hər gözəl gərdənbənd taxsa yaxşıdır,
Su da öz səmtinə axsa yaxşıdır,
Kişi gözəlliyə baxsa yaxşıdır,
Məni tənha qoyma, küsdürmə məni.

Gözlərinin qarasında itmişəm,
Ürəyinin arasında bitmişəm,
Eşqin səhrasında kama yetmişəm,
Məni tənha qoyma, küsdürmə məni.

Mən Əziz Pünhanam mənə səfa ver,
Əlac et şikəstə qəlbə dəva ver,
Gəlmişəm qapına xeyir-dua ver,
Məni tənha qoyma, küsdürmə məni.



## *Vətən*

Bir tərəfin bağlar, bir yanın dağlar,
Sıldırım qayalar, şirin bulaqlar,
Bir yandan boynunu Xəzər qucaqlar,
Bu yaraşığına heyranam, Vətən,
Hər bir qarışına qurbanam, Vətən.

Hər daşın göylərdən enmiş bir gövhər,
Nadir təbiətin saçır incilər,
Mən doymaram səndən sonsuza qədər,
Sönməz çırağına heyranam, Vətən,
Hər bir qarışına qurbanam, Vətən.

Yüz yaşım da olsa cavanam, cavan,
Cənnətə düşənçün nə vaxt, nə zaman,
Vurğun aşiqinəm, can Azərbaycan,
Uca varlığına heyranam, Vətən,
Hər bir qarışına qurbanam, Vətən.

Mən Əziz Pünhanam, sən nazlı yarım,
Sən şanım, şöhrətim, sən iftixarım,
Sənsiz bu dünyada olmaz qərarım,
Qənirsiz hüsnünə heyranam, Vətən,
Hər bir qarışına qurbanam, Vətən.



## *Gəlinköçmə*

Bir ev yola salır, bir ev gözləyir.
Bu gün göz yaşları sevincdən axır.
Bir ev qarşılayır yeni sakini,
Bir ev övladının ardınca baxır.
Hicran gecikdirir vüsal darıxır.

Ana nəvazişi ata zəhməti,
Mələk tək böyüdüb bir gözəl qızı.
Tale ayıraraq bu məhəbbəti,
Arzudan yaradır başqa bir arzu.
Nur səpməyə gedir bu dan ulduzu.

Ata baxışında qəm var, kədər var,
Hərdən gülümsəyir dosta-tanışa,
Ana ürəyində coşan arzular,
Qıyıq gözlərində dönür yağışa.
Məhəbbət könüldən köçür baxışa.

Elə asan deyil övlad köçürmək,
Sankı can ayrılır öz bədənindən,
Təzə bir gülşəndə açılır çiçək,
Kədər qaçaq düşür sevinc əlindən.
Min alqış ucalır elin dilindən.

Əziz Pünhan deyir: sevin ey ata!
Oğul qazanmısan qız köçürdərək,
Bərəkət Allahdan, xeyir Allahdan,
Biz də canu dildən deyək mübarək.
Daim bu gəncləri bəxtəvər görək.

## *Yaşamaqçün*

Başdan icazə al uzadanda əl,
Sabahı fikirləş qoyanda təməl,
İstəyirsən olsun həyatın gözəl,
Cəhd et qazan, yaxşı ad yaşamaqçün.

Sözün də adın tək qoy olsun təmiz,
Əziz bildiyinçün olarsan əziz,
Qəmlini şad eylə qoyma ümidsiz,
Ətrafı sevindir, şad yaşamaqçün.

Sanma ki, hər yerdə baş olmalısan,
Göz tapsan üstündə qaş olmalısan,
Nə qədər ürəyi daş olmalısan,
Dünyaya yad gəlib, yad yaşamaqçün.

Şəkəri bir anlıq qoyma dilinə,
Yaraşmayan şeyi geymə əyninə,
Eybəcərliyin də bax daxilinə,
Acını da bal tək dad, yaşamaqçün.

Əziz Pünhan deyir sənə bircə söz,
Elə qaş düzəlt ki, kor olmasın göz,
Halallıq mülkünün soyuğuna döz,
Haram işdən alma od, yaşamaqçün.

## *Olmasın*

Oğul, insanlara yaxşılıq öyrət,
Adın yaman dildə yaman olmasın,
Yaxşılıq etməyə bəslə ki, rəğbət,
Pisi düşünməyə zaman olmasın.

Yalan söz ucundan fitnəyə gəlmə,
Uzaqda olanı yaxında bilmə,
Doğmaya nökər ol, yada əyilmə,
Qocalanda belin kaman olmasın.

Öz adına layiq apar özünü,
Həqiqət yolundan çəkmə gözünü,
Qoyma əyri adam kəssin sözünü,
Nadana gərəkdi aman olmasın.

Elin köməyi ol, xalqın səsi ol,
Kimsəsiz insanın yaxın kəsi ol,
Dağlar arasında dağ zirvəsi ol,
Başında qar olsun, duman olmasın.

Əziz Pünhan kimi mərdliklə yaşa,
Sahib ol mərd dosta, sadiq yoldaşa,
Allah verən ömrü elə vur başa,
Ürəyin eşqindən talan olmasın.

## *Nişan günü*
*(Aidə xanıma ithaf)*

Necə xoşbəxt gündür, necə şad gündür,
Qovuşur vüsala ürəklər bu gün.
Gül açıb üzlərdə sevinc anları,
Ətrini artırıb çiçəklər bu gün.

Çəkilir gözlərə həyat naxışı,
Qəlbdən-qəlbə axır sevda baxışı,
Yağır başımıza sevgi yağışı,
Məhəbbətlə əsir küləklər bu gün.

Min arzu bölüşür qonaqlar tək-tək,
Süheylə ürəkdən təbrik deyərək,
Aida xoş günün olsun mübarək,
Söylənir ən şirin diləklər bu gün.

Elə bil birləşir bölük yurdumuz,
Bir mərd qızı alır igid oğlumuz,
Aida günəşdir, Süheyl də ulduz,
Nuru nura qatıb fələklər bu gün.

Əziz Pünhan üçün bu idi niyyət,
Xeyir-dua verə gənclərə əlbət,
Dedim nədən olub yer üzü Cənnət,
Demə göydən enib mələklər bu gün.



## *Milli əsgər*

İncə qəlbim döyünür, qardaşım əsgər gedir.
Dostlar, hamı sevinir, elə xilaskar gedir.
Yeriyir çox vüqarla, qəlbində Vətən eşqi,
Çiynində xırda çanta, arzusuna yetişdi.
Anam kənarda durub oğluna məhzun baxır,
Atamsa gülümsəyir, müştüyə papiros taxır.
Bacılar yanağından yaş axır gilə-gilə,
Sanki yaz yağışıdır, inciləşmişdir belə.
Arxaya dönüb baxır, onu yoldan edən var,
Qardaşın qəlb sirrini fəqət bilər bacılar.
Qucaqladı balasın, nigaran qalma oğul,
Sevgilin qorunacaq, xidmətində sayıq ol.
Ananın ürəyində şaxələnir fikirlər,
Toyunu da görəsən, görə bilərəm məgər.
Xoş-xoş xəyallar ilə sanki ürəyin yeyir,
Görərəm İnşaallah!-Qəlbində dua deyir.
Analar belə olur övladına fədakar,
Qəlbi dolu məhəbbət, varlıqları xilaskar.
Deyir, get uğur olsun, oğul sənə həmişə,
Yolların pambıq olsun, oğul yaşa, min yaşa.
Bir vaxt beşik başında gecələr ana kimi,
Sənə lay-lay demişəm günəş doğana kimi.
Şirin yuxularımı sənə qurban vermişəm.
Həzin laylalarımla həyat dərsin demişəm.
Dodaqlara təbəssüm-gülməyi öyrətmişəm.
Mən sənə sevgi dolu ürəyimi vermişəm.

## *Məktəb xatirələri*

Gənclik illərimiz arxada qaldı,
Çox-çox uzaqlaşdıq keçmişimizdən.
Qayğısız illərdən həsrət də qaldı,
Bir də xatirələr əndişəmizdən.

Nə yaxşı o illər şən, qayğısızdı,
Arada məhəbbət, həm hörmət vardı.
Sevgi də saf idi, lap ləkəsizdi,
Qəlblərdə ülvilik, paklıq yaşardı.

Bir az incisək də bir-birimizdən,
Uşaq hikkəsidi, ötəri şeydi.
Qısa vaxt keçərdi küsməyimizdən,
Tez də barışardıq sanki bir şehdi.

Kübar cəmiyyətin valideynləri,
Tapşırsa da gəzmə filan nəsillə.
Eyninə almazdıq deyilənləri,
Bölərdik tikəni bir-birimizlə.

Qayğısız keçərdi qiymətli illər,
Nə kədər anlardıq, nə dərd bilərdik.
Sürətlə dəyişir aylar, fəsillər,
Hər il yay tətilin arzu edərdik.

Onda tətillərin mənası vardı,
Gözəl düşərgələr, görməli ellər,
Həyatın axarı bizi sarardı.
Alardı qoynuna xəyallı sellər…

Gənclik xəyalları şirin olardı,
Olardı müəllim, ya şair, həkim.
Xəyalən bir qızla həyat qurardı,
Ona qarşı çıxa bilməzdi heç kim.

Yaxşı yadımdadır, artıq yetkindik,
Hərənin qəlbində bir qız yaşardı.
Şirin arzularla yuva tikərdik,
Arzular qəlblərdə aşıb daşardı.

Onsuz da xəyaldı uşaq arzusu,
Ötəri həvəstək ötüb keçərdi.
Həyat məsələsin, evlənmək işin,
Onda valideynlər həll eləyərdi.

Leyli - Məcnun eşqi əfsanə qaldı,
Həyat qəhrəmanı vuruşdu öldü,
Yetkinlik eşqindən bizə nə qaldı?
Həsrət də bir nisgil xatirə oldu.

Səkkizillik, qaynar məktəb həyatı,
Hökmzər olaraq arxada qaldı.
Uşaq evcikləri, uşaq söhbəti,
Həyat dəftərində, boxçada qaldı.

Nəhayət, qurtardı qayğısız illər,
Hərə bir ocağın sakini oldu.
Kiminin qisməti elmi biliklər,
Kimi də bir evin gəlini oldu.

Rakif Müyəssərlə sözündə durdu,
Məhəbbət qəlblərdə əbədiləşdi.
Yaxşı yaşamaqçün qürbətə döndü,
Eldən, obasından bir az gen düşdü.

Sağ olsun Rəfi də Turacla uçdu,
Qoşa qanadlandı eşq səhrasında.
Elmi biliklərdən bir az sovuşdu,
Sevgidən beş aldı el arasında.

Çingiz Niftullayev yaxşı cavandı,
Dərsi bilməzlərə kömək edərdi.
Malik də dərsləri yaxşı bilərdi,
O da uşaqlara hesab deyərdi.

Əliheydər yaman zarafatcıldı,
Hərdən uşaqlara kələk qurardı,
Cabir Lətif oğlu dərsdən qaçardı,
Məmmədağa ona töhmət vurardı.

Allahverdi yazıq çox döyülərdi.
Əzizulla onu tez-tez satardı,
Rafael də yaman xışım gülərdi,
Bayraməli onu qıdıqlayardı.

Mərhum Qəhrəman da yaxşı yazardı,
Hüsnüxətt dərsində ötərdi bizi,
Dəqiq elmlərlə maraqlanardı.
Sanki məzargahdan görərdi bizi…

Dünənin dəcəli, şıltağı indi,
Ailə başçısı, ferma müdiri.
Şaban müəllimdən kötək yeyəndi
Bu günün vəkili, qəzet müxbiri.

Bu taleyin hökmü, öz qismətidir,
Hərə qismətindən payını yeyər.
Dünya axirətlə ortaq zəmidir,
Hər kimsə səy etsə, məqsədə yetər.

Bəli, əzizlərim, 40 ildən sonra,
Bizi görüşdürdü tale qisməti.
Kim bilir, bəlkə də ölümdən sonra,
Qiyamətdə gördük bu cəmiyyəti.

Bəs et, Əziz Pünhan, dostları yorma,
Onsuz da fələyin öz gərdişi var.
Niyə belə oldu, heç kimdən sorma,
Hərənin öz yolu, öz vərdişi var.



## *Torpağın sözü*

Keçirdi böyük Loğman, bir gün qonşu obadan,
Gördü cəm olmuş ora bir dəstə fitnəsatan.
Nə gördü? İki qoca əllərində bel-kürək,
Bir qarış torpaq üçün bir-birini söyərək,
Qızğın söhbət gedirdi onların arasında,
Biri çəpər çəkirdi lap yolun ortasında.
Nə qədər dünyagörmüş adam cəm oldu ora,
Məsləhət gördülər ki, qonşular sakit dura.
Torpağın odlu köksü tapdalandı min kərə.
Haqq- ədalət yolunda batdı qəmə-kədərə.
Əsla qulaq vermirdi qonşular nəsihətə,
Torpaq nalə çəkirdi, dözmürdü əziyyətə.
Böyük Loğman astaca yerə tərəf əyildi,
Sonra qaldırıb başın onlara belə dedi:
Torpaq mənə dedi ki, çatdır sən insanlara,
Halal-haram qanmayan bir para nadanlara.
Nə səninəm, nə onun, dalaşmayın nahaq siz,
Ancaq bunu bilin ki, hər ikiniz mənimsiz.

## *Kəsək daş üçün ağlar*

Göy üzünü bulud aldı,
Hərə bir cür fikrə daldı.
Ot çalmışam qaralacaq,
Kərpiclərim ovulacaq.
Damın üstün örtməmişəm,
Heç hazırlıq görməmişəm.
Yağış yağsa necə olar,
Zəhmətimiz heçə dönər.
Təpə üstə düşmüş kəsək,
Yağış altda şişmiş kəsək.
Haray-həşir qoparırdı,
Ay camaat, kömək edin,
Yalvarırdı.
Yağış yağır,
Qonşum Qəmbər nə olacaq?
Heç şübhəsiz
Yağış altda ovulacaq.



## *Ağıllı düşmən axmaq dostdan yaxşıdır*

Yaxşı demişlər ki, ağıllı düşmən,
Daha faydalıdır bir axmaq dostdan.
Bu haqda çoxları dastan söyləyib,
Nəzmlə, nəsrlə əsərlər deyib.
Mən də istəyirəm həmin mövzudan,
Bir əhvalat deyəm sizə yenidən.
Keçmiş zamanlarda Kufə şəhrində,
Bir şah yaşayırmış sərvət bəhrində.
Talayıb yığmışdı xalqın malını,
Yurdsuz insanların dövlət payını.
Yeddi mərtəbəli bir qəsri varmış,
Yuxarı küşkdə özü yatarmış.
Təmiz saxlamaqçün namusun, arın,
Heç kimə etibar etməzdi yarın.
Bütün dostlarından üz döndərmişdi,
Meymunu insandan sadiq sanmışdı.
Təlim verdirmişdi meymuna ancaq,
Düşmən bildiyinin boynun vuracaq.
Şah öz yatağında yatdığı zaman,
Meymun əldə qılınc durarmış haman.
Oğurluqda mahir ahıl bir kişi,
Həmən o şəhərə düşdü gərdişi.
Çox gəzdi, dolandı bir şey tapmadı,
Gecəni-gündüzü əsla yatmadı.
Xırda oğruluğa o əl qatmazdı,
Xəzinə istərdi, əli çatmazdı.
Üç gecə yer altı qazdı torpağın,
Dördüncü gecədə tapdı sorağın.
Təsadüfən düşdü hərəmxanaya,
Şah yatan otağa həmən xanayə.

Nə gördü, şah yatmış rəxtxabdə,
Meymun əldə qılınc durmuş babdə,
Heyran-heyran baxdı o bu səhnəyə.
Bədəni titrədi düşdü əsməyə.
Elə bu andaca əfi bir ilan,
Şahın sinəsinə sıçradı inan,
Sadiq xilaskar tək meymun durmadan,
Öldürmək istədi ilanı haman.
Lakin oğru düşmən ağıllı çıxdı,
Meymunun əlindən tutub bərk sıxdı.
Çığır-bağır saldı meymun bu zaman,
Öldürdü meymunu vermədən aman.
Sonra da öldürüb əfi ilanı,
Ölüm pəncəsindən aldı Sultanı.
Artıq mat qalmışdı xanım da, şah da,
Qəribə səhnəyə xilaskar yada.
Kimsən? De, nəçisən, aya mələksən?
Ya mənim başıma hazır kələksən?
Hardan sən düşmüsən bu qəsrə aya,
Şeytan girə bilməz bu qəsrə əsla,
Ağıllı düşmənin qorxusu getdi.
Şahın cavabında o təzim etdi:
Şahım, bir oğruyam gəlmişəm ki, mən
Bir az mal götürəm aparam səndən,
Lakin mən çatarkən bandan bu ilan
Sizin sinənizə sıçradı inan.
Elə bunu gördüm sadiq sirdaşın,
Qılıncla ilanın kəssin ta başın...
Amma mən hiss etdim onun zərbindən,
İlanla sizi də bölərdi birdən.
Düşmən olsam belə razı olmaram,
Şah ölsün mən onun malın aparam...
Padşah anladı öz səhvlərini,

Ağlın qiymətini, insan qədrini.
Hikmətli sözləri yadına saldı,
Ağıllı düşməndən payını aldı.
Min ağıllı düşmən olsa gər sənin,
Ehtiyatlı olsan, yaşar bədənin.
Ağılsız insanlar onlardır ancaq,
Dostunu, düşməndən tanımayacaq.
Axmaq dost çalışar yaxşı yol getsin.
Nəticə pislikdir yazıq nə etsin.
Özündən asılı deyil bu işlər,
Ağlı naqis olan, bu cür iş görər.
Axmaq dostlarına bel bağlayanlar,
Özünə heç düşmən axtarmasınlar.
Gəl Əziz Pünhanı yaxşı düş başa,
Ya yaxşı dost qazan ya dostsuz yaşa.



## *Qələm dostum Hacı Niyaza ithaf*

Hacısan, Kəbəni etmisən təvaf,
Müqəddəs olubdur niyyətin, Niyaz,
Paklığa, saflığa can atdın daim,
Sadəlik olubdur zinətin, Niyaz

Sözün etibarlı, dostluğun möhkəm,
Qəmxarın olmusan dost çəkəndə qəm,
İlahi dostluğa olmusan həmdəm,
Bağlıdır qeybə bu fitrətin, Niyaz

Kitab həmdəmindi, qələm sirdaşın,
Hikmətdən ucalıb göylərə başın,
Zəhmət dostun olub, hünər yoldaşın,
Bilmisən həyatın qiymətin, Niyaz.

Əziz Pünhan sənə sadiq dost demiş,
Sədaqət rəmzidir gördüyün hər iş,
Hacı çağrılırdın Həccə getməmiş,
Vüsalə çevrildi həsrətin, Niyaz.



# SATİRA



## *Sərhədsiz tamah*

Qucağa sığışsa dünya, gəl özəlləşdir utanma,
Başüvə düşüb bu xülya, gəl özəlləşdir utanma.

Bir əlinlə qərbi tutdun, bir əlin ilişdi şərqə,
Başuvu uzat şimala, gəl özəlləşdir utanma.

Bakını qəbalə etdin, Şəki də adında qaldı,
Cənubu çəkinmə əsla, gəl özəlləşdir utanma.

Nə əcəb Xəzər dənizin aduva keçirməyirsən,
Baş əyir önündə dərya, gəl özəlləşdir utanma.

Kiçicik əlimdə yer var, onu da gəl, al əlimdən
Baxma dağdı, yoxsa səhra, gəl özəlləşdir utanma.

Kasıba bir az çörək ver, nəyi var zor ilə qəsb et,
Bu işin sayılsın əla, gəl özəlləşdir utanma.

Hava almaq istəyəndə alarıq icazə səndən,
Göyə çıx səmanı çulğa, gəl özəlləşdir utanma.

Qutaranda mülki-dünya, tut üzün Behiştə sarı,
Eliyib Mələklə dəva, gəl özəlləşdir utanma.

Nə Qiyamətə nə dinə nə də məzhəbə inandın,
Harda var məscid – kəlisa, gəl özəlləşdir utanma.

Seyyidin payın mənimsə, üləmanı təhqir eylə,
Naxələfliyə at imza, gəl özəlləşdir utanma.

Nə yazıb Əziz Pünhan, hamısı sənindi sözsüz,
Bu şeir, bu söz, bu misra, gəl özəlləşdir utanma.

## *Bəyan eyləmə*

Kənd məscidi həyətində
şadlıq evi faciəsi

Kirpi lələ, insaf et, sirri əyan eyləmə,
Bir qələt etdim daha bunca bəyan eyləmə.

Məscid üçün çalmışam zurna-qaval il boyu,
Allaha üsyan edib, tost demişəm il boyu,
Sanma gələn pulları tək yemişəm il boyu,
Bir para maymaqları yedirtmişəm il boyu.
Faş eləmə mətləbi, sirri əyan eyləmə,
Bir qələt etdim daha bunca bəyan eyləmə.

İstədim «ağsaqqalı» məsləhətən dindirim,
Məscid həyətində mən şadlıq evi tikdirim?
Şeytanın şərikləri: «tik» dedilər: tikdirim?
Məhv elədim ömrümü, haqqı da qoy, bildirim.
Evimi yıxdım özüm, sirri əyan eyləmə,
Bir qələt etdim daha bunca bəyan eyləmə.

Həccə gedən bir kişi sevinərək ağladı,
Əlin əlimə verib müqavilə bağladı,
Hamamın sökülməsi ürəyimi dağladı,
Arzuma çatdım deyib: hönkür-hönkür ağladı,
Göz yaşını bir daha böylə rəvan eyləmə,
Bir qələt etdim daha bunca bəyan eyləmə.

Məhəllə dəlləyinin keyfi yaman çağladı,
Təbrik edərək məni, bir ağız da ağladı,
Sevinclə çırtıq çalıb boynumu qucaqladı,
Şadlıq evin var olsun, yüz vurub mırçıldadı.
Öz günahındı bala, bəsdi fəqan eyləmə,
Bir qələt etdim daha bunca bəyan eyləmə.

Bələdiyə başqanı, öz «Miri»sini atdı,
Köhnə ədavət üçün guya zəmin yaratdı,
Məscid  dindarlarındı, bizə də zurna çatdı,
Gec də olsa anladım, bunlar da bizi satdı.
Gecdi daha ay bala, ahu-fəqan eyləmə,
Bir qələt etdim daha bunca bəyan eyləmə.

Mən nə biləydim məscid, böylə qəzəb edərmiş,
Tanrı da öz evinin qeyrətini çəkərmiş.
Fırladıban baş-ayaq, on-on beş il verərmiş,
Yetimə pay verən yox, çoxu gəl-gəl deyərmiş,
Boynu bükük qalmışam sirri əyan eyləmə.
Bir qələt etdim daha bunca bəyan eyləmə,
Öz cəzandı çək, bala, ahu-fəqan eyləmə.



## *Sənə nə?*

«Güzgü» qəzetinin
müxbiri Kamriana

A qəzetçi, tutalım, bac alanam mən, sənə nə?
Dövlətim başdan aşır, lap kalanam mən, sənə nə?

Kimdir ol təyin edən üstümə qəyyum səni?
Qaynadıb söz kürəsində, edərəm mum səni,
Fil ayağında dolaşma, edə məğmum səni,
Peşkə tək şah qabağında edəcək şum səni,
Şahimat oynu ilə zövq alanam mən, sənə nə?

Nə olar güzgüdə bir dəfə görəydin özünü,
Düşmüsən çöllərə, tar eyləmisən gündüzünü,
Dikmisən özgələrin malına daim gözünü,
Haq-nahaq, yerli və yersiz döşəyirsən «sözünü»,
Qərəzim var, beləcə od salanam mən, sənə nə?

Kişinin mülkü-mali, dövləti, həm vari olar,
Ad-sanı, şöhrəti, həm namusu, həm arı olar,
Kişi əcdadının, öz nəslinin sərdarı olar,
Hər kimin bunları yox, dərdü-qəmü zarı olar,
Hər kim eşşəkdi, onunçün palanam mən, sənə nə?

Hər kəsə hər nə veribdir, onu Allah verib,
Kiminə yaxşı gözəl səs, kiminə ah verib,
Birinə elm-bilik, mülkilə həm cah verib,
Bala, Kamran, sənə də güzgüyi-gümrah verib,
«Doğru» yollar sənin olsun, yalanam mən, sənə nə?

Sənə bir məsləhətim var, beçəsən, çək əlini,
Xoruzun cənginə gəlmə, kəsər axır dilini,
Banlamaq tezdi sənə, qırmaginən səs telini,
Bir fərə bəsdi sənə, çox gücə salma belini.
Xoruzundur bu toyuqlar, filanam mən, sənə nə?

«Satirik» bir «qəzetin» var, bu da bir nəzm sənə,
Etməli bəlkə toyun var, quraram bəzm sənə,
Başqa məqsəd-məramın var, verərəm cəzm sənə,
Hər zaman arzun ola, təlim edim rəzm sənə,
Tüpik olsan da balam, lap dalanam mən, sənə nə?
Dövlətim başdan aşır, lap kalanam mən, sənə nə?

## *Anlamadın*

Yenə də
Kamrian abiyə

Kamrian, sən bu cahan içrə halal anlamadın.
Dolanıb dəhri nə töhmət, nə məlal anlamadın.

Bir neçə cür qəzetin «müxbiri» oldun deyəsən,
İstəyin qorxu filanla qoparıb pul yeyəsən,
Yenə Zərdablıya lap kölə oldun, gədə sən,
İp salıb boynuva, tainki dalınca gedəsən,
Sən isə mərifətü əqlü kamal anlamadın.

Kölə oldun elə namərdə ki, dinsizdi özü,
Səttar adında o nəsnə, demə, qansızdı düzü,
Baxma Zərdablıdı, bivəchidi, duzsuzdu sözü,
Üç sayında nə yazıbsa, hələ görmürdü gözü,
Adını erməni yazdı, a cühal, anlamadın.

Yazdığı mətləbi bir anla xəbərdar ol sən,
Kimdi Seyyid tanı bu bəhsə xiridar ol sən,
Nəslini lap üzünə söydü ki, hüşyar ol sən,
O dedi, sən də ki, yazdın barı bidar ol sən,
Götürüb boynuva min vizrü-vəbal, anlamadın.

Bir anandan soruşaydın ki, zinakar nəçidir,
Şübhəsiz, qandıracaqdı səni, bəs firqəçidir,
Həcv edibən böyüyə söyləmə ki, zurnaçıdır.
Ona ağ olma, atan çıxsa, yəqin ki, Hacıdır,
Erməni-Kamriansan, a «şağal», anlamadın.

## *Məscid içində toy edəydim*

Bir nadanın
dili ilə

Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Cəbrailü Mikail ilə bir qol açaydım,
İsrafilə sur çaldırıban bir yol açaydım,
Əzrailə şabaş olaraq bir pul ataydım,
Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Səf-səf bu mələklərlə süzüb yallı gedərdim,
Cənnət və Cəhənnəm sözünü milli edərdim,
Mollalara cəm fatihə bir yollu verərdim,
Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Sən söylədiyin Cənnətə qail deyiləm mən,
Ol huri deyirsən ona mail deyiləm mən,
Məfuləm özüm həm dəxi Fail deyiləm mən,
Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Allahın özün oynadaram mən bu Məçiddə,
Varsa gücü qoy ağzımı əysin bu Məçid də,
Bir mərrə yalandır həm özü, həm bu Məçid də,
Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Hər cün burada toy çalınır bir zərər olmur,
Boş sözdü deyirlər ki, qəzəb var, xətər olmur,
Qoy iflic olum daşa dönüm heç betər, olmur,
Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Allah da sevir zurnanı gəl Quranı boşla,
Məsciddə dəxi ağlama gəl şivəni boşla,
Məst ol gecə-gündüz məni tək zurnanı xoşla,
Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Sağlıq ola sahman edəcək Sahibi-Məscid,
Bu dərdlərə dərman edəcək Sahibi-Məscid,
Dinsizlərə divan edəcək Sahibi-Məscid,
Əhd eyləmişəm Məscid içində toy edəydim,
Şeytan ilə bir rəqs eliyib boy-boy edəydim.

Sən də ey Əziz Pünhan elə xalqını dilşad,
Fikr eyləmə bundan sonra könlün olacaq şad,
Bu Türkoba Lut şəhri kimi ya ola bərbad,
Ya da ki, sizin cəddinizə peşkəşü abad,
Nəzr eyləmişəm İslama sahman toy edəydim,
Məscid həyətindən uzağa hoy-hoy edəydim.



## *Bizimkidir*

Beş kişi bir seyidi evsiz qoydu. O münasibətlə «Kəlam» MTK-nın həmsədrləri Hacı Etibar və Fərhad «cənablarına» yaddaş

Dünya sizindi, Cənnəti-rizvan bizimkidir,
Dövlət sizindi, aləmi-irfan bizimkidir.

Siz mal-dövlət aşiqi, biz elm-mərifət,
Siz xadim-dünya, biz isə əhli-şəriət,
Yığdıqlarınız kim bilir aya kimə qismət,
Bəlkə də o evdə nəsə var idi bir hikmət,
Möhnət sizindi, hikməti-Yəzdan bizimkidir.

Səhra dolusu maluz ola doymayar gözüz,
Bakı dolu cəlaluz ola doymayar gözüz,
Şəhla gözə torpaq da dola doymayar gözüz,
Amma bilirəm bunlara əfsus edəcəksiz,
Əfsus sizindi, rahati-vicdan bizimkidir.

Cəddim Peyəmbərə görə yetişir ruzi sizlərə,
Müşkül işində nəzr eləyir xəlq bizlərə,
Bir gün döyəcəksiz əlizi qəmli dizlərə,
Qan yaş ilə bir yerdə dolar nəmli gözlərə,
Utanc sizindi, umdəyi-burhan bizimkidir.

Beşdən birini əmridi seyyidlərə vermək,
Nəinki bir il aldadıb, evdən kənar etmək,
Dəysin başuza xümsü zəkatuz, nə öyünmək?
Yüz Məkkədən üstündü ki  bir qəlb evi tikmək,
Yıxmaq sizindi, qəlbi-firavan bizimkidir.

Mən Mirəziz, siz də ki, Fərhadla Etibar,
Məndə pul əskik oldu, vəli sizdə etibar,
Bu işdə şübhəsiz dolacaq qəlbüzə qubar,
Vicdan evüz narahat olar, orda ədl var,
Həsrət sizindi, rahati-dövran bizimkidir.

Məhşərdə nə cavab verəcəksiz Peyəmbərə?
Düşdüz nə illətə, belə bihudə qəmlərə?
Alicənab şəxs idiz, əfsus sizlərə,
Şeytan başızı tovladı, saldırdı düzlərə,
Vəhşət sizindi, huriyi-qılman bizimkidir.

Sönsün «kəlam»ınız, «kəlam»ı etdiz ittiham,
Aldız əlimdən xanəmi oldu yuxum haram,
Allah sizin evinizi viran edə tamam,
Bundan belə tikintiniz heç etməsin davam,
Şeytan sizindi, Xalıqi-Rəhman bizimkidir.

Dərdimi söylədim sizə, heç etmədi əsər,
Bir gün sizə də qismət olar böylə dərdi-sər,
Qəlbüz yanar dəxi, gözünüz qanlı yaş tökər,
Səbr eylə Əziz Pünhan hərə əkdiyin biçər,
Töhmət sizindi, hakimi-divan bizimkidir.



# *Sizinkidir*

Türkoba kənd məscidinə
hörmətsizlik edənlərə

Səbr eyləmək bizimdi, vəba eyləmək sizin,
Şükr eyləmək bizimdi, cəfa eyləmək sizin,
Sülh eyləmək bizimdi, xəta eyləmək sizin,
Qeyrət bizimdi, nəngü riya eyləmək sizin,
Huri bizimdi, cinn ilə şeytan sizinkidir.

Murdar şeyin yeyilməsi adətdi sizlərə,
Aludə olmusuz dəxi nəhy olmuş işlərə,
Eşşəklə it əti çəkilir gündə şişlərə,
Əlbət cənazəniz olu qismət keşişlərə,
Hörmətlə haqq bizim quru böhtan sizinkidir.

Eşq əhli bizlərik bizə şamildi zovq-şovq,
Ləzzətli pak yeməklərimiz aşla həm toyuq,
Murdarlanıb şərab ilə siz məst biz ayıq,
Elmi-ədəblə kəşfi zamanuq dəxi sayıq,
İman bizimdi, küfr ilə hədyan sizinkidir,

Var kətdə bir kişi qəmə amadədir adı,
Peyğəmbərin adın de, görürsən ki, ağladı,
Vangir edəndə lap elə bil sinə dağladı,
Məsciddə gah namaz qılınır, gah da zurnadı
Məscid bizimdi zurnavu qalyan sizinkidir.

## *«Başqan»*

Fitnə-fəsad carçısına mesaj

«Başqan» bələdiyyə pişiyi şirdən ayırmır,
Bəs ki qocalıbdır qələmi tirdən ayırmır.

Gah kətxuda olmaq həvəsi, gah bələdiyyə,
Toyda tamada heç cavanı pirdən ayırmır.

Heç istəməz idim onu vəsf eyliyəm əsla,
Gördüm ki kişi qaymağı pendirdən ayırmır.

Hərdən oyun oynar ki, bir az parə qazansın,
Qəmdən dolaşır yüz biri on birdən ayırmır.

Nə gəldi əlindən eləyir heç həya etmir,
İpək sapını qap – qara kəndirdən ayırmır.

Məkr ilə bu kəs qardaşı qardaşdan ayırdı,
Əmma bu kələkbaz özünü mirdən ayırmır.

Şeytan ilə çoxdan bu filan həmnişin olmuş,
Qan içmək ilə özünü vampirdən ayırmır.

Sanırki qiyamətdə çıxa bəlkə aradan,
Haqq lövhəsini kirli tabaşirdən ayırmır.

## *Şeytan balası*

Məsçidə hörmətsizlik
edən «xənnas»ə taziyanə

Mahi muhərrəm oldu yenə Kərbəla gəlir,
Amma bizim bu kəndə böyük bir bəla gəlir.

Nöhə deyərsə hər kəs oxur Şümrə lənəti,
Amma Şümrüdü nöhə deyən bərməla gəlir.

Bu Şümrü əhli-kənd tanıyır körpə vəxtidən,
Dindar donunda düşməni-Şah Vila gəlir.

Şümr öldürübdür əsrin imamın qılır namaz,
Səmti xudaya küfrü vəbal, pürbəla gəlir.

Heç qüsli yox, təyəmmümi yox, dəstnəmazı yox,
Amma girir bu məscidə dinsiz vəla gəlir.

Qurban olum bu səbrüvə göstər inayətin,
Məscid bulaşmasın, ora beytül-xəla gəlir.

Şeytan onun əməllərinə heyrət eyləyir,
Bu şeytan oğlu hər yetənə bir səla gəlir.

Bir gün sənin də matəminə əyləşər yəqin,
Dəfnində şəri üçün bu şərə mübtəla gəlir.



## *Əsədulla*

«Həyəcan təbili»
məqaləsinə cavab

Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Sən hara, İslam hara, sən ateissən a kişi,
Allaha qarşı mudam cəng eləyibsən a kişi,
Hansı səmtə yel əsib sən də əsibsən a kişi,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Pula Allahı danıb qeyl ilə-qal eyləmisən,
Bu səbəbdən özünə cah-cəlal eyləmisən,
Elmi - dindən çox uzaqsan, nə xəyal eyləmisən,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Kəsəyi Seyyidə ay bədbəxt atırsan deyəsən,
Kəsəyin daşdı cavabı, a xəbərsiz, biləsən,
Mirəziz olmaq üçün sən dirilib ölməlisən,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Heyf o addan ki, onu isminə nəsb eyləmisən,
Babamın adıdı o, sən onu qəsb eyləmisən,
İşığa kor baxasan haqqımı cəzb eyləmisən,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Sən deyildin ki, necə molladan imdad diləyən?
Təzə pirin qapısında dad-bidad eləyən,
Bir yazıq görkəm ilə bu Ağanı yad eləyən?
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

«Elmi-Dini Şura»nın rəyi sənə verdi çörək,
Yenə İslama sığınmaqla sənə çatdı yemək,
Sataşırsan yenə də seyyidə, mollaya demək,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Bilmirəm hansı ağılla vuruşursan mən ilə,
Səs çıxart, tayını tap, tay deyiləm mən sən ilə,
Seyyidi-alinəsəb heç barışar düşmən ilə,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Yenə mən molla gərək sən kimisin pak eliyəm,
Ağ kəfənçün o qara köynəyini çak eliyəm,
Bir çuxur yerdə səni torpağa xaşak eliyəm,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Hin deyil İslam, hər tülkü gəlib yem götürə,
İslamın nemətini nəhs boğazından ötürə,
Sən təharət nədir öyrən, bulaşıq getmə gora,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Mənsəbə çatmaq üçün İslama gəldin nə əcəb?
Allahı bilməmisən, İslamı bildin nə əcəb?
Şeytana qardaş idin, guya üzüldün nə əcəb?
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.

Mən Əziz Pünhanam, ay naşı sənə söyləyirəm,
Zat-pakımdı müsəlman, buna fəxr eyləyirəm,
Varisəm Əhmədi-Muxtarə səni neyləyirəm,
Əsədulla sayılır İslama dildar, işə bax,
Gözün aydın pak olub guya ki dindar, işə bax.



# BƏHRİ TƏVİL



## *Nə deyirlərsə inan*

Bir zamanlar bu camaat yerini yaxşı tanırdı, günahından utanırdı, bir yalan söz danışanda, yanağı qırmızı rəngə boyanırdı. Var idi çün aramızda ədəb-ərkan və yenə mehri-məhəbbət, hələ irfan, dediyi sözdə camaat, böyüyə həm kiçiyə sadəcə ülfət, aramızda neçə xoş həqqi-səlam, lütf-kəlam iş aşırardı. Yalanı nitqə gətirməzdi və ya hərzə danışmazdı kişi, büsbütün haqq-ədalətdi onun davranışı. Dəyişib dövrü-zəmanə bu da işdir, dura çün xalq arasında deyə böhtan, ola felində və qövlində də Şeytan, verdiyi vədə xilaf, haşalillah, kişi öz vədəsi üstündə verər baş, bu olaydı belə ey kaş, var idi yaxşı qələm sahibi, həm müxbiri ürfanlarımız, adına, şəstinə, həm dəstinə xəlq hörmət edərdi, geyimindən, keçimindən tanınardı, yazdığı nəzmi və ya nəsri divardan da keçərdi, hələ yaddaşlara da həkk olunardı, eşidənlər onu min rəhmət ilə yad eliyərdi. Ki, filan mərdi-zamandı, dəxi sərrafi-süxəndi. Ola Seyyid, sənə rəhmət, dolanaydı fələyin çərxi, edəydi səni əhya. Təzədən bir neçə qərn təhrir edəydin, sən də bir mersedesə bəlkə minəydin, ulağın fərqini ey kaş, biləydin, bu zaman müxbiri-kəzzabilərin halına bir az acıyaydın və həmi zəccə çəkib qəşş eliyəydin. Çağıraydın haraya qiyya ilə Sabiri, Zərdabini kaş ki, görə onlar da xələf beççələrin, ki necə ad-san qazanıblar, necə rekketçi olublar, necə rekord qazanıblar. Biri Səttardı ki, Zərdablı qoyubdur namını, o biri Kamran idi, Kamrian etdi adını, biri kim-kim, birisi həmçi filan, saxta vətəndaş, buna heç növi inanmazdı müsəlman bacı-qardaş.

İndi də lap dəyişib dövri-zəmanə, qalmışıq nadan əlində, kimsə bir dadımıza yetmir, əzizan, nə məsihi, nə müsəlman. Nə deyirsən yapışıb bir sözə artıq; aşikarlıq. Aşikarlıqdı balam, indi geyim söhbəti yoxdur, nə həyavu,

nə nəzakət, nə şərafət. Mədəniyyət də ki, lap eyni həqarət, yer üzü sırf cəhalət.

İndi əlbəttə zəmanə dəyişibdir, o səbəbdən işimiz tərsələşibdir. İstəsən iş görəsən, tap bir-iki arsız adam, etmə səlam, kəsmə kəlam. Ola onlarda bu xislət, ağzıgöyçək, sözü gerçək, etmə xiffət, qoy düşüb o qapıya-bu qapıya, hay-küy edib iş aşıra.

Dəxi sən ver pulunu, ta yetəsən kamına, həm məqsədinə. Amma unutma, bu işin axırı yoxdur, necə ki, əvvəli yoxdur, möhnəti, dərdi-qəmi, zilləti çoxdur. Belə getməz. Gələcək sahibi-dövran, vuracaqdır əlini ustola, bəsdir deyəcək, bir bu qədər səbr elədik, milləti verdik ayağa. Gəldi hər yoldan ötən, xəlqin adından çıxış etdi, adını düz deyə bilmir, qələmi düz tuta bilmir, nə üçün qalxıb ayağa özü bilmir, salıb ardınca yazıq milləti hara aparır, lap düzü bilmir, dini İslamın adından danışır, heç dini bilmir. A müsəlman, bir ayıl, hər sözə ləbbeyk demə, hər kimin verdiyini alma, yemə, sənin axır özünə xas yeməyin var, başqa bir tayifənin paltarını geymə, sənin öz geyimin var.

Var bizim yaxşı, ağıllı, dünyagörmüş, fələyin dərdi-qəmindən cana gəlmiş mətin insanlarımız, rəhbəri-irfanlarımız, məktəbimiz, Quranımız, onlara qurban canımız.

İndi o dövrü-zəmanə deyil, insan silaha qurşanıban cəng eliyə, sağalan dərdi şişirdə onu xərçəng eliyə, indi bu dövrdə qüdrətli silah sözdü, kəlamdı, dəxi təmkin ilə səbr, həm də zəka, əqlidi qardaş. Dimmə, qoy əhli-zəka məsləhətin versin, a yoldaş. Başbilənlər qabağa düşsün, aşırsın işi bir baş. Ancaq onda bu müsəlman qutarar dərdi bəladan, bu cəfadan.

Lakin hərc-mərclik olan dövrdə bir şey bilirəm ki, desələr ağcaqanad taksi sürür, ya ki, uçur fil, tez inan, milçəyin var motoru, eyləmə bəhs. Qarğa bülbül tək oxur, eylə həvəs. Sən də otur bir qulaq as. A gözü yaşlı, başı

daşlı, müsəlman. Desələr Kamrian müxbir olub millət üçün dərd çəkir, heç də təəccüb eyləmə, onu əl ermənisi kimi qəbul eylə, tərəddüd eləmə. Hələ Malik də deyirlər bir ətək dollar ilə alver edib, çün alıb «Meridian» adlı kiçik mətbu nəşir, salıb aləmlərə boş hayü-həşir. Bəs ki, həmkarı Hüseynlə vuruşub, qan tutub, huşu gedib, ağlı çaşıb. Möhnətə dərdə düşüb, hər ikisi qulağından ilişib. Bu da bir növi qədərdi, iki əbləh görüşüb...

Sənə qardaş, dəxi bir məsləhətim var: desələr oğru Nuruş molla olub, üç eləmə. Bu da mümkündü, inan , həmçinin təhsil alıbdır Asiman, icma qurub, ücb eləmə, sən də inan. Axı bir milləti ki, məscid həyətində toy etsin, çalıban zurna-qaval həm də şərab-zəhrimar içsin, məst layəğəl olub sonra da məscidə tüpürsün. Şübhəsiz ki, belə xalqın icma quranı Asiman olsun. Bu böyük dərd-ələmdir, dəxi millət!

Nə zaman sən qurtararsan bu bəladan, belə bir cövrü-cəfadan, millətin mollası, axundu nədən təhqir olunsun. Nədən ağsaqqalı alçatmaq üçün tədbir olunsun. Nə üçün gündə qəzetlərdə yazılsın. O da güzgü təki bir parça kağızda yazı olsun. Niyə çılpaq madamlarla qoşa əksini versin, anasın qız gəlinin lüt-üryan etsin. Dəxi qaynaq yerin göstəribən, barmaq uzatsın, sonra da qızlarına götərərək lap da öyünsün. Axı bu, qeyrətiniz, namusunuzdur, üryan etdikləriniz öz ananız, öz bacınizdır, lap elə öz qızınızdır... Erməni-moltəni etmüb bu qələtdən, Kamrian bu nə rəzalət? Xəlq edər çün sənə nifrət, deyəcək min dəfə lənət, yenə lənət, yenə lənət...

Müxtəsər xətm kəlamdır. Qalmısam mat-məəttəl: hara getməkdədi millət, danaraq kimliyini əldə edər hər cürə zillət, eləyər şeytana xidmət, nə rəzalət, bu yatan xalq oyanar ruzi-qiyamət, deyəcək, ah nə həsrət, yenə həsrət və məlamət və nədamət və rəzalət...

## *Aşiq*

Eşidin cümlə xəlaiq mənəm aşiq, oturub yar ilə hərdəm qururam sirli min aləm, edirik kəşfi vüsali oluruq sevgiyə hali, nədi cədvəl, nədi qanun, qovuşub vəslidə Leyla ilə Məcnun, dəmi vəhdətdə görüb xeyli əlamət, edərik vəslə ibadət, çəkirik ruhə gecə məlhəmi, yoxdur qəmi bir aşiq əgər yarə yetişsə, nari vəslət ilə bişsə, basaraq ağuşə qiymətli bir inci, çevirib dərdə sevinci, eləyər qüssələri şad, həm özü qüssədən azad, həmi dildarına imdad, budur aləmdə məhəbbət, dolu qəlbin gecələr çəkdiyi şövqu, yaşasanda məni duyduqca bu zövqu, elə bir qüvvə verib bəxtimə Allah, çıxarıb hər cürə qəmdən məni, səhvim də olanda eləyib nəfsimi islah, ki təmiz pak nəfəsimlə yetişəm bəzmi vüsalə, bu gözəl dilbəri kamil eləməkçün, yetirib haqq məni nalani kəmalə, ölərəm qalsam əgər bir gecə həsrət o cəmalə, nə vəfadır nə cəfadır nə rəvadır ki tapa qəm məni ey yar, bu qədər olma inadkar, səni gözlər qara gözlər, sənə aiddi bu sözlər, çıxarıb cismu canımdan, ayırıb gözdə qanımdan, edirəm hüsnünə ithaf, oluram eşqinə sərraf, məni-nalana bu bəsdir ki, bu hicran ötəcəkdir, və bu həsrət bitəcəkdir, bu ümidlər, ürəyim bəxtim üçün yazdığı vədlər, gələcək günlərimin nuru ziyasi, soyunub bir gecə candan yenə qəm dolu libasi, gecənin bəxtimə yandırdığı ulduzlara doğru uçacaq can, tapacaq dərdimə dərman, edəcək könlümə töhfə, o qəmərüzlü yarı Qadiri Sübhan, mənə olmazmı səadət çırağında qovuşum atəşə pərvanə misalı, çevirib haqqa məni həbs eliyə xofu xəyalı, bu Əziz Pünhana həsrət qəmi batmaz, nə rəqibin əli çatmaz, bu məhəbbətlə yaşar o, əksi təqdirdə onu qəlbi yaşatmaz...

# AİLƏ İTHAFLARI



## *Sümnaz*

Həyat yoldaşım
Sümnaz xanıma ithaf

Əlli ildir qaranlığı yarırsan,
İsmət işığısan elimə Sümnaz.
Sevinc bölənimsən, dərd bölənimsən,
Zivər adın gəlir dilimə Sümnaz.

Beş övlad böyütdün boylu-buxunlu,
Özün tək üç qızın xanım-xatunlu.
İki igid oğlan qeyrət toxumlu,
Yaxşı bağban oldun gülümə Sümnaz.

Ömür boyu mənim sirdaşım oldun,
Həm ana, həm bacı, qardaşım oldun.
Çox möhnətlər çəkdin, qəm daşım oldun,
Həyansan ayıma, ilimə Sümnaz.

Övladdan nəvədən qismət payın var,
Dövlətdən dəvən var, hikmət payın var,
El-oba içində haqq sayın var,
Göhərdir dediyin kəlimə Sümnaz.

Əlli yaş ömrünün ilkin çağıdır,
Cavanlığın gözəl, yetgin çağıdır,
Kamillik zirvəsi gəlin çağıdır,
Yenidən ver əlin əlimə Sümnaz.



## *Seyidyar*

Böyük oğlum Seyidyara
35 yaşı münasibətilə

Babamın adını sənə vermişəm,
Seyidlərin seyyidisən, Seyidyar.
Soy kökümsən, gözüm sənə tikmişəm,
Övladların igidisən, Seyidyar.

Babam tək İslamın Haqq yolundasan,
Adın tək pak oldun, Haqq yolunda sən.
Hörmətlə dolandın Haqq yolunda sən,
Yaxşı bildin hər işi sən, Seyidyar.

Otuz beş yaşına yazdım bu mədhi,
Otuz beş yaş ömrün sevinc, fərəhi.
Ömrün boyu şirin, şərbət qədəhi,
Əldə saxla, mərd kişisən, Seyidyar.

Eşitmədim səndən heç bir şikayət,
Gördüm səndə vüqar, mərdlik, inayət.
Həmişə hamıya etdin dəyanət,
Ailədə fərd kişisən, Seyidyar.



# *Səid*

Oğlum Hacı
Səidə ad günü münasibətilə

Zirvəyə ucalıb sən pillə-pillə,
Yenə il başına yetirsən, Səid,
Yaşının üstünə yaş gəlir yenə,
Uca məqamlara çatırsan, Səid.

Üç onluq ömrünə gözəl rəqəmdir,
Üç otuz yaşına əzəl təməldir,
Doxsandan ötməyin özəl əməldir,
Salehlər zümrəsin ötərsən, Səid.

Çalış hər gün gözəl işlər görəsən,
Atana, anana hörmət edəsən,
Bacı qardaşdan da yan ötməyəsən,
Həyat yoldaşını sevərsən, Səid.

Zivər qız balana qardaş gərəkdir,
Qeyrətli bir oğul, sirdaş gərəkdir,
Namuslu arvada yoldaş gərəkdir,
Bu fikrə hər zaman düşərsən, Səid.

Dünyada hər nə var keçib gedəndir,
Pul da, şan-şöhrətdə demə hədərdir,
Atana bənzə ki, qeyrət çəkəndir,
Əziz Pünhan kimi edərsən, Səid.



## *Nuriyyə*

Böyük qızım Nuriyyə xanıma
38 yaşı münasibətilə

Buxara şəhrində aldım sorağın,
Bir körpə doğulub sanki huriyyə.
Mübarəkdir bu gəlişin, növrağın,
Adını da özüm qoydum, Nuriyyə.

Qayıdarkən səni oturan gördüm,
İməkliyən gördüm, oturan gördüm,
Bir anda qucağa atılan gördüm,
Tanıdın atanı, güldün Nuriyyə.

Böyüdükcə fərəh verdin qəlbimə,
Kamalınla işıq saçdın təbimə,
Anasan, həm gözəl bir müəllimə,
Həyatda yaxşı iz qoydun Nuriyyə.

Üç övlad böyütdün nazını çəkdin,
Həyat bağçasında üç gül becərtdin,
Eldə, ailədə yaxşılıq əkdin,
Həmişə gözü tox oldun Nuriyyə.

Nərmin balan günəş, Qəmər də aydır,
Aydan isə bədirlənmiş bir aydır,
İşıqlı qəlbdə qış yazdır, yaydır,
Hər bir halda sevinc duydun Nuriyyə.

Otuz səkkiz yaşın mübarək olsun,
Qoy Gülviyyə üçün bir örnək olsun,
Hüsniyyə bacın da sevincək olsun,
Bacılara dayaq durdun Nuriyyə.



## *Gülviyyə*

Qızım Gülviyyə
xanıma ithaf

Həyatda gül-çiçək kimi pak oldun,
Ömür sürdün saf niyyətlə Gülviyyə.
Qədirbilən hər bir işdə saf oldun,
Baş ucaltdın ləyaqətlə Gülviyyə.

Qönçələr çevrildi gülə əlindən,
Qürbət çəkdin, uzaq oldun elindən.
Narazı qalmadın həyat yolundan,
Hörmət tapdın dəyanətlə Gülviyyə.

Anamdan öyrəndin səbri, dözümü,
Çətin gündə qəbul etdin sözümü.
Moskva şəhrindən odlu közümü,
Gətirdin o sədaqətlə Gülviyyə.

Ceyhun balan Eminlə qoşalaşdı,
Günel qızın əvvəl rusi danışdı.
Şükr Allaha axır ki, talışlaşdı,
Vətən dedi, cəsarətlə Gülviyyə.



## *Hüsniyyə*

Qızım Hüsniyyə
xanıma ithaf

Adın tək öz hüsnün, gözəlliyin var,
Ağıl kəmalına heyran Hüsniyyə.
Ədəbdə-ərkanda özəlliyin var,
Günəş cəmalına heyran, Hüsniyyə.

Hərçənd həyatında kədər-qəm oldu,
Gözlərin hicrandan çox vaxt nəm oldu.
Gah səsin ucaldı, gah da bəm oldu,
Güc gəlmədi sənə şeytan, Hüsniyyə.

Orxan kimi igid oğul böyütdün,
Möhnəti, kədəri onla uyutdun,
Səbrlə sən çətin günü unutdun,
Ağla verdin geniş meydan, Hüsniyyə.

Qeyrət simvolusan gənclik çağından,
Oğul yetirmisən mərdlik bağından,
Gecələr sübhədək ürək yağından,
Orxana yedirtdin, giryan, Hüsniyyə.

Qoy, Orxan bu rəmzi özü anlasın,
Kişi olsun, haqqı -düzü anlasın,
Demirəm dərd çəksin, sözü anlasın.
Şadlığla keçirtsin dövran, Hüsniyyə.

# *Mirismayıl*

Nəvəm
Mirismayıla ithaf

Ey cismidəki canım, növrəstə Mirismayıl,
Hər dərdlərə dərmanım, şayəstə Mirismayıl.

Şadəm ki gəlişinlə, bizləri xuram etdin,
Ey sevgili övladım, xocəstə Mirismayıl.

Adınla ucal, oğlum, baban kimi sən mərd ol,
Şöhrət qazan elm içrə, pabəstə Mirismayıl.

Ardınca çağır gəlsin, bir seyyid əmoğlunu,
Mirəsgər adın dərhal, peyvəstə Mirismayıl.

Nuriyyə bibinçün də bir nər dilə Allahdan,
Onlarda da üç qızdır,güldəstə Mirismayıl.

Gərçe hərəsi nərdir, qeyrətli hünərməndlər,
Lakin bir oğul istər, sərdəstə Mirismayıl.

Nəzr eylədim Abbasə, bir qoç edərəm qurban,
Etsin qəbul Allahım, ol şəstə Mirismayıl.

Orxan bibioğlun da tək qalmasın aləmdə,
Qorxan da deyil əsla boybəstə Mirismayıl.

Mətləbli qəzəl yazdım ad gününə, ey Seyyid,
Ümmidlə Əziz Pünhan, sən istə Mirismayıl,

# *Fatimə*

Nəvəm Fatimə
xanıma ithaf

Yaşının üstünə yaş gələ-gələ,
Bənzəyirsən bir ulduza, Fatimə,
Dodaq açılmamış qönça bir gülə,
Gəlməyəsən yaman gözə, Fatimə.

El-obada gəzsin yaxşı sözlərin,
Gözəli olasan sən gözəllərin,
Ahu baxışlıdır ala gözlərin,
Gözlərin gəlməsin gözə, Fatimə.

Görüm səni arzü-kama çatasan,
Sağlam böyüyəsən yüz il yaşa sən,
Səbr ilə çox müşgülləri aşasan,
Çətinliyə dözə-dözə, Fatimə.

Tale yollarında büdrəməyəsən,
Ağılla, kamalla həyat sürəsən,
«Fatimə» tək iffət-ismət biləsən,
Tuş gəlmə heç böhtan sözə, Fatimə.

Əziz Pünhan deyər böyü babalı,
Bacı qardaşınla ata-analı,
Bibi, xala, əmin böyük analı,
Sevdiklərin çıxsın üzə, Fatimə.



## *Anamsan mənim*

Səlmixanım nəvəmin
ad gününə ithaf

Altı yaşda sənə təbrikə gəldim,
Səlmixanım balam, anamsan mənim.
Anamın adıyla mən birgə gəldim,
Səlmixanım balam, anamsan mənim.

Anam qədər ömür sürüb şən yaşa,
Səadətlə gözəl ömürlən yaşa.
Bacı qardaşınla yaşa, şən yaşa,
Səlmixanım balam, anamsan mənim.

Zil qara saçların bir tamaşadır,
Xəncər tək qaşların ayla qoşadır.
Qaragöz şeytanım həyat yaşadır,
Səlmixanım balam, anamsan mənim.

Əziz Pünhan baban yazdı bu şeiri,
Təravət gətirən, yazdı bu şeiri.
Səni vəsf etməyə azdı bu şeiri,
Səlmixanım balam, anamsan mənim.



# *İlahi*

Gəlinlərimə
söz çələngi

Gəlinlər evlərin yaraşığıdır,
Gəlinsiz olmasın ocaq, İlahi.
Gəlin tamarzıdır, göz işığıdır,
Boş olmasın onda qucaq, İlahi.

Şükr Allaha ocaq çıraqban oldu,
Hərə öz bağına bir bağban oldu,
Baxça çiçəkləndi gülüstan oldu,
Çiçək dərsin qucaq-qucaq, İlahi.

Tərifə gəlinlik bağçasın əkdi,
Rəvanə su verdi çəpərin çəkdi,
Gözəllikdə hərə özəldi, təkdi,
Dərdü qəmdən olsun uzağ, İlahi.

Zivər xanım şirin-şəkər nəvədir,
Dodaq qönçə saçlar qara şəvədir,
Dövlət dəvə övladda da nəvədir,
Ona qardaş eylə qonaq, İlahi.

Əziz Pünhan, fidanların göyərdi,
Sən oğlan istədin, Allah qız verdi,
Peyğəmbər də qız uşağın sevərdi,
Kaş taleyi ola parlaq, İlahi.

# ESSELƏR



## *Bulud ağlamasa*

Heç zaman sənə ağlama demərəm, çünki mənim varlığım sənin ağlamağındadır. Mən sənin könül bağçanda bitmişəm, çoxsaylı illərinin məhsuluyam. Mənim üçün fəsillərin heç bir əhəmiyyəti yoxdur. Ayazlı, şaxtalı anlarda belə, o, gülzar öz təravətindədir. O gülzar fəqət könül bağçasında bitir, orada qorunur. O bağçanın ətri süzgün baxış yollarından, göz kasəsinin şor suyundan – mirvari bulağından qoxunur. O qoxunu heç kim, hətta sənin yanında olanlar belə əsla duymazlar. O qoxu məhəbbət gülünün ətridir. O yalnız öz sahibinə məxsusdur. Onun özünə məxsus kodu var. Fərq etməz gülüm, harada, nə zaman o gülzarı suvarsan ancaq və ancaq öz sahibini tapar, onu məmnun edər. Axı bulud ağlamasa çəmən yaşıl olmaz...

Mən deməzdim sən qəmlənmə, sən qəmlənəndə mən var oluram. Çünki ürək qəmlə yanmasa onda məhəbbət olmaz, o yanmalıdır. O yananda mən giləlenirəm, axı gülün suyuna gülab deyirlər. Mən gülab ikən ancaq bir yolum var, o ala gözlərdən süzülüb gəlməliyəm. O inci gilələr adi göz yaşları deyil, onlar gözlərdən axan könüldə çəkilmiş gülabdır. Hər dəfə ağlayanda sən özün də xoşhal olub, sevinməlisən. Amma istəməzdim məni kağız dəsmallara hopdurasan. O gülab gilələrini məni mənə qaytarmaq üçün fəqət zərif barmaqlarınla götür, onsuzda mən yenidən buludlaşıb bağçaya qayıtmalıyam. Axı başqa yerim yoxdur...



## *Biri var idi…*

Nağıllar həmişə belə başlayar, biri var idi, biri yox...

Sonu da belə qurtarar, göydən üç alma düşdü...

Uşaqlıqda ən çox sevdiyim sözlər bunlar idi. Amma nə edim ki, nənəm nağıl deməyi xoşlamazdı. O, çox vaxt məni ayaqlarının üstünə uzadıb, lay-lay çalar, bayatılar deyər, ayaqlarını yellədə-yellədə məni yuxuya verərdi. Doğrudur, bunlar mən anlayan zamandan xatirimdə qalıb. Ondan qabaq necə edərdi, məni necə yuxuya verərdi yadımda deyil. Amma biri var idi, biri yox idi sözü həmişə mənim xoşladığım, sevdiyim və ona həsrət qaldığım nağıllar idi...

Bəli, o var idi və bir gün mən olmayanda o da olmayacaq, deyəcəklər biri var idi, yoxdur indi.

Onsuz da həyat başdan-başa nağıldır. O vaxt eşidə bilmədiyim, görüb duya bilmədiyim gözəllikləri, bu gün həyatımın mənalı çağında əldə edə bildim. Bu nağıl öz-özlüyündə yarandı. Bilmirəm, bu alın yazısı idi, yoxsa qismət. Axır ki, biri var idi. O var, indi də var, sabah da olacaq. Heç şübhəsiz o var mənimlə həmişəlik son mənzilə - axirət aləminə köçəcək. Hələ bilinmir, bəlkə də Cənnət dediyimiz, bizə vəd olunan Axirət aləmində də mənimlə əbədiləşəcək o var. Adətən nağılları uşaqlar üçün deyirlər. Sən demə böyüklərin nağılı daha şirin, daha mənalı olurmuş. O nağıl yuxudan insan ayılmaq istəməzmiş. Gördükcə, görmək istəyərmiş. Bəzən müxtəlif maneələr yuxunu pozmaq istəsə belə, adam gözlərini açmaq istəmir, elə bilir ki, ardını görə bilər. Lakin buna heyifslənmək lazım deyil. Çünki bu uşaq nağılı deyil, bu hər gün danışılan, yaşanan ağıllı və mənalı bir həyat macərasıdır. Bu gözəllik mücəssəməsi fəqət gözləri oxşamaq üçün deyil. Bu həm də həyatın özüdür ki, var. Bu nağılda

bütün gözəlliklər mövcuddur. Bu nağılda Məlikməmməd olub divlərlə dərin quyularda vuruşmağa ehtiyac yoxdur. Burada nağılın qəhramanı ilə bir yerdə olmaq, oturub söhbət etmək, deyib-gülməyə də ehtiyac yoxdur. Onların görüşləri mənəviyyat aləmində baş verir. Bu görüşün müəyyən bir vaxtı da yoxdur. O nəinki hər gün, bəlkə də ardı-arası kəsilmədən, vaxt ölçüsü kəsiyində - bütün anlarda baş verir. Bu nağıl sözün əsl mənasında bütövlükdə sonu görünməyən həqiqi bir eşqdir. Mən inanmıram hər kəsin həyatında belə bir şirin nağıl ola. Amma nə yaxşı ki, mənim nağılım var, biri var…

Biri var sözü nağıl dili də olsa, bu gün mənim həyatımın reallığıdır. Biri var və onun varlığı mənim varlığımı qoruyur. Mənim varlığım onun varlığındadır. Nağıllarda deyilən divin canı şüşədədir məfhumu sanki mənə aiddir. Mənim canım, ruhum, onun ruhunda - biri var şüşəsindədir. Amandır, o şüşəyə dəyməyin. Qoy “...biri var idi...” olmasın.

İndi artıq nənəm də yoxdur, mənə nağıl danışsın. Bu gün məni hər gecə biri var yuxuya verir, səhərlər də öz məlahətli səsi ilə oyadır. Biri var...

# *Qönçəm*

Sübh tezdən gül bağçasına girdim. Şeh qonmuş qönçəyə yaxınlaşdım. Məni görcək açılmaq istədi, bacarmadı. Çünki onun açılması üçün zaman lazım idi. Məgər qönçə nə vaxt istədi açıla bilərmi? Mənim isə onu gözləməyə səbrim yox idi. Nigarım üçün gül butəsi aparmalı idim. Hansı gülə yaxınlaşdımsa xəcalətindən boynunu büküb qaldı. Artıq gecənin qaranlığı səhərin işığı ilə barışmaqda idi. Zaman da daralırdı. Elə bil daxilimdə gizlənən güclü zəka seli imdadıma çatdı. Sükutun səsi ilə ürəyimə pıçıldadı. Axı qönçə üçün (məcazi qönçə) bir neçə saatlıq ömrü olan qönçə aparmaq, həqiqi qönçəni incitmək deyildimi? Səhərin qapıları açılmaqda idi. Özümü çətinliklə də olsa nigarın məqdəminə yetirdim. O ahu kimi ətrafa boylanırdı. Çox qədim bir bayatı ilə qönçənin qönçə dodaqlarını açmağa müvəffəq oldum;

***Əzizim güldən gözəl,***
***Gül gözəl, güldan gözəl.***
***Gül gəlib gül almağa,***
***Gül alan güldən gözəl.***

Bunu demişdim ki, qönçə dodaqlara təbəssüm qondu. Reyhan xəttində mərcanların işığı səhəri öz nuruna qərq etdi...



## *Çiçəklə suyun hekayəsi…*

Günlərin birində Çiçəklə Su qarşılaşırlar. Onlar tanış olub dostlaşırlar. İlk öncə dostluqları çox gözəl davam edirdi. Təbii ki, bir-birilərini yaxşı tanımaları üçün müəyyən zamana ehtiyac var idi. Zaman keçdikcə Çiçəyin qəlb döyüntüləri artır və Suya aşiq olduğunu anlayırdı. Onun sevinci çöhrəsində hiss olunurdu. İlk dəfə aşiq olan Çiçək ətrafa gözəl ətirlər saçır və deyir: «Yalnız sənin üçün, ey Su»! Elə bir zaman gəlir ki, Suyun da qəlbində Çiçəyə qarşı ülvi hisslər baş qaldırır. O da Çiçəyə aşiq olduğunu anlayır. Su da ilk dəfə aşiq olurdu.

Günlər və aylar bir-birilərini qovarkən Çiçək «görəsən su məni sevirmi?»-deyə öz-özünə düşünməyə başlayır. Çünki Su çox da öz sevgisini Çiçək üçün biruzə vermirdi… halbuki, Çiçək alışmışdı belə bir sevgiyə və onsuz dayanmağa taqəti yox idi. Bir gün Çiçək özünü saxlaya bilmir və Suya «Səni sevirəm» - deyir. Su, «Mən də səni seviriəm».

Aradan uzun bir zaman keçir. Çiçək yenə «Səni sevirəm»-deyir. Su, «Mən də səni»-deyə cavab verir.

Bir neçə müddətdən sonra Çiçək təkrarən Suya, «Səni çox sevirəm» – deyir. Su da cavabında: «Mən də»…

Çiçək səbirli olsa da dözmür və artıq ətrafa gözəl ətirlər saçmır. Və son dəfə Suya «Səni sevirəm»-deyir. Su da ona adəti üzrə «dedim axı mən də səni»-deyə cavab verir. Günlər, aylar keçir… bir gün Çiçək elə xəstələnir ki, ayağa belə qalxa bilmir. Xəstə Çiçəyin rəngi solur, çöhrəsi saralır. Su da Çiçəyin başının üstündə dayanıb, gözləyir. Hər zaman kömək etmək istəyir sevgilisinə…

Artıq Çiçək ölüm təhlükəsi ilə üzləşir. Və son dəfə çətinliklə də olsa başını qaldıraraq Suya «Mən səni həqiqətən də sevirəm»-deyir. Su çox kədərlənir və həkim ça-

ğırır. Çiçəyi müayinə edən həkim xəstənin vəziyyətinin ümidsiz olduğunu bildirir…

Su kədərli halda, «Sevgilimin ölümünə səbəb nədir»?-deyə həkimdən soruşur. Həkim əvvəl Suyun üzünə baxır və sonra deyir: «Çiçəyin bir xəstəliyi yoxdur dostum, Çiçək sadəcə Susuz qalmış, ölümü də onun üçündür»…





# SƏADƏT GÜNƏŞİ

* * *

Günəş, sən nə qədər yaraşıqlısan,
Günəş, sən nə qədər gür işıqlısan.
Sənsən kainata gözəllik verən,
Sənsən ruhumuza dirilik verən.
Əgər sən olmasan, həyat solacaq,
Dünya həmişəlik zülmət olacaq.
Səndə həm nur vardır, həm də hərarət,
Nurunla dünyaya gəlib səadət.
Sənin eşqin ilə çarpar hər ürək,
Sənsən hər insana, həyata gərək.
Səninlə açılır səhərin gözü,
Səninlə başlanır səhərin özü.
Əgər asimanda olmasan bir an,
Yolunu itirib dayanar zaman.
Bütün varlıq sənsiz yox olacaqdır,
Bu dünya kimsəsiz tək qalacaqdır.
İnsanlar, bitgilər,quşlar da olmaz
Canlı-cansız, adi daşlar da olmaz.
Gözə görünməyən kicik zərrələr,
Kainatda nə var – yerlər və köylər.
Səni həyat bilib, səni gözləyir,
Ey Günəş, bizlərdən ayrılma deyir.
Sənsən körpələrin çevinci Günəş
Sənsən həyat üçün bir inci Günəş.
Payız gizlətmişdi  görmürdük səni,
Buludlar örtmuşdu parlaq çöhrəni.
İşığın üzünə qalmışdıq həsrət
Günəşi məhbəsə salmışdı zülmət…

***

1990 - 20 yanvar,
Cahanı Günəşə qoyub intizar,
Qapqara buludlar örtdü Günəşi,
Nə bir nuru qaldı, nə bir atəşi.
O təslim olmadı qaranlıqlara,
Qoymadı köksünü zülmətlər yara.
Nə qədər qaranlıq olsa da gecə,
İtir, yoxa dönür Günəş gəlincə.
Qüdrətin itirmir İlahi işıq,
O həm nur saçandır, həm də yaraşıq.
Quzğun sürüsü tək bir axın bulud,
Zərif şüalara qoymadı ümid.
Bu gözəl işığın üstünü aldı,
Şüalar buluddan asılı qaldı.
Boğulurdu məkan, donmuşdu zaman,
Kömək lazım idi, kömək əl-əman.
Ağbirçək analar, qoca atalar,
Fürsəti fövt etməz aqil babalar.
Elliklə insanlar ayağa qalxdı,
Döşünə Gönəşinin nişanın taxdı.
Oğul-qızlarına kömək verdilər,
Vətən oğulları döyüşürdülər.
Göz-gözü görmürdü qaranlıq, zülmət,
Hərtərəf yoxsulluq, aclıq, səfalət.
Neçə min qurbanlar verdi bu Vətən,
Neçə min qəhrəman yetirdi həmən.
Vətən oğulları canını verdi,
Bu meydan ərənlər, ərlər yetirdi.
Ölüm anaların oğlunu aldı,
Neçə-neçə bacı qardaşsız qaldı.
Övlad həsrət qaldı ata üzünə,
Xoş nəvazişinə, şirin sözünə…

***

Döşünə döyürdü lap açıq-aşkar,
Deyirdi bu xalqa unut Günəşi.
Sanırdı qolunda böyük qüvvə var,
Məsxərə edirdi bulud Günəşi.
Gəlini ərindən etdi bu bulud,
Neçə min sevgini beşikdə boğdu.
Sevgili yarını yardan ayırdı,
Analar körpəsin səngərdə doğdu.
İnsanı ayırdı arzularından,
Dünyanı qaranlıq zülmətə saldı.
Neçə il göy üzün bulud bürüdü,
Qüssə, qəm çoxaldı, sevinc azaldı.
Neçə il gülmədi anamın üzü,
Üzündən təbəssüm silinmiş kimi.
Qara zülmət oldu dünyanın üzü,
Sanki pərdələndi, yox imiş kimi.
Qurban istəyirdi amansız zülmət,
Getdikcə aprtırdı onun tələbi.
Əsla körpələrə etməz mərhəmət,
Qurbandan doymurdu o mənfur qəlbi.
Yorula bilməzdi döyüşən Günəş,
Qurbanlar verdikcə sinə gərirdi.
O işıq yolçusu, şəfəq yolçusu,
Qara buludların köksün yarırdı.
Xeyli qurban verdi odlar diyarı,
Təki Günəş qalxsın taxt-tacına.
Günəş hərarəti, Günəş kölgəsi,
Yetişsin xalqının ehtiyacına.
Neçə min ağbirçək qoca ananın,
Yaş dolu gözləri yola dikildi.
Nə qədər ümidsiz qoca nənələr,
Bala məzarını mənzili bildi.

Neçə min cavanın Vətən yolunda,
Qəlbində ən ülvi arzusu getdi.
Bəzisi könüllü, bəzi könülsüz,
Ağlar qoyub dostun, yarın tərk etdi.
Kimisi təzəcə yara yetişmiş,
Ayrılıq dərdiylə alışdı getdi.
Bəzisi qəlbində ağlayırdısa,
Lakin simasında iftixar getdi.
Çoxları həyatın dad ləzzətini,
Dadmamış həyatdan intizar getdi.
Xeyli ziyan çəkdi bu ana torpaq,
Vətən itki Verdi həddən ziyadə.
Vətən oğulları sinə gərdilər,
Minlərlə süvari, min-min piyada.
Gözümün önünə gəlir surətlər,
Afaq, Qüdrət, İdris bir də Ehtiram.
Nail, Niyaməddin, Ramil, Mübariz,
Siyasət tək oğul tutmadı aram.
Ənvər, Anar, Şöhrət, Natiq və Səttar,
Elşad Ağayev tək nə qədər qoçaq.
Bəxtiyar, Fərasət, İnqilab, Qeysər,
Dedilər bu Vətən azad olacaq.
Üç il heç susmadı bu qəhrəmanlar,
Erməni qəlbinə sancdı yaralar.
Vətən oğulları igid aslanlar,
Düşmənin köksünü etdi tarımar.
Tanklardan aramsız mərmi atıldı,
Erməni bağrını yardı Elşadım.
Qəhrəmanlar sırasına qatıldı,
Tarixə adını yazdı Elşadım.
Yüzlərlə Elşad tək qəhrəmanlara,
Vətən aşiqləri qoşdu dastanlar,
Əmək cəbhəsində incə xanımlar.

Ərlərin yerini boş qoymadılar,
Çırpınıb işlərdi ana-bacılar.
Dəzgah arxasında yaralı quş tək,
Varlığını sarmış ağrı-acılar.
Ürəklərdə arzu qəlblərdə istək,
Yorulmuş bir halda qayıdır evə.
Cavan bir gəlinin yanında uşaq,
Bəs atam hardadır soruşur yenə.
Ağappaq bənizi xəstə bir uşaq,
Doğrayır ananın qəlbini kədər.
Bir söz deyə bilmir cavab tapmayır,
Nə desin körpəyə yazıq dərbədər.
Laylalar desə də uşaq yatmayır,
Ancaq bunu deyir ağlama balam.
Tezliklə qayıdar cəbhədən atan,
Mənim noğul balam, mənim qənd balam.
Bizi qovuşdurar Ulu Yaradan,
Nə bu ana təkdir, nə də bu körpə.
Min belə analar körpələr vardır,
Cavabı olmayan çox sual varmış.
Nə qədər bu dərddə ölkələr vardır,
Divardan asılmış ikicə şəkil.
Yan-yana, gülümsər halda çəkilmiş,
Dörd yanın bəzəyir naxışlı əklil.
Elə bil həyatdan çoxdan köç etmiş,
Həsrətlə baxaraq o şəkillərə.
Ana hər saatda göz yaşı tökür,
Hardasız balalar qurban sizlərə.
Heç xəbər tutursuz ana nə çəkir?
Nişanlın yolunu gözləyir Ənvər.
Niyə səs vermirsən o gül yarına,
Kaş ki, dəyməyəydi sənə bir xətər.
Tale qıymayaydı növbaharına,

Görən hansı zalım sənə qəsd etdi.
Cavab ver səsimə uzaq diyardan,
Söylə kim qanına səni qərq etdi?
Niyə qorumadı səni Yaradan?
Kim aldı başını öz dizi üstə,
Kim sildi üzünün qanını söylə,
Eşitdim qardaşın dizləri üstə,
Canını tapşırdın sən gülə-gülə…

***

Səhərdir, üfüqdə Günəş görünür,
Açır düyünlənmiş hörüklərini,
Xəzərin qoynunda sanki yuyunur,
Qırpır Qana batmış kirpiklərini,
Yeni təravətlə gəlir görüşə,
Aşiqlər müntəzir yolunu gözlər.
Hər bir aşiqinə naz-qəmzə satır,
O odlu baxışlar, atəşin gözlər.
Darayır zülfünü nəsim mehləri,
Sığal çəkir ona Vətən səması.
Azərbaycan Günəşi ilə canlanır,
Göydən yerə enir haqqın ziyası.
Bəli, pis günlərin ömrü az olar,
Sağalar Vətənin ürək yarası.
Asanlıqlar çətinlikdən doğular,
Tapılar tezliklə dərdin davası…

***

Hər zülmət gecdənin bir səhəri var,
Çətin gündə gəldi böyük xilaskar.
Gəldi bu ellərin xilaskar oğlu,
Sanki Çənlibelə döndü Koroğlu.

Heydər Əliyev tək böyük sərkərdə,
Heç vaxt əyilmədi kədərə-dərdə,
Yetişdi xalqını xilas etməyə,
Dahilər dar gündə yetir köməyə.
O xalqa sığındı, xalq Heydər dedi,
Dədə Qorqud kimi məsləhət verdi,
Qəlblərə həkk oldu onun sevgisi.
Fəth etdi qəlbləri hər bir kəlməsi,
Bütün xalq bu zaman ayağa qalxdı,
Hamı bu işığın səmtinə axdı…

***

Günəşli bir gündür bayramsayağı,
Məhəbbət odunda gənclik yanırdı.
İstirahət günü Heydər bağında,
Sevinc dəniz kimi dalğalanırdı.
Dodaqlarda gülüş, qəlblərdə sevgi,
Cüt-cüt dolapnırdı bağda cavanlar.
Qaynar ürəklərdə cavanlıq şövqi,
Dillərdə xoş sözlər, incə baxışlar.
Körpənin qolundan tutub bir qadın,
Gündüzüm səsləyib çağırır adın.
Körpənin gözündən sevinc tökülür,
Körpə həyatılə gülür öyünür.
Günəş sayəsində həyat qaynaşır,
Gündüzə necə də Günəş yaraşır.
Günəş azadlıqdır, Günəş həyatdır,
Günəş səadətdir, sevgi, büsatdır.
Günəş bəxtiyarlıq, bolluq deməkdir,
Günəş kainatı qucan ürəkdir.
Gündüzlər Günəşsiz olmasın bir an,
Heç həsrət qalmasın Günəşə insan…

***

İki nur ayrılıb parlaq Günəşdən,
Birisi İlhamdır, biri Mehriban.
Sevinc güllərindən don geyib Vətən,
Sən necə xoşbəxtsən, can Azərbaycan.
İlham bu Vətəni qurub, yaradır,
Böyüyür, bəzənir kəndlər, şəhərlər.
Dünyanı yuxudan sanki oyadır,
İlhamlı günəşlə doğan səhərlər.
Sonsuz məhəbbətlə coşan insanlar,
«Yaşa, sağ ol»-deyir prezidentinə.
Bu gın sıralanan bu qələbələr,
Dönər Qarabağın zəfər lentinə.
Mehriban xanımın sözü, əməyi,
Göylərə qaldırır mədəniyyəti.
Bu böyük xanımın böyük ürəyi,
Qoruyur daima elmi, sənəti.
Şəfəqlərlə dolub Vətən göyləri,
Xalqa hərarətdir odu-atəşi.
Hələ nurlandırar çox əsrləri,
Səadət Günəşi, həyat Günəşi.



## *Sözardı*

**Bismihi Təala...**

**Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir!..**

*(Əl-Hədid surəsi, ayə 3)*

Həmdu sənalar olsun bütün aləmlərin yaradanı mərhəmətlilərin Ən mərhəmətlisi olan qadir Allaha ki, ömrümün qırx ilində qələmə aldığım əsərləri «Divan» şəklində geniş oxucu kütləsinə təqdim etməyə imkan tapdım.

Həmdu sənalar olsun həyatın Banisi və bəşərin Hadisi olan Qəffar Allaha ki, Şərq ədəbiyyatının sahili görünməz ümmanında Hacı Mirəziz Seyidzadə (Əziz Pünhan) imzası ilə təlatüm yaradan dalğalar var.

Həmdu sənalar olsun axirətdə pənahımız və son ümidimiz olan mehriban Allaha ki, klassik ədəbiyyatın incisi sayılan «Divan» ədəbiyyatına mən də öz töhfəmi verə bildim.

İnşaallah ki, dünyada oxucuların məhəbbəti axirətdə cəddi-büzurguvarımın şəfaəti üzümü ağ edər.

Vəssalamu əleykum və rəhmətullahi vəbərakatu.



# Lüğət

## A

- Asi – günahkar
- Ariz – sonradan gəlmə
- Ayət – dəlil,sübut.

## B

- Barani-rəhmət – rəhmət yağışı
- Bəha- qiymət.
- Bica – yersiz
- Bad – yel, külək
- Beytül-Hərim – Kəbə evi
- Bənd – bağlamaq
- Badi-səba – səba yeli.
- Bab – qapı.
- Bican – cansız.
- Burcu-əla – uca burc.
- Batini-ayati-Quran – Quran ayələrinin batini
- Burhan – sübut.
- Binəva – köməksiz, səfil.

## C

- Cud-Səxavət.
- Cinah –sağ, sol, tərəf.
- Cuyi-çeşm – gözün axarı.
- Comərd-igid.
- Camə – libas.
- Can – yarə deyilən xüsusi ifadə
- Cəbri-təfviz – Məzhəb əqidələri.
- Cila- sığal.
- Cəbrail əmin- Vəhy mələyi.
- Cövrü-məlamət –əzab, danlaq

### Ç

- Çahi zənəxdan – çənəaltı.
- Çəmxəm – hiyləgər (naz-qəmzə)
- Çeşm –göz.

### D

- Daru-nədar – olan olmaz.
- Dərd-qübar – qəm-qüssə.
- Dibac – Həzrət Peyğəmbərin dəvəsinin adı
- Damən – ətək.
- Dəhr –dünya.
- Dərban –qapıçı.
- Dilruba- ürəkaparan, sevimli.
- Damən – ətək.
- Duri –qəltan, qırmızı boyanmış ləl (parlaq).

### Ə

- Əyyhəssaqi – Ey su paylayan (ey saqi)
- Əğzanüm Əli – Sizin aranızda ən yaxşı qazi – hakim Əlidir.
- Əğyar – düşmən, yad
- Ərzan – ucuz
- Əyan – aşikar.
- Əda-vermək, ödəmək.
- Ərş müəlla- göyün son qatı.
- Ərəz – sonradan gəlmə
- Əbru – qaş.
- Ələst – xilqətdən öncə, zərrə aləmində ruhlarla olan əhdi peyman
- Ələm – qəm-qüssə.

### F

- Filcənnəti nəhrun ləbən – (İnnə filcənnəti nəhrun min ləban, şeirindin) Cənnətdə süddən olan arx
- Fəraq-ayrılıq
- Fəttan – çox fitnəli.

## G

- Gərdənbənd – boyunbağı.
- Guli-əhmər – qırmızı gül.
- Gümşüdə – itmiş.
- Gülü-ülyayi-Sübhan. Allahın ali gülü

## H

- Hicri-cəmal – yarı görməkdən uzaq olmaq (hicran).
- Hudhud-şanapipik.
- Həyyu-Əhəd- Allahın adları (Oyaq, Diri, Yeganə)
- Həşr-Kubra- Böyük Qiyamət.
- Həmkuff – tay, bərabər
- Həmnişin – yoldaş
- Hadi – yol göstərən.
- Həl Əta – Quranda surə adıdır. (76-ci surə, İnsan)

## X

- Xeyrənnisa- Fatimeyi-Zəhranın ləqəbidir. Qadınların Ən yaxşısı.
- Xuld- Cənnət, daimi behişt.
- Xaliqi Cabbar – Allah-Təalanın adı.
- Xaksar – torpağa düşmüş
- Xəlil – İbrahim peyğəmbərin ləqəbidir.
- Xoşxəbər-şadxəbər.
- Xuban – gözəllər.
- Xədəng- ox.

## İ

- İnnəma – Quran ayəsidir (Maidə surəsi, 55-ci ayə)
- İsmail –Peyğəmbər.
- İdraki-Bəşər - Bəşərin dərk etməsi.
- İrfan – ariflik, Allahtanımaya aid elm.
- İsna-əşəri – 12-ci imamçı.
- İstibah – xəta, səhf

## K

- Kərrar-təkrar döyüşən, arxa çevirməyən (İmam Əlinin ləqəbi)
- Kan- Mədən.
- Kulli ma səva – Allahdan başqa bütün nə varsa.
- Kaşanə- yuva.
- Kəşdi – gəmi.
- Kazib – yalançı.
- Kənar –qucaq.
- Kəbud –göy.
- Kizbu-riya – yalan, riya.
- Kəmtər-aciz

## Q

- Qubari qüssə – Qüssə tozu (dərd-qəm)
- Qadirü-Qəhhar – Allah-Təlanın adlarıdır.
- Qəbalə – sənəd
- Qəsidə – şeir forması
- Qulam – xidmətçi.

## L

- Ləhəd – Qəbir içindəki yer
- Lalərux – lalə üzlü
- Ləmyəşə, ləm yəkun – Allah istəməsə olmaz (Quran ayəsidir)
- Ləmyəzəl- Allah-Təalının adıdır (əbədi)

## M

- Müstəcəb –qəbul olunmuş.
- Məhparə- ay parçası.
- Mahiliqa- ayüzlü.
- Munsi - dost.
- Məh – ay.
- Məhi-taban – işıqlı ay.
- Mah-cəbin – alnı ay kimi.
- Murq-quş.
- Morqi-səadət – Səadət quşu.
- Mən kanə muhibbən fid dunya ləhim – hər kim dünyada onları (Əhli-Beyti) sevsə

- Məzhər – aşkar olunmuş
- Məbhut – heyran
- Müntəzir – intizar çəkən
- Mərəz- xəstəlik
- Müşgül – çətin.
- Müztər – çarəsiz
- Mahi-ənvər – işıqlı ay.
- Mötədil – orta səviyyə
- Mudam – həmişə, daim

## N

- Nakəs - pis adam.
- Nüzul – Enmə (göydən gələn)
- Nar - od
- Navuki-mijgan – kipriyin ucu.

## O

- Ovcu-təcəlla- ən işıqlı məqam, cilvələnmə zirvəsi

## P

- Pa- ayaq.
- Peyğam – xəbər
- Peyam – bax: peyğam
- Purbəha- qiymətli.
- Peymanə – mey içilən qab (piyalə).
- Pişnəmaz – namazda qabaqda dayanan (İmam)
- Purbəha – qiymətli.
- Pünhan – gizli.

## R

- Rəxtxab – yataq taxtı.
- Riştə – ip
- Rəşg-paxıllıq.
- Raz – sirr.
- Rux – uz
- Rəhnuma – yol göstərən.

**S**

- Sail-dilənçi.
- Sipər – qalxan.
- Siməvəllah – and olsun Allaha.
- Səza - layiq
- Səmərə – bəhrə, meyvə
- Siql – ağırlıq
- Sərtapa – başdan ayağa
- Sud – mənfəət.
- Sürahi-gərdan – uzun boyunlu
- Saqiyi-kövsər – Kövsər hovuzunun su paylayanı, mədət qıl, kömək et, ya Əliyyəl Mürtəza – ey Mürtəza Əli (qəzəlin bir misrası)
- Sar – qırğı, şahin
- Seyd – ov.
- Sirri-Xuda- Allahın sirri.

**Ş**

- Şəfiül muznibin – günahkarlara şəfaət edən
- Şəbnəm – Gecə şehi.
- Şayan – layiq.
- Şəbi yelda- yelda gecəsi (Qışın Ən uzun və qaranlıq gecəsi)
- Şanə – daraq.
- Şahi-Mərdan – Kişilərin şahı. İmam Əlinin (ə) ləqəbidir.
- Şəhd – bal
- Şahi-Vila – İmam Əlinin ləqəbidir.
- Şiri-Xuda- Allahın Şiri (İmam Əlinin ləqəbi)

**T**

- Tul – uzun
- Tənnaz – gözəlliyə işarə (nazlı bədən)
- Tumar – siyahı kağızı (bükülmüş)
- Tərəhhüm – rəhm etmək
- Təzad – ziddiyyət
- Türreyi-tərrar – (burada) oğru tellər, qarət edən tellər, (gözəlin üzünə düşən qıvrım tel)

- Təthir – Quranda ayə, paklıq, (Əhzab surəsi, ayə 33)
- Tuba - Cənnətdə ağacdır (Tuba ağacı)
- Tuyur – quşlar
- Tulağa – azad olmuş (burada nökər)

**U**

- Uduni – Quran ayəsidir, Məni çağırın.
- Uşşaq – aşiqlər
- Usul – qaidə (burada)

**Ü**

- Ümmi-əbiha – atasının anası, Fatimeyi Zəhranın ləqəbi
- Ülfət - mehribançılıq

**V**

- Vəslət – birləşmə.
- Vəcaəl-Həqq – Quran ayəsi, Haqq gəldi... (İsra sürəsi, ayə 81)
- Vəli – lakin
- Vəla tənsani fi yövmil cəza – Qiyamət günündə məni unutma
- Vəchullah-12-ci imama işarədir (Allahın üzü)

**Y**

- Yahu – Ey Allah.
- Yavmu-Qədr – Qədir xum günü
- Yezdan – Allah-Təalanın adı (fars dilində)
- Yədxulil-Cənnəh – Behiştə daxi olar

**Z**

- Zülcəlal – Allaha aiddir (Cəlal sahibi)
- Zövcə- arvad, həyat yoldaşı
- Zülf- suç (Yəsrib əhalisi Həzrət Peyğəmbərin saçının gözəlliyinə görə onu «Zülf» deyə çağırırdılar)
- Zəru sim – qızıl, gümüş
- Zivər –bəzək.
- Zülfi-mişkin – qara saç.
- Züvvar – ziyarətçilər.

# MÜNDƏRİCAT

Əziz Pünhanın «Divan»ı, oxucuların «divan»ı .......... 3
Heyranı olduğum alim – şair .......... 9
«Ver sözə ehya ki…» .......... 16
Əruz-Qəzəl .......... 29
Dibaçə .......... 33
**QƏZƏLLƏR .......... 35**
Əyyuhəssaqi vəla tənsani fi yomil cəza .......... 36
Sənsən aləmdə mənim dövlətu varım, ay anna .......... 38
Övlada arxa, dayaq, gücdür, cəsarətdir ata .......... 39
Görüm ol şəxsi yana dost deyən dilin oduna .......... 40
Zülfün qara, gözün qara, al üzdə xal qara .......... 41
Qəlbimdə olan nur, nar olur sənsiz olanda .......... 42
Gözəlim, hər kəsin eşqilə xuraman olma .......... 43
Hanı ol nazlı sənəm ki, gələ dil, can apara .......... 44
Yar bilir dünya mənimçün bir yana, yar bir yana .......... 45
Dəyməsəydi qədəmin sevgili can İstisuya .......... 46
Ey fələk, sən elə dərdimə bir dəva,
xoşdu ki, yardan ta gələ min cəfa .......... 47
Vardır bu qəmli sinədə çox yaram, ey təbib .......... 48
Bu məhbubə kimin yarı,kimin cananəsi ya Rəbb? .......... 49
Neylim ki, o vəfalı gözəl bəndədən küsüb .......... 50
Yetməsin bədnəzər ol mahiliqayə, ya Rəbb .......... 51
Qəlbim xiyali-vəsli-ruxi-can ilən dolub .......... 52
Nə qədər fikr edirəm tapmayıram dərdə əlac .......... 53
Ver saqi, tünd badə ilə məclisə rəvac .......... 54
O zülfi-mişkin əgər bir gün eyləyə məni şad .......... 55
Eşq içrə mənə tay deyil qüvvədə Fərhad .......... 56
Bu qədər könlümə verməzdi əziyyət tale .......... 57
Yenə mehmanım idi yari-mehriban bu gecə .......... 58
Çoxdur fərqim ey təbib, sən gördüyün bimar ilə .......... 59
Qara tellərdən hər noi cəfa gəlsə, qəbul eylə .......... 60
Necə də vəfalı candır, dolaşır bu can içində .......... 61
Yar yenə dəvət edib, canını, canan evinə .......... 62
Var xalqım üçün hər cürə imkan vətənimdə .......... 63
Qovuşub can evinə can ilə canan bu gecə .......... 64
Qara zülfünlə o rüxsari nihan etmə belə .......... 65
Dərdi-cananı basıb bağrıma dərman yerinə .......... 66

Ey verən zövqu səfa ilə şirin canı mənə ..........................................67
Gəldi yaz, güllər açıldı, mənsə biyarəm hələ ....................................68
Gəzdim vüsalın üçün dünyanı incə-incə ............................................69
Allahın əmridi ki, etsin hər insan tövbə ............................................70
Yar ilə dün elədim Kəbəyi-Ülyani təvaf ............................................71
Kəc nigah ilə baxıb vurma mənə yarə, qəşəng ..................................72
Mən də xiyali-yar ilə çox etmişəm günah ..........................................73
Gen düşdü əlim yarın əlindən, Siməvallah.........................................74
Səbr elə, həqq bizə yar olar, İnşaallah ...............................................75
Gizlətmə gül camalını məndən Xudaya bax........................................76
Oldum camalu hüsnünə heyran talış qızı ...........................................77
On dörd yaşında gördüm qaymaqdodaq nigarı ..................................78
Ey gül, mənə səndən də cəfakar yenə varmı.......................................79
Can kimi istərəm səni, yandırma canımı .............................................80
Yar lütf edə bir busə yanaqdan, nə olar ki ..........................................81
Ya Rəbb, yenə bülbül nə əcəb fəqanə gəldi .........................................82
Nə qədər sən kimi bir qönçə dəhanım yox idi .....................................83
Dilbəra, oğrun baxırsan rəm görən ahu kimi.......................................84
Gözəlim, şux baxışın könlümü nalan elədi...........................................85
Şükr lillah ki, yenə yar məni yad elədi ................................................86
Yan eyləmə məndən gülüzari, səni Tari...............................................87
Qurbanam torpağına, sevmişəm ilkin Vətəni.......................................88
Kimdi bu afəti-dövran məni heyran elədi ............................................89
Sən kimi heç gözəli sevməmişəm vallahi.............................................90
Yenə yarın nəfəsi mişk rəvan eyləyəcək ..............................................91
Qəm eyləmə, gözəlim, dərdü qəm də qalmayacaq .............................92
Yetmiyə bəd nəzər ol yarıma ey kaş könül..........................................93
Olma bu qədər yarına bietina gözəl .....................................................94
Sən də mənim kimi dəli-divanəsən, gözəl ............................................95
Bu gecə yarım ilə xəlvəti Minada idim.................................................96
Naz et mənə ey gül, dəxi tədbir nə lazım?............................................97
Bir gözəl mahi-cəbinin dəli-divanəsiyəm .............................................98
Daim sənilən olmağa göz-qaşın olaydım..............................................99
Xali-siyəhi çün ruxi-cananda gördüm ..................................................100
Diyari- eşqidə hər aşiqi dərdə düşər gördüm .......................................101
Sənin eşqində yaman dərdilə möhnət çəkirəm ......................................102
Bir muyi-səri dilbəri dünyaya verməərəm ..............................................103
Baxaraq bəsirət ilə özümü gözündə gördüm..........................................104
Əhrimənlər yenə qoymur məni canana yetəm ........................................105

Sən tək gözəl gəlibmi bu dövrana, sevgilim....................................106
Etmiş bu zar könlümü viranə gözlərin..............................................107
Nə ola dost əziz - bir də bizi yad eləsin.............................................108
Sevir məni bilirəm sirli macərasından...............................................109
Sevindir sən məni ya Rəb ki, can canana yar olsun .............................110
Həmişə istərəm yarım mənimlə həmnişin olsun..............................111
Soruşdum ol nigardan adın nədir, dedi Cahan...............................112
Adətdi ki, zülfi-siyəhə şanə dolaşsın ................................................113
Qəmim göz yaşlarımdan qorxuram ki, aşikar olsun..............................114
Bəstə boyunla naz satırsan, bir az dayan........................................115
Dolanım başına ey gul, dedi, pərvanəmisən?.....................................116
Sən mənim qəlbimdəki ülviyyətimsən, ey Vətən.............................117
Mənə bu eşqi verən tacidara şükr olsun ............................................118
İstərəm yarım mənə qəm dolu hicran verməsin ..............................119
Yar verməsə gər eşqimə qiymət, özü bilsin .......................................120
Künc qəfəsdə xalu ləbu yara baxginən...............................................121
Könül, canan sevən aşiq gərək canından əl çəksin...............................122
Rəvadur atəşi-hicrün məni-bimarı yandırsın?..................................123
Can sözün çox etmə təkrar, ismi-pünhanımdır o............................124
Ey səba, aləmi gəz, mən təki bir aşiq tap...........................................125
Bir gözələ vurulmuşam, sanki ceyran balasıdır ..............................126
Sevgili dildar nədən pünhan gəlib, pünhan gedər..........................127
Səba, nigarımın ətrin alıb, bu yanə gətir...........................................128
Hər aşiqin əlində bir eşqin tənabı var ................................................129
Yenə ürəkdəki eşqim haray çəkər, ucalar........................................130
Alırsan canımı gəl al, vəleykən bir üzün göstər...............................131
Qəm etməzdim, sanırdım ki, vəfalı bir nigarım var.............................132
Günəş batsa da qəm çəkməm ki, ay üzlü nigarım var.................................133
Bilməm nədəndi yar yenə yarın incidir.............................................134
Yarım bərabərində məgər sərvinaz olur ..........................................135
Ol can dediyin töhfəyi - şahanə sənindir..........................................136
Yar incidir məni, yenə bilməm nə fikri var?....................................137
Bütün aləmdə sənin tək güli-əhmər yoxdur.....................................138
Məni biçarəyə badi-səbadən bir xəbər göndər .................................139
Sevir məni deyə bilmir, görən daha nəsi var....................................140
Sübh əsdikcə səba zülf ruxi yarə dəyər .............................................141
Bədrlənmiş ay kimi seyrə ki, ol hura çıxar ........................................142
Neçə müddətdi ki, fəryadımı ol “Can” eşidir..................................143
«Can» üçün sevgili yar söhbətinin ləzzəti var .................................144

Yetiş ey yar mənə, gəl elə bu canı xilas ........................................145
Geymişəm mən xeyli müddətdir ki, hicrandan libas..........................146
Sevilmək özgə bir aləm, vəli sevmək müsibətmiş..........................147
Səni eşq içrə dərdimə dəva sandım, bəlasənmış ............................148
Şıltaqlıq etmə eşqidə ilqardan danış ................................................149
Hərdən de naz ilə mənə bir can, yavaş-yavaş...............................150
Gün keçdi, könül, gəl gecəni fikru xəyal et ...................................151
Zülfün törədib cümlə bu dünyada qiyamət.....................................152
Novruz gecəsi çeşmi-tərim ləli-nab oldu.........................................153
Edib aşiqləri min şövqilə heyran, ahu.............................................154
Kim eşqə əsir oldu, əhvalı yaman oldu ...........................................155
Qəmini gəl sinədə qanı axan yarada yu ..........................................156
Məcnun kimi eşqin yoluna kim bələd oldu ....................................157
Nazlı yara təsir etməz, aşiqi-nalan sözü .........................................158
Bəhri-eşq içrə tutar qəlbimi yar, atsa tilov .....................................159
Bir təbiətdən gələn qüvvətdi hər insana çay ...................................160
Könül lövhində çəkdim yar şəklin, heç zaman getməz.......................................161
Əzizəm, eylərəm, sevdiyim insanı əziz............................................162
Maili ləli-ləbin kim olsa dövran istəməz..........................................163
Əlbəttə ki, eşq aləmi əfsanəsiz olmaz ..............................................164
Gələ bilsəydik əgər bir qərara hər ikimiz........................................165
Nə lazımdır mənə bağu bahar, ey güluzar sənsiz...........................166
Aşiqin min dərdi olsa, çərx dərman eyləməz...................................167
O nur saçan üzünə ay desəm günah olmaz......................................168
Allaha pənah etmədədir «Can» gecə-gündüz..................................169
Gözlərin ol nərgizi-şəhlaya eylər etiraz............................................170
**QƏSİDƏLƏR ......................................................................................... 171**
Merac..........................................................................................................173
Mövla Əlinin (ə) doğum günü münasibətilə...................................177
Mövla Əlinin (ə) şəninə mədh..........................................................179
Mövla Əlinin (ə) şəhadət gününə .....................................................180
Fatimeyi Zəhra ..........................................................................................181
İmam Cəfəri-Sadiq mövludu.............................................................185
12-ci imamın (ə.c) mövludu münasibətilə........................................186
12-ci imamın (ə.c) intizarında ............................................................187
Bibiheybət .................................................................................................188
Azərbaycan memarı................................................................................. 190
Ümummilli Lider Heydər Əliyevin ad günü münasibətilə..............192
Şeyxül-İslam..............................................................................................194

Mövlana Cəlaləddin Rumiyə ithaf....................................................195
Namaz..............................................................................................196
Ramazan ..........................................................................................197
Füzuli İrfan məclisi münasibətilə.....................................................199
Ramiz Mehdiyevə ithaf.....................................................................201
Anarın ad gününə.............................................................................202
Mərhum Hacı Mail dostluğu............................................................203
Osman Xocanın Bakıya gəlişi münasibətilə....................................205
Ramiz Əzizbəylinin 60 illiyinə.........................................................207
Qardaşım Mübariz Məmmədova ithaf..............................................208
Ərəstun Mübariz oğlunun ad günü münasibətilə...........................209
Dostum, el ağsaqqalı, Hacı Fəttaha ithaf.......................................210
Dostum Hacı Madərə ithaf...............................................................211
Dostum Səmədin ad günü münasibətilə..........................................212
Dostum şair Hacı Arif Buzovnalıya ithaf.......................................213
Eloğlum Hacı Vüsalın ad günü münasibətilə..................................214
Dostum Hacı Tofiqə.........................................................................215
Hacı Mirhaşım Talışlının 75 illiyinə................................................216
Hacı Mirhaşım Talışlının 80 illiyinə................................................218
Dostum Hacı Möhlətə ithaf.............................................................219
Ayaz Vəfalıya ithaf...........................................................................220
Hacı Fərasət dostuma ithaf..............................................................221
Hacı Rüfətə ad günü münasibətilə...................................................222
Vaqif Yusifliyə 60 yaşı münasibətilə...............................................223
Oğayatın anma gününə.....................................................................224
Musarza Mirzəyevin 50 illiyinə.......................................................225
Kəlam ...............................................................................................226
Ədalət ...............................................................................................228
**QİTƏLƏR....................................................................................... 229**
**RÜBAİLƏR VƏ DÖRDLÜKLƏR....................................................235**
**MÜSTƏZADLAR..............................................................................247**
**MÜRƏBBE.......................................................................................253**
**MÜXƏMMƏS.................................................................................. 259**
**MÜSƏDDƏS.....................................................................................265**
Mövla Əliyə (ə) Qədir-Xum günü münasibətilə ........................... 267
**MÜSƏBBE...................................................................................... 281**
**TƏRCİBƏND...................................................................................285**
**TƏRKİBBƏND................................................................................ 289**
**MÜƏŞŞƏR...................................................................................... 293**

**TƏXMİSLƏR** ........ **297**
Füzuliyə təxmis ........ 299
Füzuliyə təxmis ........ 300
Seyid Əzim Şirvaniyə təxmis ........ 301
Seyid Əzim Şirvaniyə təxmis ........ 303
Molla Rza Sərrafa təxmis ........ 304
**BEYTLƏR** ........ **307**
**MÜXTƏLİF ŞEİRLƏR VƏ QOŞMALAR** ........ **313**
Ay ana ........ 315
Səni Azərbaycan unutmaz ........ 316
Tarixdə yanan alov ........ 318
Bayrağın adı Heydər ........ 320
İki düha vəhdəti ........ 321
İlhamlı Azərbaycan ........ 323
Mehriban xanım ........ 324
İşıqlı gələcək ........ 325
Bülüd ağlasa ........ 326
Qoy bulud ağlasın ........ 327
Rübabə ........ 329
«Can»ım ........ 330
Ölümü öldürən… ........ 331
Aparmaz ........ 332
Gözəlliyin sonu yox ........ 334
Nəyimə lazım ........ 335
Qəlb ağrısı ........ 336
Heç küsməyin vaxtımı? ........ 338
Xəyal ........ 339
Bu eşqi ........ 340
Müxalif ........ 341
Yadı yaxşıdır ........ 342
Yaşamağa dəyərmiş ........ 343
Payız sevdası ........ 344
Ay qız ........ 345
Sevgilim ........ 346
Şikayət ........ 347
«Can» kəlməsi ........ 348
Ayrılıq ........ 350
Gedir… ........ 351
Yetər, qayıt gəl ........ 352
Qayıt ........ 354

Könlüm sevdi neyləyim… 355
Səninlə 356
Üzmə məni, nə olar 357
Gülüşün 358
Səni axtarmışam 359
Ağlarsan gülüm 360
Yelkənsiz qayıq 361
Qismət 362
Eşqimin sədası Dilbər 363
Gözəl 364
Dünya nəyimə lazım 365
Gözlərin gəzir məni 366
İllər vüsal deyəcək 367
Tələsmə 368
Küsmə, nə olar 369
Sevincim 370
Sevgilim 371
Xəyaldan gerçəyə 373
Həyat işığım 374
Ölmədən öncə 375
Nə səndə var, nə məndə… 376
Ay gözəl 377
Gülüm 378
Gözəllik 379
İncitmə gülüm 380
Analı günlərim 381
Vətən sevgisi 382
Arzu 383
Gərək 384
Gözəl Masallının Mübariz oğlu 385
Məni tənha qoyma 386
Vətən 387
Gəlinköçmə 388
Yaşamaqçün 389
Olmasın 390
Nişan günü 391
Milli əsgər 392
Məktəb xatirələri 393
Torpağın sözü 397

Kəsək daş üçün ağlar ............ 398
Ağıllı düşmən axmaq dostdan yaxşıdır ............ 399
Qələm dostum Hacı Niyaza ithaf ............ 402
**SATİRA ............ 403**
Sərhədsiz tamah ............ 405
Bəyan eyləmə ............ 406
Sənə nə? ............ 408
Anlamadın ............ 410
Məscid içində toy edəydim ............ 411
Bizimkidir ............ 413
Sizinkidir ............ 415
«Başqan» ............ 416
Şeytan balası ............ 417
Əsədulla ............ 418
**BƏHRİ TƏVİL ............ 421**
Nə deyirlərsə inan ............ 423
Aşiq ............ 426
**AİLƏ İTHAFLARI ............ 427**
Sümnaz ............ 429
Seyidyar ............ 430
Səid ............ 431
Nuriyyə ............ 432
Gülviyyə ............ 433
Hüsniyyə ............ 434
Mirismayıl ............ 435
Fatimə ............ 436
Anamsan mənim ............ 437
İlahi ............ 438
**ESSELƏR ............ 439**
Bulud ağlamasa ............ 441
Biri var idi… ............ 442
Qönçəm ............ 444
Çiçəklə suyun hekayəsi… ............ 445
**SƏADƏT GÜNƏŞİ ............ 447**
Sözardı ............ 456
Lüğət ............ 457

*Texniki redaktor:* ***Hacı Cəsarət Qasımov***
*Rəssam:* ***Hacı Fuad Bağırov***
*İllistrasiyalar:* ***Rubabə Atakişiyevanındır***
*Şəkillər:* ***Nida Ağacani Təbrizlinindir***

**QAZİ HACI MİRƏZİZ SEYİDZADƏ**

# DİVAN

Yığılmağa verilib: 05.06.2008.
Çapa imzalanıb: 15.11.2008
Həcmi: 29,5. Sifariş: 202. Tiraj: 1000

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax:447 75 04, Tel.:447 75 05
mətbəəsində çap olunub